# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# QIRX BEŞİNCİ KİTAB

## MART 2011 - MAY 2011

**AZƏRNƏŞR**
**BAKI - 2017**

# İLHAM
# ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2017

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində Azərbaycanın uğurla aparılan xarici siyasətinə, iqtisadi potensialın möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial inkişafının həyata keçirilməsinə, cəmiyyətimizin demokratikləşdirilməsi istiqamətində önəmli nailiyyətlərə və ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, tövsiyələri öz əksini tapmışdır.

Bu cilddə prezident İlham Əliyevin ölkəmizə rəsmi səfərə gələn Yunanıstan, Rumıniya, Ukrayna və Litva dövlətinin başçıları ilə görüşləri zamanı ölkələrimiz arasında çoxşaxəli əlaqələrin inkişafından, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələrdən, həmçinin beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsindən və genişləndirilməsindən bəhs olunur. Azərbaycan prezidentinin bütün görüş və danışıqlarının qayəsini Ermənistanın işğalçılıq siyasəti, regionun inkişafına əngəl olan Dağlıq Qarabağ problemi və onun həlli yolları təşkil edir.

Kitabda həmçinin ölkəmizə gəlmiş bir sıra beynəlxalq təşkilatların nümayəndələri, mədəniyyət və din xadimləri ilə görüşlər, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələr də yer almışdır.

**İSBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M} - \textbf{651(07)} - \textbf{2017}}$ **ББК - 32**

© Azərnəşr, 2017

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, bu əziz bayram günlərində hər birinizə bahar əhval-ruhiyyəsi, cansağlığı və səadət arzulayıram.

Novruz ümumxalq bayramı kimi, uzun əsrlərdən bəri yurdumuzun hər bir guşəsində müxtəlif el şənlikləri və mərasimlərlə qarşılanır. Ulu Tanrıya, kainatın nizamına və ana təbiətə sonsuz sevginin parlaq ifadəsi olan bu bayramın qədim ənənələrinin bütün rəngarəngliyi ilə qorunub saxlanılması Azərbaycan xalqının öz tarixi-mədəni keçmişinə yüksək ehtiramını və milli-mənəvi dəyərlərə dərin bağlılığını nümayiş etdirir.

Baharın Azərbaycan torpağına builki gəlişi dövlət müstəqilliyimizin bərpasının 20-ci ildönümünə yubiley hazırlıqları ilə üst-üstə düşür. Əsrlərin sınağından çıxmış Novruz bayramının artıq dövlət səviyyəsində keçirilməsi istiqlal yolunda qazandığımız nailiyyətlərdəndir. 20-ci baharını yaşayan müstəqil respublikamız novruz günlərində Beynəlxalq muğam festivalı çərçivəsində ayrı-ayrı ölkələrdən gəlmiş muğamsevərləri, çoxsaylı qonaqları qəbul edir.

Dünya azərbaycanlılarına Novruz bayramı salamlarımı yetirir, azərbaycançılıq məfkurəsi ətrafında onların daha sıx birləşəcəklərinə inamımı ifadə edirəm. Vətənimizin müstəqilliyi və ərazi bütövlüyünün qorunması naminə canlarından keçmiş Azərbaycan övladlarının xatirəsi bu əziz günlərdə bir daha ehtiramla yad olunur.

Hər evə, hər ailəyə, hər bir Azərbaycan vətəndaşına bayram ovqatı və sevinc arzu edirəm.

Novruz bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2011-ci il*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİ

*İçərişəhər*

*19 mart 2011-ci il*

*Xalqımızın ən aziz bayramı olan Novruz yurdumuza qədəm qoyur. Ulularımızdan bizə yadigar qalan, milli ruhumuzu və yaddaşımızı bütün zənginliyi ilə özündə əks etdirən bu bayram münasibətilə martın 19-da Bakıda ümumxalq şənliyi keçirilmişdir. Qədim Qız qalasının qarşısındakı meydan yenə də izdihamlı idi. Ətrafdakı binalar al-əlvan plakatlarla bəzədilmişdi. Burada Novruzun rəmzi olan nəhəng səməni də var idi.*

*Bolluğun, bərəkətin və xeyirxahlığın təcəssümü olan Novruz bayramı artıq 2 ildir ki, YUNESKO tərəfindən beynəlxalq səviyyədə qeyd edilir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyevanın təşəbbüsü ilə 2009-cu ilin sentyabrında Novruz bayramı YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT-nin Baş Məclisi martın 21-ni «Beynəlxalq Novruz günü» elan etmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Novruz şənliklərində iştirak etmək üçün Qız qalasının qarşısındakı meydana gəldilər.*

*Buraya toplaşmış minlərlə şəhər sakini, paytaxtın qonaqları dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Milli geyimli uşaqlar Azərbaycan prezidentinə və xanımına bayram xonçası təqdim etdilər. Uşaqlar prezident İlham Əliyevi və Mehriban xanımı Novruz bayramı münasibətilə təbrik etdilər. İçərişəhərin qala divarları üstündə və meydanda qədim*

*tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.*

*Dədə Qorqud xeyir-dua verərək, Bahar bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.*

*Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnılarının sədaları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.*

*Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.*

*Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar, hörmətli xanımlar və cənablar!

Mən sizi və bütün Azərbaycan xalqını Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, hər bir Azərbaycan vətəndaşına bu bayram günlərində xoşbəxtlik, cansağlığı arzulayıram.

Əsrlər boyu Azərbaycan xalqı Novruz bayramını qeyd etmişdir. Biz 20 ildir ki, bu bayramı dövlət bayramı kimi qeyd edirik. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Novruz bayramını çox geniş şəkildə – rəsmi dövlət bayramı kimi qeyd edir. Son illərdə biz bu bayramı bir neçə gün ərzində qeyd edirik. Bu il isə 9 gün istirahət günüdür. Mən əminəm ki, hər bir Azərbaycan ailəsi bu günlərdən səmərəli şəkildə istifadə edəcək, hər bir ailə bu gözəl bayramı bir yerdə qeyd edəcəkdir.

Azərbaycan xalqı milli dəyərlərə, milli ənənələrə sadiqdir. Bu gün Azərbaycan dövləti bu dəyərlər üzərində qurulubdur. Müstəqilliyimizi bərpa etdikdən sonar, birinci iki ili istisna şərti ilə, uğurlu inkişaf yolu keçmişik. Müstəqilliyimizin birinci illəri ölkəmiz və xalqımız üçün çox ağır keçmişdir. Yalnız 1993-cü ildə xalqın tələbi ilə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra ölkədə vəziyyət sabitləşdi, vətəndaş müharibəsinə son qoyuldu, inkişaf və tərəqqi yolu başlandı. Bu gün biz bu yola sadiqik. Azərbaycan, sözün əsl

mənasında, öz inkişaf dövrünü yaşayır, ölkəmiz sürətlə irəliyə gedir. Şübhə etmirəm ki, bundan sonrakı illərdə də Azərbaycanda bütün müsbət meyillər daha da güclənəcəkdir.

Bu il biz müstəqilliyimizin bərpasının 20 illik yubileyini qeyd edirik. 20 il həm tarix baxımından qısa bir müddətdir, eyni zamanda, 20 il ərzində çox iş də görmək olar. Azərbaycanın bugünkü reallıqlarına nəzər salaraq görmək olar ki, bu gün Azərbaycan müstəqil dövlət kimi, dünya xəritəsində öz yerini tuta bilmişdir.

Biz bütün regional məsələlərdə fəal iştirak edirik. Azərbaycan regional sabitlik və inkişaf amilinə çevrilibdir. Bizim təşəbbüslərimiz həm ölkəmizi gücləndirir, həm də regionda gedən proseslərə çox müsbət təsir göstərir.

Biz elə etməliyik ki, ölkə qarşısında duran bütün vəzifələr öz həllini tapsın, insanlar daha da yaxşı yaşasınlar, ölkəmizdə qanunun aliliyi tam şəkildə bərqərar olunsun. Azərbaycanda xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparılır və biz bu mübarizənin gözəl nəticələrini görürük. Qanunun aliliyi, sosial ədalət prinsiplərinin tətbiq olunması, korrupsiyaya, rüşvətxorluğa qarşı geniş mübarizə öz bəhrəsini verir. Təbii sərvətlərimizi və ölkədə çox düşünülmüş iqtisadi siyasəti nəzərə alaraq Azərbaycan dövləti yalnız və yalnız inkişaf və tərəqqi yolu ilə gedə bilər.

Hazırda əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Azərbaycan son illər, sözün əsl mənasında, intibah dövrünü yaşayır. Əldə edilmiş uğurlar bizim üçün gələcək addımların atılması üzrə bir stimul olmalıdır. Həyat yerində durmur, ölkə qarşısında yeni vəzifələr çıxır, yeni çağırışlarla üzləşirik və biz hazır olmalıyıq. Bunu etmək üçün güclü iqtisadiyyat və güclü siyasi sistem olmalıdır.

Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması prosesi uğurla gedir, xalqla iqtidar arasında birlik vardır. Biz gələcəyimizi çox açıq və aydın şəkildə görürük. Biz hara gedirik, gələcəkdə bizi nələr gözləyəcək?!

Bu gün Azərbaycan regionda iqtisadi cəhətdən aparıcı dövlətdir. Cənubi Qafqaz iqtisadiyyatının 75 faizi Azərbaycanda formalaşır. Azərbaycanda iqtisadi sahədə, enerji sahəsində atılan addımlar nəinki ölkənin inkişafını şərtləndirir, regional proseslərə də çox güclü təsir göstərir. Getdikcə regiondakı rolumuz artacaqdır. Azərbaycan tərəfindən icra edilən layihələr hətta region müstəvisindən çıxıb və o layihələrin böyük beynəlxalq əhəmiyyəti vardır.

Müasir dövlət quruculuğunda ilk növbədə milli dəyərlərimizə arxalanırıq. Bu dəyərlər bizim üçün çox vacibdir. Təbii ki, biz ümumbəşəri dəyərləri bölüşürük, Avropa dəyərlərinə hörmətlə yanaşırıq, ancaq bizim üçün əsas dəyərlər Azərbaycan dəyərləridir. Biz elə etməliyik ki, gənc nəsil də milli ruhda böyüsün, tərbiyə alsın. Gənc nəsil vətənpərvər olsun, Vətəni sevsin, Vətənə ləyaqətlə xidmət etsin, peşəkar, bilikli, savadlı olsun.

Şəhərlərimiz gözəlləşir, abadlaşır, regionlarda işlər yaxşı gedir, regional inkişaf proqramı uğurla icra edilir. Biz proqramın ikinci mərhələsinin yekunlarını bu yaxınlarda müzakirə etmişik və görürük ki, hər bir vəzifə öz həllini tapır, qarşıya qoyulmuş hər bir məsələ həll olunur. Hər bir sahə diqqət mərkəzindədir. Ölkədə elə bir məsələ yoxdur ki, orada irəliləyiş, inkişaf olmasın. Bütün bu müsbət meyillərlə yanaşı, bir də demək istəyirəm ki, hər bir yerdə bütün vəzifəli şəxslər, bütün məmurlar vətəndaşlara ləyaqətlə xidmət etməlidirlər, vətəndaşlara kömək göstərməlidirlər, onların qayğıları ilə yaşamalıdırlar.

Ölkə qarşısında duran vəzifələrdən ən başlıcası Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Bu məsələ ilə bağlı Azərbaycan öz siyasətini aparır, eyni zamanda, ölkəmizin güclənməsi və regionda təsir dairəmizin genişlənməsi, əlbəttə ki, mövqemizi daha da gücləndirir. Bütün beynəlxalq təşkilatların qərarları, qətnamələri Azərbaycanın mövqeyini dəstəkləyir. Hüquqi cəhətdən bu məsələ ilə bağlı həll yolları hamımız üçün aydındır. Bu məsələ ancaq Azərbaycanın ərazi bütövlüyü

çərçivəsində həll oluna bilər. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Biz çalışırıq ki, bunu sülh yolu ilə həll edək, eyni zamanda, ordu quruculuğumuza da böyük diqqət göstəririk. Bəzi hallarda bu, bəzi xarici dairələri narahat edir. Hesab edirəm ki, narahatçılığa heç bir əsas yoxdur. Əgər məsələ öz həllini sülh yolu ilə taparsa, əlbəttə ki, hərbi variantdan söhbət gedə bilməz. Ancaq 20 ildən çoxdur ki, Azərbaycan torpaqları işğal altındadır. Azərbaycan vətəndaşları bu işğaldan, etnik təmizləmə siyasətindən əziyyət çəkirlər. Ordu quruculuğumuza göstərdiyimiz diqqət, hərbi xərclərin artırılması, yeni hərbi texnikanın Azərbaycanda istehsal olunması məsələnin ədalətli həlli üçün əlavə imkanlar yaradacaqdır. Bu gün Azərbaycanda ən müasir döyüş texnikası istehsal olunur.

Biz hələ ümid edirik ki, məsələ həllini sülh yolu ilə tapa bilər. Bunu etmək üçün Ermənistan tərəfi beynəlxalq təşkilatların, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələrini qeyd-şərtsiz icra etməlidir, işğal olunmuş torpaqlardan çıxmalıdır, Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar. Ondan sonra bölgədə sülh və sabitlik yarana bilər. Hazırda Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bölgə üçün ən böyük təhlükə mənbəyidir. Ümid edirəm və əminəm ki, məsələ öz həllini tapacaq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Azərbaycan xalqı və Azərbaycan dövləti öz tarixi torpaqlarında ikinci erməni dövlətinin yaranmasına heç vaxt icazə verməyəcəkdir. Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcəkdir. Dağlıq Qarabağda hazırda yaşayan insanlar və oraya mütləq qayıdacaq azərbaycanlılar muxtariyyət şəraitində yaşamalıdırlar. Bu, dünya praktikasında bəlli olan yanaşmadır və bütün məsələlər vahid Azərbaycan dövləti çərçivəsində öz həllini muxtariyyət statusu ilə tapmalıdır. Bir də demək istəyirəm ki, Azərbaycan bu prinsipial mövqedən dönməyəcəkdir.

Biz gələcəyə çox böyük ümidlərlə və nikbinliklə baxırıq. Elə etməliyik ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli olsun. Biz öz müstəqil həyatımızı qoruyuruq və qoruyacağıq. Bizim üçün müstəqillik ən böyük sərvətdir, ən böyük nemətdir, ən

böyük dəyərdir. Bu müstəqilliyi gücləndirmək üçün biz hər gün, hər an işləməliyik və işləyirik. Bu məsələdə cəmiyyətdə tam şəkildə həmrəylik vardır. Azərbaycanın gələcəkdə hansı yollarla inkişaf edəcəyi bizdən asılı olacaqdır. Son illər Azərbaycan dünya miqyasında ən sürətli inkişaf yolu keçmişdir. Bunu bütün statistik göstəricilər də göstərir.

Azərbaycan iqtisadiyyatı böhran illərində də artır, Azərbaycan gözəlləşir, abadlaşır, möhkəmlənir. Bu gün Azərbaycana gələn hər bir xarici vətəndaş, hər bir qonaq – əgər o qərəzsizdirsə – bu reallıqları görür və qiymətləndirir.

Bu əziz gündə, hamımız üçün əziz Novruz bayramı ərəfəsində bir daha bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm, hər bir Azərbaycan vətəndaşına cansağlığı, xoşbəxtlik və yeni uğurlar arzulayıram!

Bayramınız mübarək olsun!

* * *

*Sonra Azərbaycan prezidenti və xanımı Dənizkənarı Milli Parka gəldilər. Dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar.*

*Kosa və Keçəl prezidenti və xanımını bayram münasibətilə təbrik etdilər, dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər.*

*Azərbaycanın müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları maraqla qarşılandı. Prezident İlham Əliyev və Mehriban Əliyeva aşıqların, muğam ifaçılarının çıxışlarını dinlədilər.*

*Bir tərəfdə isə gənc pəhləvanlar xalça üzərində qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və şənliyin digər iştirakçıları bu səhnələri maraqla izlədilər, qədim el sənətlərinin nümunələrinə baxdılar.*

*Dövlətimizin başçısı və xanımı bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsulların bayram şənliyi çərçivəsində təşkil edilmiş sərgisi ilə tanış oldular.*

*Azərbaycan prezidenti və xanımı manqalda bişirilən kababın dadına baxdılar. Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu mərasimdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də təqdim edildi.*

*Dövlətimizin başçısı və xanımı gənc rəssamların, modelyerlərin və el sənətkarlarının əl işlərinə tamaşa etdilər. Mehriban xanım Əliyevaya üzərində portreti toxunmuş xalça hədiyyə edildi. Milli parkda təşkil edilmiş «Şərq bazarı»nda, həmçinin Azərbaycanın müxtəlif bölgələrində yetişdirilən və istehsal olunan ərzaq məhsulları da sərgilənmişdi.*

*Azərbaycan Qol Güləşi Federasiyasının üzvlərinin çıxışları diqqətlə izlənildi. Prezident İlham Əliyev pəhləvanlardan biri ilə qol güləşdirdi. Mehriban xanım da qadın qol güləşçilərinin təklifi ilə mübarizəyə qoşuldu. Pəhləvanlar və güləşçilərlə xatirə şəkli çəkdirdilər.*

*Bahar qızı prezident İlham Əliyevə və Mehriban xanıma bayram xonçası təqdim etdi.*

*Müxtəlif rayonlardan gətirilmiş novruz mətbəxinin nümunələri də şənlik iştirakçılarında maraq doğurdu. Mehriban xanım Əliyevaya milli geyim dəsti hədiyyə olundu.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Dənizkənarı Milli Parkdan şəhərin mənzərəsini seyr etdilər.*

*Dövlətimizin başçısı onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirdi.*

## AZƏRBAYCAN XALÇASI VƏ XALQ TƏTBİQİ SƏNƏTİ DÖVLƏT MUZEYİ ÜÇÜN İNŞA EDİLMİŞ YENİ BİNADA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*30 mart 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün inşa edilmiş yeni binada tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Təməli 2008-ci ilin mayında Dənizkənarı Milli Parkda qoyulmuş muzeyin yeni binası Heydər Əliyev Fondunun, Mədəniyyət və Turizm Nazirliyinin, YUNESKO-nun birgə layihəsi əsasında inşa edilir. Muzey binasının layihəsi hazırlanarkən ilk növbədə, milli memarlıq ənənələrinə daha çox üstünlük verilib.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev layihənin icrası ilə bağlı həyata keçirilən inşaat işlərinin gedişi barədə dövlətimizin başçısına məlumat verdi. Xalça Muzeyinin dördmərtəbəli yeni binasının ümumi sahəsi 18 min 446 kvadratmetr olacaqdır. Muzeyin yeni binasının orijinal memarlıq üslubu ilə seçiləcəyi qeyd olundu. Muzeyin yeni binası istifadəyə verildikdən sonra burada 200 nəfərin çalışacağı qeyd olundu. Yeni bina Bakının memarlıq ansamblına xüsusi gözəllik gətirəcəkdir.*

*Görülən işlərlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.*

*Prezident İlham Əliyev «Kiçik Venesiya şəhərciyi» adlanan ərazidə həyata keçirilən əsaslı yenidənqurma və bərpa işlərinin gedişi ilə də tanış oldu. Dövlətimizin başçısı paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının asudə vaxtlarını səmərəli keçirmələri üçün əvvəlki xidmət növləri saxlanılmaqla, burada ən müasir əyləncə və yeni xidmət növlərinin yaradılması ilə bağlı tapşırıqlarını verdi.*

## BAKININ ŞƏHƏRƏTRAFI QƏSƏBƏLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI SABUNÇU VƏ SURAXANI RAYONLARINDA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*31 mart 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin sədrliyi ilə martın 9-da Bakı Şəhər İcra Hakimiyyətində şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına həsr olunmuş müşavirə keçirilmişdi. Həmin müşavirədə dövlətimizin başçısı şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı ilə bağlı tapşırıqlar vermişdi. Bu tapşırıqların icrası ilə yerində tanış olmaq üçün martın 31-də prezident İlham Əliyev Sabunçu və Suraxanı rayonlarında olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verdi. Bildirildi ki, prezident İlham Əliyevin tapşırığına əsasən qəsəbələrarası yolların əsaslı təmirinə başlanılıb. Bu yaşayış sahəsindəki 12 min 300 kvadratmetr yola yeni asfalt örtüyü döşənib. Dövlətimizin başçısının tapşırıqlarına əsasən qəsəbələrarası yollar boyunca işıqlandırma sisteminin qurulacağı qeyd olundu, kəndlərdə və qəsəbələrdə kanalizasiya xətlərinin çəkiləcəyinin isə Dövlət Proqramına daxil edildiyi vurğulandı.*

*Görülmüş işlərlə yaxından tanış olan prezident İlham Əliyev sakinlərlə görüşdü.*

*Sakinlər dövlətimizin başçısına «Xoş gəlmisiniz!» –dedilər.*

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Bildiyiniz kimi, Bakıətrafı qəsəbələrin sosial-iqtisadi problemləri həll olunur. Ümid edirəm ki, aprel ayında müvafiq proqram qəbul ediləcəkdir. Bir müddət əvvəl geniş müşavirə keçirildi, qarşıya vəzifələr qoyuldu. Əsas məqsəd ondan ibarət idi ki, Bakıətrafı qəsəbələrdə bütün sosial-iqtisadi məsələlər öz həllini tapsın. Proqram qəbul olunandan sonra, əlbəttə ki, dövlət büdcəsində əlavə vəsait nəzərdə tutulacaqdır. Bu məqsədlə dövlət büdcəsinə düzəlişlər də edilməlidir. Çünki

büdcəmiz keçən il qəbul edilmişdir və bu proqram nəzərdə tutulmurdu. Düzəlişlər ediləndən sonra artıq dövlət büdcəsinin imkanları çərçivəsində proqram icra olunmağa başlanacaqdır.

Keçən müddət ərzində müəyyən işlər görülmüşdür. Qəsəbələrdə məktəb tikintisi sürətlə aparılmışdır, tibb məntəqələri tikilmişdir. Elektrik enerjisi ilə təchizat, qazlaşdırma prosesləri getmişdir. İndi proqram hazırlanır və bu proqram bütün qəsəbələri əhatə edəcəkdir. Hazırda qəsəbələrdə yaşayan əhalinin sayı 800 mindən çoxdur. Bu özlüyündə böyük şəhərdir. Bu qəsəbələrdə yaşayan insanlar, bir daha demək istəyirəm ki, ən yüksək standartlarla təmin olunmalıdırlar. Prezidentin ehtiyat fondundan Bakı Şəhər İcra Hakimiyyətinə vəsait ayrılmışdır ki, təxirəsalınmaz tədbirlər görülsün. Bu gün bu yolun çəkilişi verilmiş o vəsaitin hesabınadır. Əlbəttə, proqram təkcə yolların tikintisi ilə məhdudlaşmayacaqdır, geniş tədbirlər görüləcəkdir. Qəsəbələrdə qaz, işıq, su problemləri həll olunubdur. Bu da böyük bir nailiyyətdir. Kanalizasiya problemləri var, o da həll olunacaqdır. Çünki bilirsiniz, ölkəmizdə gedən quruculuq-abadlıq işləri hər bir bölgədə öz müsbət təsirini göstərmişdir.

Bununla bərabər, İqtisadi İnkişaf Nazirliyinə göstəriş verilmişdir ki, qəsəbələrdə yaşayan iş adamları üçün əlavə şərait yaradılsın. Güzəştli şərtlərlə kreditlər verilsin, burada iş yerləri yaradılsın, yeni müəssisələr açılsın ki, işsizliyin də aradan qaldırılması üçün əlavə şərait yaradılsın. Ölkəmizdə işsizliyə qarşı mübarizə çox ciddi gedir. Hər bir bölgədə yeni müəssisələr, minlərlə iş yerləri, yeni zavodlar, fabriklər açılmışdır. Bu gün bizim iqtisadi və sənaye potensialımızın güclənməsində bunun çox böyük rolu vardır. Bütün məsələlər lazımi səviyyədə öz həllini tapmalıdır, insanlar rahat və firavan yaşamalıdır. Bizim məqsədimiz budur.

**Səfixan Gəncəliyev** *(qəsəbə sakini):* Cənab Prezidentimiz! Zabrata xoş gəlmisiniz! Azərbaycanın inkişafı üçün Heydər Əliyevin gördüyü misilsiz işləri Siz uğurla davam etdirirsiniz. Ona görə də bizim respublika indi dünyada çox qabaqcıl ölkələrdən birinə çevrilmişdir. Sizin gördüyünüz bu

qəsəbədə abadlıq işləri vüsət alıb. Gözəl yollar çəkilir. Qəsəbəmizdə su, kanalizasiya sahəsində vəziyyət o qədər də yaxşı deyildir. Bəzi işlər görülüb, ancaq problemlər vardır. Yəqin ki, Sizin göstərişiniz əsasında bu problemlər də həllini tapacaqdır.

Cənab Prezidentimiz, Sizin gəlişiniz bizə xoş bayramdır. İstəyirəm ki, bir neçə problemi Sizin nəzərinizə çatdırım. Demək olar ki, Zabrat qəsəbəsində kanalizasiya işi doğrudan da pis vəziyyətdə idi. Düzdür, indi bir hissəsi çəkilibdir. Miqrasiya ilə əlaqədar olaraq rayonlarımızdan Azərbaycan vətəndaşları gəlib, bax, belə evlər tikiblər. Bu ərazi sovxoza, Abşeron rayonuna aid idi. Bir qədər əvvəl bu torpaqlar Sabunçu rayonuna verilib. İndi burada çoxlu evlər tikilibdir. Bu evlərin qeydiyyatı yox idi. Siz o müşavirədə göstəriş verdiniz ki, qeydiyyatsız evlər nəzərə alınsın və onlar sənədləşdirilsin.

Buna görə də camaatımızın hamısı Sizə öz minnətdarlığını bildirir. Allah Sizi qorusun. Siz də Azərbaycanı qoruyursunuz.

**Solmaz Əzizadə** *(qəsəbədəki 75 nömrəli məktəbin direktoru)*: Cənab Prezident, xoş gəlmisiniz! Sizin diqqət və qayğınız nəticəsində qəsəbəmizdə inkişaf göz qabağındadır. Mən demək istəyirəm ki, bu gün quruculuq işləri nəinki Zabrat qəsəbəsində, bütün Azərbaycanda həyata keçirilir. Sizə, ailənizə, Mehriban xanıma uzun ömür, cansağlığı arzulayıram. Enerjiniz heç zaman tükənməsin.

**Lətifağa Əzimov** *(qəsəbə ağsaqqalı):* Allah Sizə cansağlığı versin. Bu Zabrat kəndinə xoş gəlmisiniz! Moskvada «Pravda» qəzeti var idi. Orada «Azərbaycan iri addımlarla irəliləyir» adlı bir məqalə çıxmışdı. Bu irəliləyiş indi daha sürətlə gedir. Həqiqətən Azərbaycan çox gözəldir. Buralar qamışlıq idi. Sizin sayənizdə buralar gözəlləşib. Allah Sizə cansağlığı versin.

**İlham Əliyev:** Çox sağ olun. Qeydiyyatla bağlı məsələlər öz həllini tapacaqdır. Mən müvafiq göstərişlər vermişəm. İndi məsələyə baxılır və yaxın zamanlarda təkliflər irəli sürüləcək ki, biz bu məsələni birdəfəlik həll edək.

Kanalizasiya ilə bağlı məsələlər təkcə Zabrata deyil, bütün qəsəbələrə aid olan məsələlərdir. Bakı şəhərinin kanalizasiya

məsələləri, əfsuslar olsun ki, bu günə qədər lazımi səviyyədə qurulmayıbdır. Bu işlər böyük maliyyə vəsaiti tələb edir. Ancaq biz bunu etməliyik, nəinki Bakıda və Bakıətrafı qəsəbələrdə, hər bir rayonda. İndi hər bir rayon mərkəzində içməli su və kanalizasiya proqramları icra olunur.

O ki qaldı elektrik enerjisi və qazla təminata, mən çox şadam ki, bu məsələlər çoxdan həll olunubdur. İçməli su məsələsi də həll olunub. Mən bilirəm ki, içməli su ilə bağlı keçmişdən yığılmış borclar və o borcların ödənilməsində müəyyən problemlər vardır. Çünki bəzi hallarda o borclar düzgün hesablanmayıb və əhaliyə tətbiq olunan cərimələr də bəzi hallarda əsassızdır. Ona görə mən Nazirlər Kabinetinə göstəriş vermişəm ki, məsələyə baxsınlar və biz əvvəlki dövrdə yaranmış borcları silək.

Biz qaza olan borcları sildik, amma o şərtlə ki, bundan sonra qazın pulu verilsin. İndi mən izləyirəm. Mənə hər ay arayış verilir ki, ölkə və Bakı şəhəri üzrə nə qədər qaz, enerji haqqı ödənilir. Deyə bilərəm ki, yaxşı səviyyədədir. Haradasa, 90 faizə yaxındır. Düzdür, elə yerlər, elə qəsəbələr var ki, orada bu ödəniş çox aşağıdır. Mən onların adını çəkmək istəmirəm. Hesab edirəm ki, onlar da öz fəaliyyətlərində düzəlişlər edəcəklər. Amma biz suya olan borcları da siləcəyik. Ancaq o şərtlə ki, bundan sonra suyun pulu ödənilsin. Azərbaycanda su və qaz tarifləri bu bölgədə, demək olar ki, ən aşağı səviyyədədir. Qaz tarifləri qonşu ölkələrlə müqayisədə ən azı 3 dəfə aşağıdır. Biz bunu ona görə edirik ki, əhalinin üzərinə daha az yük düşsün.

Burada biz təkcə bu infrastruktur məsələləri ilə öz işimizi məhdudlaşdırmamalıyıq. Qəsəbələrin abadlaşmasına da vəsait ayrılacaq, hasarlar, küçələr təmir olunacaq. Burada elektrik xətləri açıq havadadır. Yəni, bu mənzərəyə biz, necə deyərlər, öyrəşmişik. Amma əslində inkişaf etmiş şəhərlərdə biz bunları görmürük. Bakının mərkəzində artıq bu məsələlər həll olunubdur. Ona görə tədricən qəsəbələrdə də müasir elektrik xətləri çəkilməlidir. Transformatorlar köhnəlib. Düzdür, işıq var, amma bəzi hallarda keyfiyyətsiz verilir. Qaz var, bəzi hallarda təzyiq aşağıdır. Mənə

verilən məlumata görə, Bakı şəhərinin 97 faizi qazla təmin olunubdur. Ancaq elə qəsəbələr var ki, təzyiq aşağıdır.

Biz elektrik enerjisi ilə təchizatı yaxşılaşdıracağıq. Bu məqsədlə də vəsait nəzərdə tutulub və eyni zamanda, görürəm, bu küçələrdə axşamlar qaranlıq olur. Küçə işıqları yoxdur. Bəlkə 10 il bundan əvvəl biz bununla barışa bilərdik. Amma indi barışa bilmərik. Gərək xüsusi dirəklər sifariş olunsun. Burada bəlkə də hündür dirəklər lazım deyildir. Çünki onların işığı bütün evlərə yayılacaqdır. Yəni, gecə yatmağa imkan verməyəcəkdir.

Daha hansı məsələlər vardır?

**Lətifağa Əzimov:** Çox sağ olun. Sabunçu rayonunda elə bir kənd yoxdur ki, orada abadlıq işi getməsin. Problemlərimiz də vardır. Vallah, hər ailənin problemi vardır. Suyunu düzəldir, qazı qalır, qazını düzəldir, hasarı sökülür. Problem vardır, bu boyda respublikanın problemi olmalıdır. Ancaq düzəlir, irəliləyiş var, qabağa gedir, geri getmir.

**İlham Əliyev:** Bu təbiidir. Gərək qabağa sürətlə getsin. Mən bunu istəyirəm. Mən demişəm, bir daha demək istəyirəm ki, əgər hər bir qəsəbənin hər bir problemi həll olunarsa, deməli, bütün ölkədə problemlər həll olunar. Sizin sayənizdə. Xüsusilə Bakıətrafı qəsəbələrdə gərək bütün işlər yüksək səviyyədə görülsün. Bakının özü görün necə gözəlləşib. Bakıya gələnlər etiraf edirlər ki, Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Ətraf qəsəbələr də elə olmalıdır. Burada yaşamaq, işləmək üçün bütün şərait yüksək səviyyədə olmalıdır. Bu yolun çəkilişi proqramın icrasının birinci addımıdır.

* * *

*Prezident İlham Əliyev Suraxanı rayonunun Bülbülə kəndində görülən işlərlə yaxından tanış oldu. 5500 sakinin yaşadığı bu kənddə də dövlətimizin başçısının tapşırıqlarına əsasən yeni məktəb binası inşa ediləcək və bu məqsədlə artıq torpaq sahəsi ayrılmışdır. Bülbülə kəndində məhəllələrarası yolların əsaslı təmirinə də başlanılıb. Burada 8 min kvadratmetr əraziyə yeni asfalt örtüyü döşənib, yolun 45 min kvadratmetr hissəsində isə asfalt işləri qısa vaxt ərzində başa çatdırılacaqdır. Həyata keçirilən abadlıq və yenidənqurma işlərinin gedişi ilə tanış olan dövlətimizin başçısı Bülbülə kəndinin sakinləri ilə görüşdü.*

**İlham Əliyev:** Qəsəbədə işlər görülür, yol tikintisi gedir. Bu, birinci addımdır. Bütün qəsəbələrin sosial-iqtisadi inkişafı proqramı hazırlanır. Bildiyiniz kimi, bu məsələ ilə bağlı geniş müşavirə keçirilmişdir. Artıq proqram hazırlanır. Ümid edirəm ki, aprel ayında biz onu təsdiq edəcəyik və genişmiqyaslı işlər başlayacaqdır. Vaxt itirməmək üçün artıq bu yolun çəkilişi başlanmışdır. Həm burada, həm başqa qəsəbələrdə bu cür yollar yox idi. Torpaq yolları idi, yağış, qar yağan kimi bu yoldan keçmək mümkün deyildi. İndi asfalt yollardır. Bu, birinci layihədir. Bütün qəsəbə yolları tikilməlidir, infrastruktur obyektlər bərpa olunmalıdır. İndi qaz xətləri çəkilir. Mənə deyilir ki, indi qazın təzyiqi lazımi səviyyədə deyildir. Müvafiq göstərişlər verəcəyəm ki, qazın təzyiqi artırılsın. Ölkə üzrə elektrik enerjisi ilə təchizat məsələsi bütövlükdə həll olunub. Ancaq hələ görüləsi işlər çoxdur. Xətlərin yerin altına salınması, ondan sonra elektrik enerjisinin daha da keyfiyyətlə, fasiləsiz verilməsi məsələləri vardır. Kanalizasiya layihəsi mütləq icra olunacaqdır. İndi xüsusi bir proqram hazırlanır. Bütün ölkə üzrə, eyni zamanda, hər bir qəsəbə üzrə kanalizasiya, içməli su proqramları hazırlanır. Bu ərazidə məktəb yoxdur. Uşaqlar məktəbə getmək üçün çox məsafə qət edirlər. Ona görə məktəb tikintisi də başlamalıdır.

Bilirsiniz ki, bütün rayonlarda quruculuq-abadlıq işləri gedir. Rayonların inkişafı proqramı sürətlə aparılır. Belə olan halda Bakıətrafı qəsəbələrdə işlər daha da sürətlə getməlidir. Məhz bu məqsədlə mən müşavirədə göstəriş vermişəm ki, qəsəbələrin

xüsusi proqramı olmalıdır. Bakıətrafı qəsəbələrdə 800 mindən artıq əhali yaşayır. O insanların problemləri həll olunmalıdır. Həm iş yerləri açılmalı, həm sahibkarlıqla məşğul olanlar üçün güzəştli kreditlərin verilməsi və infrastruktur layihələrinin icrası təmin edilməli, əsas sosial-iqtisadi məsələlər öz həllini tapmalıdır. Bölgələrdə, qəsəbələrdə mövcud olan problemləri biz də bilirik, siz də bilirsiniz. Ona görə gəlmişəm ki, sizdən də eşidim əlavə nə edilməlidir. Məktəb binası tikiləcəkdir. Əgər tibb məntəqəsi lazımdırsa, onu da tikək. Yollar, işıq dirəkləri, küçələr. Əslində bu küçəni heç küçə adlandırmaq mümkün deyildir. İşıq dirəkləri yoxdur. Onlar da qoyulmalıdır ki, gecələr burada yollar işıqlı olsun. Yəni, biz bütün bu məsələlərə kompleks şəkildə yanaşmalıyıq. Belə olan halda qısa müddət ərzində istədiyimizə nail ola biləcəyik.

**M i r z ə a ğ a Q u l i y e v:** *(qəsəbə sakini):* Cənab Prezident, bizim deyəcəyimiz sözləri Siz artıq dediniz. Bu bizə ümid verir ki, bütün bu problemlər qısa müddət ərzində həll olunacaqdır. Bəlkə də deyəcəyim problem proqrama daxil edilibdir. Biz 3 ildir bu problemin əziyyətini çəkirik. İstərdik ki, o problemin həlli bir qədər irəli çəkilsin. Məsələ nədən ibarətdir?! 2 il əvvəl Heydər Əliyev prospekti, Bakı–aeroport yolu çəkilərkən, «Komsomol dairəsi» adlandırılan yerdən Bülbüləyə girən və Əmircandan çıxan yol kəsildi. İndi bizim iki yolumuz var – ya 7-8 kilometr gedib yeni Suraxanıdan, körpünün üstündən keçmək – bu mümkün deyil. İkinci yol isə qəsəbədaxili yoldur. Bütün avtobuslar, yük və minik maşınları – onlarla, yüzlərlə, minlərlə maşın Bülbülənin ensiz, yöndəmsiz qəsəbədaxili yollarından keçir. İnanın, çox böyük çətinliklərlə qarşılaşırıq. Artıq dərəcədə bütün qəsəbə sakinləri adından, minillik tarixi olan Bülbülə əhalisinin adından Sizdən xahiş edirik, bu işə əncam çəkəsiniz. 150–200 metr yol çəkməklə problemi həll etmək olar. Sizdən bircə xahişimiz budur.

**İlham Əliyev:** Siz bilirsiniz ora haradır?

**İlqar Abbasov** (*Rayon İcra Hakimiyyətinin başçısı*): Bəli, cənab Prezident.

**İlham Əliyev:** Orada binalar var, yoxsa boş yerdir?

**Mirzəağa Quliyev:** Heç nə yoxdur, boş yerdir. Yol bərbad vəziyyətdədir.

**İlham Əliyev:** İndi gedib baxacağam. Ona görə gəlmişəm ki, bilim daha nə edilməlidir. İndi deyirsiniz «Komsomol dairəsi», əslində bu dairələr artıq Bakının tarixindən silinir, çox rahat olub. Ancaq bu rahatlıq gərək qəsəbə sakinləri üçün də rahatlıq gətirsin. İndi o yerə baxacağıq, göstəriş verəcəyəm.

**Mirzəağa Quliyev:** Heydər Əliyev prospektini, açığını desək, qəsəbələr üçün cənnət yolu adlandırmışıq. Doğrudan da gündüz də, xüsusilə gecələr də bu yoldan keçərkən fəxr edirik və Sizə dualar edirik.

**İlham Əliyev:** Bu prospekt dünya səviyyəsində belə, gözəlliyi, rahatlığı ilə seçilir. Amma bu prospektin çəkilişində də çətinliklər oldu. Yolun sağında, solunda çoxlu binalar var idi. Onların hamısına kompensasiya verildi və köçürüldü, yol genişləndi, neçə körpü tikildi. Camaat əvvəlki dövrdə, məsələn, Əzizbəyov, Sabunçu dairələrində saatlarla tıxacda gözləyirdi. İndi rahatdır, heç bir işıqfor da yoxdur. Qəsəbələrə giriş-çıxış yolları da rahat olmalıdır ki, camaat bu yollardan istifadə etsin. Bakı qəsəbələrində bütün torpaq yolları yenidən qurulmalıdır. Bütün qəsəbələrdə həm yollar, həm işıq dirəkləri və həm də giriş-çıxış ən yüksək səviyyədə olmalıdır. Bundan başqa, daha hansı məsələ vardır?

**Mahir Kərimov** *(qəsəbə sakini):* Cənab Prezident, birinci, biz sakinlər Sizə minnətdarıq ki, verdiyiniz göstərişlərin icrasına özünüz bilavasitə nəzarət edirsiniz.

Bizim bu qəsəbədən Heydər Əliyev prospektinə dörd çıxış yolumuz vardır. Onlardan biri açıqdır, üçü bağlı. Evimizə gəlmək üçün 5-6 kilometr yol getməliyik ki, gəlib qəsəbəyə çıxaq. Allah Sizdən razı olsun, xahiş edirik o yolların Heydər Əliyev prospektinə çıxışının təmin olunmasına göstəriş verəsiniz. Bir də

təhsil islahatı ilə bağlı, özünüz çox gözəl bildirdiniz, minnətdarıq Sizə. Əvvəldən iki məktəbin tikintisi planlaşdırılmışdır – biri yolun solunda, biri sağında. Soldakı məktəb tikildi. Çox təəssüf ki, biz o üzə keçə bilmirik, uzaqdır. Burada əhalinin sayı artıbdır deyə, bir məktəb o yükü götürmür. İkinövbəli təhsildir. O məktəbin də yeri məncə, planlaşdırılıb, təyin olunub. Bu barədə artıq Siz dediniz, təkrarçılıq çıxmasın.

70 il əvvəl türmənin yanından keçən yol düz gedib çıxır Suraxanı İcra Hakimiyyətinin yanındakı yola. Böyük, daş döşənmiş, enli, magistral yoldur. Heç prospekti sökməyə ehtiyac yoxdur. Onun yanından ikinci yol 100 metr qabağa gedib çıxır magistrala. O yolun əhali üçün böyük köməyi ola bilər. Bu yolların üçünün də çıxışı olsa yaxşı olar. Onlardan birini-ikisini də açdırsanız, biz Sizə minnətdar olarıq. Çox sağ olun. Allah razı olsun.

**İ l h a m  Ə l i y e v**: Edərik.

* * *

*Prezident İlham Əliyev Bülbülə kəndindən əsas yola çıxan köhnə yolun vəziyyəti ilə tanış olmaq üçün əraziyə gəldi.*

*Dövlətimizin başçısı köhnə yolun bərpa olunması ilə bağlı yerində tapşırıqlarını verdi.*

*Daha sonra prezident İlham Əliyev «Atəşgah» məbədinə gələrək, burada həyata keçirilən bərpa və abadlıq işlərinin gedişi ilə tanış oldu. Aparılan arxeoloji qazıntılar barədə dövlətimizin başçısına məlumat verildi.*

*Prezident İlham Əliyev Bakıətrafı qəsəbələrdə həyata keçirilən abadlıq və quruculuq işləri ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

## BAKININ ŞƏHƏRƏTRAFI QƏSƏBƏLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI XƏTAİ VƏ NİZAMİ RAYONLARINDA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*1 aprel 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin sədrliyi ilə martın 9-da Bakı Şəhər İcra Hakimiyyətində şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına həsr olunmuş müşavirə keçirilmişdi. Həmin müşavirədə dövlətimizin başçısı şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı ilə bağlı tapşırıqlar vermişdi. Bu tapşırıqların icrası ilə yerində tanış olmaq üçün prezident İlham Əliyev aprelin 1-də Xətai rayonunun Əhmədli və Nizami rayonunun Keşlə qəsəbələrində olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov hazırlanmış sxem əsasında Əhmədli qəsəbəsində asfalt örtüyü döşənməsinə ehtiyac olan küçələr barədə dövlətimizin başçısına məlumat verdi. Xətai rayonunun 15 min sakini olan Əhmədli qəsəbəsində 24 min kvadratmetr yola asfalt döşənmişdir. Məhəllədaxili yolların 40 min kvadratmetrlik hissəsi də asfaltlanacaqdır. İnfrastrukturun təkmilləşdirilməsi ilə bağlı layihələr şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramına salınacaqdır. Əhmədli qəsəbəsində müasir xəstəxana və yeni kitabxana binalarının inşası da nəzərdə tutulmuşdur.*

# ƏHMƏDLİ QƏSƏBƏ SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*1 aprel 2011-ci il*

*Qəsəbədə həyata keçirilmiş abadlıq və quruculuq işləri ilə yaxından tanış olan dövlətimizin başçısı sakinlərlə görüşdü.*

**İ l h a m Ə l i y e v**: Xoş gördük. Əhmədli qəsəbəsində işlər gedir, küçələrə asfalt döşənir. İndi mənə göstərdilər, köhnə küçələrin vəziyyəti çox bərbad idi, torpaq yollar idi. İndi hər yerə asfalt döşənir. Bu, Bakı qəsəbələrinin sosial-iqtisadi inkişafı proqramının həyata keçirilməsində birinci addımlardır. Proqram bütövlükdə hazırlanır və yaxın zamanlarda təsdiq olunacaqdır. Bu proqram bütün qəsəbələri əhatə edəcəkdir. Qəsəbələrdə bütün infrastruktur – su xətləri, kanalizasiya xətləri, qazlaşdırma – harada ki, hələ lazımi səviyyədə deyil – elektrik enerjisi ilə təchizat, yolların çəkilişi, məktəblərin, tibb məntəqələrinin təmiri, yaxud da ki, yenidən qurulması məsələləri öz əksini tapacaqdır. Bakı qəsəbələrində yaşayan insanlar üçün çox yaxşı şərait yaradılacaqdır.

Bu gün isə mən qədim Əhmədli qəsəbəsinə gəlmişəm ki, sizinlə görüşəm.

**S a k i n:** Söz vermişdiniz.

**İ l h a m Ə l i y e v**: Bəli, mən o görüşü xatırlayıram. O vaxt – 2005-ci ildə üçillik proqram qəbul olunmuşdu və icra olundu. Ancaq həyat yerində durmur, yeni məsələlər ortaya çıxır. İmkanlarımızı səfərbər edib bütün qəsəbələrdə abadlıq işləri aparmalıyıq. Gəlmişəm ki, Əhmədlidə sizinlə görüşüm, görülən işlərə baxım, eyni zamanda, sizdən eşidim ki, əlavə hansı tədbirlər görülməlidir.

**S a k i n:** Hörmətli Prezident, bu gün bayramdır. Sizin gəlişiniz qəsəbəmizin tarixinə qızıl hərflərlə yazılacaqdır. Mənim 83 yaşım var, çoxu inanmır – böyük işlər görmüşük. Ulu öndərimizin adına bir park salmışıq, nümunəvidir. Bütün kəndin

camaatı oraya gedir, rəhmətliyi ziyarət edirik, gül qoyuruq, dincəlirik.

O vaxt ulu öndərin qarşısında çıxış etmək mənə nəsib olmuşdu. Bir dəfə mənə dedi ki, hansı rayondansan? Dedim Xətai. Dedi ki, Xətai rayonuna «qara şəhər» deyərdilər, şübhəsiz, gələcəkdə «ağ şəhər» olacaqdır. İndi şüar vurulub ki, bizim qəsəbə, daha doğrusu, rayon «ağ şəhər»dir. Ümumiyyətlə, bizim qəsəbə gələcəyin muzeyidir. Əhmədli Bakının qəsəbələri içərisində ən qabaqcıllardandır. Poeziyaya, muğama, təsviri sənətə böyük həvəs göstərən sakinlərimiz var. Burada 15 min sakin yaşayır və uzun müddətdir Sizin gəlişinizi gözləyirdik. Şükür olsun ki, Siz gəldiniz, biz sevinirik. Lakin balaca problemlərimiz qalıb. Nədir bizim problemimiz? Bizim xəstəxana camaatın tələbinə cavab verə bilmir. Niyə? Çünki vaxtilə burada 3 min adam yaşayırdı, indi isə 15 min. Niyə çox yaşayır? Çünki bura mərkəzə yaxındır. Bu, yeganə qəsəbədir ki, yanında metro var. Küçələrimizin işıqlandırılması vacibdir. Şübhəsiz, bu işləri görəcəklər. Xəstəxana doğrudan da bərbad haldadır. Doğum evi də yoxdur, kitabxanamız da yox dərəcəsindədir. Bir də kanalizasiya məsələsi. Bizim 15 minlik camaatımız həmişə Sizə duaçıdır. Mən Sizin gəlişinizə ürəkdən sevinirəm, inşallah yenə gələcəksiniz. İşiniz avand olsun, sağ olun, var olun.

**İlham Əliyev**: Çox sağ olun, əlbəttə, görüşəcəyik. Çünki mən Əhmədliyə hələ gələcəyəm. Proqramın icrası ilə maraqlanacağam və qaldırdığınız məsələlər öz həllini tapacaqdır. Kanalizasiya məsələsi bütövlükdə bizim ölkəmizdə çoxdandır ki, həllini gözləyən məsələlərdən biridir.

Bütün problemlər həll olunacaqdır. Necə ki, yolların asfaltlanması başlanıb, küçə işıqlarının quraşdırılması da başlanacaqdır. Kənd xəstəxanasının vəziyyəti ilə bağlı icra hakimiyyətinin başçısı və Hacıbala Abutalıbov indicə mənə məlumat verdilər, şəkilləri də göstərdilər. Bu, dözülməz bir vəziyyətdir. Belə şəraitdə xəstələri müalicə etmək mümkün

deyil. Mən dərhal göstəriş verəcəyəm, vəsait ayıracağam ki, tezliklə gözəl, müasir xəstəxana tikilsin.

Bilirsiniz ki, indi ölkəmizin hər bir yerində müasir tibb mərkəzləri yaradılır və ilk növbədə də Bakıda. Son illərdə Bakıda bir neçə ən müasir standartlara cavab verən xəstəxana tikilmişdir. Hər bir rayonda, bölgədə xəstəxanalar, tibb məntəqələri tikilir ki, insanların sağlamlığına biz yaxşı xidmət edə bilək. Burada da tibb məntəqəsi olub, lakin əslində, buna xəstəxana demək çətindir, çünki çox balaca, köhnə bir yerdir.

**S a k i n l ə r:** Çox balacadır, ambulatordur. Əvvəl bura məktəb olub.

**İ l h a m  Ə l i y e v**: Ona görə, bu sökülməli və yerində yeni xəstəxana tikilməlidir.

**S a k i n:** Yadıma gəlir, bu bina 1936-cı ildə tikilibdir. Üstünü qaldırıb tikmək olar.

**İ l h a m  Ə l i y e v**: Hər halda, bunu ekspertizadan keçirərlər, baxarlar. Əgər lazım olarsa, yenisini, daha da yaxşısını tikərik.

**S a k i n:** Doğum evi də olsa çox gözəl olar.

**İ l h a m  Ə l i y e v**: Xəstəxanada mütləq doğum şöbəsi də olmalıdır. Burada məktəb problemi yoxdur ki?

**S a k i n l ə r:** Xeyr, yoxdur.

**İ l h a m  Ə l i y e v**: Əfsuslar olsun ki, indiki zamanədə kitabxanalardan o qədər də çox istifadə olunmur. Siz ki bu məsələni qaldırırsınız, deməli, buna tələbat var.

**S a k i n l ə r:** Kitabxanamız bərbad vəziyyətdədir. Məşğulluq məsələsinə də baxılsa, çox yaxşı olardı. Biz Sizin çıxışlarınıza qulaq asırıq, izləyirik hamısını. Sizin xarici və daxili siyasətinizi dəstəkləyirik. Ümid edirik ki, bizim kənddə də iş problemi müəyyən dərəcədə həll olunacaqdır.

**İ l h a m  Ə l i y e v**: Əlbəttə, olunmalıdır. 2004-cü ildən regionların sosial-iqtisadi inkişafı proqramları icra olunur. Bakıətrafı qəsəbələrin də sosial-iqtisadi inkişafı proqramı olmalıdır, o cümlədən qəsəbələrə kreditlər verilməlidir. Çünki burada yüz minlərlə əhali yaşayır və onların da işlə təmin edilməsi məsələləri həll olunmalıdır.

İqtisadi İnkişaf Nazirliyinə göstəriş verilibdir. Yaxın vaxtlarda bu məsələyə də baxılacaq, iş adamlarına, sahibkarlıqla məşğul olanlara şərait yaradılacaqdır. Elə etməliyik ki, hər bir vətəndaşın işləmək imkanı olsun. Ona görə də işsizliyə qarşı mübarizə bizim üçün ən başlıca vəzifə idi. Bu gün də belədir. Baxmayaraq ki, işsizliyin böyük hissəsi aradan qaldırılıb, ancaq yenə də işsizlər var. İşləmək istəyən gərək işlə təmin olunsun.

İndi Bakıda və başqa şəhər və rayonlarımızda böyük tikinti işləri gedir. On minlərlə vətəndaş tikintilərdə işləyir, pul qazanır. İndi xaricə gedənlərin sayı da azalır. Əksinə, ölkəyə qayıdırlar, gəlməlidirlər, qayıtmalıdırlar. Qayıtmaq üçün də burada iş, şərait olmalıdır ki, bunu da biz yaradırıq.

**S a k i n:** Cənab Prezident, mən şəhid anası kimi, oğlumun adını daşıyan küçənin abadlaşdırılmasına görə Sizə minnətdarlığımı bildirirəm.

Cənab Prezident, mən müəlliməyəm, 7 şagirdim Vətən uğrunda şəhid olub, biri də Seyidxanımın oğludur. Onların adlarına küçələr var, xatirələri yad olunur. Bizim camaat Vətənə o qədər məhəbbət bəsləyir ki, bu saat desələr, silaha sarılmağa hazır olarlar.

**İ l h a m Ə l i y e v**: Allah bütün şəhidlərimizə rəhmət eləsin.

* * *

*Əhmədli qəsəbə sakinləri ilə görüşdən sonra prezident İlham Əliyev Nizami rayonunun Keşlə qəsəbəsinə gəldi. Keşlə qəsəbəsinin sxemi əsasında da asfalt örtüyünün döşənməsinə ehtiyac olan küçələr barədə dövlətimizin başçısına məlumat verildi.*

*Keşlə qəsəbəsində də abadlıq və quruculuq tədbirlərinə yolların əsaslı təmiri ilə başlanılıb. Yararsız vəziyyətdə olan qəsəbədaxili yolların 18 min 200 kvadratmetrlik hissəsinə artıq asfalt döşənib. Yolların qalan 55 min kvadratmetrlik hissəsinə isə yeni asfalt örtüyünün döşənəcəyi qeyd olundu. Keşlə qəsəbəsində də küçələrin işıqlandırılmasına, su və kanalizasiya sisteminin yenidən çəkilməsinə başlanılacaqdır. Dövlətimizin*

*başçısının tapşırığı ilə qəsəbənin «Qafqaz» yaşayış massivində 600 şagird yerlik yeni məktəb binası inşa olunacaqdır. Qəsəbədə müasir xəstəxana binasının və təcili yardım stansiyasının tikiləcəyi də nəzərdə tutulur.*

*Görülən işlərlə yaxından tanış olan prezident İlham Əliyev Keşlə qəsəbəsinin sakinləri ilə görüşdü.*

**İ l h a m  Ə l i y e v**: Keşlə qəsəbəsinin inkişafı ilə bağlı müvafiq tapşırıqlar verilmişdir və o tapşırıqlar yerinə yetiriləcəkdir. Beləliklə, bu qəsəbədə olan bütün problemlər tədricən öz həllini tapacaqdır. Keşlə qəsəbəsinin ərazisi və əhalisi Nizami rayonunun təqribən yarısı qədərdir. Qədim yaşayış məntəqəsidir. Elə etməliyik ki, burada yaşamaq üçün bütün şərait yaradılsın. Sosial-iqtisadi inkişaf baxımından müəyyən işlər görülmüşdür. Yeni iş yerləri, yeni sənaye müəssisələri açılmışdır. Ancaq hələ görüləsi işlər çoxdur. İlk növbədə infrastruktur, su, kanalizasiya xətləri, qazlaşdırma prosesi daha da sürətlə getməlidir. İndi bu işlərin böyük əksəriyyəti görülüb. Bəzi hallarda qazın təzyiqi aşağı səviyyədədir. Yolların çəkilişi və yeni asfalt örtüyün vurulması məsələləri vardır. İndi mənə məlumat verilib ki, xəstəxananın tikintisinə ehtiyac vardır. Əlavə məktəb tikilməlidir. Bu məsələlər Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı proqramında öz əksini tapacaqdır. Proqram yaxın zamanlarda təsdiq olunacaqdır.

Amma biz vaxt itirməmək üçün artıq işlərə başlamışıq. Yollar çəkilir, Bakının hər bir qəsəbəsində normal, yaxşı şərait yaradılmalıdır. Mən gəlmişəm ki, bu gün sizinlə görüşüm, təkliflərinizi eşidim, əhalini narahat edən məsələlər nədir, nəyi biz əlavə etməliyik, onu öyrənim. Qəsəbə sakinlərini hansı məsələlər narahat edir ki, biz onları operativ şəkildə həll edək.

**S a k i n:** Əsas məsələ qeydiyyatla bağlı idi ki, bu barədə sərəncam vermisiniz. Cənab Prezident, evlərin özəlləşdirilməsi ilə bağlı sərəncamı gözləyirdik. Çox sağ olun, Sizə minnətdarıq ki, bu sərəncamı imzaladınız. Bu, böyük problem idi.

**İ l h a m  Ə l i y e v**: Uzun illərdir ki, gündəlikdə duran problemdir. Uzun illər idi ki, həll olunmurdu. Ancaq biz bunu

həll eləməliyik. Amma elə həll eləməliyik ki, bu məsələdə xoşagəlməz halları aradan götürək. Ona görə göstəriş verilib, indi xüsusi bir mexanizm hazırlanır ki, biz bunu necə tezliklə və şəffaf şəkildə edək. Həm də evin sənədini almaq istəyənə qarşı qanunsuz tələblər irəli sürülməsin. Sənədləşmə, sonra qeydiyyatın olmaması ilə bağlı digər problemlər də meydana çıxır və biz bu məsələni birdəfəlik həll etməliyik.

Keşlədə və bütün qəsəbələrdə abadlıq işləri gedir. Parklar, küçələr abadlaşır, küçə işıqları quraşdırılır. Rayonda işlər yaxşı gedir, daha da sürətli gedir. İndi Bakı dünya miqyasında ən gözəl şəhərlərdən biridir. Bakı qəsəbələrində yaşamaq və işləmək üçün bütün şərait yaradılmalıdır.

**S a k i n:** Cənab Prezident, 10 il əvvəl bu şəraiti görmək olmazdı. İndi Keşlədə asfaltsız küçə yoxdur. Bu Sizin qayğınız, dövlətin qayğısının nəticəsidir. Ailənin başında duran adam yerində olursa, o ailə möhkəm və sağlam olur. Dövlətin də başında duran rəhbəri yerindədirsə, o dövlət inkişaf edəcək, çiçəklənəcəkdir. İndi nəinki Keşlə qəsəbəsi, bütün Azərbaycan böyük tikinti meydançasını xatırladır. Bu bizim fəxrimizdir. Təkcə tikinti deyil, iqtisadiyyatımız da inkişaf edir. Biz Sizin siyasətinizi dəstəkləyirik və həmişə dəstəkləmişik. Biz Sizin strategiyanızı müdafiə edirik, Sizə təşəkkürümüzü bildiririk.

Mən müəlliməm, təhsil işçisiyəm və valideynlərlə həmişə təmasdayam, onların fikirləri bizə aydındır. Sizin ətrafınızda yumruq kimi birləşmişik. Siz Heydər Əliyevin siyasətini çox gözəl davam etdirirsiniz, ona görə biz arxayınıq. Arxayınıq ki, dövlətimizin başçısı dünya miqyasında nüfuz sahibidir. Necə deyərlər, imzalar içində imzamız, dövlətlər içində səsimiz vardır. Ona görə də Azərbaycan inkişaf etməkdə olan dövlətlər sırasındadır. Sizin təkcə təhsilə göstərdiyiniz qayğı kifayətdir. Sizin insan kapitalını inkişaf etdirmək istiqamətində gördüyünüz işlər, yeni texnologiyadan istifadə etməyimiz barədə verdiyiniz sərəncamlar çoxdur. Hazırda Keşlədə üç məktəb vardır. Hər üçünün də çox gözəl şəraiti vardır. Uşaqlarımıza yaxşı şərait yaradılıb. Arzu edirik ki, ömrünüz

uzun, canınız sağlam olsun ki, Azərbaycanı daha da irəliyə aparasınız. Minnətdarıq Sizə.

**İ l h a m Ə l i y e v**: Çox sağ olun, xoş sözlərinizə görə minnətdaram. Bu mənim borcumdur. Mənim işim ondan ibarətdir ki, xalqa xidmət edim. Onu da edirəm və bundan sonra da edəcəyəm. Bütün işlərimdə mən xalqa arxalanıram. Əgər təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bu işləri görmək mümkün olmazdı. Ona görə Bakıda, ətraf qəsəbələrdə, hər bir rayonda, Azərbaycanın ən ucqar yerində inkişaf, abadlıq, quruculuq vardır. Məktəb tikintisi, xəstəxanaların tikintisi – nədir bu? Siz tamamilə haqlısınız, bu, gələcəyə atılmış addımlardır. Gənclərimiz bilikli, savadlı, vətənpərvər, sağlam olmalıdırlar. Hər bir yerdə idman kompleksi qurulur, idman meydançaları, məktəblər, xəstəxanalar, diaqnostika mərkəzləri tikilir. Hər dəfə diaqnostika mərkəzlərinin, xəstəxanaların açılışında mən insanlara deyirəm ki, gərək hər bir vətəndaş ildə bir dəfə müayinədən keçsin. Əgər hər hansı bir xəstəlik varsa, müəyyən olunsun, müalicə edilsin. İndi imkanlar da vardır, həkimlərimiz də peşəkardır.

Abadlıq, quruculuq işləri gedir. Biz hamımız istəyirik ki, ölkəmiz daha da inkişaf etsin, çiçəklənsin, güclənsin və bunu etmək üçün bütün imkanlar vardır. Bizim təşəbbüslərimiz Azərbaycanın gələcəyinə yönəlib. Azərbaycanın uğurlu iqtisadi inkişafı, siyasi sabitliyi böyük dəyərimizdir.

Biz keçən əsrin 90-cı illərinin əvvəllərini yaxşı xatırlayırıq. O illərdə xaos, anarxiya, özbaşınalıq, silahlı quldur dəstələri meydan oxuyurdu. Ölkəmiz parçalanırdı, dağıdılırdı. Ancaq bu gün sabitlik, inkişaf vardır, insanlar təhlükəsizlik şəraitində yaşayırlar. Bakı dünya miqyasında ən təhlükəsiz şəhərlərdən biridir. Gecə-gündüz insanlar rahat yaşayırlar, uşaqlar rahat gəzir, yaşlılara hörmət vardır. Biz milli ənənələrimizi qoruyuruq. Bu da çox böyük dəyərdir. Azərbaycan xalqının milli mənəvi dəyərləri çox yüksək səviyyədədir. Biz onları qorumalıyıq. Gənc nəsil də milli ruhda tərbiyə olunmalıdır ki, Azərbaycanın uğurlu, hərtərəfli inkişafı dayanıqlı və daimi olsun.

Mənim də işim ondan ibarətdir ki, Azərbaycan xalqına xidmət edim. Bu işi yaxşı görmək üçün gərək mən bilim ki, hansı məsələlər var, onlar necə həll olunmalıdır. Əlbəttə, mənə ölkədə gedən proseslərlə bağlı gündəlik arayışlar, məlumatlar verilir. Ancaq mən hər şeyi öz gözümlə görməliyəm və məhz sizdən eşitməliyəm.

Vaxt, iradə və Vətənə sevgi olmalıdır. Hər bir dövlət məmurunu, icra başçısını vəzifəyə təyin edərkən, qəbul edərkən göstəriş verirəm ki, get, xalqa xidmət elə, bu yüksək məsuliyyəti, bu etimadı doğrult. Mənim birinci tələbim xalqa xidmət etməkdir, problemləri həll etmək, şərait yaratmaq, insanları incitməmək, əsassız tələblər irəli sürməməkdir. Yəni birinci növbədə, sosial ədalət. İndi 500 mindən artıq vətəndaş ünvanlı sosial yardım alır. Bu o deməkdir ki, onun normal yaşamağa imkanı yoxdur. Dövlət kömək etməlidir. Ünvanlı sosial yardımı alanlar – hər ailə haradasa 100 manat səviyyəsində müavinət alır. Amma elə etməliyik ki, hər bir vətəndaş işlə təmin edilsin, yaxşı maaş alsın və yaxşı da yaşasın. Bizim istəyimiz bundan ibarətdir.

Əgər hər bir qəsəbənin məsələləri həll olunarsa, onda ölkədə problem qalmaz. Sosial ədalətlə bağlı məsələlərdə hər bir dövlət məmuru vicdanlı olmalıdır. Mən dəfələrlə müraciət etmişəm, bir də müraciət etmək istəyirəm. Harada ki, işlər yaxşı getmir, qüsurlar, çatışmayan cəhətlər vardır, məlumat verin, məktub göndərin. İndi elektron poçt vardır. Məktubla müraciət edin. Biz bilməliyik.

İndi korrupsiyaya qarşı qurumda «qaynar xətt» yaradılıbdır. Zənglər, müraciətlər gəlir. Onlara operativ şəkildə münasibət bildirilir, məsələlər araşdırılır, cəza tədbirləri görülür. Sosial ədalət prinsipləri tam bərqərar olunmalıdır.

Mən Keşlə qəsəbəsinin də gələcək inkişafını çox gözəl görürəm. Burada bütövlükdə işlər yaxşı gedir. Siz özünüz də qeyd etdiniz. Qısa müddət ərzində işlər daha da sürətlə getməlidir.

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abişeviç!

Sizin yenidən Qazaxıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin seçkilərdə qələbəniz Qazaxıstan xalqının Sizə yüksək etimadını, Sizin həyata keçirdiyiniz, dövlətçiliyin və hüquqi qaydanın möhkəmlənməsinə, cəmiyyət həyatının bütün sahələrində əsaslı dəyişikliklər aparılmasına yönəlmiş fəaliyyət xəttinizi xalqın dəstəklədiyini təsdiq etdi.

Azərbaycanı və Qazaxıstanı çoxəsrlik dostluq, mehriban qonşuluq və əməkdaşlıq telləri bağlayır. Əminəm ki, bu xeyirxah ənənələrə əsaslanan dövlətlərarası münasibətlərimiz dost xalqlarımızın və ölkələrimizin rifahı naminə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Hörmətli Nursultan Abişeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və Qazaxıstanın çiçəklənməsi naminə dövləti fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 aprel 2011-ci il*

**SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BƏŞŞAR ƏL-ƏSƏDƏ**

Hörmətli cənab Prezident!

Suriya Ərəb Respublikasının milli bayramı – Evakuasiya günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Suriya münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Suriya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 aprel 2011-ci il*

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ŞİMON PERESƏ**

Hörmətli cənab Prezident!

İsrail Dövlətinin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə İsrail arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 aprel 2011-ci il*

## ROMA PAPASI XVI BENEDİKT HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri!

Tacqoyma gününüz münasibətilə Sizə şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı münasibətlər ümumbəşəri dəyərlərin təntənəsi naminə bundan sonra da dostluq və əməkdaşlıq məcrasında öz inkişafını davam etdirəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, ali xidmətinizdə müvəffəqiyyətlər arzulayır, bütün həmməzhəblərinizə sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 aprel 2011-ci il*

## DANİMARKA KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ

Ülyahəzrət!

Danimarka Krallığının milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Danimarka arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Danimarka xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 aprel 2011-ci il*

# BAKININ ŞƏHƏRƏTRAFI QƏSƏBƏLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI QARADAĞ RAYONUNUN QOBUSTAN VƏ ƏLƏT QƏSƏBƏLƏRİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*4 aprel 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin sədrliyi ilə martın 9-da Bakı Şəhər İcra Hakimiyyətində şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına həsr olunmuş müşavirə keçirilmişdir. Həmin müşavirədə dövlətimizin başçısı şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı ilə bağlı tapşırıqlar vermişdi. Verilən tapşırıqların icrası ilə yerindəcə tanış olmaq üçün aprelin 4-də prezident İlham Əliyev Qaradağ rayonunun Qobustan və Ələt qəsəbələrində olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov Qobustan qəsəbəsinin sxemi əsasında təmirə ehtiyacı olan yollar barədə dövlətimizin başçısına məlumat verdi. Qeyd edildi ki, 14 min 585 nəfər əhalisi olan Qobustanda artıq qəsəbədaxili yolların əsaslı təmirinə başlanılıb. İndiyə qədər yolların 10 min kvadratmetr hissəsinə yeni asfalt örtüyü döşənib. Yolun qalan 18 min kvadratmetr hissəsinin də asfalt örtüyü təzələnəcəkdir. Məhəllədaxili bütün küçələrdə yeni işıqlandırma sistemi quraşdırılacaqdır.*

*Qəsəbədə görülən işlərlə yaxından tanış olan prezident İlham Əliyev sakinlərlə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Sizi salamlayıram, xoş gördük. Qobustan qəsəbəsinin inkişafı ilə bağlı müvafiq göstərişlər verilmişdir. İndi işlər başlayıbdır. Birinci mərhələdə biz yolların çəkilişi ilə məşğul olacağıq. Qobustan qəsəbəsinin yolları

torpaq yollardır, asfalt salınmayıb. Bu, böyük çətinliklər yaradır, yağış, qar yağanda bu yollardan keçmək mümkün deyil. İndi mən maşınla gələndə gördüm, sağ-soldakı küçələrin hamısı torpaq yollardır. Bütün küçələr asfaltlanacaqdır. Bu işlər mərhələlərə bölünübdür. Hər bir mərhələdə müəyyən qədər işlər görülməlidir.

Bütövlükdə Bakı qəsəbələrinin inkişafı ilə bağlı keçən ayın əvvəlində böyük müşavirə keçirilmiş, göstərişlər verilmiş, proqram hazırlanmışdır. Bu ay proqram təsdiq olunacaq və icrası nəticəsində qəsəbələrin hamısında infrastruktur və sosial məsələlər öz həllini tapacaqdır.

İlk növbədə isə yollar. Çünki buna çox böyük ehtiyac var, sonra işıq dirəkləri qoyulacaq. Qəsəbə yolları, demək olar ki, işıqlandırılmır, axşamlar qaranlıq olur. Sosial obyektlərə gəldikdə, mənə indi məlumat verildi ki, məktəb tikintisinə ehtiyac var. Xəstəxana çox bərbad vəziyyətdədir. Deyə bilərəm ki, dözülməz vəziyyətdədir. Bu məsələləri biz operativ şəkildə həll edəcəyik.

Bütövlükdə ölkəmizdə böyük quruculuq işləri aparılır. Hər bir bölgəyə, hər bir rayona dair xüsusi proqramlar var. Bakı qəsəbələrinin inkişafı ilə bağlı daha da ciddi tədbirlər görülməlidir.

Son illər müəyyən işlər görülübdür. Məktəb tikintisi, tibb məntəqələrinin tikintisi layihələri icra olunubdur. Ancaq növbəti illərdə daha da genişmiqyaslı işlər görülməlidir. İndi Bakı–Ələt yolu dünyanın ən yüksək standartlarına cavab verir. Hətta işıq dirəkləri də qurulur. Baxmayaraq ki, dünya təcrübəsində magistral yollarda işıq olmur. Amma biz bunu da edirik. Qəsəbədaxili yollar da elə olmalıdır. Qəsəbələrarası yollar yaxşı olmalıdır. İnsanların rahatlığı üçün, işləməsi və yaxşı yaşaması üçün bütün işləri görürük. Bu birinci addımdır, daha da böyük işlər görüləcəkdir. Bu, böyük bir işdir. Çünki Bakının ətrafında 40-dan çox qəsəbə var. O qəsəbələrdə 800 mindən artıq əhali yaşayır. Necə deyərlər – mən bir dəfə demişəm – özlüyündə böyük bir şəhər boyda qəsəbələrdir.

Əlbəttə ki, bu işləri görmək üçün böyük vəsait və vaxt tələb olunacaqdır. Ancaq mən istəyirəm ki, bütün bu işləri maksimum qısa müddət ərzində görək. Əlbəttə ki, burada yerli icra orqanlarının fəaliyyətindən çox şey asılı olacaqdır. Eyni zamanda, qəsəbə sakinləri də bütün bu gözəl təşəbbüslərə qoşulmalı, fəal iştirak etməlidirlər. Həm də öz təkliflərini, iradlarını bildirməlidirlər ki, bilək hansı məsələlər daha tez həll olunmalıdır, hansı məsələlər narahatlıq doğurur, harada biz nəyi düzəltməliyik, nəyi etməliyik. Bu bağlantı olmalıdır ki, biz də tam məlumat əldə edək ki, işlər hansı ardıcıllıqla görülməlidir.

Bu gün mən gəlmişəm ki, həm işin başlanğıcı ilə tanış olum, həm sizdən eşidim ki, istəyiniz nədir, arzularınız nədir, biz nə etməliyik?

**S a k i n**: Cənab Prezident! Bizim qəsəbəyə xoş gəlmisiniz! Sizi görməyimizə çox şadıq.

Mən 17 nömrəli şəhər xəstəxanasının Baş həkimiyəm. Sizin sərəncamınıza əsasən görülən işlər bizim qəsəbədə də göz qabağındadır. Bizim çox yollarımız asfaltlanıb, işıq, qaz fasiləsiz verilir. Abadlıq işləri göz qabağındadır. Ancaq Sizdən bir xahişimiz vardır. Bizim xəstəxana bərbad vəziyyətdədir. 1952-ci ildə tikilmiş köhnə binada yerləşir. Onun yenidən qurulmasına ehtiyac var, poliklinika, təcili yardım xidməti bir həyətdə olsa çox yaxşı olar. Əminik ki, Sizin buraya gəlməyiniz bizim problemimizin həllinə dəstək olacaqdır. Məktəbimizin də binası kiçikdir. Təzə orta məktəbin tikilməsinə böyük ehtiyacımız vardır, idman zalı da olsun ki, uşaqlar orada məşğul ola bilsinlər. Başqa problemlərimiz yoxdur.

**İ l h a m Ə l i y e v:** Bunları həll edəcəyik. Mən bilirəm ki, qəsəbələrdə qaz, işıq problemləri həll olunub, içməli su problemi vardır, bu da həll olunacaqdır. Məktəb, xəstəxana tikintisi ilə bağlı mən müvafiq göstərişlər verəcəyəm ki, bu məsələ də öz həllini tapsın. Uşaqlar yaxşı şəraitdə oxumalıdırlar. Son illərdə ölkəmizdə 2 mindən artıq məktəb binası tikilib, amma yenə də qəzalı vəziyyətdə olan məktəblər vardır.

Onları biz bərpa etməliyik, yenilərini tikməliyik. Bunu edəcəyik.

Qaradağ rayonu mənim üçün doğmadır, bilirsiniz. Mən 1995-ci ildə buradan deputat seçilmişəm. Demək olar ki, mənim siyasi fəaliyyətim Qaradağ rayonunda başlamışdır. Çox sevinirəm ki, son illər Qaradağ rayonunda yaxşı işlər görülüb. Bu yaxınlarda, bir neçə ay əvvəl Lökbatanda olmuşam. Lökbatanı tanımaq mümkün deyil. Həm binalar, həm yollar, istirahət parkları, ictimai yerlər elə gözəlləşib, elə abadlaşıb ki. Bəli, icra hakimiyyətinin başçısından çox şey asılıdır. Mən bütün icra hakimiyyəti başçılarına göstəriş verirəm ki, yaxşı işləsinlər, insanlarla əlaqədə olsunlar. Ümid edirəm ki, Qobustan qəsəbəsində də qısa müddət ərzində müsbətə doğru çoxlu işlər görüləcəkdir.

**S a k i n:** Bizim qəsəbəyə gəldiyiniz üçün, bu gözəl bayramı bizə nəsib etdiyiniz üçün Sizə bütün qəsəbənin ictimaiyyəti adından, ziyalıları adından ürəkdən təşəkkür edirik.

Siz çox doğru buyurdunuz, bizim Lökbatan qəsəbəsi buna bariz nümunədir. Yəqin ki, Sizin bu gəlişinizdən sonra qəsəbəmiz də çıraqban olacaq, cənnətə çevriləcəkdir. Buna görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Mədəniyyət sahəsində bu qədər böyük işlər gördüyünüzə görə biz Sizə və Mehriban xanıma bütün mədəniyyət işçiləri adından öz minnətdarlığımızı bildiririk. Mənim Sizdən bir xahişim var: bizim qəsəbədə uzun illərdir çox gözəl Mədəniyyət evi fəaliyyət göstərir, onun təmiri məsələsində bizə kömək edin. Çox xahiş edirik!

**İ l h a m Ə l i y e v:** Yaxşı, onu da edərik. Qaradağ rayonunun bütün qəsəbələrində quruculuq işləri daha da sürətlə getməlidir. Qaradağ rayonu Bakının ən böyük rayonudur. Bakının yarısı qədər ərazisi vardır. Qəsəbələr də bir-birindən kifayət qədər aralıdır. Ona görə Qaradağ rayonunun öz xüsusiyyətləri var. Burada əraziyə nisbətən əhali o qədər çox deyil və qəsəbələrin aralı olması işləri bir qədər çətinləşdirir.

Ancaq hər bir qəsəbə üzrə konkret tapşırıqlar verilmişdir və ümid edirəm ki, biz bu proqramın böyük hissəsini 2013-cü ilə qədər həyata keçirəcəyik. O vaxta qədər nəyi görə bilməsək, ondan sonrakı illərdə görüləcəkdir. Çünki mən bir də demək istəyirəm ki, maliyyə vəsaiti baxımından məhdudiyyət olmayacaqdır. Əsas odur ki, tezliklə bunu edək. Bəzi hallarda texniki imkanlar bir az məhdud ola bilər. Amma hər halda, 2013-cü ilə qədər, demək olar ki, növbəti iki il yarım ərzində əsas məsələlər öz həllini tapmalıdır.

Çox sağ olun. Mən xahişlərinizi yerinə yetirəcəyəm. Məktəb, xəstəxana tikintisi, Mədəniyyət evinin təmiri ilə bağlı müvafiq göstərişlər, sərəncamlar veriləcək və işlər görüləcəkdir.

* * *

*Qobustan qəsəbəsinin sakinləri ilə görüşdən sonra prezident İlham Əliyev Ələt qəsəbəsinə gəldi. Burada da görülən işlər barədə dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, Ələtdə qəsəbədaxili yolların 4 min 500 kvadratmetrinə yeni asfalt örtüyü döşənib. Yolun 22 min kvadratmetr hissəsinə isə asfalt örtüyü döşəmək üçün ilkin hazırlıq işləri başa çatdırılıb.*

*Görülən işlərlə tanışlıqdan sonra dövlətimizin başçısı Ələt qəsəbəsinin sakinlərini salamladı.*

**İ l h a m   Ə l i y e v:** Ələt qəsəbəsində ilk dəfədir yollar çəkilir. Mənə verilən məlumata görə, bu qəsəbənin yollarının əksəriyyəti, demək olar ki, torpaq yollar olub. Yağış yağanda, hava şəraiti pozulanda bu yollardan keçmək mümkün deyildi. Ona görə qəsəbə yollarının tikintisi birinci dərəcəli məsələdir – hər bir qəsəbədə, o cümlədən Ələt qəsəbəsində. İndi mənə məlumat verildi ki, 600 min kvadratmetr asfalt vurulmalıdır ki, bütün qəsəbə yollarını normal vəziyyətə çatdıra bilək. Biz bu işləri tədricən görəcəyik. Bakıətrafı qəsəbələrin hamısında quruculuq işləri aparılmalıdır. Tapşırıqlar da verilmişdir. İndi gəlmişəm ki, sizdən eşidim, hansı problemləriniz vardır, biz birinci növbədə nəyi etməliyik, sonrakı mərhələlərdə nə etməliyik?! Təbii, qarşıya vəzifə qoyulub ki, bütün qəsəbələrdə infrastruktur, yollar, qaz, işıq,

su, kanalizasiya xətləri, sosial obyektlər, məktəblər, xəstəxanalar tikilməlidir, təmir olunmalıdır və normal vəziyyətə çatdırılmalıdır.

Ölkəmizdə üç əsas sənaye mərkəzi yaradılmalıdır, onlardan biri Qaradağ rayonudur. Hazırda rayonda böyük müəssisələr, sement zavodu inşa olunur, yəqin ki, ikinci sement zavodu da tikilməlidir. Ondan sonra gəmiqayirma zavodu tikilir. Ələt qəsəbəsində yeni Beynəlxalq Dəniz Ticarət Limanı tikilir. Bu liman istismara veriləndən sonra burada minlərlə yeni iş yeri açılacaq ki, Ələt qəsəbəsinin sakinləri də orada işləyə bilərlər. Bütövlükdə rayonun güclü sənaye mərkəzinə çevrilməsi prosesi gedir. Bununla bərabər, bütün sosial məsələlər də öz həllini tapmalıdır. Rayon üçün ilk növbədə, yolların salınması böyük əhəmiyyət kəsb edir. Çünki bir daha deмək istəyirəm, siz bunu yaxşı bilirsiniz ki, burada asfalt yollar olmayıb. Bundan sonra olacaqdır. Bu birinci yoldur. Artıq xəritədə də göstərilib, biz harada nə işləri görəcəyik. Tezliklə bütün yollar asfaltla örtülməlidir.

Burada bütün sosial məsələlər tədricən həll olunmalıdır və hər bir qəsəbənin xüsusi inkişaf planı olmalıdır. İndi bütün müvafiq göstərişlər verilmişdir ki, hər bir qəsəbə üzrə təxirəsalınmaz tədbirlərin siyahısı da tutulsun. Əslində bu məsələlər, bu problemlər bəllidir. Biz bunları bilirik. Su, kanalizasiya problemi, əfsuslar olsun ki, bütün qəsəbələr üçün ciddi problemdir.

İndi ölkəmizin hər bir bölgəsində, o cümlədən Bakıda su, kanalizasiya problemlərinin həlli üçün tədbirlər görülür. Hazırda bu, ən ciddi problemdir. Vaxtilə elektrik enerjisi ilə bağlı problemlər də tədricən həll olunub. Bu gün bu problem yoxdur, Sizdə də vəziyyət yaxşıdır. Ölkəmizin hər bir yerində indi qaz xətləri çəkilir. Bildiyimə görə, Ələt qəsəbəsində də qazlaşdırma aparılıbdır və qaz verilir. Ona görə içməli su, kanalizasiya problemləri öz həllini gözləyir. Əvvəlki dövrdə maliyyə imkanlarımız məhdud olduğu üçün xaricdən kredit almaq çətin idi, problem həll olunmurdu. Hazırda daxili resurslarımız hesabına biz bu problemi həll etməliyik və

müvafiq tapşırıqlar verilibdir. Hər bir qəsəbədə, hər bir rayonda su, kanalizasiya problemləri həll olunmalıdır. Bununla bərabər, məktəb tikintisi, xəstəxanaların təmiri, tikintisi, yolların çəkilişi getməlidir. Biz bu işlərə kompleks şəkildə və çox ciddi yanaşmalıyıq.

Regionların sosial-iqtisadi inkişafı proqramı var və artıq ikinci mərhələsi başlanıbdır. Bakı qəsəbələrinin də proqramı olmalıdır. Bu proqram indi hazırlanır. Bu ay təsdiq olunacaq və mətbuatda dərc ediləcəkdir. Hər bir vətəndaş görəcək ki, onun qəsəbəsində hansı işlər görülməlidir. Bu proqramı çox müfəssəl şəkildə tərtib etmək üçün biz yerlərdən təklifləri yığmalıyıq. Sizin qaldırdığınız məsələlər şübhəsiz, bu proqramın çərçivələrinə daxil olunacaqdır. Ola bilsin ki, məktəb, xəstəxana ilə bağlı məsələlər ondan əvvəl də həll edilsin. Prezidentin ehtiyat fondundan vəsait ayrılacaq ki, bu məsələlər həll olunsun. Sizdən xahiş edirəm ki, bu proqramın icrası ilə bağlı əgər hər hansı bir problem, narazılıq, şikayət olarsa, həm mənə, həm rayon icra hakimiyyətinə, şəhər icra hakimiyyətinə müraciət edin. Biz bilməliyik ki, nəyi etməliyik, nəyi düzəltməliyik?! Hansı çatışmayan məsələlər var ki, biz tezliklə bunları həll edək.

Mən əminəm ki, yaxın zamanlarda, bir neçə ildən sonra Bakı qəsəbələrinin bütün problemləri öz həllini tapacaqdır.

## YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ KAROLOS PAPULYASIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*5 aprel 2011-ci il*

*Aprelin 5-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Yunanıstan prezidenti Karolos Papulyası qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Yunanıstan prezidentinə raport verdi.*

*Yunanıstanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Yunanıstan prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Karolos Papulyasa, Yunanıstan nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## YUNANISTAN PREZİDENTİ KAROLOS PAPULYAS İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*5 aprel 2011-ci il*

*Aprelin 5-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın təkbətək görüşü olmuşdur.*

*Görüşdə siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin, ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, energetika sahəsində əməkdaşlığın yaxşı perspektivləri olduğu bildirildi.*

*Dövlət başçıları ikitərəfli, beynəlxalq və regional məsələlər barədə də fikir mübadiləsi apardılar.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 aprel 2011-ci il*

*Aprelin 5-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Sizi ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Ölkələrimiz arasında əlaqələr çox sürətlə inkişaf edir və əminəm ki, Sizin səfəriniz bu əlaqələrin inkişafında mühüm mərhələ olacaqdır. Siyasi əlaqələrimiz inkişafdadır və Sizin səfəriniz bunun bariz nümunəsidir. İqtisadi sahədə gözəl perspektivlər vardır və hökumətlərarası birgə komissiya uğurla fəaliyyət göstərir. Enerji sahəsində əməkdaşlığın gözəl ənənələri vardır. Ümid edirəm ki, yaxın zamanlarda bu əlaqələr yeni mərhələyə qədəm qoyacaqdır. Bu gün biz Sizinlə insanlar arasındakı əlaqələr haqqında da fikir mübadiləsi apardıq və biz çox maraqlıyıq ki, vətəndaşlarımız bir-birilərini daha da yaxşı tanısınlar, əlaqələrimiz daha da çoxşaxəli olsun, əməkdaşlığımız böyüsün.

Mən əminəm ki, bu səfərdən sonrakı dövrdə Yunanıstan və Azərbaycan birlikdə çox böyük işlər görəcəkdir.

Bir daha Sizi səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz.

**K a r o l o s   P a p u l y a s:** Çox sağ olun, cənab Prezident! Bizə göstərilən səmimi qonaqpərvərliyə görə şəxsən öz adımdan və Yunanıstan nümayəndə heyəti adından Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin burada dediyiniz sözləri bir daha təkrar etmək istəyirəm ki, bizim münasibətlərimizin gələcəyi parlaqdır. Təkbətək görüş zamanı əməkdaşlığımızın vacibliyi vurğulandı. Sizin Afinaya etdiyiniz rəsmi səfər böyük əhəmiyyət kəsb edir və bu əslində, münasibətlərimizin inkişafında yeni bir mərhələyə çevrildi. İndi isə mən Sizin ölkənizdə səfərdəyəm və mən də ümidvaram ki, bu səfərim münasibətlərimizin inkişafına yeni təkan verəcəkdir.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*5 aprel 2011-ci il*

*Aprelin 5-də prezident İlham Əliyevin və prezident Karolos Papulyasın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan–Yunanıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) və Yunanıstan Respublikasının Dövlət Qaz Şirkəti (DEPA) arasında Anlaşma Memorandumu»nu ARDNŞ-in prezidenti Rövnəq Abdullayev və DEPA-nın sədri və Baş icraçı katibi Harri Saxinis imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş»i Azərbaycanın Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov və Yunanıstanın Ətraf Mühit, Energetika və İqlim Dəyişikliyi nazirinin müavini İoannis Maniatis imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında dəniz nəqliyyatına dair Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Yunanıstanın Dəniz Məsələləri, Adalar və Balıqçılıq naziri İoannis Diamantidis imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında 2011–2013-cü illər üçün elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığa dair Proqram»ı Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Yunanıstanın Xarici İşlər naziri Dimitris Drutsas imzaladılar.*

# AZƏRBAYCAN VƏ YUNANISTAN PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*5 aprel 2011-ci il*

*Aprelin 5-də sənədlərin imzalanmasından sonra Azərbaycan prezidenti İlham Əliyev və Yunanıstan prezidenti Karolos Papulyas mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə mən Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk və əminəm ki, səfər çox uğurlu olacaq və onun çox gözəl nəticələri olacaqdır. Bizim siyasi əlaqələrimiz sürətlə inkişaf edir. İki il bundan əvvəl mən Sizin ölkənizə səfər etmişdim və o səfəri çox yaxşı xatırlayıram. Səfər zamanı apardığımız danışıqlar və fikir mübadiləsi bir də onu göstərdi ki, ölkələrimiz arasında əlaqələrin çox gözəl perspektivləri vardır. Sizin Azərbaycana bugünkü səfəriniz bunu bir daha təsdiq edir.

Biz səfər zamanı aparılan danışıqlar nəticəsində ikitərəfli əlaqələrimizin inkişafına nail olacağıq. İkitərəfli gündəlik çox genişdir. Bu gün biz Sizinlə geniş fikir mübadiləsi apardıq. Siyasi əlaqələrimizin inkişafı üçün gözəl perspektivlər var, iqtisadi sahədə qarşılıqlı maraqlar kifayət qədər çoxdur. Sabah keçiriləcək Yunanıstan–Azərbaycan biznes-forumu bunu bir daha təsdiq edəcəkdir. Əminəm ki, ölkələrimizin iş adamları da bir-biri ilə səmərəli əlaqələr qura biləcəklər. Qarşılıqlı investisiyaların

qoyuluşu üçün gözəl şərait var. Biz Yunanıstan şirkətlərini Azərbaycanda görməyə çox şad olarıq və Azərbaycanda iş görmək üçün yeni imkanlar açılır. Bir sözlə, iqtisadi sahədə əməkdaşlığın dərinləşməsi üçün yaxşı perspektivlər vardır. Eyni zamanda, Yunanıstan–Azərbaycan hökumətlərarası birgə Komissiyası da səmərəli fəaliyyət göstərir və bu gün onun fəaliyyəti haqqında bizə məlumat verilmişdir.

Əlaqələrimizin vacib sahəsi olan enerji sahəsində əməkdaşlıq da uğurla inkişaf edir. Bu sahədə ilkin nəticələr də var. Bir neçə ildir ki, Azərbaycan qazı Yunanıstana nəql edilir. Əminəm ki, bu gün imzalanmış sənəd gələcəkdə bu sahədəki əməkdaşlığı, imkanlarımızı daha da genişləndirəcəkdir. Azərbaycan Yunanıstana ixrac olunan qazın həcminin artırılmasında maraqlıdır və biz gələcəkdə Yunanıstanın tranzit imkanlarından da istifadə etmək istəyirik. Bir sözlə, bu sahədəki əməkdaşlıq nəinki ikitərəfli əlaqələrimizin inkişafına xidmət edəcək, Azərbaycanla Avropa ölkələri arasında qaz sahəsində əməkdaşlığa da çox ciddi təkan verəcəkdir.

Bildiyiniz kimi, hazırda Avropa İttifaqı ilə Azərbaycan arasında aparılan danışıqlar qaz sahəsində əməkdaşlığın inkişafına gətirib çıxarmalıdır. Biz bunda maraqlıyıq. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün səylərini göstərir və gələcəkdə bu əməkdaşlıq daha da genişmiqyaslı olacaqdır. Biz buna şübhə etmirik. Cənub qaz dəhlizi ilə bağlı bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış bəyannamə icra olunur. Bəyannamədə nəzərdə tutulmuş vəzifələrin icra olunması ilə Azərbaycan Avropa üçün etibarlı, qazla təmin edən ölkəyə çevriləcəkdir. Bir sözlə, bu sahədə əməkdaşlıq üçün çox böyük imkanlar və daha da böyük perspektivlər var. Bununla bərabər, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin inkişafı baxımından Yunanıstan çox müsbət rol oynayır. Bu barədə mən Sizə bu gün öz minnətdarlığımı bildirmişəm. Hazırda «Şərq Tərəfdaşlığı» proqramı icra olunur və bu proqramın da çox gözəl perspektivləri ola bilər.

Biz bu gün regional əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Regionda gedən proseslər, təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün əlavə addımların atılması haqqında fikir mübadiləsi etdik.

Mən cənab Prezidenti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair son danışıqlar haqqında məlumatlandırdım. Danışıqlar gedir, ümid edirik ki, uğurla nəticələnəcəkdir. Biz istəyirik ki, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərar və qətnamələr icra olunsun. Uzun illərdir ki, torpaqlarımız işğal altındadır. Beynəlxalq təşkilatların qərar və qətnamələrinə baxmayaraq, bu işğal hələ də davam edir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının dörd qətnaməsi var, digər beynəlxalq təşkilatlar – ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Avropa parlamenti də qətnamələr qəbul etmişdir ki, Azərbaycan torpaqlarının işğalına son qoyulsun. Ümid edirik ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq prinsipləri əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapacaqdır. Bu barədə mən prezident Papulyası məlumatlandırdım və Azərbaycanın mövqeyi haqqında öz fikirlərimi bildirdim.

Bütövlükdə, Yunanıstan–Azərbaycan əlaqələri çox uğurla və sürətlə inkişaf edir. Cənab Prezidentin bugünkü səfəri bir də onu göstərir ki, bizim aramızda çox yüksək səviyyədə qarşılıqlı etimad var, qarşılıqlı maraqlarımız var. Əminəm ki, ikitərəfli münasibətlərimizin inkişafı nəticəsində ölkələrimizin vətəndaşları da bir-birini daha yaxşı tanıyacaqlar. İnsanlar arasında təmaslar daha sıx olacaqdır. Beləliklə, gələcəkdə Yunanıstan–Azərbaycan əlaqələri daha da sürətlə inkişaf edəcəkdir.

Cənab Prezident, mən bir daha Sizi və Sizinlə bərabər ölkəmizə gəlmiş nümayəndə heyətinin bütün üzvlərini Azərbaycanda səmimiyyətlə salamlayıram. Əminəm ki, Sizin səfəriniz yaddaqalan olacaq və Siz vətəninizə xoş təəssüratlarla qayıdacaqsınız.

## Yunanıstan prezidenti Karolos Papulyasın bəyanatı

Bakıya səfərimdən çox məmnunam. Mənə və nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərliyə görə cənab prezident Əliyevə dərin təşəkkürümü bildirirəm.

Prezident Əliyev ilə geniş fikir mübadiləsi apardıq. Bu fikir mübadiləsi ikitərəfli münasibətlərimizə, habelə regional və qlobal məsələlərə aid idi. Biz üç ikitərəfli sənəd imzaladıq. Bunlar nəqliyyat, elm və enerji sahələrində əməkdaşlığa aid sənədlərdir.

Biz enerji sahəsində Azərbaycan Dövlət Neft Şirkəti ilə imzalanmış Anlaşma Memorandumunu yüksək dəyərləndiririk. Hesab edirik ki, ikitərəfli münasibətlərimiz, xüsusən də ticari və iqtisadi münasibətlərimiz daha da gücləndirilə bilər. Bu baxımdan sabah keçiriləcək Yunanıstan–Azərbaycan biznes-forumu iqtisadi və ticari münasibətlərimizin daha da genişləndirilməsi üçün böyük imkanlar açır. Yunanıstan artıq Cənubi və Mərkəzi Avropa üçün enerji qovşağına çevrilmişdir. Təbii qazı nəql edən boru kəmərinin inşasında da maraqlıyıq. İstəyirik ki, Azərbaycandan gələn bu boru kəməri Yunanıstandan keçərək İtaliyaya getsin.

Biz Kipr məsələsinə toxunaraq qeyd etdik ki, bu məsələnin BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri çərçivəsində həllinə ümid bəsləyirik. Dağlıq Qarabağ problemini də qeyd etmək istərdim. İstəyirik ki, bu məsələ ATƏT-in Minsk qrupunun səyləri ilə dinc yolla öz həllini tapsın. Yunanıstan Avropa İttifaqının Qafqaz üzrə təşəbbüsünə, xüsusən də «Şərq Tərəfdaşlığı»na xüsusi diqqət yetirir. Bu baxımdan biz Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış memorandumu yüksək dəyərləndiririk. Yekunda mən çox səmimi müzakirələrə görə prezident Əliyevə dərin təşəkkürümü bildirirəm və hesab edirəm ki, Yunanıstan ilə Azərbaycan arasındakı münasibətlər bundan sonra da genişlənməkdə davam edəcəkdir.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*5 aprel 2011-ci il*

*Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyas aprelin 5-də Heydər Əliyev Fondunda olmuşdur.*

*Yunanıstan dövlətinin başçısını Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış fondun məqsədi və fəaliyyəti barədə məlumat verdilər.*

*Bildirildi ki, fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif social-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə köməklik göstərir.*

*Yunanıstan prezidentinə məlumat verildi ki, ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.*

*Ali qonaq Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu.*

*Prezident Karolos Papulyas fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

*Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Yunanıstan prezidentinə xatirə hədiyyəsi təqdim etdi.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*5 aprel 2011-ci il*

*Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Dövlət başçıları ziyafətdə çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

İlk növbədə, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və «Xoş gəlmisiniz!» – deyirəm.

Sizin Azərbaycana bu ilk səfərinizi ikitərəfli münasibətlərimizin inkişafı baxımından yüksək qiymətləndirirəm. Əminəm ki, keçirdiyimiz görüşlər, imzaladığımız sənədlər, apardığımız fikir mübadiləsi və müzakirələr, eləcə də sabah keçiriləcək biznes-forum ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsinə təkan verəcəkdir.

Mən 2009-cu ildə Yunanıstana səfərimi məmnuniyyətlə xatırlayıram. Biz qədim tarixə və mədəniyyətə malik olan Yunanıstan ilə əlaqələrimizin inkişafına xüsusi əhəmiyyət veririk. Azərbaycan və Yunanıstan arasında turizm, bərpa olunan enerji, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişafı üçün geniş perspektivlər mövcuddur.

Ölkələrimiz arasında, həmçinin fövqəladə hallar, ətraf mühitin mühafizəsi, dəniz nəqliyyatı kimi sahələrdə də əməkdaşlıq imkanları vardır. İnanıram ki, bu səfəriniz müxtəlif sahələrdə

əməkdaşlığımızın daha da inkişaf etdirilməsinə öz töhfəsini verəcəkdir.

Növbəti il biz diplomatik münasibətlərimizin qurulmasının 20 illiyini qeyd edəcəyik. Ümidvaram ki, biz bu əlamətdar tarixə Yunanıstan və Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələrində yeni nailiyyətlərlə daxil olacağıq. Bizim xarici siyasətimizdə Avropa İttifaqı və Avroatlantik strukturlarla münasibətlər mühüm yer tutur. Bu ilin yanvar ayında Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə bunun bariz nümunəsidir.

Azərbaycan və Yunanıstan beynəlxalq təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq edir. BMT, ATƏT, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığımız məmnunluq doğurur.

Zəngin təbii resurslara malik Azərbaycan iqtisadi baxımdan bu gün regionun aparıcı ölkəsidir. Neft ehtiyatları ilə yanaşı, Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatları 2,2 trilyon kubmetrdən artıqdır. Enerji sahəsində əməkdaşlıq Avropa İttifaqı ilə münasibətlərimizin prioritet istiqamətlərindən biridir. Hazırda Azərbaycanın enerji ehtiyatlarını müxtəlif istiqamətlərə nəql edən 7 neft və qaz boru kəməri çəkilmişdir. Ölkəmiz enerji resurslarının ixracının şaxələndirilməsinə mühüm əhəmiyyət verir və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini artırmağa hazırdır.

Təbii qaz artıq Yunanıstana nəql olunur. Ümid edirik ki, Azərbaycan qazının Avropa bazarlarına nəql olunmasında Yunanıstan tranzit ölkə kimi də öz rolunu oynayacaqdır.

Ötən illərdə Azərbaycanda çox uğurlu siyasi və iqtisadi islahatlar həyata keçirilmişdir. Azərbaycan, həmçinin enerji daşıyıcılarını dünya bazarlarına çıxarmaq məqsədi ilə müasir standartlara uyğun infrastruktur yaratmışdır. Hazırda ölkəmiz enerji resurslarının ixracının şaxələndirilməsində mühüm rol oynayır və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verir.

Bütün bunlar, yəni həyata keçirdiyimiz konkret layihələr bir tərəfdən, Azərbaycanın dinamik inkişafını təmin edir, digər tərəfdən isə bölgəyə sülh və təhlükəsizlik gətirir, burada gedən bütün proseslərə müsbət təsir göstərir.

Cənab Prezident! Sizi Azərbaycanda qəbul etməyimdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və uğurlar arzulayıram.

Bu badəni Sizin şərəfinizə, Yunanıstanla Azərbaycan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırıram.

## Yunanıstan prezidenti Karolos Papulyasın çıxışı

Cənab Prezident!

Hörmətli xanım Əliyeva!

Ölkənizə rəsmi səfərə gəlməyimdən olduqca məmnunam. Mənə və nümayəndə heyətinin üzvlərinə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Yunan xalqının ünvanına söylədiyiniz xoş sözlər və dostluq mesajı ölkələrimiz və xalqlarımız arasında münasibətlərin əla səviyyədə olmasını əks etdirir.

Hələ qədim zamanlardan xalqlarımız arasında təmaslar və mədəni təsir olmuşdur. Herodot tarixi Midiya haqqında yazaraq bildirmişdir ki, ənənəyə uyğun olaraq, Böyük İsgəndər Midiyanın şahzadəsi Atropata səmimi dostluq məktubu göndərmişdir və sonuncu ona eyni səmimiliklə məktubla cavab vermişdir. Bir neçə əsr sonra böyük Azərbaycan şairi Nizami Gəncəvi özünün dördüncü epik əsəri – «İsgəndərnamə»ni Böyük İsgəndərə ithaf edərək, onu dərin strateji biliklərə malik lider kimi təsvir etmişdir.

Xalqlarımız arasında təmaslar Bizans dövründə də davam etmişdir və ötən əsrlər boyu yunan icması Qara dəniz bölgəsində fəal olmuşdur. Bu gün onlar ölkələrimiz arasında tarixi tellər qismində çıxış edir.

Çoxsaylı təmaslarımız münasibətlərimizin inkişafını nümayiş etdirir. Sabah Bakıda keçiriləcək IV Yunanıstan–Azərbaycan biznes-forumu da ikitərəfli iqtisadi və ticari münasibətləri təşviq edəcəkdir. Enerji sahəsinə gəldikdə, burada əməkdaşlığın bütün məsələlərini, xüsusən də Azərbaycandan Türkiyə və Yunanıstan vasitəsilə İtaliyaya qaz boru kəmərinin çəkilməsini əhatə edən müzakirələrdə aydın görünən irəliləyişi qeyd etmək istəyirəm.

Yunanıstanın Dövlət Qaz Şirkəti (DEPA) və Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) arasında bu gün imzalanmış Anlaşma Memorandumu bu istiqamətdə atılan addımdır. Ümid edirik ki, memorandum enerji əməkdaşlığımıza yeni təkan verəcəkdir.

Dəniz nəqliyyatı sazişi ölkələrimiz arasında malların dəniz yolu ilə daşınmasını artıracaqdır. Daşımalar üzrə dünya nəhəngi olan Yunanıstan Azərbaycanın dəniz nəqliyyatının daha da inkişafına yardım edə bilər.

Avropa İttifaqının üzvü olan Yunanıstan hesab edir ki, Avropa İttifaqının Qafqaz üzrə « Şərq Tərəfdaşlığı» və Qara dəniz əməkdaşlığı kimi təşəbbüsləri və xüsusi elçinin oynadığı rol olduqca vacibdir. Biz Assosiasiya sazişi məqsədilə ölkəniz və Avropa İttifaqı arasında bu yaxınlarda danışıqların başlanmasını alqışlayırıq. Sizin Avropa İttifaqı ilə münasibətlərinizin inkişafına gəldikdə, ölkəmizin qəti dəstəyinə əmin ola bilərsiniz.

Cənab Prezident, mənə və nümayəndə heyətimə göstərilən yüksək qonaqpərvərliyə görə Sizə bir daha təşəkkürümü bildirir, Azərbaycan xalqına tərəqqi və firavanlıq arzulayıram.

# IV AZƏRBAYCAN–YUNANISTAN BİZNES-FORUMU

*Bakı Biznes Mərkəzi*

*6 aprel 2011-ci il*

*Aprelin 6-da Bakı Biznes Mərkəzində Azərbaycan prezidenti İlham Əliyevin və Yunanıstan prezidenti Karolos Papulyasın iştirakı ilə IV Azərbaycan–Yunanıstan biznes-forumu keçirilmişdir.*

*Dövlətimizin başçısı Yunanıstan prezidenti Karolos Papulyası qarşıladı.*

*Biznes-forumda hər iki ölkədən kənd təsərrüfatı və qida sənayesi, səhiyyə və əczaçılıq, enerji, informasiya-kommunikasiya texnologiyaları, maliyyə, logistika, tikinti və digər sahələrdə fəaliyyət göstərən 250-dək iş adamı iştirak etmişdir.*

**İlham Əliyev:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Bu gün Yunanıstan–Azərbaycan biznes-forumu keçirilir və burada Yunanıstan prezidenti iştirak edir. Mən Yunanıstan prezidenti cənab Papulyası Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram.

Dünən Yunanıstan prezidentinin Azərbaycana rəsmi səfəri başlamışdır. Deyə bilərəm ki, səfər çox uğurlu keçir. Apardığımız danışıqlar və imzalanmış sənədlər gələcəkdə iki ölkə arasındakı münasibətlərin inkişafına xidmət göstərəcəkdir. Yunanıstan ilə Azərbaycan arasındakı əlaqələr yüksək səviyyədədir. Prezidentin səfəri və mənim 2009-cu ildə Yunanıstana səfərim siyasi əlaqələrin yüksək səviyyədə olmasını göstərir.

İqtisadi sahədə qarşılıqlı maraqlar kifayət qədər çoxdur və bu biznes-forumun təşkil olunması bunun bariz nümunəsidir. Bu birinci dəfə deyil ki, Yunanıstan və Azərbaycanın iş adamları bir yerdə tədbir keçirirlər. 2009-cu ildə Yunanıstanda biznes-forum təşkil edilmişdir. Ondan əvvəlki dövrdə də belə tədbirlər keçirilmişdir. Bu onu göstərir ki, qarşılıqlı maraqlar kifayət qədərdir və hesab edirəm ki, bu forumda Yunanıstan iş adamlarının fəal iştirakı özlüyündə böyük bir göstəricidir.

İqtisadi sahədə əməkdaşlığın dərinləşməsi üçün hökumətlərarasi birgə Komissiya fəaliyyət göstərir. Bu komissiya vaxtaşırı iclaslar, toplantılar keçirir və iqtisadi sahədə əməkdaşlığın istiqamətlərinin müəyyən edilməsi məsələləri öz həllini tapır. Biz istəyirik ki, ölkələrimiz arasındakı iqtisadi əlaqələr çoxşaxəli olsun. Prezidentin səfəri çərçivəsində bu məsələlər müzakirə olundu və əminəm ki, iş adamları da iqtisadi əlaqələrimizin inkişafına öz töhfələrini verəcəklər.

Maraq doğuran sahələr arasında mən xüsusilə kənd təsərrüfatını qeyd etmək istərdim. Yunanıstanın bu sahədə çox böyük təcrübəsi vardır. Ölkələrimizin təbii şəraiti bir-birinə oxşayır, iqlim, demək olar ki, bir-birinə çox yaxındır. Yunanıstanda kənd təsərrüfatı sahəsində əldə edilmiş nailiyyətlər bizim üçün də çox maraqlıdır. Bizdə də kənd təsərrüfatına çox böyük diqqət göstərilir və ölkə qarşısında vəzifə qoyulub ki, Azərbaycan ərzaq təhlükəsizliyini tam şəkildə daxili resurslar hesabına təmin etsin.

Azərbaycanda bərpa olunan enerji növlərindən istifadə sahəsində işlərə başlanması üçün bu yaxınlarda müvafiq tapşırıqlar verilmişdir. Yunanıstanda isə bu sahə inkişaf edib və bizim üçün maraqlı olar ki, biz onun təcrübəsindən bəhrələnək. Hesab edirəm ki, informasiya-kommunikasiya texnologiyaları, turizm, nəqliyyat, inşaat sahələrində qarşılıqlı surətdə faydalı iqtisadi əlaqələr qurmaq mümkündür.

Xüsusilə mən energetika, neft-qaz sahəsində əməkdaşlığı vurğulamaq istəyirəm. Azərbaycan ilə Yunanıstan arasında bu sahədə əməkdaşlıq artıq bir neçə ildir ki, aparılır. 2007-ci ildə

Azərbaycan qazı Yunanıstana nəql edilməyə başlamışdır. Dünən imzalanmış memoranduma əsasən, bu əlaqələr gələcəkdə daha da genişlənəcəkdir. Azərbaycandan Yunanıstana təbii qazın nəqlinin həcminin artırılması məsələləri öz həllini tapmalıdır. Gələcəkdə Yunanıstan Azərbaycan qazının nəqli üçün tranzit ölkə kimi öz imkanlarını təqdim etməyə hazırdır. Azərbaycan yanacaq resurslarını Yunanıstana nəql edir. Yəni bu sahədə əməkdaşlığın yaxşı nəticələri var. Hər iki tərəf etibarlı tərəfdaşdır və maraqlarımız tam şəkildə üst-üstə düşür.

Biz zəngin qaz potensialımızı tam şəkildə realizə etmək üçün, əlbəttə ki, yeni bazarlara çıxmalıyıq və ənənəvi bazarlarda mövqemizi möhkəmləndirməliyik. Hesab edirəm ki, Avropanın enerji təhlükəsizliyi məsələlərinin həlli üçün Azərbaycanın resursları öz rolunu oynaya bilər və bu məsələ ilə bağlı bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında memorandum və bəyannamə imzalanmışdır. Azərbaycanın çox böyük qaz ehtiyatları vardır. Təsdiq edilmiş ehtiyatlar 2,2 trilyon kubmetr səviyyəsindədir. Bu, minimum rəqəmdir. Biz hesab edirik ki, real rəqəm bundan artıq olacaqdır. Əminəm ki, gələcəkdə aparılacaq kəşfiyyat işləri bunu təsdiqləyəcəkdir. Hazırda Azərbaycanda qaz hasilatı 28 milyard kubmetr səviyyəsindədir. Bu özlüyündə böyük rəqəmdir. Nəzərə alsaq ki, bizim daxili tələbatımız 10-11 milyard kubmetr səviyyəsindədir, ixrac üçün hazırda kifayət qədər imkanlar var. Növbəti illərdə on milyardlarla dollarla ölçülən investisiyalar qoyulacağını nəzərə alsaq, qaz hasilatı ciddi şəkildə artacaqdır.

Biz Yunanıstan şirkətlərini Azərbaycana dəvət edirik və şadam ki, onlar bizim dəvətimizi qəbul ediblər. Azərbaycanda iş görmək üçün çox yaxşı investisiya mühiti var, xarici sərmayələr dövlət tərəfindən lazımınca qorunur. Adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan postsovet məkanında, həmişə olduğu kimi, ön sıralardadır. İnvestorlar üçün yaradılmış şəraitdən xarici və yerli iş adamları bəhrələnirlər. Təkcə keçən il ölkə iqtisadiyyatına 15,5 milyard dollar sərmayə

qoyulmuşdur. Bunun 54 faizi daxili, 46 faizi isə xarici sərmayələrdir. Bu onu göstərir ki, hətta dünyada hökm sürən iqtisadi və maliyyə böhranı zamanı da xarici investorlar Azərbaycana sərmayə qoyulmasında maraqlıdırlar.

Ölkə iqtisadiyyatı sürətlə inkişaf edir. Son 7 ildə ümumi daxili məhsul təxminən üç dəfə artmışdır, sənaye istehsalı da təxminən üç dəfə artmışdır. Ölkəmizdə 900 mindən artıq yeni iş yeri açılmışdır. İqtisadiyyatın şaxələndirilməsi işində çox ciddi addımlar atılmış və beləliklə, ölkəmizin dayanıqlı inkişafı təmin edilmişdir. Xüsusilə mən 2009–2010-cu illəri qeyd etmək istəyirəm. Bu illər tarixdə maliyyə və iqtisadi böhran illəri kimi qalacaqdır. Lakin 2009–2010-cu illərdə Azərbaycan iqtisadiyyatı 14 faiz artmışdır, bu ilin birinci rübündə də artım müşahidə olunur.

Azərbaycan şirkətləri xarici bazarlara çıxırlar. Bu bizim dövlət siyasətimizdir və dövlət bu təşəbbüsü irəli sürübdür. Mən şadam ki, şirkətlərimiz buna qoşulublar. Həm dövlət, həm özəl şirkətlərimiz xaricdə sərmayə qoymağa başlamışdır. Xaricdə sərmayə qoyuluşu üçün başlıca şərt bu ölkələrlə Azərbaycan arasında olan siyasi əlaqələrdir. Yunanıstan bizim üçün dost ölkədir, əlaqələrimiz yüksək səviyyədədir. Prezidentin səfəri bu dostluğu daha da möhkəmləndirir və belə olan halda, Azərbaycan şirkətlərinin Yunanıstanda sərmayə qoyması üçün çox yaxşı şərait var.

Mən hesab edirəm ki, biznes-forum çərçivəsində bütün məsələlər müzakirə olunacaqdır. Biz Yunanıstan şirkətlərinə Azərbaycanda iş görmək üçün bütün şəraiti yaradacağıq, Azərbaycan şirkətləri də Yunanıstanın imkanlarından bəhrələnəcəklər.

Cənab Prezident, mən Sizi və nümayəndə heyətinizi Azərbaycanda bir daha salamlayıram. Sizin ölkəmizə səfəriniz münasibətlərimizin inkişafında mühüm mərhələyə çevrilib və bizim əlaqələrimizə çox güclü təkan verəcəkdir. Həm siyasi, iqtisadi, mədəni əlaqələrdə, həm də insanlar arasındakı əlaqələrdə – yəni bütün bu istiqamətlərdə biz yalnız müsbət

meyilləri görürük və əminəm ki, səfərdən sonra bu meyillər daha da güclənəcəkdir.

Bir daha Sizi Azərbaycanda salamlayıram, xoş gəlmisiniz!

**K a r o l o s  P a p u l y a s:** Cənab Prezident!

Xanımlar və cənablar!

Biznes-forumda olmağımdan çox məmnunam. Bu tədbir ölkələrimiz arasında ikitərəfli iqtisadi əlaqələrin yüksək səviyyədə olduğunu göstərir. Azərbaycan Qafqazda mühüm coğrafi məkanda yerləşir və xüsusilə bu regionda mühüm rol oynayır. 2009-cu ildə mən böyük məmnuniyyətlə prezident Əliyevi Afinada keçirilmiş biznes-forum çərçivəsində salamladım və həmin vaxtdan etibarən yunan şirkətləri, yunan biznes adamları açılan bu imkanlardan istifadə etmək qərarına gəldilər. Onlar öz azərbaycanlı həmkarları ilə əlaqə yaratdılar. Biznes-forum uğurla keçdi və bu bizim ticari münasibətlərimizə də böyük təkan verdi.

Hesab edirəm ki, ikitərəfli iqtisadi və ticari münasibətlərimiz baxımından görüləcək işlər hələ çoxdur. Biz çalışmalıyıq ki, bu əlaqələri daha da gücləndirək. Xüsusən də Yunanıstan iqtisadiyyatının ixraca işləyən sektorlarının, yəni ərzaq məhsullarının, tikinti materiallarının, kosmetika və əczaçılıq məhsullarının ixracını daha da təşviq etməklə əməkdaşlığımızı quraq.

Bugünkü tədbirdə 21 yunan şirkəti təmsil olunmuşdur. Bu onu göstərir ki, ikitərəfli əlaqələrimizdə, əməkdaşlığımızda böyük potensial mövcuddur. Biz çox şadıq ki, Azərbaycan, Azərbaycanın iş adamları bir çox layihələrdə bizim tərəfdaşlarımızdır. Hesab edirik ki, enerji, ətraf mühitin qorunması, telekommunikasiya, konsaltinq və bir çox digər sahələrdə uğurlar qazanmaq olar. Yunanıstanda ərzaq sənayesi, tikinti materialları, əczaçılıq sahələrində işlər görülə bilər.

Enerji sektoru bizim təşəbbüslərimizin ən önündə gedən bir sektor olmalıdır və ola da bilər. Hesab edirik ki, bundan sonra neftayırma zavodları sahəsində müəyyən birgə layihələri həyata keçirə bilərik. Bu bizim münasibətlərimizi daha da gücləndirər və

bu əməkdaşlıqdan irəli gələrək, digər sahələrdə də iqtisadiyyatlarımızı möhkəmləndirəcək birgə layihələri həyata keçirə bilərik.

Cənab Prezident!

Xanımlar və cənablar!

Qlobal maliyyə böhranı çox ağır fəsadları ilə bizim hamımızın yadında qaldı və beləliklə, biz çox ciddi tədbirlər görməyə məcbur olduq. Bu bizim xərclərimizi də çox böyük həcmdə artırdı və əslində, iqtisadiyyata əsaslı surətdə təsir idi. Təbii ki, biz öz vergi sistemimizdə müəyyən dəyişikliklərin edilməsi və xüsusən də ölkəmizin müqayisəli baxımdan daha potensial sahələrinin yenidən strukturlaşdırılması işlərinin görülməsi sayəsində müəyyən addımları ata bildik. Bundan əlavə, qəbul edilmiş yeni qanunlar, daha təkmilləşdirilmiş qanunvericilik bazası böhranın təsirlərinin qarşısının alınmasında yardımçı oldu. İnfrastruktur layihələrinə gəldikdə, biz xüsusən turizm sahəsində yeni imkanların yaradılmasını qərara aldıq. Cənab Prezident, mən ümid edirəm ki, bu biznes-forumdan sonra Azərbaycanın biznes dairələri daha da həvəslənib Yunanıstan bazarına daxil olaraq öz sözünü deyəcək və çox faydalı biznes əlaqələri qurub işbirliyi yaradacaqlar. Mən qətiyyətlə inanıram ki, bu biznes-forum Azərbaycan ilə Yunanıstan arasında olan iqtisadi və ticari münasibətləri daha da gücləndirəcəkdir.

Mən biznes əlaqələrinizdə sizə böyük uğurlar arzulayıram. Çox sağ olun.

## AVROPA ŞURASININ SABİQ BAŞ KATİBİ, DÜNYA İCTİMAİ FORUMUNUN BEYNƏLXALQ ƏLAQƏLƏNDİRMƏ KOMİTƏSİNİN SƏDRİ VALTER ŞVİMMER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Avropa Şurasının sabiq Baş katibi, Dünya İctimai Forumunun Beynəlxalq Əlaqələndirmə Komitəsinin sədri Valter Şvimmeri qəbul etmişdir.*

*Valter Şvimmer Azərbaycanda keçiriləcək Dünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakından məmnunluq hissi keçirdiyini bildirdi. Bakıya hər səfərində böyük quruculuq işlərinin şahidi olduğunu vurğulayan Valter Şvimmer bunu Azərbaycanın davamlı iqtisadi inkişafının göstəricisi kimi dəyərləndirdi.*

*Dünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətinə toxunan dövlətimizin başçısı forumda çoxlu sayda ölkələri təmsil edən nümayəndələrin iştirakını qeyd edərək, Azərbaycanın çox mötəbər beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrildiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın iqtisadi sahədə böyük uğurlar qazandığını, bu inkişafın paytaxtı və bütün regionları əhatə etdiyini bildirdi.*

## KRANS MONTANA FORUMUNUN TƏSİSÇİSİ VƏ PREZİDENTİ JAN POL KARTERON İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Krans Montana Forumunun təsisçisi və prezidenti Jan Pol Karteronu qəbul etmişdir.*

*Jan Pol Karteron xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşlərini məmnunluqla xatırlatdı. O, ölkəmizlə və xalqımızla bağlı xoş təəssüratlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycanda keçiriləcək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edəcəyini deyən Jan Pol Karteron bu tədbirin beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğuladı.*

*Bakıda keçiriləcək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəmini vurğulayan prezident İlham Əliyev forumun sivilizasiyalararası əməkdaşlığın möhkəmləndirilməsinə, xalqların bir-birinə daha da yaxınlaşmasına töhfə verəcəyinə əminliyini bildirdi.*

## ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNDA İŞTİRAK EDƏN XARİCİ ÖLKƏLƏRİN VƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN YÜKSƏK SƏVİYYƏLİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*«Gülüstan» sarayı*

*7 aprel 2011-ci il*

*Mədəniyyətlərarası dialoqa həsr olunan forumda iştirak etmək üçün «Gülüstan» sarayına gələn Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva bu mötəbər beynəlxalq tədbirdə iştirak edən xarici ölkələrin və beynəlxalq təşkilatların yüksək səviyyəli nümayəndələri ilə görüşmüşlər.*

*Görüşdə mədəniyyətlərarası dialoqa həsr olunan Ümumdünya Forumunun əhəmiyyəti qeyd olundu, Azərbaycanın bu prosesdə fəal iştirakının məmnunluq doğurduğu bildirildi.*

## ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNUN AÇILIŞINDA NİTQ *

*«Gülüstan» sarayı*

*7 aprel 2011-ci il*

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Forumun iştirakçılarına Azərbaycana «Xoş gəlmisiniz!» – deyirəm.

Mədəniyyətlərarası forumun Azərbaycanda keçirilməsi böyük əhəmiyyət kəsb edir. Mən çox şadam ki, bizim qonaqlarımız dəvətimizi qəbul edib Azərbaycana gəlmişlər və hesab edirəm ki, bu gün, sabah çox səmimi, açıq şəkildə geniş fikir mübadiləsi aparılacaqdır. Ümid edirəm ki, forumun nəticələri çox müsbət olacaq və mədəniyyətlərarası dialoqun inkişafı üçün yeni imkanlar yaranacaqdır.

Təsadüfi deyil ki, bu forum məhz Azərbaycanda keçirilir. İki ildən artıqdır ki, «Bakı prosesi» gedir. «Bakı prosesi»nin təməli Azərbaycanda qoyulmuşdur. 2008-ci ildə Avropa Şurasına üzv olan ölkələrin mədəniyyət nazirlərinin toplantısında Azərbaycan tərəfindən islam ölkələrinin nümayəndələri dəvət olunmuş və birgə keçirilmiş tədbirdə çox səmimi və açıq fikir mübadiləsi

* Цмумдцнйа Мядяниййятлярарасы Диалог Форумунун сессийасында АШПА-нын сядри Мювлуд Чавушоьлу, ИСЕСКО-нун Баш директору Ябдцлязиз бин Осман ял-Тцвейсри,ЙУНЕСКО-нун Стратежи планлашдырма цзря Баш директорунун мцавини Щанс Д Орвил, БМТ-нин Сивилизасийалар Алйансы Катибинин иъραчы директору Марк Суср вя Кранс Монтана Форумунун тясисчиси вя президенти Жан Пол Кертерон чыхыш етдиляр.

aparılmışdır. O tədbirin sonunda «Bakı Bəyannaməsi» qəbul edilmişdir. İlk dəfə olaraq, bu formatda beynəlxalq tədbir keçirilmişdir. 2009-cu ildə isə İslam Konfransı Təşkilatına üzv olan ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilmiş toplantısına Avropa ölkələrinin nümayəndələri dəvət olunmuş və bir daha bu formatda görüş keçirilmişdir. Keçən il Bakıda dünya dinləri liderlərinin zirvə görüşü keçirilmişdir. Həmin zirvə görüşünün çox böyük əhəmiyyəti olmuşdur və o toplantının müsbət nəticələrini biz bu gün də görürük.

Bu il – 2011-ci ildə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Bakıda keçirilir. Payızda isə Azərbaycanda I Beynəlxalq humanitar forum keçiriləcəkdir. Bu tədbirlər onu göstərir ki, güclü iradə olan yerdə mədəniyyətlərarası dialoqun məzmunu da dolğun olur və bu görüşlər xalqları bir-birinə daha da yaxınlaşdırır və bizi daha da birləşdirir. Bizim niyyətimiz bundan ibarətdir.

Biz istəyirik ki, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir-biri ilə sıx təmasda olsunlar, problemləri açıq şəkildə müzakirə etsinlər, öz fikirlərini bildirsinlər. Bakı, Azərbaycan belə mötəbər tədbirlərin keçirilməsi üçün artıq ənənəvi bir məkana çevrilmişdir. Bunun həm coğrafi, həm tarixi, həm də mədəni əsasları vardır. Əsrlər boyu Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşamışlar. İctimai-siyasi quruluşdan asılı olmayaraq, heç vaxt Azərbaycanda milli, ya dini zəmində nəinki qarşıdurma, heç anlaşılmazlıq da olmamışdır. Bütün dövrlərdə Azərbaycanda xalqlar bir ailə kimi yaşamışlar, onları həmişə dostluq münasibətləri bağlamışdır. Biz çox şadıq ki, indi, Azərbaycanın müstəqil ölkə kimi inkişaf etdiyi dövrdə bu müsbət meyillər daha da güclənir.

Azərbaycanda din azadlığı, vicdan azadlığı tam şəkildə bərqərar olunubdur. Müstəqillik dövründə dövlət tərəfindən yüzlərlə dini abidə – məscidlər, kilsələr, sinaqoqlar tikilib və təmir edilmişdir və bu proses indi də davam edir.

Yəni Azərbaycanda milli və dini dözümlülüyün, tolerantlığın yüksək səviyyədə olması artıq faktdır və bu bizim güc mənbəyimizdir. Hər bir cəmiyyətin gücü onun dini və milli müxtəlifliyindədir. Biz tam əminik ki, dini və milli amildən asılı olmayaraq, istənilən cəmiyyətdə normal münasibətlər qurmaq mümkündür. Əlbəttə, bunun üçün ənənələr və dövlət siyasəti də lazımi səviyyədə aparılmalıdır. Azərbaycanda hər iki amil mövcuddur. Həm tarixi keçmişimiz bugünkü şəraiti bizim üçün yaradır, həm də bu sahədə dövlət siyasətimiz birmənalıdır. Bir daha demək istəyirəm ki, bizim gücümüz birliyimizdədir. Milli və dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda yaşayan hər bir kəs bizim dəyərli vətəndaşımızdır. Mən şübhə etmirəm ki, Azərbaycanda milli və dini dözümlülük məsələləri bundan sonra da uğurla öz həllini tapacaq, Azərbaycan vətəndaşları bundan sonra da bir ailə kimi yaşayacaqlar.

İstəyirik ki, ölkəmizdə yaranmış bu təcrübə öyrənilsin, başqa ölkələr üçün də maraq doğursun. Çünki bu, həqiqətən nadir bir təcrübədir və «Bakı prosesi»nin başlanması və uğurla davam etdirilməsi onu göstərir ki, ortaya siyasi iradə qoyulduqda məqsədə nail ola bilirik.

Ümid edirəm ki, Mədəniyyətlərarası Dialoq Forumu ənənəvi xarakter alacaqdır. Əminəm ki, hər bir belə tədbir böyük məna daşıyır. Nəzərə alsaq ki, bugünkü tədbirin çox dəqiq və konkret nəticələri olacaq, insanlar arasında dostluq, mehriban qonşuluq əlaqələrini daha da gücləndirəcəkdir.

Azərbaycan islam dünyasının tərkib hissəsidir. İslam bizim dinimizdir, islam dəyərləri, milli dəyərlər bizim üçün çox əzizdir. Müstəqillik dövründə Azərbaycan çox böyük və uğurlu yol keçmişdir. Müstəqillikdən əvvəlki dövrdə milli mənsubiyyətimizi, milli xarakterimizi qoruyub saxlamaq üçün bizim tariximiz, mədəniyyətimiz, dilimiz, dinimiz müstəsna rol oynamışdır.

Azərbaycan İslam Konfransı Təşkilatının üzvüdür və müsəlman ölkələri ilə bizim çox sıx əlaqələrimiz vardır. 2009-cu ildə Bakı İslam mədəniyyətinin paytaxtı elan edilmişdi. 2018-ci

il üçün isə bu şərəfli ada Azərbaycanın qədim şəhəri Naxçıvan layiq görülmüşdür.

Azərbaycan bütün dövrlərdə Qərb dünyasına da çox bağlı, çox yaxın olubdur. Müsəlman Şərqində ilk demokratik respublika 1918-ci ildə Azərbaycanda yaradılmışdır. Müsəlman Şərqində ilk teatr məhz Azərbaycanda yaranmış, ilk opera burada səhnəyə qoyulmuşdur.

Qadınların səs vermək hüququ müsəlman aləmində ilk dəfə məhz Azərbaycanda təmin edilmişdir. Yəni bizdə dünyəvi dövlətin bu ənənələri var, baxmayaraq ki, uzun illər, əsrlər boyu Azərbaycan müstəqillikdən məhrum edilmişdi. Buna baxmayaraq, qısamüddətli müstəqil həyatımız o qədər güclü ənənələr qoymuşdur ki, bunlar bu gün də yaşayır və cəmiyyətimizin inkişafı üçün o ənənələrin müstəsna rolu var.

Azərbaycan Avropa Şurasının üzvüdür. İslam Konfransı Təşkilatının və Avropa Şurasının üzvlərinin sayı yüzdən artıqdır. Yəni bu özlüyündə nadir bir təcrübədir. Təsadüfi deyil ki, mədəniyyətlərarası dialoqun keçirilməsi üçün məhz Azərbaycan həm coğrafi, həm tarixi baxımdan, həm bugünkü reallıqlar baxımından mərkəzə çevrilir. Biz bunu çox alqışlayırıq. Bizim qonaqlarımız, Azərbaycana xoş münasibət bəsləyən, bu gün forumda iştirak edən bütün qonaqlar Bakının bu sahədə mərkəzə çevrilməsi üçün öz dəstəyini vermiş olurlar.

Ölkəmiz 20 ilə yaxındır ki, müstəqil həyat yaşayır. Bu illər ərzində dövlətçiliyimizin əsasları qoyulmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi uğurla gedir, iqtisadi və siyasi islahatlar uğurla aparılır. Ölkəmiz müstəqillik dövründə böyük və şərəfli yol keçmişdir. Bu gün bütün qonşularımızla gözəl, səmimi münasibətlərimiz var. Biz bütün ölkələrlə qarşılıqlı maraqlar, qarşılıqlı hörmət əsasında qurulmuş ikitərəfli və çoxtərəfli münasibətlərimizin inkişafında maraqlıyıq.

Azərbaycanda hökm sürən sabitlik və müşahidə olunan inkişaf ölkəmizi gücləndirir. Son illərdə Azərbaycan dünya miqyasında iqtisadi inkişaf baxımından ən sürətlə inkişaf etmiş ölkə olmuşdur. Son 7 ildə ölkə iqtisadiyyatı təxminən üç dəfə artmış, sosial

proqramlar uğurla icra edilmişdir. İnsanların yaşayış səviyyəsi artır. Ölkədə böyük infrastruktur layihələri həyata keçirilir. Bu gün Azərbaycan müstəqil ölkə kimi, tam şəkildə özünü təmin edir və şübhə etmirəm ki, bizim uğurlu inkişafımız gələcəkdə də özünü göstərəcəkdir. Bütün iqtisadi və siyasi islahatlarla bərabər, ölkəmizin güclənməsi sahəsində görülmüş işlərlə bərabər, cəmiyyətdə mövcud olan ab-hava, hökm sürən meyillər bizi daha da gücləndirir. Millətlərarası münasibətlər xüsusi əhəmiyyət daşıyır. Bu, bütün dövrlərdə belə olmuşdur. Xüsusilə də indiki zəmanədə bu məsələlərə xüsusi diqqət verilməlidir. Mən hesab edirəm ki, hər bir cəmiyyətdə, hər bir dövlətdə bu məsələ ilə bağlı çox geniş proqramlar icra olunmalıdır. Siyasət düzgün aparılmalıdır. Yenə də deyirəm, Azərbaycandakı milli və dini dözümlülük bizim tarixi ənənələrimizə əsaslanır. Bu, cəmiyyətin tələbidir. Eyni zamanda, düzgün dövlət siyasəti aparılmasa, bu işlər lazımi səviyyədə təşkil oluna bilməz. Hər bir cəmiyyətdə düzgün siyasət aparılmalıdır. İnsanlar bir-birinə daha da yaxın olmalıdır, dini zəmində qarşıdurmaya yol verilməməlidir. Hər bir məsuliyyətli iqtidar bu məsələlərə çox böyük həssaslıqla yanaşmalıdır. Bəzi hallarda süni şəkildə yaradılmış problemlər aradan qaldırılmalıdır. Bəzi hallarda təxribat xarakterli addımlar, hərəkətlər daha da böyük faciələrə gətirib çıxarır.

Yəni hər bir məsuliyyətli siyasətçi, ictimai xadim, vətəndaş öz əməyi ilə, öz sözü ilə müsbət meyilləri gücləndirməlidir. Bu gün dünyada qloballaşma haqqında, mədəniyyətlərarası dialoq haqqında, multikulturalizm haqqında geniş diskussiyalar aparılır. Mən bunu müsbət hal kimi qiymətləndirirəm. Çünki bu məsələlər ətrafında daim fikir mübadiləsi aparılmalıdır. Ancaq bir məqsədlə – necə edək ki, xalqlar bir-birinə daha da yaxın olsunlar, necə edək ki, dünyada dini zəmində qarşıdurma olmasın, xalqlar, sivilizasiyalararası məsələlər müsbət istiqamətdə inkişaf etsin. Qarşılıqlı inam artsın, qarşılıqlı hörmət artsın. Başqa dinin nümayəndələrinə hörmət, başqa dinin tarixi və dini abidələrinə hörmət, ilk növbədə öz dininə olan hörmətin əlamətidir. Bizim gücümüz milli və dini

müxtəlifliyimizdədir. Biz Azərbaycanda bunu belə başa düşürük. Ona görə hər bir yerdə bu məsələlərə xüsusi diqqət göstərilməlidir. Azərbaycanın həm keçmiş dövrdəki, həm də artıq 20 illik müstəqillik təcrübəsi onu göstərir ki, multikulturalizmin çox müsbət nəticələri var. Multikulturalizmə qarşı çıxış edənlər bu məsələni daha da geniş təhlil etməlidirlər. Müsbət təcrübəyə malik olan ölkələrin təcrübəsi öyrənilməlidir. Əgər bu gün multikulturalizmə qarşı müəyyən fikirlər səslənirsə, sual verilməlidir: bəs bunun əvəzinə nə təklif olunur? Özünütəcridmi? Yoxsa, başqa dinlərin nümayəndələrinə qarşı ayrı-seçkilikmi?

Bunlar çox ciddi məsələlərdir və böyük müzakirəyə ehtiyac var. Biz çalışırıq ki, forum çərçivəsində bu məsələlər ətrafında fikir mübadiləsi aparılsın, təkliflər verilsin. Təkliflər sadəcə olaraq, şüar xarakteri daşımasın, artıq mövcud olan təcrübəyə əsaslansın. Harada problemlər varsa, o problemlər aşkarlanmalı, aradan qaldırılmalıdır. Əgər biz hamımız millətlərarası, dinlərarası münasibətlərin sağlam zəmində qurulmasını istəyiriksə. Çünki buna böyük ehtiyac var. Xüsusilə indiki zəmanədə. Qloballaşan dünyada informasiya mübadiləsi daha da sürətlə aparılır. İstənilən yerdə deyilən söz dərhal dünyaya yayılır, düşünülməmiş, yaxud da təxribat xarakterli hər hansı bir addım dərhal adekvat reaksiya ilə üzləşir. Ona görə bu məsələlər, məsuliyyət, xoş niyyət və müsbət təcrübə əsasında aparılan siyasət xüsusi əhəmiyyət daşıyır.

Mən heç də demək istəmirəm ki, Azərbaycanda bütün işlər ən yüksək səviyyədə görülür. Əlbəttə ki, cəmiyyətdə problemlər var, çətinliklər var. Biz müstəqillik dövründə böyük yol keçmişik. Yolumuz çox çətin olub, biz müharibə də görmüşük, işğal da görmüşük. Torpaqlarımız hələ də işğal altındadır. Beynəlxalq təşkilatların qətnamələrinə baxmayaraq, Ermənistan hələ də Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış torpaqlarını işğal altında saxlayır.

Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Bir milyondan çox azərbaycanlı öz doğma torpağından qaçqın-köçkün

düşmüşdür. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra edilmir. Baxmayaraq, orada göstərilib ki, işğalçı qüvvələr Azərbaycanın zəbt edilmiş torpaqlarından çıxarılmalıdır. İslam Konfransı Təşkilatı, Avropa Şurası, Avropa parlamenti, ATƏT də oxşar qətnamə və qərarlar qəbul etmişdir. Ancaq əfsuslar olsun ki, hələ də işğal davam edir. Biz ümid edirik ki, danışıqlar prosesi müsbət nəticə verəcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və işğaldan əziyyət çəkən soydaşlarımız öz doğma torpaqlarına qayıdacaqlar. Biz müstəqilliyimizin ilk illərində vətəndaş müharibəsini də görmüşük. Böyük çətinliklə əldə edilmiş müstəqillik faktiki olaraq əldən gedirdi və vətəndaş müharibəsi ölkəmizi uçurum kənarına qoymuşdu. Biz iqtisadi tənəzzül görmüşük, inflyasiya min faizlərlə ölçülürdü, sənaye istehsalı, demək olar ki, iflic vəziyyətə düşmüşdü. Ölkədə qanunsuz silahlı birləşmələr fəaliyyət göstərirdi. Bütün bunlar müstəqillik dövrünün ilk illərinə təsadüf edən hadisələrdir. Azərbaycan xalqının yaddaşı çox möhkəmdir, biz o illəri xatırlayırıq.

Bu gün Azərbaycan sürətlə inkişaf edən, sabit ölkədir. İqtisadi cəhətdən tam şəkildə öz daxili resurslarına arxalanır. Azərbaycan siyasi cəhətdən müasir inkişaf yolunu seçmiş bir ölkədir, güclü milli ənənələr üzərində müasir dünyəvi dövlət qurulur. Bütün azadlıqlar var, insanlar təhlükəsizlik şəraitində yaşayırlar. Son 7 ildə 900 mindən artıq iş yeri açılmışdır və işsizliyin, demək olar ki, əsas hissəsi aradan qaldırılmışdır. Son 7 ildə yoxsulluq şəraitində yaşayanların sayı 4,5 dəfə azalmışdır. Yəni ölkədə aparılan iqtisadi islahatlar, siyasi islahatlar və sosial ədalət siyasəti, bax, bu vəziyyətə gətirib çıxarmışdır.

Bizim müstəqillik tariximiz qısa olsa da, özlüyündə bir göstəricidir. Dağılmış vəziyyətdə olan, demək olar ki, parçalanan ölkədən bu gün müasir, inkişaf edən və bölgədə öz rolunu artıran ölkəyə çevrilmişik. Bunu Azərbaycan xalqı edibdir. Azərbaycan xalqının istedadı, zəhməti hesabına buna nail olmuşuq. Bu gün biz təkcə ölkədaxili məsələlərlə məşğul

deyilik və bu forumun keçirilməsi daha çox beynəlxalq məna daşıyır. Sadəcə, biz istəyirik ki, Bakıda keçirilən və gələcəkdə keçiriləcək belə mötəbər tədbirlər ənənəvi xarakter alsın və burada müzakirə edilən və ediləcək məsələlər müsbət nəticəyə gətirib çıxartsın.

Bu foruma gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram. Bir daha sizə öz minnətdarlığımı bildirmək istəyirəm ki, bu gün bizimlə bərabərsiniz. Forumun iştirakçılarının əksər hissəsi ilk dəfədir ki, Azərbaycana gəlir. Hesab edirəm ki, sizin üçün də ölkəmizlə tanışlıq maraqlı olacaqdır. Mən foruma uğurlar arzulayıram. Ümid edirəm ki, forumun çox gözəl nəticələri olacaq və belə mötəbər tədbirlər gələcəkdə Azərbaycanda ənənəvi olaraq keçiriləcəkdir.

# AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Avropa Şurası Parlament Assambleyasının sədri Mövlud Çavuşoğlunu qəbul etmişdir.*

*Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakından məmnunluğunu bildirən Avropa Şurası Parlament Assambleyasının sədri Mövlud Çavuşoğlu forumun çox önəmli olduğunu və bu cür tədbirlərin Avropa Şurası ilə əməkdaşlıq məsələlərinə böyük dəstək verdiyini vurğuladı.*

*Dövlətimizin başçısı Avropa Şurası Parlament Assambleyasının sədri Mövlud Çavuşoğlunun Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakının önəmini vurğuladı. Bu cür beynəlxalq tədbirlərin ardıcıl olaraq keçirilməsinin vacibliyini bildirən prezident İlham Əliyev forumun həm bölgə, həm də Avropa və dünya üçün əhəmiyyətini qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında uğurlu əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## YUNESKO-nun KEÇMİŞ BAŞ DİREKTORU KOİŞİRO MATSUURA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də YUNESKO-nun keçmiş Baş direktoru Koişiro Matsuuranı qəbul etmişdir.*

*Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətini vurğulayan dövlətimizin başçısı Bakının artıq beynəlxalq səviyyəli mötəbər tədbirlərin keçirildiyi bir məkana çevrildiyini dedi. Prezident İlham Əliyev YUNESKO-nun keçmiş Baş direktoru Koişiro Matsuura ilə görüşlərini və Bakıda Novruz bayramını birlikdə qeyd etmələrini xatırladaraq onun forumda iştirakının önəmini vurğuladı.*

*Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna dəvət olunduğuna görə minnətdarlığını bildirən Koişiro Matsuura sivilizasiyalararası əməkdaşlığın genişlənməsində forumun əhəmiyyətini qeyd etdi. 2009-cu ildə Novruz bayramı münasibətilə Bakıda təşkil olunan mərasimlərdə iştirak etməsini məmnunluqla xatırladan Koişiro Matsuura həmin şənliklərin onda böyük təəssürat yaratdığını dedi.*

# ÜMUMRUSİYA DÖVLƏT TELERADİO VERİLİŞLƏRİ YAYIM ŞİRKƏTİNİN «ROSSİYA-24» RUSİYA İNFORMASİYA TELEKANALINA MÜSAHİBƏ

*Bakı*

*8 aprel 2011-ci il*

*Aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumrusiya Yayım Şirkətinin «Rossiya-24» Rusiya informasiya telekanalına müsahibə vermişdir.*

**M ü x b i r: Hər vaxtınız xeyir, cənab Prezident!**

**İ l h a m Ə l i y e v:** Hər vaxtınız xeyir.

**S u a l: Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlər haqqında soruşmaq istərdim. Bu münasibətlər kifayət qədər uğurla inkişaf edir. Siz özünüz üçün nəyi qeyd etmək istərdiniz? Bu il üçün hansı layihələr, hansı işlər planlaşdırılmışdır?**

**İ l h a m Ə l i y e v:** Bizim münasibətlər çox dinamik, ardıcıl və səmərəli inkişaf edir. Dövlət başçıları səviyyəsində siyasi əlaqələr çox yüksək səviyyədədir, mütəmadi olaraq qarşılıqlı səfərlər həyata keçirilir. Biz daim əlaqə saxlayırıq və qəbul etdiyimiz qərarlar real səmərə verir. Biz – hər iki tərəf haqlı olaraq münasibətlərimizi strateji tərəfdaşların münasibətləri kimi səciyyələndiririk. Biz qonşuyuq. Biz həmişə mehriban qonşuluq və dostluq prinsipləri üzrə yaşamışıq. Əsrlər boyu birlikdə, yanaşı yaşamışıq və çox vacibdir ki, Azərbaycanın müstəqil dövlət kimi təşəkkül tapdığı dövrdə bu müsbət meyillər qorunub saxlanmış və artırılmışdır.

İqtisadi sahədə əlaqələrimiz möhkəmlənir. Böhran dövründə bizdə əmtəə dövriyyəsi bir qədər azalmışdı, lakin indi onu

kompensasiya edirik və əmtəə dövriyyəsinin strukturu yaxşılaşır. Ticari münasibətlər baxımından Rusiya bizim mallar üçün bir bazar kimi, bizdə çox böyük maraq doğurur. Rusiya həm də idxal üzrə bizim əsas tərəfdaşımızdır. Azərbaycana ən çox idxal Rusiyadan daxil olur.

Humanitar sahədə də çox yaxşı nəticələr vardır. Bu il biz Rusiya və Azərbaycan prezidentlərinin təşəbbüsü ilə Bakıda I Beynəlxalq Humanitar Forum keçirəcəyik. Keçən il Rusiya–Azərbaycan humanitar forumu keçirilmişdi. O vaxt Bakıda Rusiya intellektual cəmiyyətinin, demək olar ki, elitası toplaşmışdı və yaxşı nəticələr əldə edilmişdi. Bütün istiqamətlər üzrə çox müsbət dinamika vardır. Hazırda biz enerji təchizatı sahəsində fəal əməkdaşlıq edirik. Hərbi-texniki sahədə əməkdaşlıq uğurla inkişaf edir. Bunlar son bir neçə ilin reallıqlarıdır. Yəni, biz münasibətlərimizi daha da möhkəmləndirmək əzmindəyik.

Yaxın keçmişdə imzalanmış mühüm sənədlərdən biri dövlət sərhədinin delimitasiyası barədədir. Hər iki ölkə üçün ən mühüm sənədlərdən biri olan bu müqavilə ölkənin öz qonşuları ilə sərhədlərini müəyyən edir. Bu sərhədlər qarşılıqlı maraqlar əsasında, ədalətlə müəyyən edilmişdir və bu müqavilə ölkələrimiz və xalqlarımız arasında ikitərəfli münasibətləri daha da möhkəmlədəcəkdir. Yəni, ikitərəfli münasibətlərimizdə təxirəsalınmaz həll tələb edən hər hansı bir məsələ yoxdur. Həll olunmalı nə vardısa – mən problemli məsələləri nəzərdə tuturam – hamısı həll edilmişdir. Gələcəkdə biz yalnız əməkdaşlığın müsbət potensialını artırmalıyıq.

**S u a l: Böhrandan sonrakı dövrdə Azərbaycan iqtisadiyyatı kifayət qədər yaxşı inkişaf edir. Siz yaxşı nəticələr göstərirsiniz. Lakin bununla belə, deyirsiniz ki, investisiya şəraitini yaxşılaşdırmaq lazımdır. Ümumiyyətlə, hazırda bu məsələ üzərində Rusiyada da fəal işləyirlər, həll yolları axtarırlar. Bəlkə Siz onu artıq tapmısınız?**

**İ l h a m Ə l i y e v:** Bunu demək çətindir. Əlbəttə, Rusiyanın və Azərbaycanın miqyasları müqayisəolunmazdır. Lakin

Azərbaycanda həyata keçirdiyimiz investisiya təşəbbüsləri yaxşı səmərə vermişdir. Bu ilk növbədə, xarici investisiyaların cəlb edilməsidir. Müstəqilliyin ilk dövründə bütün ölkələr – mən postsovet ölkələrini nəzərdə tuturam – çətin vəziyyətdə olanda bu bizim üçün zəruri idi. İqtisadiyyat dağıdılmışdı, daxili maliyyə ehtiyatları yox idi və xarici investisiyalar olmadan inkişaf etməyimiz çox çətin olardı. Buna görə də biz ilk növbədə energetika sahəsinə xarici investisiyaların cəlb edilməsi üzrə konkret proqram həyata keçirdik və sərmayədarlar üçün yaxşı şərait yaratdıq, onların sərmayələrini qanunvericilik yolu ilə tamamilə qoruduq. Bu əməkdaşlığın yaxşı nəticələrini indiyə qədər görürük. Yəni, neft-qaz sahəsinə qoyulmuş milyardlarla dollar sərmayə onunla nəticələndi ki, servis infrastrukturuna da, əlaqədar sahələrə də, sənayeyə də sərmayə qoyulmağa başlandı. Ölkəmizin inkişafının bu mərhələsində biz xarici investisiyalardan, demək olar ki, artıq asılı deyilik. Hərçənd, keçən ilin göstəricilərinə nəzər salsaq, bütövlükdə iqtisadiyyata qoyulmuş 15,5 milyard dollar sərmayənin 8 milyardı daxili, 7 milyardı xarici investisiyalar olmuşdu. Yəni, hətta böhranlı dövrdə də Azərbaycanın əcnəbi sərmayədarlar üçün cəlbediciliyi davam edir. Mənim fikrimcə, bu ilk növbədə, artıq dediyim kimi, ölkədə yaxşı investisiya mühiti, xarici sərmayələrin qorunması, eləcə də ölkənin dinamik inkişafı nəticəsində baş verir. Çünki xarici pullar oraya sərf edilir ki, orada müəyyən nəticələr vardır, gələcəyi görmək mümkündür, sabitlik vardır, sərmayədarlar özlərini inamlı hiss edir və bilirlər ki, bəlkə də 10–15 il bundan əvvəl imzalanmış müqavilələrin şərtlərini heç kəs dəyişdirə bilməz.

Biz dövlət investisiya şirkəti yaratmışıq. Bu şirkət ölkəmiz üçün mühüm investisiya layihələrində 20 faiz həcmində iştirak edir və bu da müsbət nəticə verir. Buna görə də gələcəkdə biz, əlbəttə, investisiyalar cəlb etmək niyyətindəyik. Lakin hətta bunlar olmasa da Azərbaycan iqtisadiyyatı yaxşı potensial qazanmışdır və dinamik şəkildə inkişaf edəcəkdir.

**S u a l: Hazırda Nabukko qaz kəməri məsələsi fəal müzakirə olunur və deyirlər ki, bu məsələni yalnız Azərbaycan dövləti həll edə bilər. Bu dövlət hansı qərarı qəbul edəcəkdir, qaz kəməri yaradılacaq, ya yox? Bu, Rusiyanın «Cənub axını» layihəsinin alternatividir? Xahiş edirəm, bu məsələni şərh edin.**

**İ l h a m Ə l i y e v:** Avropanın təbii qaza tələbatının artacağını, yeni alternativ mənbələrin isə əslində olmamasını nəzərə alsaq, qərbli tərəfdaşların marağını başa düşmək olar. Xüsusən ona görə ki, Azərbaycan coğrafi baxımdan avropalı istehlakçılardan o qədər də uzaqda deyildir. Nəzərə almalıyıq ki, bizim qazı Türkiyəyə nəql edən işlək qaz kəməri artıq mövcuddur. Yəni, həm coğrafiya, həm də infrastruktur buna şərait yaradır ki, gələcəkdə qaz satacaq bir ölkə kimi, Azərbaycana maraq göstərilsin.

Bizim prioritetlərə gəldikdə isə, ilk növbədə, özümüzdə enerji təhlükəsizliyi məsələləri ilə məşğul olurduq. Mənim fikrimcə, bu gün neft üzrə hasilatı, demək olar ki, maksimuma – gündə bir milyon barrelə çatdırmışıq. Prinsip etibarilə hasilatın bu səviyyəsi bizi tamamilə qane edir və sosial-iqtisadi xarakterli məsələləri həll edə bilməyimiz üçün ölkə iqtisadiyyatına maliyyə vəsaitləri axınına imkan verir. Buna görə də hazırda qarşımızda maliyyə resurslarının təcili zərurəti baxımından belə bir məsələ dayanmır. Buna görə də biz qaz sahəsində əməkdaşlığı uzunmüddətli layihə hesab edirik. Bu layihə bütün tərəflərin maraqları üst-üstə düşdüyü halda reallaşdırıla bilər.

Bu gün bizim qaz potensialımız regional bazarda reallaşır. Biz elektrik enerjisi kimi, qazı da bütün qonşu ölkələrə – Rusiyaya, Türkiyəyə, Gürcüstana, İrana nəql edirik. Bu ənənəvi istiqamətlər üzrə satışı artırmaq potensialı da vardır. Beləliklə, bu gün biz öz qaz ehtiyatlarımızın müəyyən hissəsinin satışını, demək olar ki, təmin edirik. Digər tərəfdən, imkanlarımız və istehsal, hasilat və nəqletmənin potensial həcmləri bugünkü regional bazarların imkanlarından qat-qat çoxdur. Təbii ki, bu halda qarşımızda ya yeni bazarlara çıxış yolları axtarmaq, ya da

ənənəvi istiqamətlər üzrə ixracı artırmaq vəzifəsi durur. Sizin Nabukko barədə sualınızı daha da konkretləşdirərək deyə bilərəm ki, biz bu layihəni dəstəkləyirik, lakin qarşılıqlı maraqların nəzərə alınması şərtilə. İlk növbədə kommersiya maraqları təmin edilməlidir, qiymət ədalətli olmalıdır.

Bizim qazın tranziti ilə bağlı suallar çoxdur. Son istehlakçının qiyməti necə olacaqdır? Yeni qaz kəmərinin tikintisini kim maliyyələşdirəcəkdir? Azərbaycanın tranzit ölkə kimi rolu nədən ibarət olacaqdır? Axı aydındır ki, Nabukko kəmərini təkcə Azərbaycanın qaz ehtiyatları ilə doldurmaq mümkün olmayacaqdır. Deməli, bunun üçün Mərkəzi Asiyadan qaz gətirmək lazım olacaqdır. Kommersiya məsələləri, texniki məsələlər, siyasi razılaşdırmalar ilə kim məşğul olacaqdır? Demək istəyirəm ki, aydın olmayan məqamlar və eyni zamanda, həlli tələb edilən məsələlər çoxdur.

Lakin bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında «Cənub» nəqliyyat dəhlizi haqqında deklarasiya imzalanmışdır. Bizim Energetika nazirinin və Avropa İttifaqının energetika üzrə komissarının başçılıq etdiyi birgə işçi qrupu yaradılmışdır. Onlar «Cənub» dəhlizi layihəsinin həyata keçirilməsi çərçivəsində məsləhətləşmələrə başlamışlar. Lakin bu təkcə Nabukko deyildir. Orada daha bir neçə, ən azı iki variant vardır. Hazırda həmin variantlar fəal müzakirə edilir. Buna görə də əgər danışıqlar uğurlu olarsa və tərəflərin bütün maraqlarına riayət edilərsə, biz, əlbəttə, daha bir qaz bazarına çıxmaqda maraqlı olacağıq. Lakin bütün bunlar danışıqların necə keçəcəyindən və Azərbaycanın maraqlarının nə dərəcədə nəzərə alınacağından asılı olacaqdır.

**S u a l: Ekspertlər deyirlər ki, Xəzəryanı dövlətlərə sərmayə qoyulması üçün dəqiq şərtlər olması zəruridir. Siz necə düşünürsünüz, nəyə görə indiyə qədər inteqrasiya yoxdur? Hansı məqamlar qeyd edilməmişdir, nə lazımdır, nə barədə razılığa gəlmək lazımdır?**

**İ l h a m Ə l i y e v:** Keçən il biz Bakıda Xəzəryanı dövlətlərin çox uğurlu sammitini keçirdik və ilk növbədə bioloji resurslar barəsində yaxşı qərarlar qəbul etdik. Biz nərəkimilərin

ovlanmasına moratorium qoyulması barədə proqram hazırlamağı müvafiq qurumlara tapşırdıq. Biz, həmçinin ərazi suları barədə məsələləri ən yaxın vaxtda hazırlamaq və razılaşdırmaq barədə dəqiq tapşırıqlar verdik. Enerji ehtiyatlarına gəldikdə isə, bu halda hər bir ölkə Xəzər dənizinin ona aid sektorunda yerləşən yataqları işlədir və burada yəqin ki, çoxtərəfli münasibətlərdən daha artıq, ikitərəfli münasibətlər barədə danışmaq olar. Ən başlıcası isə Xəzər dənizinin hüquqi statusunu qəti surətdə tənzimləməliyik, bu məsələ indiyə qədər həll edilməmişdir. Lakin bunun üçün artıq yaxşı zəmin vardır. Bunlar ilk növbədə, Rusiya ilə Azərbaycan arasında, Rusiya ilə Qazaxıstan arasında və Qazaxıstan ilə Azərbaycan arasında imzalanmış ikitərəfli sazişlərdir. Bu üç ölkə öz aralarında bütün məsələləri beynəlxalq hüquq normaları əsasında razılaşdırmışlar. Buna görə də əgər bu yanaşma beştərəfli saziş üçün əsas kimi götürülərsə, biz Xəzərlə bağlı məsələləri ən qısa müddətdə tənzimləyə bilərik.

Bununla bərabər, deməliyəm ki, hətta hüquqi statusun tənzimlənmədiyi bugünkü vəziyyət də Xəzəryanı ölkələr arasında mehriban qonşuluq münasibətlərinin inkişafı üçün əngəl deyildir. Biz maraqlıyıq ki, bütün Xəzəryanı ölkələr inteqrasiya proseslərinə indikindən qat-qat fəal cəlb edilsinlər, xüsusən ona görə ki, bu beş ölkədən dördü keçmiş Sovet İttifaqı ölkəsidir, onlar bir-biri ilə daim əlaqədə olan MDB ölkələridir. Zənnimcə, biz tədricən bu istiqamətdə hərəkət edəcəyik. Mən Xəzər üzrə Bakı Sammitini irəliyə doğru mühüm müsbət addım hesab edirəm.

**S u a l: Karbohidrogenlərin hasilatı və Sizin yeni satış bazarları axtarmağınız mövzusuna qayıdıram. Məsələn, 2030-cu ildə Sizin öz qazınızı nəql edə biləcəyiniz elə həmin Avropaya, yaxud hər hansı başqa dövlətlərə nə lazım olacağını qiymətləndirmisinizmi? Bəlkə onlara heç xammal lazım deyil?**

**İ l h a m Ə l i y e v:** Şübhəsiz, biz bu cür qiymətləndirmələr aparmışıq. Əlbəttə, 2030-cu ilə qədər hansı yeni enerji növləri yaranacağını qabaqcadan güman etmək və proqnozlaşdırmaq

çətindir. Hazırda, məsələn, Avropanın texniki, elmi təfəkkürünün, o cümlədən alternativ mənbələr axtarışına yönəldiyini nəzərə alsaq, onların axtarışlarının nə dərəcədə uğurlu olacağını demək bizim üçün çətindir. Lakin hər şey indiki kimi gedərsə və ənənəvi enerji mənbələrindən asılılıq ən azı indiki səviyyədə qalarsa, Avropaya qaz nəqlinin bugünkü həcmi onlar üçün kifayət etməyəcəkdir. Avropa üçün ən iri qaz təchizatçısı olan Rusiya, bildiyimə görə, onlara hər il təqribən 150 milyard kubmetr qaz göndərir. Buna baxmayaraq, həmin həcm avropalılar üçün kifayət etməyəcəkdir. Elə bu səbəbə görə də onlar bu gün əlavə mənbələrə maraq göstərirlər. Əlbəttə, deyək ki, Azərbaycana və Mərkəzi Asiya ölkələrinə bu cür marağın səbəbləri barədə mühakimə yürütmək və onlara bu cür qiymət və şərh vermək mənim üçün çətindir. Lakin düşünürəm ki, onlar siyasi motivlərdən daha çox praqmatizmi əsas tuturlar. Ona görə ki, dəqiq 2030-cu il üçün Avropada qaz satışı ilə əlaqədar ciddi qıtlıq yarana bilər. Bu isə, əlbəttə, nəinki iqtisadi inkişafı ləngidər, hətta, ümumiyyətlə, çox ciddi nəticələrə gətirib çıxara bilər.

Buna görə də onlar dünyanın enerji xəritəsinə baxanda və görəndə ki, çox böyük, hətta mən deyərdim ki, toxunulmamış qaz ehtiyatlarına malik olan Azərbaycan kimi bir ölkə vardır – çünki burada ənənəyə görə neft çıxarılmışdır, qaza isə nədənsə diqqət yetirilməmişdir – əlbəttə, onlar maraq göstərirlər. İndiki halda mən belə hesab edirəm ki, istehsalçıların və istehlakçıların, zəruri hallarda isə tranzit ölkələrin səylərini əlaqələndirmək və birgə fəaliyyət göstərmək ən optimal variant olardı. Bu halda qaz üzrə əməkdaşlıq məsələləri qeyri-sağlam rəqabət, yaxud hansısa qarşıdurma məsələlərinə çevrilməzdi. İstehsalçılar öz mənafelərini müdafiə etməlidirlər. Bu halda istehsalçı və tədarükçü ölkələr kimi, Rusiyanın və Azərbaycanın, əlbəttə, öz maraqları, istehlakçıların isə öz maraqları vardır. Bütün bu maraqları ümumi məxrəcə gətirmək, konsensusa nail olmaq və bu əsasda əməkdaşlığın perspektivləri barədə razılığa gəlmək lazımdır. Əgər bu baş verməsə, müxtəlif anlaşılmazlıqlar, yaxud o qədər də düzgün

olmayan qiymətləndirmələr energetika sahəsində əməkdaşlığın ümumi mənzərəsini korlayacaqdır. Ona görə ki, zənnimcə, bu biznesdə hər şey çox dəqiq müəyyən edilməlidir, hər bir tərəf özünün öhdəliklərinin və maraqlarının dərəcəsini bilməlidir ki, kiminsə yolunu kəsməsin, eləcə də özünün potensialının və öz iqtisadiyyatının inkişafını süni şəkildə ləngitməsin.

Azərbaycana gəldikdə isə, sizə deməliyəm ki, bu il Azərbaycanda 28 milyard kubmetr qaz hasil edilmişdir. Bunun təqribən 10-11 milyard kubmetri bizim daxili tələbatımızdır, qalanı isə ixrac resurslarıdır. Lakin bizdə ixracın hələlik məhdud olması ilə əlaqədar, eləcə də neft laylarında təzyiqi saxlamaq üçün bu qazın bir hissəsi yenidən laylara vurulur. Buna görə də bu gün malik olduğumuz resursa qaz bazarlarında artıq tələbat ola bilər. Bundan əlavə, təqribən 20 milyard dollar əlavə sərmayə qoyulsa, biz qaz hasilatını təqribən 15 milyard kubmetr, bəlkə də daha çox artıra bilərik. Lakin bu sərmayələri qoymaq üçün müqavilələr olmalıdır, bazarlar olmalıdır. Ona görə ki, qaz biznesində bunlarsız mümkün deyildir. Yəni, burada hər şey qarşılıqlı əlaqəlidir, buna görə də hər şeyi planlaşdırmaq və razılaşdırmaq lazımdır.

**S u a l: Yaxın Şərqdə, Şimali Afrikada vəziyyət hazırda neftin qiymətini kəskin şəkildə artırmışdır. Siz Dövlət Neft Fonduna daxil olan bütün bu gəlirlərdən ölkənin inkişafı üçün necə istifadə edəcəksiniz? Axı bir tərəfdən, əgər pensiyalar, sosial ödənişlər artırılırsa, bu ona gətirib çıxaracaqdır ki, inflyasiya göstəriciləri yüksələ bilər. Bu isə heç də yaxşı hal deyildir. Digər tərəfdən, əlbəttə, bu sosial ödənişləri artırmaq zəruridir. Azərbaycanda hansı qərar qəbul ediləcəkdir?**

**İ l h a m Ə l i y e v:** Bizdə bu məsələlər kifayət qədər səmərəli tənzimlənir. Əlbəttə, biz hər il əməkhaqqını və pensiyaları artırırıq. Bu proses davam etməlidir, çünki hətta bu gün də minimum əməkhaqqının və pensiyanın səviyyəsi heç kəsi qane edə bilməz. Hərçənd, son bir neçə ildə biz işsizlik məsələsini çox ciddi

həll edə bilmişik. Son 7 ildə 900 min yeni iş yeri yaradılmışdır və elə həmin 7 il ərzində yoxsulluq səviyyəsini təqribən 50 faizdən 9 faizə endirməyə nail olmuşuq. Buna baxmayaraq, hesab edirəm ki, 9 faiz də çoxdur. Buna görə də əməkhaqqının və pensiyaların artırılması üzrə sosial proqramlar davam etdiriləcəkdir, təbii ki, sizin qeyd etdiyiniz kimi, inflyasiya riskləri nəzərə alınmaqla. Lakin bununla paralel olaraq biz neft gəlirlərindən, ilk növbədə, infrastruktur layihələrinin inkişaf etdirilməsi, regionlarda şəraitin yaradılması, elektrik stansiyaları, qaz təchizatı obyektləri, xəstəxanalar, məktəblər, yolların tikintisi, sahibkarlara kreditlərin verilməsi üçün istifadə edirik. Biz hər il özəl sektor üçün bir neçə illiyə güzəştli kreditlərin verilməsi məqsədi ilə böyük məbləğ ayırırıq. Bununla regionlarda iş yerləri yaradılır, insanlar əməkhaqqı almadan, özlərinin sahibkarlıq fəaliyyəti hesabına pul qazanırlar.

Biz iqtisadi siyasətimizi çox ciddi qaydada liberallaşdırmışıq. Bizim qanunvericiliyimiz çox liberaldır və bizneslə məşğul olmaq üçün heç bir bürokratik qərarlar tələb olunmur. Mən bilən, istənilən adam üç gün müddətində şirkətini qeydiyyatdan keçirərək biznes fəaliyyətinə başlaya bilər. Üstəlik, artıq dediyim kimi, dövlət də bu fəaliyyəti güzəştli kreditlərlə stimullaşdırır.

**S u a l: Daha bir sualım artıq 17 ildir ki, müzakirə edilən məsələ barədədir. Bu, Dağlıq Qarabağ məsələsidir. Siz bu məsələnin həlli perspektivlərini və danışıqlarda iştirak edən tərəflərin rolunu necə qiymətləndirirsiniz? Əlbəttə, mən o cümlədən Rusiyanı da nəzərdə tuturam.**

**İ l h a m Ə l i y e v:** Biz Rusiyanın rolunu çox yüksək qiymətləndiririk. Prezident Dmitri Anatolyeviç Medvedev tərəflərin tənzimləməyə nail olmasına kömək etmək üçün çox səy göstərir. Onun təşəbbüsü ilə bir neçə üçtərəfli görüş keçirilmişdir. Bu görüşlər böyük əhəmiyyət kəsb edir və müsbət effekt verir. Təəssüf ki, uzun illər boyu bu münaqişə tənzimlənməmiş qalır və biz ümid edirik ki, ən yaxın vaxtda irəliləyişə nail olacağıq. Neçə illər keçməsinə və praktiki olaraq bütün

beynəlxalq təşkilatların müvafiq qərarlar və qətnamələr qəbul etməsinə baxmayaraq, münaqişə hələ də tənzimlənməmişdir. BMT Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasına dair dörd qətnamə qəbul etmişdir və onların heç biri reallaşmamışdır. Təhlükəsizlik Şurasının Liviyaya dair qətnamələri qəbul ediləndən, sözün həqiqi mənasında, bir neçə saat sonra onların həyata keçirilməyə başlanmasını, Dağlıq Qarabağa dair qətnamələrin isə artıq 17-18 ildən bəri həyata keçirilmədiyini görəndə təbii olaraq belə bir sual yaranır: nə üçün? Burada bu cür operativliyə, bizimlə bağlı halda isə bu cür passivliyə səbəb nədir? Buna görə də biz vasitəçilərin, ilk növbədə Minsk qrupu həmsədrlərinin və regional ölkə kimi, bizim qonşumuz Rusiyanın son vaxtlar fəal rolunu nəzərə alaraq onların daha fəal iştirakına ümid edirik.

**M ü x b i r: Müsahibə üçün çox sağ olun.**

**İ l h a m Ə l i y e v:** Sağ olun.

# SURAXANI RAYONUNUN BÜLBÜLƏ, BİNƏQƏDİ RAYONUNUN BİLƏCƏRİ QƏSƏBƏLƏRİNDƏ VƏ SULUTƏPƏ YAŞAYIŞ SAHƏSİNDƏ GÖRÜLMÜŞ ABADLIQ VƏ QURUCULUQ İŞLƏRİ İLƏ TANIŞLIQ

*11 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətində şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına həsr olunmuş müşavirədə kənd və qəsəbələrdə abadlıq və quruculuq işlərinə dair verdiyi tapşırıqların icrası ilə yerində tanış olmaq üçün ayrı-ayrı yaşayış sahələrində olmuşdur.*

*Martın 31-də prezident İlham Əliyev Suraxanı rayonunun Bülbülə qəsəbəsində görülmüş işlərlə tanış olarkən sakinlər Heydər Əliyev prospektinə çıxmaq üçün yeni yolun salınmasını dövlətimizin başçısından xahiş etmişdilər. Prezident İlham Əliyev həmin yolun salınması ilə bağlı yerində tapşırıqlar vermişdi. Dövlət başçısının tapşırıqları qısa vaxt ərzində yerinə yetirilmişdir.*

*Aprelin 11-də Bülbülə qəsəbəsini Heydər Əliyev prospekti ilə birləşdirən yeni əlavə yol istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülmüş işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi. Yolun 4950 kvadratmetrlik hissəsində asfalt işlərinin aparıldığı, piyadaların rahat hərəkəti üçün qranitdən 110 metrlik uzunluğunda xüsusi səkilərin düzəldildiyi qeyd olundu. Girişli-çıxışlı yolun kənarlarındakı 2000 kvadratmetr ərazidə yaşıllıq zolaqları salınmış, 200-dən yuxarı müxtəlif ağac və gül kolları*

*əkilmişdir. Yolda müasir işıqlandırma sistemi də quraşdırılmışdır. Bildirildi ki, bütövlükdə Suraxanı rayonunun ayrı-ayrı kənd və qəsəbələrinin məhəllədaxili yollarının 36,5 min kvadratmetrlik hissəsinə yeni asfalt döşənmişdir.*

*Dövlətimizin başçısı sakinlərlə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Bir həftə ərzində ikinci dəfədir görüşürük. Çox şadam ki, dediyiniz bu məsələ qısa müddət ərzində öz həllini tapıbdır.

**S a k i n:** Əgər gözlərimizlə görməsəydik, inanmazdıq. Sizinlə görüşümüzün səhəri günü işə gedəndə artıq burada iş başlanılmışdı. Çox sevinirik. Sizə minnətdarıq, cənab Prezident. Bilirik ki, bu yolun davamı gözəl işıq dirəkləri, rahat səkilərlə «Atəşgah» məbədinə qədər uzanacaqdır. Eşitmişik ki, bu yol istismara veriləndən sonra qəsəbədaxili yollar da əsaslı təmir ediləcəkdir.

Məktəb tikintisi ilə bağlı verdiyiniz sərəncam, ayrılan vəsait bizi ürəkdən sevindirir. Bir müddət əvvəl qaza olan borclarımızı, bu günlərdə isə su və kanalizasiya xidməti borclarını əhaliyə bağışlamağınızın bizdə doğurduğu sevincin həddi-hüdudu yoxdur. Sizə minnətdarlığımızı bildirmək üçün söz tapa bilmirik. Çox sag olun.

**İ l h a m Ə l i y e v**: Mən çox şadam ki, qısa müddət ərzində Bakı qəsəbələrində sürətli işlər gedir. Keçən dəfə sizinlə görüşə məhz o məqsədlə gəlmişdim ki, sizdən eşidim, soruşum ki, hansı işlər görülməlidir?! Çünki mən ümumi tapşırıq vermişdim ki, su və kanalizasiya, qazlaşdırma, işıq xətlərinin, yolların çəkilişi məsələləri həll olunsun. Ancaq siz deyəndə ki, ən vacib olan məsələ bu yoldur, gəldim, vəziyyətlə şəxsən tanış oldum, göstəriş verdim. Bir həftə ərzində belə gözəl yol çəkildi. İndi qəsəbəyə giriş-çıxış çox rahatdır. Bu ərazi indi daha gözəl və yaraşıqlı olacaqdır.

Qəsəbənin bütün məsələləri ilə bağlı konkret proqramlar hazırlanır, ilkin vəsait ayrılıbdır. Əminəm ki, bu ay bütövlükdə qəsəbələrin proqramı təsdiq olunacaq və ondan sonra daha da böyük həcmdə quruculuq işləri aparılacaqdır. Sizin xahişiniz və

verilən tapşırıqlar nəticəsində bunu qısa müddət ərzində edə bildik. Bütün başqa məsələləri də həll edəcəyik.

Məktəbin açılışında da bərabər iştirak edəcəyik, digər məsələlərin həlli ilə bağlı görüşəcəyik. Bu, böyük və genişmiqyaslı proqramdır, bütün qəsəbələri əhatə edəcəkdir. O ki qaldı su borclarının silinməsinə, bilirsiniz ki, Azərbaycanda çox güclü sosial siyasət aparılır. İndi biz elə etməliyik ki, insanlar daha da rahat yaşasınlar. Biz bilirik ki, bəzi insanların imkanı hələ ki, məhduddur. O borclar uzun illərdir ki, yığılıbdır. Onların hesablanmasında da müəyyən çətinliklər olmuşdur. Ona görə bu məsələnin birdəfəlik həlli üçün qərar qəbul etdik ki, borclar silinsin. Amma o şərtlə ki, bundan sonra su tarifləri ödənilsin.

* * *

*Bülbülə qəsəbəsində yeni yol istifadəyə verildikdən sonra prezident İlham Əliyev Binəqədi rayonunun Biləcəri qəsəbəsinə gəldi. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov Biləcəri qəsəbəsinin sxemi əsasında qəsəbədə asfalt örtüyü döşənməsinə ehtiyac olan məhəllədaxili küçələr barədə dövlətimizin başçısına məlumat verdi.*

*Bildirildi ki, 60 min nəfər sakini olan Biləcəri qəsəbəsində uzunluğu 25,3 kilometr, sahəsi 159,3 min kvadratmetr olan məhəllədaxili yolların əsaslı şəkildə təmir olunması nəzərdə tutulur. Hazırda qəsəbədaxili yolların 10 min 500 kvadratmetr hissəsinə yeni asfalt döşənib. 6 min kvadratmetr hissəsində isə asfalt döşənilməsi üçün hazırlıq işləri başa çatıb.*

# BİLƏCƏRİ QƏSƏBƏ SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*11 aprel 2011-ci il*

*Görülmüş işlərlə tanışlıqdan sonra dövlətimizin başçısı qəsəbə sakinlərilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Salam, hər vaxtınız xeyir.

Bütün qəsəbələrdə işlər gedir. Bu yaxınlarda Bakı qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul olunacaqdır. Proqramda hər bir qəsəbəyə aid xüsusi məsələlərin həlli də nəzərdə tutulub. Ona görə mən bütün qəsəbələri gəzirəm, insanlarla görüşürəm ki, onları narahat edən məsələləri məhz özlərindən eşidim. Hansı məsələlər birinci dərəcəlidirsə, biz bütün işləri lazımi səviyyədə görək.

Biz indi qəsəbələrdə yolların çəkilişi ilə ciddi məşğuluq. Biləcəri qəsəbəsində də bu proses başlamışdır. Burada yolların əksər hissəsi torpaq yollardır. Qış aylarında yollardan keçmək o qədər də asan deyildir. Ona görə də yolların çəkilişi birinci dərəcəli məsələdir. Digər bütün məsələlər də öz həllini tapmalıdır. Biləcəri böyük qəsəbədir, əhalinin sayı da kifayət qədər çoxdur. Böyük maliyyə resursları tələb edən proqramdır. Ancaq biz bunu etməliyik.

İndi bütün rayonlarda quruculuq işləri gedir. Hər bir rayonda məktəb, xəstəxana tikilir, qaz xətləri, su xətləri çəkilir. Bakı qəsəbələrində də bu işlər yüksək səviyyədə görülməlidir. Bakıda 40-dan yuxarı qəsəbə vardır. Bu qəsəbələrdə 800 mindən artıq əhali yaşayır. Bu insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün Azərbaycan dövləti nə lazımdırsa, onu edəcəkdir.

Biləcəridə bu məsələlərin böyük hissəsi öz həllini tapıb. Qazlaşdırma 100 faizdir, elektrik enerjisi ilə bağlı, ümumiyyətlə, ölkə daxilində heç bir problem yoxdur. Kanalizasiya

xətləri var, suyun verilməsi təmin edilir. Buna görə sizdən də eşitmək istəyirəm ki, birinci növbədə hansı məsələlərin həlli vacibdir. Necə edək ki, bu qəsəbədə bütün infrastruktur, sosial məsələlər öz həllini yüksək səviyyədə tapsın? Bu məqsədlə gəlmişəm ki, sizdən eşidim, əlavə biz nə etməliyik?

**S a k i n:** Hörmətli cənab Prezident! Mən Sizi qəsəbəmizin 60 minlik əhalisi adından səmimi salamlayıram. Xoş gəlmisiniz! Biləcəri Azərbaycanın bir növ qapısıdır. Burada böyük dəmiryol qovşağı yerləşir. Son vaxtlar Biləcəridə Beynəlxalq avtovağzal tikilmişdir. Rahatlığına, böyüklüyünə, xalqımıza xidmətinə görə bəlkə dünyada analoqu olmayan bir tikilidir. 1881-ci ildə ilk dəfə Biləcəridə dəmir yolunun altından bir tunel keçib ki, bu da arabalar, furqonlar üçün nəzərdə tutulmuşdu. İnsanlar əziyyət çəkirdilər. Sizin göstərişiniz nəticəsində qısa müddətdə iki tunel çəkildi və Biləcəri əhalisinin rahatlığı təmin edildi. Biləcəridə, ümumiyyətlə, qaz, su, elektrik enerjisi problemi həqiqətən yoxdur.

Cənab Prezident, mən Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasında işləyirəm. Sizin xarici və daxili siyasətiniz bir harmoniya təşkil edir, bir-birini tamamlayır. Biz nisbətən kiçik ölkə olmağımıza baxmayaraq, dünyanın böyük dövlətləri sırasında adımız vardır. Ulu öndər Heydər Əliyevdən aldığınız dərs və uzun illər ərzində əldə etdiyiniz təcrübə imkan verir ki, Siz uğurlu daxili və xarici siyasət yeridəsiniz.

Hörmətli Prezidentimiz, biz Sizdən olduqca razıyıq. Sizə uzun ömür, cansağlığı, Azərbaycanın inkişafı, tərəqqisi naminə səmərəli fəaliyyət arzulayırıq.

**İ l h a m Ə l i y e v**: Çox sağ olun. Təşəkkür edirəm. İndi ölkəmizdə doğrudan da işlər yaxşı gedir. Hər bir bölgədə, hər bir yerdə quruculuq, abadlıq işləri aparılır. Ölkə iqtisadiyyatı artır, sənaye müəssisələri yaradılır, işsizlik aradan qaldırılır. Sadəcə olaraq, mən istəyirəm ki, bu proseslər daha da sürətlə getsin və hər bir kəndi, hər bir qəsəbəni əhatə etsin. Mənim məqsədim budur. Azərbaycanda elə bir rayon yoxdur ki, orada

olmayım, kəndlərdə də tez-tez oluram. Məndə məlumat var, ölkədə mövcud olan problemlər haqqında da bilirəm. Sadəcə olaraq, problemlərin həlli üçün biz elə etməliyik ki, qısa müddət ərzində yaxşı nailiyyətlərə çata bilək. Problem düzgün təhlil edilməlidir, araşdırılmalıdır və düzgün qərarlar qəbul edilməlidir.

Bu gün Azərbaycanın sənaye və iqtisadi potensialı elədir ki, istənilən məsələni həll edə bilərik. Siz təhsil işçisi kimi, bunu yaxşı bilirsiniz ki, son illərdə ölkəmizdə 2 mindən artıq məktəb tikilib. Bütövlükdə məktəblərin sayı Azərbaycanda 5 minə yaxındır. Bütün dövrlərdə 5 min məktəb tikilmişdir ki, onların 2 mini son illərə aiddir. Bu il və gələn il qəzalı məktəblərin hamısını biz yenidən quracağıq. Belə məktəblərin sayı hələ ki, kifayət qədərdir – təqribən 200–300 məktəb qəzalı vəziyyətdədir.

Səhiyyə sisteminin yaxşılaşdırılması, keyfiyyətli tibb xidmətinin göstərilməsi, yeni müasir avadanlıqların alınması məsələləri, bu yollar, qazlaşdırma. İndi hər bir evə qazın verilməsi məsələsi həll olunur. Bakıda bütövlükdə bu məsələ öz həllini tapmışdır. Elektrik enerjisi ilə bağlı məsələ öz həllini tapmışdır. Elektrik enerjisini xaricə də ixrac edirik. Vaxt var idi, qaranlıqda yaşayırdıq, Bakıda işıq fasilələrlə verilirdi. İndi o, artıq tarixdir.

Hazırda Bakı qəsəbələrinin sosial-iqtisadi inkişafı proqramının qəbul edilməsi yeni bir mərhələdir. Bakı kəndlərində yeni bir dövr başlayır. Bakı kəndlərinin böyük tarixi, böyük ənənələri var və bu kəndlər, qəsəbələr inkişaf etməlidir. İş yerlərinin yaradılması məsələləri öz həllini tapacaqdır. Qəsəbələrdə yaşayan insanlara kreditlər veriləcək, yeni müəssisələrin yaradılması nəzərdə tutulub. Elə qəsəbələr var ki, onlar şəhərə birləşib, şəhərin bir parçasıdır. Elə qəsəbələr var ki, orada daha çox kənd həyatı tərzi müşahidə olunur. Ona görə, biz hər bir qəsəbənin inkişafına fərdi qaydada yanaşmalıyıq. Ancaq bir məsələ var ki, bütün qəsəbələrə aid etmək olar – bu, yollar

məsələsidir. İndi qəsəbələrin yollarının, demək olar ki, əksəriyyəti torpaq yollarıdır və bu dözülməzdir.

Bakı şəhərində və ətrafında torpaq yolları olmamalıdır. Biz bundan başlamışıq və ondan sonra bütün başqa məsələlər öz həllini tapacaqdır. Mən buna şübhə etmirəm və proqram qəbul olunana qədər istəyirəm ki, sizdən eşidim, əlavə nə etmək lazımdır? Hansı məsələlər var ki, onları biz operativ şəkildə həll edək?!

**S a k i n:** Cənab Prezident, qəsəbəmizə xoş gəlmisiniz! Sizin verdiyiniz sərəncam və göstərişlər bizim qəsəbədə çox diqqətlə yerinə yetirilir, yollar asfaltlanır, işıqlandırılır, küçələr abadlaşdırılır. Su, qaz, işıq problemi ötən illərdə həll olunub. Cənab Prezident, Sizin verdiyiniz sərəncamla əhalinin qaza olan borcları silindi. Bu il isə yenidən sərəncam verdiniz, su borcları silindi. Bu da aztəminatlı ailələr üçün böyük bir güzəştdir. Bundan əlavə, qeydiyyatsız evlərin sənədləşdirilməsi ilə bağlı da sərəncam verdiniz. Bunun üçün Sizə minnətdarıq.

Sizin bir sözünüz təhsil işçisi olaraq, mənim həmişə yadımdadır. Uşaqlarımız yaxşı məktəblərdə oxumalıdır. Həmin yaxşı məktəblər bizim Biləcəri qəsəbəsində də vardır. Hamısı kompyuterləşdirilib, internet şəbəkəsinə qoşulub, şagirdlər evlərində istifadə edə bilmədikləri proqramı məktəbdə istifadə edə bilirlər, tədrisə aid vəsaitlər əldə edirlər. Fərdi qazanxanamız vardır. Bütün bunlar Sizin qayğınız sayəsində bilavasitə təhsilin keyfiyyətinin yüksəldilməsinə böyük köməkdir.

**İ l h a m Ə l i y e v**: Çox sağ olun. Mən bundan sonra da çalışacağam ki, əlimdən gələni edim, ölkəmizdə işlər lazımi səviyyədə təşkil olunsun.

Sizə deyə bilərəm ki, dünya praktikasında belə hallara çox nadir hallarda rast gəlinir. Bu, balaca məbləğ deyil, 300 milyon manata yaxın bir məbləğdir. Elə vətəndaşlar, aztəminatlı ailələr var ki, onu ödəyə bilmirlər. Vaxtilə dediyiniz kimi, qaz borcları da silindi və bundan sonra artıq qazın pulu, demək olar ki, yüksək səviyyədə ödənilir. Nəzərə alsaq ki, Azərbaycanda qazın tarifləri

qonşu ölkələrlə müqayisədə 3 dəfə aşağıdır, hesab edirəm ki, bu, böyük çətinlik yaratmamalıdır.

Su məsələlərinin həlli də eyni qaydada öz nəticəsini tapmalıdır. Bakıya böyük su kəməri çəkilir. İndi o tədricən işə başlayır. Digər layihələr də müzakirə olunur. Hər bir qəsəbənin su-kanalizasiya proqramı ayrıca bir layihə kimi öz həllini tapmalıdır. İndi Biləcəridə bu problem yoxdur. Amma əksər qəsəbələrdə, kəndlərdə bu problem çox ciddi şəkildə qarşıda durur. Kanalizasiya, içməli su ilə təminat həmişə bizim ağrılı yerimiz olubdur. Nəinki Bakıda, hər bir bölgədə.

Azərbaycanda su ehtiyatları məhduddur. Əsas su mənbələrimiz ölkə xaricində formalaşır. Daha çox Kür çayının suyundan istifadə edirik. Samur çayının suyundan da istifadə edirik ki, onun da böyük əksəriyyəti xaricdə formalaşır. Oğuz–Qəbələ–Bakı su kəmərinin məqsədi isə ondan ibarətdir ki, bu resurslar daxili mənbələr hesabınadır. Necə ki, işıq problemini, qaz problemini həll etmişik, növbəti illərdə içməli su və kanalizasiya problemləri də öz həllini tapacaqdır.

Yollar, ondan sonra sosial infrastruktur, xəstəxanalar, poliklinikalar, məktəblər, yəni, yaşamaq üçün bütün şərait və iş yerləri – bizim proqramlarımız bundan ibarətdir. Əminəm ki, Bakı qəsəbələrinin inkişafı proqramını qəbul edəndən sonra biz onu da qısa müddət ərzində icra edəcəyik.

**S a k i n:** Qəsəbəmizə gəldiyinizə, bu gözəl bayramı bizə nəsib etdiyinizə görə, Biləcəri ziyalıları adından, ictimaiyyət adından Sizə təşəkkürümüzü bildiririk. Biz Biləcəri sakinləri adından xahiş edirik, Dəmiryolçular parkı genişləndirilsin. O, sovet hökumətinin dövründən qalmış bir parkdır. Mən bütün sakinlərin xahişini Sizə çatdırıram. Park abadlaşdırılsın, necə deyərlər, yaraşıqlı olsun ki, biz də nəvələrimizlə uzağa getməyək.

**İ l h a m   Ə l i y e v**: İndi gedib baxacağam və sizin xahişinizi yerinə yetirəcəyəm.

*Sakinlərlə görüşdən sonra prezident İlham Əliyev Biləcəri qəsəbəsindəki Dəmiryolçular parkına gəldi.*

*Böyük bir ərazini əhatə edən park vaxtilə qəsəbə sakinlərinin ən çox istirahət etdiyi guşələrdən biri olub.*

*Parkdakı mövcud vəziyyətlə tanış olan dövlətimizin başçısı sakinlərin istirahəti üçün burada tələb olunan müasir infrastrukturun yaradılması, bu istirahət guşəsinin əsaslı şəkildə yenidən qurulması ilə bağlı müvafiq göstərişlərini verdi.*

* * *

*Sonra prezident İlham Əliyev Binəqədi rayonunun Sulutəpə yaşayış sahəsinə gəldi. Bu yaşayış sahəsində də məhəllədaxili yolların əsaslı təmirinə başlanılmışdır.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, Sulutəpə yaşayış sahəsində məhəllədaxili yolların 5600 kvadratmetrinə asfalt örtüyü döşənmişdir. Yolların 7 min kvadratmetrlik hissəsində isə asfalt örtüyü vurulması üçün hazırlıq işləri başa çatdırılmışdır.*

*Yaşayış sahəsində su və kanalizasiya məsələlərinin həll ediləcəyi, məhəllədaxili küçələrdə müasir işıqlandırma sisteminin qurulacağı bildirildi.*

*Görülən işlərlə tanışlıqdan sonra dövlətimizin başçısı sakinlərlə görüşdü.*

**İ l h a m Ə l i y e v**: Xoş gördük, çox şadam ki, sizinlə görüşürəm. Gəlmişəm ki, problemlərinizi sizdən eşidim. Mənə məlumat verildi ki, əsas problem məhz yoldur. İndi həll olunmağa başlanmışdır. Burada asfalt yolu heç vaxt olmayıb. Torpaq yolları idi. İndi asfalt salınır və mənə göstərilən xəritədə görürəm ki, bu, sadəcə olaraq, birinci mərhələdir. Qəsəbə yollarının çəkilişi sürətlə gedəcək və xəritədə göstərilən bütün yollar ilin sonuna qədər asfaltlanacaqdır.

**S a k i n:** Hörmətli Prezidentimiz! Müasir Azərbaycanın memarı və qurucusu olan ulu öndərimiz Heydər Əliyevin xatirəsi daim bizim qəlbimizdə yaşayacaqdır. Atalar demişdir: ot kökü üstə bitər. Siz bu gün Heydər Əliyevin Azərbaycanın inkişafı üçün gördüyü misilsiz işləri uğurla davam etdirirsiniz.

Sizin və Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanımın təhsilə göstərdiyiniz qayğı bu gün göz qabağındadır. Bizim Sulutəpə qəsəbəsində cəmi bir məktəb var idi. Son illərdə 2 məktəb, uşaq bağçası tikilmişdir. Sizə təkcə onu deyə bilərəm ki, 217 nömrəli məktəbimiz üçnövbəli işləyirdi. Altıgünlük iş rejimi ilə. Keçən tədris ilində Sizin sərəncamınızla burada 840 yerlik təzə məktəb korpusu tikildi. İndi bu məktəb bir növbəli beşgünlük iş rejimi ilə işləyir. Ona görə də Sizə, Mehriban xanıma cansağlığı arzulayırıq. Məktəbin bütün müəllim və şagirdləri, valideynlər adından «Çox sağ olun!» – deyirik, təşəkkürümüzü bildiririk.

**İ l h a m  Ə l i y e v**: Çox sağ olun. Mən çox şadam ki, Sulutəpədə sosial proqramlar öz həllini tapır. Məktəb tikintisi də onların arasında ən vacib məsələlərdən biridir.

İndi ölkədə bütövlükdə məktəb tikintisi sürətlə gedir və hər bir qəsəbədə yaxşı məktəblər olmalıdır. İşıq problemi, qazlaşdırma burada həll olunub, yolların çəkilişi də artıq başlanıb və bu məsələlər də qısa müddət ərzində öz həllini tapacaqdır. Məqsədimiz ondan ibarətdir ki, hər bir qəsəbədə sakinlər yaxşı yaşasınlar, keyfiyyətli infrastruktur öz həllini tapsın, su, kanalizasiya, qazlaşdırma, elektrik enerjisi, tibb məntəqəsi, məktəblər, yollar – bütün bu məsələlər lazımi səviyyədə həll olunsun.

Proqram da bu yaxınlarda qəbul olunacaqdır. Keçirdiyim müşavirədə bütün göstərişlər verilib. İndi siz sakinlərdən eşitmək istəyirəm, bu qəsəbələrdə hansı məsələlər daha tezliklə öz həllini tapmalıdır? Bu ay böyük proqram təsdiq olunacaqdır. Ondan sonra proqramda nəzərdə tutulan işlərin icrası daha da sürətlə aparılacaqdır.

**S a k i n:** Cənab Prezident, gəlişinizi bütün Sulutəpə əhli alqışlayır. Sulutəpədə son zamanlar böyük işlər görülüb. Zərifə müəllimə məktəblərin tikintisini çox yaxşı qeyd etdi. Burada bir problem də bağçanın olmamasıdır. Qəsəbədə tək bircə bağça var. Burada «TİR-park» fəaliyyət göstərir, böyük ərazisi vardır, gömrük postu fəaliyyət göstərir. Lakin yollar çox dar olduğu

üçün 1700 uşağın o yoldan gəlib məktəbə çatması çox çətinlik törədir. Əgər mümkündürsə, onları başqa yerə köçürmək şərti ilə burada böyük bir istirahət mərkəzi salınsın.

**İ l h a m  Ə l i y e v**: Bu mənim borcumdur. Elə etməliyik ki, sakinlərin problemi həllini tapsın. Xüsusilə qeydiyyatla bağlı problemlər uzun illərdir öz həllini gözləyir. Verdiyim göstərişlər nəticəsində əminəm ki, bu məsələ də ədalətli şəkildə öz həllini tapacaqdır. Ədalət olmalıdır. Biz bunu necə edək ki, tam şəkildə şəffaflığı təmin edək, qeydiyyataalma məsələlərində heç bir xoşagəlməz hal olmasın. Ona görə, indi mexanizm hazırlanır. Ümid edirəm ki, yaxın zamanlarda mənə təqdim olunacaq və bu məsələ öz həllini tapacaqdır. Onilliklər ərzində insanlar qeydiyyatsız yaşayıblar. Ancaq onu da deməliyəm ki, evlərin müəyyən hissəsi qanunsuz tikilib. Elə etməliyik ki, həm hər şey qanun çərçivəsində həll olunsun, həm də ki, mövcud olan reallıqlar da artıq qanun qüvvəsinə minsin. Bunu biz etməliyik. Ona görə bizdə aparılan siyasət sosialyönümlü siyasətdir. Əlbəttə ki, Azərbaycanda hüquqi dövlət qurulub və qanunun aliliyi hamımız üçün əsas olmalıdır. İqtisadi islahatlar aparılır. Biz bazar iqtisadiyyatı prinsipləri əsasında yaşayırıq. Ancaq sosial məsələlərin həllinə gəldikdə, biz əksər hallarda sosial ədalətə daha da çox üstünlük veririk. Bu yaxınlarda suya olan borcların silinməsi əslində bazar iqtisadiyyatı prinsiplərinə tamamilə ziddir.

**S a k i n**: Cənab Prezident! Müəllimimizin qaldırdığı «TİR-park» məsələsinə mən də öz münasibətimi bildirmək istəyirəm. Mən müəlliməm, neçə ildir Sulutəpə qəsəbəsində yaşayıram. Bizim məktəbdən aşağıda – Xocasən tərəfdə 103 nömrəli məktəb var, çox balaca və darısqaldır. Valideynlər məcbur qalıb uşaqlarını bu yol ilə gətirirlər məktəbə. Ağır yüklü maşınların, nəqliyyat vasitələrinin parkının burada olması yolda saatlarla tıxaclar əmələ gətirir, dərsə gecikmələr olur. Sizdən xahiş edirik ki, bu 103 nömrəli məktəbə əlavə korpus tikilsin ki, valideynlər əziyyət çəkib uşaqları oradan bizim məktəbə gətirməsinlər.

**S a k i n:** Hörmətli cənab Prezident! 103 nömrəli məktəb mənim şəhid qardaşım Zakirin adını daşıyır. Yaxşı olardı ki, o məktəbin yanında bir poçt olsun. Xocasəndə poçt yoxdur. Bir də ki, məktəbin yanında bankomat olsun, pensiyaçılar pullarını alsınlar.

**İ l h a m Ə l i y e v**: Bankomat yoxdur?

**S a k i n:** Xeyr, Xocasəndə yoxdur.

**İ l h a m Ə l i y e v**: Bəs təqaüdü necə alırsınız?

**S a k i n:** Gəlib şəhərdən, qəsəbədən alırıq. Cürbəcür yerlərdən. Xocasəndə stadion üçün yer ayrılıb. Amma tam bərbad haldadır. Mən ümidvaram ki, bunun üçün də göstəriş verəcəksiniz. Biz Sizə çox inanırıq. Abşeron camaatı, həmçinin xocasənlilər Sizi də, Mehriban xanımı da çox istəyirlər.

Bir məsələni də deyim ki, məişət tullantılarının daşınmasında bələdiyyə çətinlik çəkir, maşınları yoxdur. Köhnə, 30 ilin maşınıdır. Kömək lazımdır onlara, əlbəttə, mümkün olsa. Çox xahiş edirəm. Qabaqcadan minnətdaram Sizə.

**İ l h a m Ə l i y e v**: Onların hamısını qeyd edib bu gün mənə göndərin. Bu məsələləri mən sərəncama salacağam. Bunlar hamısı vacib məsələlərdir, etməliyik. Xocasən yolu doğrudan da indi dünya səviyyəli bir yoldur. Orada böyük yarımstansiya da tikilmişdir, böyük təhsil mərkəzinin yaradılması da nəzərdə tutulur. Tamamilə doğru söyləyirsiniz. Yəni böyük bir mərkəz olacaqdır.

**S a k i n:** Hörmətli Prezident! Allah Sizi qorusun! Siz də Azərbaycan xalqını qoruyasınız!

## XIV AVRASİYA İQTİSADİ ZİRVƏ TOPLANTISININ İŞTİRAKÇILARINA

Hörmətli toplantı iştirakçıları!

Sizi salamlayır və XIV Avrasiya İqtisadi zirvə toplantısının işə başlaması münasibətilə təbrik edirəm. Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı və Türkiyənin dəstəyi ilə hər il keçirilən ənənəvi toplantılara dünyada maraq durmadan artmaqdadır. Beynəlxalq iqtisadi və siyasi əməkdaşlıq, xalqlar arasında dostluq və qardaşlıq əlaqələrinin güclənməsinə Azərbaycan həmişə xüsusi əhəmiyyət verir.

Dünyada yaşayan bütün xalqların mənafeləri və təhlükəsizliyinin etibarlı təminatı dövlətlər arasında iqtisadi, humanitar və mədəni əməkdaşlığın qurulmasını, aqressiv separatizmə, terrora, bir sözlə, bəşəriyyəti təhdid edən qlobal təhlükələrə qarşı birgə mübarizənin aparılmasını qaçılmaz edir. Azərbaycan Respublikası əksər bəşəri çağırışlara cavab olaraq, dünya və region dövlətləri ilə bütün sahələrdə sıx əməkdaşlığa üstünlük verir. Ölkəmizin əlverişli coğrafi mövqeyi, zəngin enerji resursları, transmilli kommunikasiya imkanları qarşılıqlı əlaqələrin genişləndirilməsi üçün münbit şərait yaradır. Biz Azərbaycanın müxtəlif güc mərkəzlərinin rəqabət meydanı deyil, əməkdaşlıq məkanı olduğunu bəyan etmişik. Azərbaycan bütün ölkələrlə qarşılıqlı maraqlara söykənən münasibətlərə, regional təhlükəsizliyə və sosial-iqtisadi tərəqqiyə mühüm töhfələr verir.

İnanıram ki, bugünkü forumda keçirilən müzakirələr hər birimizi narahat edən bəşəri problemlərin həlli, dövlətlər və xalqlar arasında əlaqələrin daha yüksək səviyyəyə çatdırılması üçün yeni imkan və vasitələrin tapılmasına xidmət edəcəkdir.

Sammit iştirakçılarını bir daha təbrik edir, toplantının işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 aprel 2011-ci il*

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Minsk metropolitenində terror aktı nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən sarsıtmışdır.

Biz terrorizmi onun bütün formalarında və təzahürlərində qətiyyətlə pisləyirik.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Belarus xalqına dərin hüznlə başsağlığı verirəm. Zərər çəkənlərin tezliklə sağalmasını arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 aprel 2011-ci il*

## İORDANİYANIN SƏNAYE VƏ TİCARƏT NAZİRİ, AZƏRBAYCAN–İORDANİYA HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYASININ HƏMSƏDRİ HANİ ƏL-MULKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də İordaniya Haşimilər Krallığının Sənaye və Ticarət naziri, Azərbaycan–İordaniya hökumətlərarası birgə Komissiyasının həmsədri Hani əl-Mulkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə İordaniya Haşimilər Krallığı arasında yüksək səviyyədə siyasi əlaqələrin olduğunu vurğuladı. Prezident İlham Əliyev ikitərəfli münasibətlərin inkişafında dövlət başçıları səviyyəsində həyata keçirilən qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığı inkişaf etdirmək və sərmayə imkanlarını nəzərdən keçirmək üçün böyük planların olduğunu dedi. Azərbaycan–İordaniya hökumətlərarasi birgə Komissiyasının Bakıda keçirilən iclasına toxunan dövlət başçısı bu iclasın gələcək əməkdaşlıq üçün önəmini qeyd etdi.*

*İordaniya Haşimilər Krallığının Sənaye və Ticarət naziri, Azərbaycan–İordaniya hökumətlərarasi birgə Komissiyasının həmsədri Hani əl-Mulki İordaniya kralı II Abdullahın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizdə keçirdiyi məhsuldar görüşlər barədə Azərbaycan prezidentinə məlumat verdi.*

*Prezident İlham Əliyev İordaniya kralı II Abdullahın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniyanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## NAZİRLƏR KABİNETİNİN 2011-ci İLİN BİRİNCİ RÜBÜNÜN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA NİTQ*

*12 aprel 2011-ci il*

Nazirlər Kabinetinin bugünkü toplantısı 2011-ci ilin birinci rübünün yekunlarına həsr edilir. Birinci rübdə iqtisadiyyatımız uğurla inkişaf etmişdir. Bu ilin əvvəlində əldə edilmiş nəticələri düzgün təhlil etmək üçün biz əvvəlki illərdə Azərbaycanda mövcud olan iqtisadi inkişafı mütləq nəzərə almalıyıq. Çünki son illər iqtisadiyyatımız durmadan artmışdır. Son 7 ildə ümumi daxili məhsul təxminən 3 dəfə artmışdır, hətta böhranlı 2009 və 2010-cu illərdə iqtisadiyyatımız 14 faiz artmışdır. Bu yüksək təməl, yüksək baza üzərində birinci rübdə yenə də müşahidə olunan artım, əlbəttə ki, bizi çox sevindirir.

İqtisadiyyatımız birinci rübdə bütövlükdə 1,6 faiz artmışdır. Sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz 5,6 faiz artmışdır. Bildiyiniz kimi, bizim əsas vəzifəmiz qeyri-neft sektorunu inkişaf etdirmək, neft-qaz amilindən asılılığımızı azaltmaq və beləliklə, ölkə iqtisadiyyatının şaxələndirilməsinə nail olmaqdır. Ona görə qeyri-neft sektorunun inkişafına xüsusi diqqət göstərilir və ölkədə aparılan sosial və iqtisadi islahatlar, ilk növbədə bu məqsədə nail olmaq üçün həyata keçirilir.

---

* Назирляр Кабинетинин 2011-ъи илин биринъи рцбцнцн сосиал-игтисади инкишафынын йекунларына щяср олунмуш иъласында Малиййя назири Самир Шярифов, Дювлят Эюмрцк Комитясинин сядри Айдын Ялийев, Дювлят Сосиал Мцдафия Фондунун сядри Сялим Мцслцмов вя Дювлят Миграсийа Хидмятинин ряиси Арзу Рящимов чыхыш етдиляр.

Sənaye istehsalı bütövlükdə 0,3 faiz artsa da, sənayenin inkişafında əsas məsələ, yəni sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sənayemiz 9,8 faiz artmışdır. Bu da onu göstərir ki, qeyri-neft sektoruna qoyulan vəsaitin, investisiyaların, sahibkarlara yaradılmış şəraitin gözəl nəticələridir. Bütövlükdə sənaye istehsalında o qədər də böyük artımın olmaması neft-qaz sektorunda hasilatda müəyyən azalmanın səbəbidir. Ancaq bu azalma, əlbəttə ki, müvəqqəti xarakter daşıyır və hazırda Azərbaycanda neftin hasilatı, demək olar ki, yüksək həddə çatmışdır və bu səviyyədə qalacaqdır. O ki qaldı qaz istehsalına, növbəti illərdə qoyulacaq investisiyalar hesabına qaz hasilatımız da artmalıdır.

Narahatedici məsələlərdən biri odur ki, birinci rübdə inflyasiya 9,1 faiz artmışdır. Bu bizi narahat edir. Hazırda inflyasiya birrəqəmlidir, elə etməliyik ki, birrəqəmli inflyasiyanın səviyyəsini saxlaya bilək. Bununla bərabər, əhalinin pul gəlirləri 16 faizdən çox artmışdır. Əgər inflyasiyanı əhalinin pul gəlirləri ilə müqayisə etsək görərik ki, gəlirlərdə real artım müşahidə olunur. Əminəm ki, bu meyillər il ərzində özünü daha da böyük həcmdə göstərəcəkdir.

Ölkəmizdə yığılan valyuta ehtiyatları 34,2 milyard dollara bərabərdir. Bu istiqamətdə də bütün tapşırıqlar yerinə yetirilir və valyuta ehtiyatlarımız artır. Ölkəmizdə böyük investisiya layihələri icra edilir və bu layihələr böyük vəsait tələb edir. Biz həm investisiya layihələrimizi təmin edirik, həm də valyuta ehtiyatlarımızı artırırıq. Bu özlüyündə gözəl göstəricidir, ölkənin iqtisadi və maliyyə gücünü göstərir.

Heç şübhə etmirəm ki, ilin sonuna qədər bizim valyuta ehtiyatlarımız artacaqdır. Bu artım çox təsirli olacaqdır.

İqtisadi sahədə bütün tapşırıqlar yerinə yetirilir. Birinci rübün yekunları deməyə əsas verir ki, ilin sonuna qədər bu müsbət meyillər özünü göstərəcəkdir. Sosial sahədə bütün proqramlar həyata keçirilir. Sosial infrastrukturun yaradılması istiqamətində proqram üzrə işlər aparılır. Məktəblərin, xəstəxanaların, sosial obyektlərin, mədəniyyət, idman obyektlərinin tikintisi investisiya proqramı çərçivəsində müəyyən olunduğu kimi icra edilir. Birinci

rübün yekunlarına görə ölkəmizdə orta əməkhaqqı 340 manat səviyyəsindədir. Əgər biz dollarla hesablasaq, bu haradasa 430 dollara yaxındır. Bu, yaxşı göstəricidir. Orta əməkhaqqının artımı ölkədə həm iqtisadi, həm də sosial sahədə aparılan siyasətin əlamətidir. Biz bazar iqtisadiyyatına sadiq olan ölkəyik. Azərbaycanda yoxsulluğun səviyyəsi ildən-ilə aşağı düşür.

2010-cu ilin yekunlarına görə Azərbaycanda yoxsulluq 9,1 faiz səviyyəsində idi. Mən ümid edirəm ki, bu il ərzində həm iqtisadi sahədə, həm sosial sahədə görüləcək işlər nəticəsində, eyni zamanda, bu il maaşların və pensiyaların gözlənilən artımları hesabına Azərbaycanda yoxsulluq şəraitində yaşayanların sayı yenə də aşağı düşəcəkdir. Nəticədə, biz bir neçə il bundan əvvəl qarşıya qoyulmuş məqsədə çatacağıq.

Hər bir ölkədə yoxsullar vardır. Ancaq biz qarşıya vəzifə qoyuruq, bu bizim hədəfimizdir, məqsədimizdir. Ölkədə aparılan quruculuq işləri, iqtisadi islahatlar, sosial proqramlar bu ağır problemin həlli üçün bizə imkan verəcəkdir. Bununla bərabər, bütün bölgələrdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilir. Bu ilin birinci rübündə nəzərdə tutulmuş bütün investisiya layihələri vaxtında həllini tapır. Birinci üç ayda regionlarda təxminən 17 min yeni iş yeri açılmışdır. Bu proses davam edir. Bütövlükdə birinci proqramın icrasından sonra ölkəmizdə 930 min yeni iş yeri açılmışdır. Sahibkarlara kömək məqsədi ilə kreditlər ayrılır və bu kreditlər gözəl nəticələrini verməkdədir. Regionlara səfərlərim mənə imkan verir ki, görülən işləri özüm gözümlə görüm və deyə bilərəm ki, hər bir bölgədə inkişaf vardır. Lakin əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Daim inkişafda olmalıyıq və daim mövcud problemlərin həlli işində fəal olmalıyıq. Regionların sosial-iqtisadi inkişafı proqramının icrası ilə bərabər, Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı proqramı da hazırlanır. Bu məqsədlə keçən ay geniş müşavirə keçirilmişdir. Bütün tapşırıqlar verilmişdir.

Hazırda problemlər təhlil edilir. Əslində biz bu problemləri bilirik. O problemlərin həlli üçün xüsusi proqram qəbul

olunandan sonra biz bu il proqramda nəzərdə tutulacaq məsələlərin bir hissəsini icra edəcəyik. Ancaq vaxt itirməmək üçün prezidentin ehtiyat fondundan Bakı Şəhər İcra Hakimiyyətinə 10 milyon manat ayrılmışdır ki, bu məsələlər təxirə salınmadan həllini tapsın.

Artıq qəsəbələrdə işlər başlamışdır. Mən indi qəsəbələrdə tez-tez oluram, vəziyyətlə tanış oluram və insanlardan birbaşa soruşuram ki, hansı məsələlər onları daha çox narahat edir. Qəsəbələrdə son illərdə böyük işlər görülmüşdür. Tikilən məktəblər qəsəbələrdə təhsil sahəsinin inkişafına müsbət təsir göstərmişdir. Bəzi qəsəbələrdə su qıtlığı mövcuddur, kanalizasiya problemi, demək olar ki, bütün qəsəbələrə xasdır. Kanalizasiya problemi təkcə qəsəbələrdə deyil, Bakı şəhərinin özündə də qarşıda duran çox kəskin məsələdir. Bununla bərabər, son illər aparılmış işlər nəticəsində elektrik enerjisi ilə təminat yaxşıdır. Heç bir şikayət, heç bir müraciət olmamışdır. Qəsəbələrin qazlaşdırılması prosesi gedir. Hazırda bu məsələ, demək olar ki, tam şəkildə həll edilib. Sadəcə, növbəti bir neçə il ərzində biz yeni xətlərin çəkilişi nəticəsində qazın təzyiqinin də yaxşılaşdırılmasına nail olmalıyıq. Səhiyyə məsələləri müəyyən dərəcədə həll olunub. Amma yeni xəstəxanaların, poliklinikaların tikintisinə ehtiyac vardır. Ən vacib məsələ – bu problemi bütün qəsəbələrə aid etmək olar – yol məsələsidir. Demək olar ki, qəsəbələrin yollarının əksəriyyəti torpaqdır. Hazırda yol çəkilişi prosesi başlamışdır.

Mən hesab edirəm ki, geniş, çox dəqiq və konkret proqram qəbul olunandan sonra 2013-cü ilə qədər biz qəsəbələrdə mövcud problemlərin böyük əksəriyyətini həll etməliyik. Baxmayaraq ki, bu çox böyük proqramdır. Qəsəbələrdə hazırda 800 mindən artıq əhali yaşayır. Bu özlüyündə böyük bir şəhərdir. Ümid edirəm ki, biz qısa müddətdə bu məsələnin həllinə nail olacağıq.

Birinci rübdə ölkəmizdə böyük infrastruktur layihələri icra edilirdi. Bu layihələrin icrası cədvəl üzrə gedir. Qazlaşdırma prosesi gedir. Su, kanalizasiya məsələləri həll edilir, həm magistral, həm qəsəbələrarası yollar çəkilir. Böyük infrastruktur

layihələrinin arasında Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni binasının tikintisini mən xüsusi qeyd etmək istəyirəm. Aeroport hər bir ölkənin giriş qapısıdır. Hazırda Beynəlxalq aeroportumuz Azərbaycanın indiki inkişaf səviyyəsinə və xüsusilə gələcək inkişafımıza tam şəkildə cavab vermir. Ona görə də aeroportun yeni binası tikilməlidir. Artıq işlər başlanmışdır. Yeni uçuş-enmə zolaqları tikilməli, bütün xidmət infrastrukturu yenidən qurulmalıdır. Heydər Əliyev Beynəlxalq Aeroportu dünya miqyasında ən gözəl, ən müasir və ən səviyyəli aeroportların sırasına daxil edilməlidir. Növbəti 2 il ərzində əminəm ki, tikinti başa çatacaq və ölkəmiz üçün çox vacib olan infrastruktur obyekti istismara veriləcəkdir.

Bildiyiniz kimi, hazırda digər böyük infrastruktur layihələri icra edilir. Mən onların sırasında Beynəlxalq Dəniz Ticarət Limanını qeyd etmək istəyirəm. Orada işlər yaxşı gedir. Gəmiqayırma zavodunun tikintisi gedir. Yəni, bu iki böyük layihə və aeroportu da əlavə etsək, Azərbaycanın nəqliyyat imkanlarını yüksək dərəcədə artıracaqdır. Növbəti aylar ərzində yeni gəmilərin, bərələrin alınması nəzərdə tutulur. Çünki Azərbaycan üzərindən yükdaşımaların həcmi artmaqdadır. Baxmayaraq ki, son illərdə biz 10-a yaxın yeni müasir tanker, yük gəmiləri almışıq, buna yenə də ehtiyac vardır. Nəzərə almalıyıq ki, 2012-ci ildə Bakı–Tbilisi–Qars dəmir yolu istismara verilməlidir. Biz bütün hazırlıq işlərini elə qurmalıyıq ki, Bakı–Tbilisi–Qars dəmir yolu istismara veriləndən sonra bir gün də yubanma olmasın. Ona görə, yeni bərələrin alınması məsələləri qoyulubdur və bu il o məsələlər öz həllini tapacaqdır.

İnformasiya-kommunikasiya sektorunda bu ilin birinci rübündə çox böyük artım vardır. Bu sektor çox dinamik inkişaf edir. Mən bu barədə fikirlərimi bir neçə dəfə bildirmişəm. Azərbaycan bu bölgədə artıq informasiya-kommunikasiya texnologiyaları üzrə mərkəzə çevrilir. Ənənəvi olaraq Bakutel sərgiləri keçirilir. Bu sektorun inkişafı Azərbaycanda ümumi intellektual potensialın və intellektual imkanlarımızın inkişafına xidmət göstərəcək, eyni zamanda, bu sektorun böyük

kommersiya əhəmiyyəti vardır. Artıq bu sektor bizim üçün yeni bir gəlir mənbəyinə çevrilir. Gələcəkdə bu sektorda əldə olunacaq gəlirlər ölkə iqtisadiyyatının inkişafına çox güclü təsir göstərəcəkdir.

Süni peykin yaradılması proqramı icra edilir. Azərbaycan yaxın zamanlarda öz peykinə malik olacaqdır. Bu həm ölkənin imici və nüfuzu üçün çox vacib olan məsələdir. İlk növbədə isə praktiki nöqteyi-nəzərdən çox vacib olan layihədir. Peykin kommersiya istismarından əldə olunacaq gəlirlər də bizə yaxşı imkanlar yaradacaqdır.

Ölkəmizdə hərbi sənaye potensialı sürətlə inkişaf edir. Mən bu sahəni xüsusilə qeyd etmək istəyirəm. Çünki bu həm sənaye sahəsidir, xüsusi bir sahədir. Burada iki məqsəd güdülür. İlk növbədə Azərbaycanın hərbi potensialını daxili imkanlar hesabına gücləndirməliyik. Vaxtilə Müdafiə Sənayesi Nazirliyi məhz bu məqsədlə yaradılmışdır. Digər tərəfdən də bu, yeni sənaye sahəsidir. Minlərlə yeni iş yeri açılmışdır, yüksək maaşlar verilir və Azərbaycanda müasir hərbi sənaye məhsulları istehsal olunur. Hazırda Azərbaycanda 430 adda məhsul istehsal edilir. Məqsədimiz ondan ibarətdir ki, biz bu sahədəki işləri ən müasir texnologiyalar əsasında quraq.

Mən onların arasında pilotsuz təyyarələrin istehsalını xüsusi qeyd etmək istəyirəm. Bu, ən inkişaf etmiş ölkələrə xas olan istehsal sahələridir. Azərbaycan öz imkanları ilə pilotsuz təyyarələrin ən yüksək səviyyədə istehsalına başlamışdır və bu bizim hərbi gücümüzü daha da artıracaqdır. Bütövlükdə bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi işində Azərbaycan çox müsbət rol oynayır. Azərbaycan bölgədə sabitləşdirici amildir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində mövqeyimiz birmənalıdır. Beynəlxalq hüquq normaları tam şəkildə təmin edilməlidir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi qeyd-şərtsiz icra edilməlidir. Necə ki, Liviya ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə saatdan sonra icra edilməyə başlamışdır. Yəni, mən bu barədə artıq

fikrimi bildirmişəm. Bir daha demək istəyirəm ki, bu ədalətsizlikdir, bu, ikili standartlardır və bu ayrı-seçkiliyi heç bir səbəblə izah etmək mümkün deyildir. Çünki ermənilər tərəfindən azərbaycanlılara qarşı soyqırımı – genosid törədilmişdir. Xocalı soyqırımı törədilmişdir. Ermənilər tərəfindən günahsız insanlar vəhşicəsinə qətlə yetirilmişdir. Nədənsə o zaman dünya birliyi bizim dərdimizə biganə qalmışdır. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış əraziləri uzun illərdir ki, işğal altındadır. Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul edilib, ATƏT-in qərarları, Avropa parlamenti, Avropa Şurası, İslam Konfransı Təşkilatı, NATO-nun qərarları – bütün bu qərarlar işğal edilmiş torpaqlardan erməni qoşunlarının çıxarılmasını tələb edir. Ancaq məsələ öz həllini tapmır. Belə olan halda haqlı olaraq Azərbaycan vətəndaşları sual verirlər ki, nə üçün bizə qarşı münasibət fərqlidir? Bunun səbəbi nədir? Mən bu sualı beynəlxalq ictimaiyyətə, beynəlxalq aləmdə nüfuza malik olan ölkələrə ünvanlayıram. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, işğala son qoyulmalıdır və bu məsələ tezliklə öz həllini tapmalıdır. Çünki Azərbaycan xalqının səbri tükənməz deyildir.

Bir daha demək istəyirəm ki, danışıqlar prosesində Azərbaycanın mövqeyi birmənalıdır. Bu mövqe nəinki bizim arzularımıza, beynəlxalq hüquqa əsaslanır və beynəlxalq hüquq hələ ki, dünyada başlıca bir meyardır. Biz indi görürük ki, beynəlxalq hüquq normaları müxtəlif yerlərdə kobudcasına pozulur. Ona görə Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və heç bir şərt irəli sürülməməlidir.

Hazırda danışıqlar masasında olan təkliflər Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin edəcəkdir. Bu məsələ öz həllini Dağlıq Qarabağda yaşayan insanların və oraya mütləq qayıdacaq Azərbaycan vətəndaşlarının muxtariyyət, özünüidarəetmə statusunda yaşamasını təmin edə biləcək prinsiplər əsasında tapa bilər. Bir daha demək istəyirəm ki, Dağlıq Qarabağa müstəqilliyin verilməsi, yaxud da nə vaxtsa verilməsi mümkünsüzdür. Bu, danışıqlar mövzusu deyildir və olmayacaqdır.

Birinci rübdə bu məsələ ilə bağlı ATƏT-in qiymətləndirmə missiyası işğal edilmiş torpaqlara səfər etmişdir. Bu missiya bizim təklifimiz əsasında baş tutmuşdur. Ermənistan tərəfi buna etiraz etməyə cəhd göstərmişdir. Bildiyiniz kimi, 2005-ci ildə oxşar missiya işğal edilmiş torpaqlara səfər etmişdir. O, faktaraşdırıcı missiya idi. Missiyanın məqsədi işğal edilmiş torpaqlarda vəziyyəti araşdırmaq və məruzə hazırlamaq idi. Azərbaycan cəmiyyətində missiyanın yekun məruzəsi ilə bağlı müxtəlif fikirlər vardır. Haqlı olaraq cəmiyyətimiz öz narahatlığını bildirir ki, məruzədə ifadələr o qədər də kəskin deyildir. Ancaq missiyanın məqsədi və mandatı ondan ibarət idi ki, mövcud vəziyyəti öyrənsin və gördüklərini məruzədə ifadə etsin. Bu baxımdan hesab edirəm ki, məruzədə göstərilən məsələlər reallığı əks etdirir. Orada vacib olan məsələlərdən bir neçəsini qeyd etmək istəyirəm. Birincisi, orada açıq-aydın göstərilir ki, işğal edilmiş ərazilərdə ermənilər tərəfindən bütün infrastruktur dağıdılıbdır. Biz bunu onsuz da bilirdik, 2005-ci ildə bu göstərilmişdir və bu il də bu göstərilir. Yəni erməni vandalizminin nəticələrini missiya öz gözü ilə görmüşdür. Məscidlərimiz, qəbirlər, bütün infrastruktur dağıdılıb, ya da ki, talan edilibdir. İkinci vacib məsələ ondan ibarətdir ki, məruzədə göstərilir, işğal edilmiş rayonların inzibati hüdudlarını süni şəkildə dəyişdirmək olmaz. Bu birbaşa Ermənistana ünvanlanan bir tələbdir. Biz yaxşı bilirik ki, orada qondarma yerli hakimiyyət Ermənistanın göstərişi ilə bizim rayonların hüdudlarını süni şəkildə dəyişdirmək istəyir. Bununla bərabər, rayonların tarixi və əzəli adlarının dəyişdirilməsi də yolverilməz hal kimi, məruzədə göstərilibdir. Bu birbaşa Ermənistana ünvanlanan iraddır. Onlar yer-yurd adlarımızı dəyişdirmək istəyirlər və onlardan başqa, bu adları heç kim tanımır və tanımayacaqdır. Buna oxşar kifayət qədər məsələlər məruzədə öz əksini tapıbdır. Bu məsələlər əvvəlki məruzədə də bu və ya digər formada öz əksini tapmışdır. Ən vacib məsələlərdən biri də hesabatda işğal edilmiş ərazilərdə qanunsuz məskunlaşma siyasəti aparılmasının göstərilməsidir. Hazırda Laçın və Kəlbəcər rayonlarında – daha çox bu iki rayonda – 14 min qanunsuz məskunlaşma halı vardır, orada 14 min insan yaşayır ki,

onlar orada yaşamamalıdırlar, çünki ora onların vətəni deyil, bu köçürülmüşlər hesabatda da yolverilməz hal kimi göstərilir.

Nəhayət, məruzədə göstərilir ki, status-kvo, yəni indiki vəziyyət davam edə bilməz. Hesab edirəm ki, məruzədə bu, ən vacib məsələlərdən biridir. Uzun illərdir ki, Azərbaycan dövləti bütün tribunalarda, beynəlxalq təşkilatlarda, həmsədr ölkələrin rəsmiləri ilə birbaşa görüşlərdə məsələ qaldırır ki, status-kvo dəyişdirilməlidir.

Ermənistan tərəfi bütün imkanlardan istifadə edir, çalışır ki, danışıqları uzatsın. Mən Azərbaycan vətəndaşlarına bu barədə də müəyyən dərəcədə məlumat vermişəm. Müəyyən mərhələdə razılaşdırılmış məsələlər onlar tərəfindən yenidən danışıqlar masasına qoyulur və onlar əvvəlcədən razılaşdırılmış məsələlərdən geri çəkilirlər. İstəyirlər ki, bu proses sonsuz, daimi, əbədi olsun, daim bu danışıqlar getsin və guya ki, Ermənistan danışıqlarda özünü konstruktiv aparır. Onların məqsədi işğal edilmiş torpaqları nə qədər mümkündür öz nəzarəti altında saxlamaq və de-fakto vəziyyətini gələcəkdə de-yure vəziyyətinə çevirməkdir. Düşünürlər ki, nə qədər çox vaxt keçsə, o qədər yaxşıdır, yəni dünya birliyi bu vəziyyətlə barışacaq və beləliklə, bu vəziyyət – danışıqlar prosesi sonsuz aparılacaqdır.

Biz dəfələrlə məsələ qaldırmışıq ki, bu mümkünsüzdür. Azərbaycan imitasiya, danışıqlar naminə danışıqlarda iştirak etməyəcəkdir. Bizim kəskin fikrimiz bundan ibarətdir və status-kvo dəyişdirilməlidir. Status-kvonun dəyişməsi nə deməkdir, bunu hamı yaxşı başa düşür. O deməkdir ki, Azərbaycan torpaqlarından işğalçı qüvvələr çıxarılmalıdır və məruzədə bu tezisin göstərilməsi, hesab edirəm ki, çox vacib məsələdir. Azərbaycanın mövqeyi həmsədr ölkələr – ATƏT tərəfindən dəstəklənir. Status-kvonun qəbuledilməz olması birinci dəfə deyil ki, səslənir. Bunu həmsədr ölkələrin yüksək vəzifəli şəxsləri də öz bəyanatlarında bildirmişlər. Əgər status-kvo dəyişdiriləcəksə, bu, mütləq dəyişdirilməlidir. Azərbaycanın işğal altında olan torpaqlarından işğalçı qüvvələr çıxarılacaqdır

və bu, tezliklə baş verməlidir. Ermənistana imkan verilməməlidir ki, danışıqları süni şəkildə, müəyyən bəhanələrlə uzatsın. Ermənistan konkret təkliflərə konkret cavab verməlidir ki, torpaqlarımızın işğalçılardan azad edilməsi prosesi başlasın.

İstərdim ki, Azərbaycan vətəndaşları həm məruzə ilə bağlı, həm də ki, danışıqların mahiyyəti və məzmunu ilə bağlı mənim mövqemi – Azərbaycan dövlətinin mövqeyini bilsinlər. Hesab edirəm ki, buna ehtiyac vardır.

## YEKUN NİTQİ

İlin birinci rübündə görülmüş işlər göstərir ki, ölkə iqtisadiyyatı uğurla inkişaf edir, sosial məsələlər öz həllini tapır, hər bir sahə üzrə konkret proqramlar vardır. Bu proqramlar icra edilir. Hökumət üzvləri isə öz vəzifələrini bilirlər və vəzifə borclarını icra edirlər. Dünyada gedən proseslər, xüsusilə neftin dünya bazarlarında kəskin şəkildə bahalaşması istər-istəməz inflyasiya risklərini də artırır. Bilirsiniz ki, bir neçə il əvvəl də oxşar mənzərə ilə üzləşmişdik. O vaxt da neftin qiyməti kəskin şəkildə – haradasa 60 dollardan 140 dollara qədər qalxmışdı və müəyyən müddətdən sonra biz bu kəskin artımı istehlak qiymətlərinin artırılmasında da gördük. Yəni, istisna olunmur və yəqin ki, inflyasiya risklərinin artması qaçılmazdır. Belə olan halda biz gərək antiinflyasiya tədbirlərinin gücləndirilməsində daha da məqsədyönlü siyasət aparaq. Makroiqtisadi sabitliyə daha da çox diqqət göstərək.

Makroiqtisadi sabitlik həmişə diqqət mərkəzindədir. İqtisadi inkişafla bağlı bütün tədbirlərdə, demək olar ki, bu məsələyə xüsusi diqqət göstərilir. Keçən il inflyasiyanın səviyyəsi qəbuledilən həcmdə idi. Biz görürük ki, bu ilin birinci rübündə inflyasiya 9,1 faiz artmışdır. Ona görə həm dünyada gedən proseslər, neftin bahalaşması, eyni zamanda, ölkəmizdə maaşların, pensiyaların gözlənilən artırılması məsələləri istər-istəməz inflyasiya risklərinə öz təsirini göstərəcəkdir. Biz çalışmalıyıq ki, 2011-ci ildə inflyasiya birrəqəmli olsun və

bütün antiinflyasiya tədbirləri daha da güclü və məqsədyönlü şəkildə həyata keçirilsin.

İstehlak qiymətlərinə nəzarət vardır, daim monitorinq aparılır və bundan sonra da biz bu məsələlərlə məşğul olacağıq. İnhisarçılığa qarşı mübarizəni daha da gücləndirməliyik. Həm idxalda, həm də ki, daxili istehsalda inhisarçılığa qarşı mübarizə daha da güclü aparılmalıdır. Bəzi hallarda inhisarçılıq deyəndə daha çox idxalla bağlı olan məsələlər yada düşür. Ancaq son hadisələr, xüsusilə Novruz bayramı ərəfəsində müşahidə olunan mənzərə onu göstərir ki, daxildə istehsal olunan malların qiymətlərinin süni şəkildə qaldırılması halları baş vermişdir. Biz operativ şəkildə lazımi tədbirləri gördük. Süni şəkildə artırılan qiymətlərin tənzimlənməsi üçün lazımi addımları atdıq. Həm idxalla, həm də daxili istehsalla bağlı inhisarçılığa yol verilməməlidir.

Azərbaycanın bazarı, demək olar ki, kifayət qədər məhduddur. Əgər hansısa bir böyük istehsalçı yaranırsa – biz istəyirik, maraqlıyıq ki, həm orta və kiçik sahibkarlıq artsın, həm böyük şirkətlərimiz olsun və onlar da güclənsin. Dövlət tərəfindən verilən dəstək, siyasi, iqtisadi dəstək böyük şirkətlərin yaranmasına xidmət göstərir, eyni zamanda, böyük şirkət istər-istəməz inhisarçıya çevrilir, bəzi hallarda öz maraqlarının təmin olunması üçün qəbuledilməz addımlar atır. Belə olan halda inhisarçılığa qarşı mübarizə həm idxalda, həm daxili istehsalda gücləndirilməlidir.

Korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin gücləndirilməsi gözəl nəticələrini verir. Bu siyasət davam etdiriləcəkdir. Bu bizim şüurlu seçimimizdir və görülən tədbirlər xalq tərəfindən yüksək qiymətləndirilir. Biz burada bir neçə amili nəzərə almalıyıq. Bu mübarizə genişmiqyaslı və çoxşaxəli olmalıdır.

Mən həmişə insanlarla təmasda olarkən işləyirəm ki, xoşagəlməz hallar haqqında məlumat versinlər. Azərbaycanda, ümumiyyətlə, bütün sahələrdə ictimai nəzarət daha da güclü olmalıdır. İslahatların dərinləşməsi prosesi getməlidir. Bu da

antikorrupsiya tədbirlərinin arasında mühüm əhəmiyyətə malik olan sahədir. Sağlam rəqabət təmin edilməlidir. Qeyri-sağlam rəqabət aradan qaldırılmalıdır. Bütün sahələrdə şəffaflıq təmin edilməlidir. Bizdə bu sahədə gözəl təcrübə vardır. Bizdə şəffaflıqla bağlı məsələlər uğurla həllini tapır. Azərbaycan Dövlət Neft Fondunu misal gətirmək olar. Dünya miqyasında ən böyük və müsbət qiymətlərə layiq olan qurumdur və biz şəffaflıqla bağlı inkişaf etmiş ölkələrin bir çoxundan qabaqdayıq. Bu sahədə əldə olunmuş nailiyyətlər bütün başqa sahələrə də şamil edilməlidir.

Miqrasiya ilə bağlı məsələlər Azərbaycanda uğurla həllini tapır. Miqrasiya da inkişafın təzahürüdür. Bir neçə il əvvəl Nazirlər Kabinetinin toplantısında mən məsələ qaldırmışdım ki, vaxt gələcək biz bu problemlə üzləşə bilərik. O vaxt gəldi və Miqrasiya Xidmətinin vaxtında yaradılması bizə imkan verdi ki, bu prosesləri lazımi səviyyədə tənzimləyək. Qanunsuz miqrasiyaya qarşı ciddi tədbirlər görülür. Yenə də demək istəyirəm ki, miqrasiya inkişafın əlamətidir. Əgər Azərbaycanda sürətli inkişaf olmasaydı, xaricdən Azərbaycana işləmək üçün gələnlərin sayı o qədər də çox olmazdı.

Lakin biz ilk növbədə daxili əmək resurslarımızı müdafiə etməliyik. Baxmayaraq ki, son illərdə Azərbaycanda bir milyona yaxın iş yeri yaradılmışdır və bunun tam əksəriyyəti daimi iş yerləridir, yenə də işsizlik məsələləri vardır. Elə etməliyik ki, Azərbaycan vətəndaşları işlə təmin olunsunlar.

Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır və biz bütün inteqrasiya proqramlarına çox müsbət baxırıq. Azərbaycanda liberal iqtisadiyyat və işləmək üçün bütün imkanlar vardır. Azərbaycan xalqı qonaqpərvər xalqdır, Azərbaycanda quruculuq-abadlıq işləri, müasir xidmətlərin yaradılması məsələləri, əlbəttə ki, miqrantları cəlb edir. Onu da qeyd etməliyik ki, Azərbaycanda ictimai asayiş çox yüksək səviyyədə qorunur, təhlükəsizlik tədbirləri güclüdür. Şəhərlərimizə xas olan əlamət ondan ibarətdir ki, insanlar özlərini çox rahat hiss edirlər. Azərbaycanda kriminogen durum da çox yaxşıdır. Əlbəttə, bu

amillər xaricdən gələnlərə, necə deyərlər, əlavə təkan verir. Xoş niyyətlə gələn bütün qonaqlara öz qapılarımızı açırıq. Ancaq bütün bu işlər qanun çərçivəsində həll olunmalıdır və qanunsuz miqrasiyaya qarşı tədbirlər davam etdirilməlidir.

Növbəti aylarda sahibkarlığın inkişafı işində əlavə tədbirlər görüləcəkdir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kreditlər artıq verilməyə başlanmışdır. Bu kreditlər bütün bölgələri əhatə edir. Artıq bizdə bu sahədə təcrübə də çox müsbətdir. Bu il veriləcək kreditlər hesabına yeni müəssisələr, yeni iş yerləri yaradılacaq və ölkə iqtisadiyyatının çoxşaxəli şəkildə inkişaf etməsinə biz daha da böyük həcmdə nail olacağıq. Deyə bilərəm ki, bu ilin birinci rübünün uğurlu yekunları, xüsusilə qeyri-neft sektorunun artımı, o cümlədən sahibkarlığa göstərilən diqqətin nəticəsində mümkün olmuşdur. Güzəştli şərtlərlə verilən kreditlər, sahibkarlara dəstək, regional inkişaf proqramının icrası və proqrama vaxtaşırı əlavələrin edilməsi məsələləri də müsbət rol oynayır. Hazırda taxılçılığın inkişafı ilə bağlı təkliflər paketi hazırlanır. Bundan əvvəlki iclaslarda bu barədə tapşırıqlar verilmişdir ki, böyük fermer təsərrüfatları, infrastruktur yaradılsın və bu işlərə böyük torpaq sahələri cəlb edilsin, suvarma məsələləri öz həllini tapsın.

Şübhə etmirəm ki, növbəti illərdə qeyri-neft sektorunun, kənd təsərrüfatının və sahibkarlığın inkişafı daha da sürətlə gedəcək və bizə imkan verəcək ki, ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin edək.

Biz bu məsələni bir neçə il əvvəl qoymuşuq. Deyə bilərəm ki, miqrasiya ilə bağlı olan məsələlərdəki kimi, biz yenə də uzaqgörənlik göstərmişdik. Ərzaq təhlükəsizliyi ilə bağlı məsələləri gündəliyə salanda o vaxt hələ bu məsələ dünya miqyasında bu qədər də kəskinləşməmişdi. Son illər müəyyən hava şəraiti ilə, təbii fəlakətlərlə bağlı, xüsusilə taxılçılıqda bəzi ölkələr tərəfindən ixraca qoyulan məhdudiyyətlər göstərir ki, biz aqrar siyasətimizi ancaq daxili resurslar üzərində aparmalıyıq. Azərbaycanda uzun illər ərzində aparılan aqrar islahatlar, keçən əsrin 90-cı illərində aparılmış və davam etdirilən çox cəsarətli aqrar islahatlar,

fermerlərə göstərilən dəstək, vergilərin ləğvi, bugünkü reallıqlar imkan verir ki, öz gücümüzə arxalanaraq ərzaq təhlükəsizliyimizi təmin edək. Bu məsələ ilə bağlı sahibkarlarla görüşdə geniş fikir mübadiləsi aparılmışdır.

Ətraf mühitin qorunması işində səylərimizi daha da gücləndirməliyik. Düzdür, «Ekologiya ili» rəsmən başa çatdı. Ancaq hər il «Ekologiya ili» olmalıdır – həm ağacəkmə məsələləri, həm içməli su ilə təminat, neftlə çirklənmiş ərazilərin təmizlənməsi. Bu məsələlərin həlli üçün dövlət büdcəsində vəsait nəzərdə tutulur. Dövlət büdcəsinə düzəlişlər ediləndən sonra yenə də bu məqsədlər üçün vəsait nəzərə alınmalıdır. Hazırda bütün ölkədə içməli su və kanalizasiya layihələri icra edilir. Bu layihələr daha da sürətlə icra edilməli, dövlət büdcəmiz əsas yükü öz üzərinə götürməlidir.

Mən təxminən əvvəlki illərdə də belə qənaətdə idim ki, gec-tez biz bu məsələni də öz üzərimizə götürəcəyik. Bildiyiniz kimi, beynəlxalq maliyyə qurumları ilə apardığımız danışıqlar həm uzanırdı, həm də müəyyən şərtlər irəli sürülürdü. İndi Azərbaycanın maliyyə imkanları kifayət qədər genişdir və bu rəqəmlər də səsləndi. Valyuta ehtiyatlarımız artır, biz bu yaxınlarda büdcəyə əlavələr edəcəyik. Ona görə əsas yükü Azərbaycan dövləti öz üzərinə götürməlidir. Harada ki, məqbul şərtlərlə və yaxşı kommersiya şərtləri ilə kreditlərin verilməsi mümkündür, bu imkanlardan istifadə etməliyik. Harada ki, məsələ uzanır, yaxud da şərtlər çox sərtdir, belə kreditlərə heç müraciət etməməliyik, bu işləri daxili imkanlar hesabına görməliyik. Bu məqsədlə dövlət büdcəmizdə əlavə vəsait nəzərdə tutulmalıdır ki, işlər daha da sürətlə getsin, növbəti bir neçə ildə bütün ölkədə su, kanalizasiya məsələləri öz həllini tapsın.

Bu məsələlər üçün regional inkişaf proqramında konkret icra müddəti də qoyulubdur. Regionlarla bağlı olan layihələr arasında kənd yollarının tikintisi xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlər üçün keçmişdə də vəsait ayrılmışdır və müxtəlif bölgələrdə yeni kənd yolları salınmışdır. Mən o yolların açılışında iştirak etmişəm. O yollar on minlərlə insanı, yüzlərlə kəndi

birləşdirir. Yeni infrastrukturun yaradılması həm bölgələrin inkişafına xidmət göstərir, həm də insanların rahatlığı üçün çox vacibdir. Hesab edirəm ki, kənd yollarının tikintisinə böyük məbləğdə əlavə vəsait ayrılmalıdır. Hazırda yerlərdən təkliflər gəlir. İlk növbədə böyük yaşayış məntəqələrini birləşdirən yolları və ən bərbad vəziyyətdə olan yolları bərpa etməliyik, əslində yenidən qurmalıyıq. Əfsuslar olsun ki, nəinki bölgələrdə, hətta Bakı qəsəbələrində və kəndlərində yolların əksəriyyəti torpaq yollarıdır.

Bu da qətiyyən dözülməz bir haldır. Qəsəbələrlə bağlı olan məsələlərdə yollar, su və kanalizasiya məsələləri prioritet məna daşıyır. Bakı qəsəbələri ilə bağlı məsələlər haqqında mən giriş sözümdə öz fikirlərimi bildirdim. Bu ay proqram qəbul ediləcəkdir. Proqrama çox ciddi nəzarət edilməlidir. Bakı Şəhər İcra Hakimiyyəti, rayon icra hakimiyyətləri, İqtisadi İnkişaf Nazirliyi tərəfindən proqram vaxtaşırı təhlil olunmalı, əlavələr edilməlidir. Mən ümid edirəm ki, qəsəbələrə aid olan bütün məsələlər proqramda öz əksini tapacaqdır.

Biz regional inkişaf proqramının icrası ilə bağlı bu mənzərə ilə üzləşmişdik ki, müəyyən mərhələlərdə düzəlişlər də, əlavələr də edildi. Hər halda, bu məsələ ölkə qarşısında duran məsələlərin içərisində xüsusi əhəmiyyətə malikdir. Bununla bərabər, həm regional proqram, həm Bakı qəsəbələrinin inkişafı proqramı çərçivəsində qəzalı vəziyyətdə olan məktəblərin bərpası və yenidən qurulması məsələləri öz həllini tapmalıdır.

Son illərdə bu sahədə çox böyük işlər görülmüşdür. 2 mindən artıq məktəb tikilib istifadəyə verilmişdir, əlavə korpuslar tikilmişdir. Ancaq qəzalı vəziyyətdə olan məktəblərin sayı hələ də kifayət qədərdir. Əlbəttə ki, müxtəlif fikirlər ola bilər: hansı məktəb qəzalı hesab olunmalıdır və burada fikir müxtəlifliyi vardır. Bu məsələ ilə bağlı göstərişlər vermişəm ki, qəzalı vəziyyətdə olan məktəblərin sayını və o məktəblərin hansı rayonlarda, hansı qəsəbələrdə yerləşdiyini mənə bildirsinlər. Azərbaycanda pis vəziyyətdə məktəb olmamalıdır. Bunu ya qəzalı adlandırmaq, yaxud da ki, pis vəziyyətdə olan məktəb kimi qələmə

vermək olar. Ancaq bütün məktəblər yaxşı vəziyyətdə olmalıdır. Harada ki, yenidən qurulmalıdır, onu edəcəyik, harada ki, təmirə ehtiyac var, əlbəttə ki, onlar təmir olunacaqdır. Yaxın gələcəkdə o məktəblərin dəqiqləşdirilmiş siyahısı verilməlidir. Büdcəyə əlavələr edilən zaman bu məqsədlər üçün də vəsait nəzərdə tutulacaqdır. Bununla bərabər, ölkədə uşaq bağçaları ilə bağlı problemlər də vardır. Biz bu problemləri bilirik. Bu problemlər müstəqilliyimizin ilk illərində yaranmışdır. O vaxt uşaq bağçalarının bir hissəsi özəlləşdirilmişdi. Yaxud da ki, onlardan başqa məqsədlər üçün istifadə olunurdu. Bəzilərində dükanlar, restoranlar, digər məişət obyektləri yaradıldı. O dövrdə belə xoşagəlməz hallara yol verilirdi. Hazırda mövcud olan uşaq bağçaları bizim tələbatımıza heç uyğun gəlmir. Azərbaycanın əhalisi artır və bu çox müsbət haldır. Azərbaycanda 9 milyon əhali vardır. Sovet vaxtında tikilmiş bağçalar daha az əhaliyə hesablanmışdır. Burada yeganə real yol ondan ibarətdir ki, yeni uşaq bağçaları tikilsin.

Hesab etmirəm ki, biz özəlləşdirmənin nəticələrinə yenidən baxaq. Azərbaycan bazar iqtisadiyyatına sadiq olan ölkədir. Azərbaycan xarici və daxili investorlar üçün çox etibarlı ölkədir və bu bizim böyük nailiyyətimizdir. Azərbaycan öz sözünə sadiq olan ölkədir və investisiyalar – istər xarici, istər daxili – dövlət tərəfindən qorunur. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Bizim bircə yolumuz qalır ki, yerlər müəyyən edilsin və biz uşaq bağçalarının tikintisinə geniş şəkildə başlaya bilək. Ona görə bu göstərişi də verirəm. Büdcəyə əlavələrdə bu məsələ mütləq öz həllini tapmalıdır. Bu il və növbəti illərdə uşaq bağçalarının tikintisi proqramı icra edilməlidir.

Nefq-qaz sektorunda işlər gedir. Azərbaycan öz imkanlarını genişləndirir və bütün ölkədə qazlaşdırma prosesi gedir. Demək olar ki, hər həftə hansısa bir yeni kənd qazlaşdırılır. Bütün infrastruktur yenidən qurulur, bu işlər müasir səviyyədə görülür və hesab edirəm ki, növbəti 2 il ərzində ölkədə qazlaşdırma ilə bağlı əsas məsələlər öz həllini tapacaqdır. Bu ilin birinci rübündə Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub qaz

dəhlizi üzrə bəyannamə imzalanmışdır. Bəyannamə hər iki tərəfin maraqlarını təmin edir. Bəyannamədə Azərbaycan Avropa istehlakçıları üçün təchizatçı və kömək edən ölkə kimi göstərilir. Bu bəyannamənin çox böyük mənası vardır. Azərbaycanın zəngin qaz ehtiyatları müxtəlif yollarla dünya bazarlarına çatdırılır və çatdırılmalıdır. Elə etməliyik ki, zəngin qaz ehtiyatlarımızdan maksimum dərəcədə səmərəli şəkildə istifadə edək, hasilatın həcmini artıraq. Bunu etmək üçün mövcud bazarlarda qazımızın həcmini artırmalıyıq və yeni bazarlara çıxmaq üçün çalışmalıyıq. Hazırda müxtəlif ölkələrlə ikitərəfli danışıqlar gedir. Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələr, imzalanmış sənədlər məsələnin həlli üçün mühüm addımdır.

Bizdə elektrik enerjisinin istehsalı sahəsində bütün işlər lazımi səviyyədə aparılır. Azərbaycan artıq elektrik enerjisi ixrac edən ölkəyə çevrilibdir, qonşu ölkələrə enerji ixrac edirik. Ölkə daxilindəki enerji güclərini də artırırıq. Növbəti müddətdə biz elektrik xətlərinin yeniləşməsinə daha çox diqqət verməliyik. Çünki generasiya güclərimiz kifayət qədərdir. Bu il Füzuli Su Elektrik Stansiyası istismara verilməlidir. Onun gücü 25 meqavatdır və «Cənub» Elektrik Stansiyası istifadəyə verilməlidir. Onun gücü isə 800 meqavata yaxındır. Hazırda müxtəlif hesablamalara görə 1000 meqavata yaxın əlavə enerji gücümüz vardır ki, biz ondan istifadə etmirik. Biz gələcəkdə, əlbəttə ki, elektrik enerjisinin ixracı ilə daha da ciddi məşğul olmalıyıq. Bunu etmək üçün qaz sahəsində olduğu kimi, həm hazırkı bazarlara ixracı artırmalıyıq, həm də yeni bazarlara çıxmalıyıq. Hazırda Azərbaycan ilə Gürcüstan arasında 500 kilovoltluq enerji xətlərinin tikintisi başlanmışdır. Bu məqsədlə Samuxda yeni böyük yarımstansiya tikilmişdir, bu yaxınlarda onun açılışında iştirak etdim. Neft və qazdan sonra üçüncü vacib ixrac xəttimiz bu xətt olmalıdır. Bununla bərabər, bərpa olunan enerji mənbələrinin yaradılması prosesi gedir, kiçik su elektrik stansiyaları tikilir, bir neçəsinin təməl daşı qoyulmuşdur. Azərbaycanda digər alternativ enerji mənbələrinin yaradılması prosesi gedir.

Magistral yolların tikintisi ilə bağlı əlavə tədbirlər görülməlidir. Çox işlər görülüb. Bütün magistral yollarda işlər gedir. Şəhərlərarası yollar, kənd yolları tikilir. Hesab edirəm ki, biz ilin sonuna qədər bu sahədə əlavə vəsaitin ayrılması hesabına işi daha da sürətləndirməliyik. Xüsusilə Bakı–Rusiya sərhədi yolunun davam etdirilməsi üçün əlavə vəsait nəzərdə tutulmalıdır ki, biz bu yolun tikintisini tezliklə başa vuraq. Yolun böyük hissəsi beynəlxalq standartlara uyğundur. Sərhədə yaxın olan qalan hissənin tikintisini də tezliklə təmin etməliyik. Bakı–Gürcüstan yolunun bir hissəsi ikizolaqlı, bir hissəsi dördzolaqlıdır. O yoldan istifadə çox intensiv xarakter daşıyır, biz ikizolaqlı hissəni dörd zolağa genişləndirməliyik. Bu tapşırığı da verirəm ki, Bakıdan Gürcüstan sərhədinə qədər bu yolun hamısı dördzolaqlı olsun.

Bu layihəyə başlamaq üçün əlavə vəsait nəzərdə tutulmalıdır. Bakı–İran sərhədi yolunun inşası cədvəl üzrə gedir. Bu yol bəri başdan dördzolaqlı nəzərdə tutulmuşdur. Orada bütün işlər cədvəl üzrə gedir. Yolların tikintisi ilə vaxtaşırı tanış oluram və işlər lazımi səviyyədə görülür.

Bakı–Şamaxı yolu, demək olar ki, Bakı–Balakən sərhədi yolunun bir hissəsidir. O da yenidən qurulub. İkizolaqlı yol kimi qurulub. Hesab edirəm, bu yolu da dörd zolağa genişləndirmək üçün əlavə tədbirlər görülməlidir ki, gedib-gəlmək daha da rahat olsun.

Bakıda yeni qovşaqlar, körpülər, tunellər tikilir. Bu işlər şəhərimizin müxtəlif yerlərində gedir. Bakı qəsəbələrinin inkişafı proqramı çərçivəsində qəsəbələrarası yolların tikintisi də nəzərdə tutulur. Bu işlər daha da sürətlə aparılmalıdır. İndi müvafiq göstərişlər verilmişdir, təkliflər hazırlanır. Nəzərə almalıyıq ki, əlavə maliyyə resurslarımız vardır, dünyada neftin qiyməti artmışdır. Təbii olar ki, biz həllini gözləyən məsələləri elə bu il həll edək və bu məsələləri gələn ilə saxlamayaq. İlk növbədə infrastruktur layihələri əlavə edilməlidir, tikinti işləri, sosialyönümlü tədbirlər – bu barədə burada deyildi – dürüstləşmə zamanı nəzərə alınmalıdır.

Azərbaycanda sosialyönümlü tədbirlər vaxtaşırı aparılır. Həm uzunmüddətli proqramlar çərçivəsində, həm də lazım gələndə əlavə tədbirlər görülür. Mən onların arasında bu yaxınlarda əhalinin suya olan borclarının silinməsi məsələsini qeyd etmək istəyirəm. Bu addım xoşniyyətli addımdır və hesab edirəm ki, düzgün addımdır, sosial ədalət prinsipləri baxımından düzgün addımdır, bazar iqtisadiyyatı prinsipləri baxımından bəlkə o qədər də düzgün addım deyildir. Bu prioritetlər sırasında sosial məsələlər birinci yerdədir. Ancaq o da həqiqətdir ki, əgər güclü iqtisadi imkanlarımız olmasa, heç bir sosial məsələ öz həllini tapa bilməz. Ona görə dürüstləşmə zamanı mütləq geniş sosial paket nəzərdə tutulmalıdır, əməkhaqlarının, pensiyaların artırılması məsələləri öz həllini tapmalıdır və tapacaqdır. Xüsusilə, 2006-cı ilə qədər pensiyaya çıxmış vətəndaşların pensiyaları artırılmalıdır. Çünki bu sahədə müəyyən ədalətsizlik vardır. 2006-cı ildən sonra yeni qaydalar tətbiq olundu və 2006-cı ildən sonra pensiyaya çıxanlar daha böyük pensiya alırlar. 2006-cı ilə qədər Azərbaycanda pensiyaya çıxanların sayı haradasa 900 mindən artıqdır. Bütövlükdə 1 milyon 300 nəfərə qədər pensiyaçı vardır. Ona görə, ilk növbədə onların pensiya təminatı yaxşılaşdırılmalıdır ki, bu sahədə heç bir ayrı-seçkilik olmasın və yaşlı insanlar lazımi səviyyədə pensiya ilə təmin olunsunlar. Bizim borcumuz onların maddi təminatını yaxşılaşdırmaqdır. Biz bunu mütəmadi qaydada edirik. Xüsusilə bu il biz 2006-cı ilədək pensiyaya çıxmış vətəndaşların pensiya təminatını yaxşılaşdırmalıyıq.

Bütün digər məsələlər öz həllini tapır. Yenə də demək istəyirəm ki, hökumət üzvləri öz vəzifə borclarını yaxşı bilirlər. Ölkədə bütövlükdə işlər yaxşı gedir. 2011-ci ilin birinci rübünün yekunları da bunu təsdiqləyir. Gələn aylarda, ilin sonuna qədər biz eyni əzmkarlıqla və peşəkarlıqla işləməliyik, ölkə qarşısında duran bütün vəzifələri icra etməliyik.

Sağ olun.

**NİDERLAND KRALİÇASI ÜLYAHƏZRƏT BEATRİKSƏ**

Ülyahəzrət!

Ölkənizin milli bayramı – Kraliça günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Niderland münasibətlərinin, dostluq və əməkdaşlıq əlaqələrimizin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Niderland xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 aprel 2011-ci il*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya), Robert Bradtkeni (ABŞ) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.*

## CƏNUB BÖLGƏSİNƏ SƏFƏR

*Masallı*

*14 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də respublikamızın cənub bölgəsinə səfəri çərçivəsində Masallı rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayon mərkəzindəki Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin ətrafında, şəhərdə və rayonda görülmüş abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verildi.*

*Bildirildi ki, Masallı şəhərinin mərkəzində ulu öndərin adını daşıyan Mədəniyyət və istirahət parkı yenidən qurulmuşdur. Ümumi sahəsi 4 hektar olan parkın ərazisində Heydər Əliyev Muzeyi inşa edilmiş, burada ümummilli liderin möhtəşəm abidəsi ucaldılmış, sakinlərin istirahəti üçün gözəl şərait yaradılmış, yeni yaşıllıqlar salınmış, iki böyük fəvvarə tikilmiş, müasir işıqlandırma sistemi quraşdırılmışdır.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi.*

### Yenidən qurulmuş Nizami Gəncəvi parkı ilə tanışlıq

*Aprelin 14-də Azərbaycan prezidenti İlham Əliyev Masallı şəhərinin Talışxanov küçəsində yenidən qurulmuş Nizami Gəncəvi parkı ilə tanış olmuşdur.*

*Rayon ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*İstirahət mərkəzi ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, Nizami Gəncəvi parkı 1967-ci ildə salınmışdır. Ümumi sahəsi 4500 kvadratmetr olan park uzun illər baxımsız vəziyyətdə olduğundan yararsız hala düşmüşdur. 2011-ci ilin əvvəlindən parkda yenidənqurma və genişləndirmə işlərinə başlanılmışdır. Parkda müasir işıqlandırma sistemi quraşdırılmış və yeni fəvvarə inşa olunmuşdur.*

*Bildirildi ki, parkın ətrafında milli memarlıq üslubunda 280 metr uzunluğunda hasar tikilmişdir. İstirahət mərkəzində mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün səhnə qurulmuş və digər müvafiq işlər görülmüşdür. Parkın ərazisində yerləşən Mədəniyyət evinin fasadı da yenilənmişdir. İdeoloji Mərkəzdə də yenidənqurma işləri aparılmışdır. Parkın yaxınlığındakı binaların fasadlarında aparılan təmir işləri tamamlanmaq üzrədir. Yenidənqurma tədbirləri zamanı bu istirahət ocağı ilə ətrafın ümumi ansambl təşkil etməsinə xüsusi diqqət yetirilmişdir.*

*Prezident İlham Əliyev burada Masallı şəhərinin və rayonun qaz təchizatı sxemlərinə baxdı.*

*Məlumat verildi ki, Dövlət Proqramına əsasən rayon mərkəzində əvvəllər qaz almayan kommunal binalar da daxil olmaqla, şəhərin bütün yaşayış massivlərində birpilləli sistem üzrə qaz təsərrüfatının yenidən qurulması işləri aparılır. İndi Masallı şəhərində qazdan istifadə edən abonentlərin sayı 3300-ə çatır. Cari ilin sonunadək aparılan təmir-bərpa işlərinin tam başa çatdırılması və bununla da Masallı şəhərində 6 minədək abonentin qazla təmin olunması nəzərdə tutulmuşdur. Dövlət Proqramı əsasında rayonun Muğan zonasında yerləşən 22 yaşayış məntəqəsində 6176 abonentin qazla təmin olunması məqsədilə birpilləli sistem üzrə həmin yaşayış məntəqələrinin layihə-smeta sənədləri hazırlanmışdır. Həmin kəndləri təbii qazla təmin edəcək 55 kilometr uzunluğunda qaz kəmərinin çəkilişinə başlanılmışdır.*

*Prezident İlham Əliyev Masallı şəhərinin planı, su təchizatı və kanalizasiya şəbəkələrinin, şəhərin içməli və çirkab sutəmizləyici qurğularının planları, eləcə də şəhərdə aparılacaq*

*tikinti-abadlıq işləri zamanı istifadə olunacaq materiallar və avadanlıqların nümunələri ilə tanış oldu.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, illərdən bəri Masallı şəhərində mövcud olan içməli su və kanalizasiya problemlərinin həlli bu layihənin həyata keçirilməsi ilə aradan qalxacaqdır. Masallı şəhərinə içməli su nəqli 10 kilometrə yaxın məsafədən diametri 630 millimetr olan daşıyıcı xətt vasitəsilə həyata keçiriləcək və şəhər daxilində müxtəlif diametrli borularla paylanacaqdır.*

*Prezident İlham Əliyev Masallı şəhərinin abadlaşdırılması planına da baxdı.*

*Məlumat verildi ki, şəhərdə 19 min 200 kvadratmetr sahənin abadlaşdırılması nəzərdə tutulmuşdur. O cümlədən Heydər Əliyev prospektinin yenidən qurulması planlaşdırılmışdır. Prospektin hər iki tərəfindəki tikililər sökülərək, yol genişləndiriləcək, yaşıllıq zolaqları salınacaqdır. 8 min 400 kvadratmetr sahədə çəmənlik salınacaqdır. Dörd fontan qurulacaqdır. Prospekt müasir işıqlandırma sistemi ilə təchiz olunacaqdır. Bundan əlavə, prospekt boyu kommunal binaların fasadları müasir səviyyədə təmir olunacaqdır.*

*Prezident İlham Əliyev parkda Nizami Gəncəvinin yeni abidəsinin açılışında iştirak etdi.*

*Nizami Gəncəvinin parkdakı heykəli yenisi ilə əvəzlənmişdir. Tuncdan hazırlanan heykəlin hündürlüyü 3,6 metrdir. Abidə kompleksinin arxa tərəfində dahi mütəfəkkirin əsərlərinin motivlərindən ibarət kompozisiya yaradılmışdır.*

## MASALLI RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*14 aprel 2011-ci il*

*Aprelin 14-də Azərbaycan prezidenti İlham Əliyev yenidən qurulmuş Nizami Gəncəvi parkı ilə tanışlıqdan sonra Masallı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

**İlham Əliyev:** Sizi ürəkdən salamlayıram, Nizami parkının yenidən qurulması münasibətilə təbrik edirəm. Çox gözəl park yarandı, yenidən quruldu. Dahi Nizaminin abidəsi qoyulubdur. Bütün bu işlər məni çox sevindirir. Şadam ki, yenidən Masallıdayam, sizinlə görüşürəm.

Biz Masallının inkişafının yeni dövrünü yaşayırıq. Çünki Masallıda gedən işlər, bu gün mənə göstərilən layihələr, təqdimat yaxın zamanlarda rayonda, demək olar ki, əsas sosial məsələlərin həllinə gətirib çıxaracaqdır. Bu günə qədər müəyyən işlər görülmüşdür. Rayonun inkişafına daim diqqət göstərilir. Əvvəlki illərdə Olimpiya İdman Kompleksi tikilmişdir, göz xəstəxanasının filialı açılmışdır, digər layihələr icra edilmişdir. Şəhərdə abadlıq-quruculuq işləri gedir. İndi uzun illər həllini gözləyən məsələlər də artıq həll olunur. İlk növbədə qazlaşdırma layihəsi. Gələn ilin sonuna qədər Masallının bütün yaşayış məntəqələri qazlaşdırılacaqdır. Bu, tarixi bir nailiyyət olacaqdır. Çünki heç vaxt Masallı kəndlərində qaz olmamışdır. Masallıya qazın verilməsinin bərpası bir neçə il əvvəl başlamışdır. Şəhərin müəyyən hissəsini əhatə edirdi. İndi isə layihə hazırlanıb ki, nəinki şəhər – mənə indi deyirlər, şəhərdə məsələ artıq həll olunub – bütün kəndlər qazla təchiz ediləcəkdir. Gələn ilin sonuna qədər bu layihə başa çatmalıdır. Beləliklə, hesab edirəm ki, biz böyük bir məsələnin həllinə nail olacağıq.

Elektrik enerjisi ilə təchizatda heç bir problem, məhdudiyyət yoxdur. Ölkə üzrə bu məsələ öz həllini tapıb. Qarşımızda qazlaşdırma məsələsi dayanır. Biz bunu həll edirik. İçməli su, kanalizasiya problemlərinin həlli də çox vacib məsələlərdir. Bu məsələlər də, demək olar ki, ölkə miqyasında hazırda kompleks şəkildə öz həllini tapır. Hər bir şəhərdə, hər bir rayonda su, kanalizasiya xətləri çəkilir, o cümlədən Masallının su, kanalizasiya layihələri də bir neçə aydan sonra icra olunmağa başlanacaqdır. Görüləcək işlər nəticəsində bu tarixi problem öz həllini tapacaqdır.

Biz bütün məsələlərə kompleks şəkildə yanaşırıq ki, sosial və iqtisadi inkişaf məsələləri öz həllini tapsın, konkret layihələr icra olunsun. Ümid edirəm ki, su, kanalizasiya problemi nəinki Masallıda, bütövlükdə ölkədə bir neçə ildən sonra öz həllini tapacaqdır. Bununla bərabər, hətta sosial infrastrukturun yaradılmasına diqqət göstərilir. Mənə verilən məlumata görə, son illərdə Masallıda iyirmidən çox məktəb tikilib, məktəblər təmir edilir. Amma hələ də qəzalı vəziyyətdə məktəblər vardır. Biz onların da təmiri ilə məşğul olacağıq. Kənd yollarının tikintisi layihələri gündəlikdə dayanır. Bu məsələ ilə də məşğul oluruq.

Son 7 ildə Masallıda ümumi məhsulun buraxılışı iki dəfə artmışdır. Yəni, bu onu göstərir ki, iqtisadi sahədə də irəliləyiş vardır – iş yerləri açılır, yeni müəssisələr yaradılır və kənd təsərrüfatının inkişafı üçün kreditlər verilir, soyuducu anbarlar, taxıl anbarları tikilir. Yəni, istənilən sahədə konkret proqramlar icra olunur və Masallının inkişaf proqramı, əlbəttə ki, xüsusi diqqət altındadır.

Regional inkişaf proqramı uğurla icra edilir, o cümlədən Masallı rayonunda da. Mən 3 il əvvəl Lənkəran aeroportunun açılışını qeyd etmək istəyirəm. Çünki Masallı rayonunun əhalisi də bu imkanlardan istifadə edir. İndi beynəlxalq uçuşlar da təşkil edilir. Bakı–Astara avtomobil yolunun tikintisi gedir. Bu da Masallıya yeni imkanlar yaradacaqdır. Yəni ölkə əhəmiyyətli layihələr, o cümlədən bu rayonlara da öz müsbət təsirini

göstərəcəkdir. Nəticə etibarilə 2013-cü ilə qədər ikinci regional proqramın icrası sayəsində ölkə qarşısında duran əsas iqtisadi və sosial məsələlər öz həllini tapacaqdır.

Cənub bölgəsinin inkişafına xüsusi diqqət göstərilir. Bu bölgənin böyük potensialı vardır. Həm kənd təsərrüfatının, sənayenin, həm də turizmin inkişafı üçün şərait yaradılmalıdır və yaradılır. Bütün sosial, iqtisadi məsələlər öz həllini tapır və tapacaqdır.

Qazlaşdırma, su, kanalizasiya, yollar, elektrik enerjisi təchizatı, infrastruktur, məktəblər, tibb məntəqələri – yəni bütün bu məsələlər onu göstərir ki, ölkə sürətlə inkişaf edir. Əlbəttə, beynəlxalq aləmdə mövqelərimiz daha da möhkəmlənir. Azərbaycan nadir imkanlara malikdir və biz bu imkanlardan istifadə edirik.

Mədəniyyətlərarası Dialoq Forumunun Bakıda yüksək səviyyədə keçirilməsi bütün dünyaya Azərbaycanı olduğu kimi təqdim etdi. Biz öz milli dəyərlərimizə və dinimizə sadiqik. Bugünkü müstəqil dövlətimiz məhz milli dəyərlər üzərində qurulmuşdur. Biz öz dini ənənələrimizə sadiqik. İslam dininin dünyada təbliği üçün Azərbaycan çox böyük işlər görür. Azərbaycanda din–dövlət münasibətləri elə qurulub ki, bu, bütün ölkələr üçün nümunə, örnək olmalıdır. Başqa dinlərin nümayəndələrinə də həmişə Azərbaycanda xoş münasibət olub və bu münasibət bu gün də vardır. Milli, dini dözümlülük, tolerantlıq Azərbaycan xalqına və bütün Azərbaycan vətəndaşlarına xas olan məsələlərdir.

Bu forumun yüksək səviyyədə keçirilməsi, forum çərçivəsində çox mühüm və dəyərli fikirlərin səslənməsi, əlbəttə ki, müasir Azərbaycanın gücünü göstərir. Yenə də deyirəm, istənilən sahədə ölkəmiz böyük fərəh hissi ilə özünü dünyaya təqdim edir. Həm iqtisadi inkişaf, həm siyasi sabitlik, həm dünyaya baxışlarımız, Azərbaycanda, sözün əsl mənasında, vətəndaş cəmiyyətinin formalaşması, dini dəyərlərə münasibətimiz – bütün bunlar bizi gücləndirir.

Bu gün biz dünyanın müxtəlif yerlərində münaqişələri, qarşıdurmaları, o cümlədən dini zəmində baş verən münaqişələri görürük. Bunlar onu göstərir ki, hər bir ölkə ancaq düzgün siyasət nəticəsində inkişaf edə bilər. Bizim seçdiyimiz yol ən düzgün yoldur. Həm sabitlik qorunur, insanların təhlükəsizliyi təmin edilir, həm də sosial və iqtisadi məsələlər həll olunur, dünyadakı mövqemiz güclənir. Biz ölkəmiz üçün, dünya üçün çox vacib nəhəng enerji layihələrini icra edirik. Bu gün Azərbaycan dövləti müstəqil dövlət kimi tam formalaşıb. Dövlətçiliyimizin əsasları tam şəkildə qurulub və biz bu gün daxili imkanlar hesabına yaşayırıq.

Əgər bizdə güclü iqtisadi əsaslar olmasaydı və neft siyasətimiz düzgün aparılmasaydı, bu gün biz də o vəziyyətə düşə bilərdik. Kim bizə kömək edəcəkdi? Biz uzun illərdir ki, ikili standartlarla üzləşirik. Bizə kimsə kömək etsəydi, yəqin ki, bu köməyi təmənnasız göstərməzdi. Amma buna ehtiyacımız yoxdur. Çünki biz özümüz özümüzü təmin edirik. Biz artıq böyük maliyyə resursları yığmışıq, iqtisadi inkişaf gedir. Böhranlı illərdə manatın məzənnəsini sabit saxlamışıq.

Böhranlı 2009–2010-cu və 2011-ci illərdə sosial proqramlar icra edilib. Bir neçə aydan sonra maaşlar, pensiyalar qaldırılacaqdır. Suya olan borclar silinib. Biz Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik. Bunu etmək üçün hər bir bölgəmizdə, ucqar kəndlərimizdə belə, bütün problemlər həll olunmalıdır. Mənim bölgələrə səfərlərim mütəmadi xarakter daşıyır. Çalışıram ki, hər bir kəndə gedim, insanlardan soruşum, nə etməliyik, harada çatışmayan nəsə varsa, biz onu da düzəldək.

İndi mənə verilən məlumata görə, Masallıda əsas məsələlər həll olunub. Əgər hansısa əlavə bir məsələ, yəni öz həllini gözləyən məsələ varsa mənə deyin, biz onu da həll edək. Mənim işim bundan ibarətdir. Çox sevinirəm ki, Masallıda abadlıq-quruculuq işləri aparılır. Burada dediyim layihələr icra ediləndən sonra işlər daha da yaxşı olacaqdır.

## Ələt–Astara–İran İslam Respublikası dövlət sərhədi avtomobil yolunun Masallı–Astara hissəsinin Sərçuvar kəndi ərazisində aparılmış tikinti işləri ilə tanışlıq

*Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ələt–Astara–İran İslam Respublikası dövlət sərhədi avtomobil yolunun Masallı–Astara hissəsinin Sərçuvar kəndi ərazisində aparılmış tikinti işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı Ələt–Astara avtomobil yolunun sxemini əks etdirən stendlərə baxdı.*

*Nəqliyyat naziri Ziya Məmmədov prezident İlham Əliyevə məlumat verdi ki, Masallı və Astara rayonlarının ərazisindən keçən birinci dərəcəli yolun bu hissəsinin ümumi uzunluğu 22 kilometr, eni 27,5 metrdir. Yolun dördtərəfli aparıcı zolağının eni 5 metr olacaqdır.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, yeni yolun istifadəyə verilməsindən sonra Masallı və Astara rayonlarını birləşdirən köhnə yolun istismarı da davam etdiriləcəkdir. Bu yolun istifadəyə verilməsi Masallı və Astara ilə yanaşı, Yardımlı, Lənkəran, Biləsuvar və digər rayonların əhalisi üçün rahatlıq yaradacaqdır.*

*Sonra prezident İlham Əliyev Ələt–Astara avtomobil yolunun Kür çayı üzərindən keçən hissəsində inşası davam etdirilən yeni körpü kompleksini əks etdirən stendlərə baxdı.*

*Məlumat verildi ki, körpünün ümumi uzunluğu 370 metr, eni isə 30 metr olacaqdır. Körpüyə yanaşma yolunun ümumi uzunluğu isə 1 kilometrdən çoxdur.*

*Dövlətimizin başçısı yolun tikintisində istifadə olunan texnikaya baxdı.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, tövsiyə və tapşırıqlarını verdi.*

## ASTARA ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*15 aprel 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev respublikamızın cənub bölgəsinə səfəri çərçivəsində aprelin 15-də Astara rayonunda olmuşdur.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Astara şəhərinin mərkəzindəki Heydər parkında ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin yerləşdiyi parkda aparılmış abadlıq-quruculuq işləri barədə məlumat verildi. Bildirildi ki, rayonun mərkəzi olan bu ərazidə geniş abadlıq işləri görülmüş, müasir park salınmışdır.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 15-də Astarada Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzin açılışını bildirən lenti kəsdikdən sonra yaradılmış şəraitlə tanış oldu.*

*Bildirildi ki, Azərbaycanın bütün bölgələri kimi, Astara rayonunun da inkişafının bütöv bir mərhələsi məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin yenidən ölkənin siyasi rəhbərliyinə qayıdışı bütün respublikada olduğu kimi, Astaranın da inkişafında mühüm rol oynamışdır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, orijinal memarlıq üslubunda tikilən Heydər Əliyev Mərkəzinin inşasına bu ilin yanvarında başlanılmışdır. İkimərtəbəli binanın girişində ulu öndərin büstü qoyulmuşdur.*

*Dövlətimizin başçısı Mərkəzin birinci mərtəbəsində ümummilli liderin mənalı həyatını və zəngin siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotoşəkillərin və məlumatların yer aldığı tablolara və genişekranlı monitora baxdı. Mərkəzdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunan bölmələrdə ulu öndərin uşaqlıq və gənclik dövrlərini əks etdirən fotoşəkillər, 1969–82-ci illərdə respublikamızın sosial-iqtisadi inkişafı ilə bağlı gördüyü işlər, 1993-cü ildə xalqımızın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra ölkəmizin ictimai-siyasi, sosial və mədəni həyatındakı quruculuq işlərindən bəhs edən materiallar toplanmışdır.*

*Sonra dövlətimizin başçısı Mərkəzin ikinci mərtəbəsində yaradılmış şahmat, təsviri sənət, dekorativ tətbiqi sənət studiyaları və elektron kitabxana ilə tanış oldu.*

*Məlumat verildi ki, elektron kitabxananın fondunda 3500 kitab toplanmışdır. Buradakı 20 kompyuter vasitəsilə oxucular Milli Kitabxananın elektron resursunda olan 11 min 416 elektron kitabdan istifadə edə bilərlər. Elektron kataloqda isə 149 min 983 kitabın biblioqrafik göstəricisi üzrə axtarış aparmaq mümkündür.*

*Burada, həmçinin prezident İlham Əliyevin 2004-cü ildə imzaladığı sərəncama əsasən latın qrafikalı əlifba ilə nəşr olunmuş 500-dək kitabın elektron versiyasından istifadə etmək mümkündür. Kitabxanada «Avropa kitabxanaları» elektron kataloqdan 48 ölkənin toplu kataloqu vasitəsilə axtarış aparmaq mümkündür. Milli Kitabxananın saytı vasitəsilə 21 xarici ölkə kitabxanaları ilə əlaqə yaratmaq mövcuddur.*

*Vurğulandı ki, bu addım həm də Astarada xalçaçılıq sənətinin inkişafına xidmət edəcəkdir. Şahmat studiyasında isə uşaqlar həm şahmat, həm də dama ilə məşğul olacaqlar. Burada məşğələlərlə yanaşı, yarışlar da keçiriləcəkdir. Mərkəz gənc nəslin dünyagörüşünün, bilik və bacarıqlarının artırılmasında mühüm rol oynayacaqdır.*

*Prezident İlham Əliyev Mərkəzin Xatirə kitabına ürək sözlərini yazdı.*

## Yenidən qurulmuş Astara–Bala Şahağac kəndi avtomobil yolunun açılışı mərasimi

*Aprelin 15-də Azərbaycan prezidenti İlham Əliyev yenidən qurulmuş Astara–Bala Şahağac kəndi avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Sakinlər dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev yolun əvvəlki və indiki vəziyyətini əks etdirən stendə baxdı.*

*Astara Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev məlumat verdi ki, dövlətimizin başçısının tapşırıqlarına əsasən regionlarda yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Rayonun əsas yollarından olan Astara–Bala Şahağac avtomobil yolunun tikintisi də bu qəbildəndir.*

*Bildirildi ki, Astara–Lənkəran magistral avtomobil yolunda hərəkətin intensivliyinin artması nəticəsində yaranmış gərginliyin aradan qaldırılması ilə bağlı 50 min nəfərdən çox əhalisi olan qəsəbə və kəndlərin sakinlərinin müraciətlərini nəzərə alaraq, onların daimi istifadə etdikləri Astara–Bala Şahağac avtomobil yolunun yenidən qurulması üçün prezident İlham Əliyev 2010-cu il aprelin 21-də «Astara rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında» Sərəncam imzalamışdır. Sərəncama əsasən, prezidentin ehtiyat fondundan Astara–Bala Şahağac avtomobil yolunun yenidən qurulması məqsədilə Astara Rayon İcra Hakimiyyətinə 3,5 milyon manat vəsait ayrılmışdır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, əvvəllər Ələt–Astara magistralı ilə paralel olaraq dövlət əhəmiyyətli yol kimi istifadə edilən, Xəzər dənizinin sahili boyunca çəkilmiş 19 kilometrlik Astara–Bala Şahağac avtomobil yolu uzun müddət baxımsızlıq ucbatından və dənizin səviyyəsinin qalxması ilə əlaqədar yararsız vəziyyətə düşmüşdü.*

*Sonra prezident İlham Əliyev yolun açılışını bildirən lenti kəsdi.*

## ASTARA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*15 aprel 2011-ci il*

*Aprelin 15-də Azərbaycan prezidenti İlham Əliyev yenidən qurulmuş Astara–Bala Şahağac avtomobil yolunun açılışından sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

**İ l h a m Ə l i y e v:** Salam, sabahınız xeyir. Sizi təzə yolun açılışı münasibətilə təbrik etmək istəyirəm. Çox gözəl yoldur, bir neçə kəndi birləşdirir, 19 kilometr uzunluğu vardır. Astara sakinlərinin müraciətinə müsbət cavab verərək bu yolun inşasına prezidentin ehtiyat fondundan vəsait ayrılmışdır və bu yol tikilmişdir. Baxmayaraq ki, bu, kənd yoludur, gözəldir, bütün beynəlxalq standartlara cavab verir. Bütün kənd yollarımız bu səviyyədə olmalıdır. Kənd yollarının tikintisi ilə bağlı xüsusi proqram hazırlanır. Həm Bakıətrafı qəsəbələrdə, həm də bütün bölgələrdə buna böyük ehtiyac vardır. Çünki kənd yollarımız hələ ki, istədiyimiz səviyyədə deyildir. Çox şadam ki, Astarada belə layihələrdən biri həll olunub, icra edilib. Hesab edirəm ki, biz gələcəkdə digər kənd yollarına da əl gəzdirməliyik.

Mən birinci dəfə deyil ki, Astarada səfərdəyəm. Əvvəlki illərdə də burada bir neçə dəfə olmuşam və bu gün bir neçə tədbirin keçirilməsi nəzərdə tutulur. Astarada böyük qaz-kompressor stansiyasının yenidən qurulması prosesi başa çatmışdır. Bu da həm Astaranın, həm, ümumiyyətlə, Azərbaycanın qaz potensialının inkişafı üçün çox vacib layihədir, həm də yeni iş yerlərinin açılmasına xidmət göstərəcəkdir. Su elektrik stansiyasının təməl daşı qoyulacaqdır. Bu da Azərbaycanda həll olunan məsələlərdən biridir. Çünki hər bir

rayonda, harada imkanlar vardır, kiçik su elektrik stansiyaları tikilməlidir ki, biz özümüzü enerji ilə daha da böyük həcmdə təmin edək.

Digər layihələr icra olunur, Gənclər evi tikilib, qazlaşdırma gedir. Bu gün bu məsələ ilə bağlı mənə məlumat veriləcəkdir. Elə etməliyik ki, bütün yaşayış məntəqələri qazlaşsın. Su, kanalizasiya məsələlərinin həlli gözlənilir. Bu da çox vacib olan məsələdir. Hər bir rayon üzrə xüsusi proqramlar vardır. Bütün bu proqramlar regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının tərkib hissəsidir. O proqram ki, bir neçə ildir uğurla icra edilir. Ölkəmizdə aparılan işlər və bölgələrin inkişafı, bölgələrdə sosial infrastrukturun yaradılması məsələləri proqramda öz həllini tapır. Astarada son illərdə istehsal artıb, yeni müəssisələr istismara verilib, məktəb tikintisi gedir, bir neçə məktəb tikilir. Bu işləri daha da sürətlə aparmalıyıq. Çünki Azərbaycanın hazırkı uğurlu və sürətli inkişafı hər bir bölgədə və hər bir kənddə özünü göstərməlidir.

5 il əvvəl Astarada yeni elektrik stansiyası tikilmişdir. Mən xatırlayıram, bu stansiyanın açılışında olmuşdum. Bu stansiya nəinki Astaranı enerji ilə təmin edir, bütün bölgəyə elektrik enerjisi verir. Artıq o stansiyanın istismara verilməsindən 5 il keçir. O vaxt birinci belə stansiya məhz Astarada tikilmişdir. Ondan sonra digər bölgələrdə. Biz artıq enerji qıtlığı ilə çoxdandır ki, üzləşmirik. Əksinə, xaricə enerji ixrac edirik.

Yenə də deməliyəm ki, qaz təchizatı, içməli su, kanalizasiya, suvarma şəbəkəsi, sosial infrastruktur, xəstəxanalar, məktəblər, yollar və iş yerləri – bu problemlər Azərbaycanda tədricən həll olunur, ancaq hələ ki, işsizlər vardır. Onların işlə təmin edilməsi gündəlikdə duran vacib məsələlərdəndir. Son illərdə yüz minlərlə iş yeri açılmışdır. Azərbaycan əhalisi artır. Bu çox müsbət haldır. Hər il təxminən 150–160 min körpə dünyaya gəlir. Biz elə etməliyik ki, iş yerlərinin açılması da, bax, bu artımla uzlaşsın. Hər bir iş yerinin açılması böyük vəsait, investisiya tələb edir, kreditlər verilməlidir.

Həmçinin sosial məsələlər, maaşların, təqaüdlərin artırılması məsələləri də yaxın zamanlarda öz həllini tapacaqdır. Bütün bu məsələlər deyə bilərəm ki, Azərbaycanda mütəmadi qaydada həll olunur. Son illərdə maaşlar və pensiyalar bir neçə dəfə qaldırılmışdır. Növbəti artım bir neçə aydan sonra gözlənilir.

Bu gün Azərbaycanda bütün sahələrdə sürətli inkişaf vardır. Siz keçən əsrin 90-cı illərinin əvvəllərini xatırlayırsınız. Biz də o illəri yaxşı xatırlayırıq. O vaxt doğrudan da Azərbaycanın taleyi həll olunurdu. Biz müstəqilliyimizi 1991-ci ildə bərpa etdik. Ancaq 1993-cü ildə ölkəmizdə gedən xoşagəlməz proseslər və yaşanan gərginlik, böhran faktiki olaraq müstəqilliyimizi də sual altına qoymuşdu. O vaxt Azərbaycana rəhbərlik edən şəxslər vəzifə borclarını layiqincə yerinə yetirə bilməmişlər və çətin vəziyyətlə üzləşərək vəzifələrini dondurmuş və ölkədən də qaçmışlar. Hazırda o adamların yenə də hansısa işi görmək cəhdləri hesab edirəm ki, böyük diqqətə layiq deyildir. Siz bunlara heç əhəmiyyət də verməyin. Bunlar görüntü naminə atılan addımlardır və Azərbaycanda nə sabitliyi sarsıda, nə də Azərbaycanın uğurlu inkişafına xələl gətirə bilər. Çünki o hadisələrdə – 90-cı illərin əvvəllərində Azərbaycanda vətəndaş müharibəsini başlamış, ondan sonra qorxaqcasına ölkədən qaçmış insanlara ölkəmizin siyasi səhnəsində yer yoxdur. O adamlar artıq tarixin arxivindədir. Vaxtaşırı hər hansı bir ölkədə baş verən hadisə bunları da nisbətən canlandırır, ruhlandırır. Biz bunu 2005-ci ildə görmüşük. O vaxt MDB məkanında baş vermiş hadisələr bunları da bir növ hərəkətə gətirmişdi. Onlar kiminsə təcrübəsini yamsılamaqla məşğul idilər. Narıncı lentləri, bantları biz yaxşı xatırlayırıq. Lakin həmin cəhdlər iflasa uğradı. Çünki Azərbaycan xalqı onların hərəkətlərini dəstəkləmədi. Bu dəfə də, ümumiyyətlə, bu məsələ ilə bağlı heç danışmağa ehtiyac yoxdur. Çünki Azərbaycan dövləti o qədər güclüdür, ölkədə ictimai-siyasi sabitlik o qədər möhkəmdir ki, bizim işimizə mane olmaq, Azərbaycanın uğurlu inkişafına zərbə vurmaq istəyən, bəzi hallarda xarici dairələrdən göstərişlər alan ünsürlərə Azərbaycan xalqı çoxdan «yox» deyib!

Bizim taleyimiz öz əlimizdədir. Bizim ən böyük sərvətimiz müstəqilliyimizdir. Biz hər an müstəqilliyimizi bu konkret işlərlə, proqramlarla, quruculuq, abadlıq işləri ilə möhkəmləndirməliyik.

Bu gün Azərbaycan, sözün əsl mənasında, nəinki öz müqəddəratını, öz taleyini özü müəyyən edir, bölgədə gedən proseslərə də təsir imkanlarımız artır. Bu gün Azərbaycanı, bizim maraqları nəzərə almadan bölgədə heç bir məsələ öz həllini tapa bilməz. Mən bu barədə bir neçə dəfə fikirlərimi bildirmişəm və həyat göstərir ki, bunlar reallığı əks etdirən vəziyyətdir. Əgər nə vaxtsa Azərbaycanın maraqlarını kimsə kənara qoymaq istəyirsə, sonra görürlər ki, maraqlarımız təmin edilmədən bölgədə heç bir məsələ öz həllini tapa bilməz, nə siyasi sahədə, nə regional əməkdaşlıq baxımından, nə də ki, iqtisadi sahədə. Bu gün Azərbaycan regional amilə çevrilib və artan gücümüz ölkə vətəndaşlarını, dostlarımızı sevindirir, amma bizə pis münasibət bəsləyən qüvvələri, əlbəttə ki, qıcıqlandırır. Əfsuslar olsun ki, ölkə daxilində hələ də elə qüvvələr vardır. Onlara heç «qüvvə» də deyə bilmərəm.

Bu gün hər bir yenilik – yolun çəkilişi, məktəbin açılışı, elektrik stansiyasının tikilməsi, ümumiyyətlə, görülən çoxsaylı işlər hər bir vətəndaşı sevindirir, təkcə onlardan başqa. Vəziyyət nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Yəni, onlar bir növ bədbəxt adamlardır, bütün ömürlərini Azərbaycanın xoşbəxt gələcəyinə qarşı işə həsr ediblər. Əgər belə demək mümkünsə, öz mübarizə cəhdlərini Azərbaycanın maraqlarına zərbə vurmaq üçün təşkil edirlər. Bunlar antimilli qüvvələrdir. Bilirsiniz, iqtidar-müxalifət münasibətləri normal müstəvidə öz həllini tapmalıdır. Hər bir inkişaf etmiş ölkədə bu münasibətlər normal qaydada tənzimlənir. Baxmayaraq ki, ölkəmiz 20 ildir müstəqil həyat yaşayır və böyük yol keçibdir, əfsuslar olsun ki, Azərbaycanda bu sahədə vəziyyət normal deyildir. Biz öz yolumuzla gedirik və gedəcəyik. Heç kim bizə mane ola bilməz. Nə ölkə daxilindəki bu qüvvələr, bir qrup adam, nə də ki, ölkənin kənarında olan dairələr. Çünki bizim yolumuz inkişaf və ədalət yoludur. Biz istəyirik ki, ölkəmizdə və bölgədə sülh olsun,

inkişaf olsun, insanlar yaxşı yaşasınlar və bizim bütün maraqlarımız təmin edilsin, Qarabağ məsələsi tezliklə və ədalətli həllini tapsın. Bu bizim təbii tələbimizdir. Bütün beynəlxalq hüquq normaları bizim mövqemizi müdafiə edir və məsələ ancaq beynəlxalq hüquq əsasında həllini tapmalıdır. Bizim mövqemiz qətidir və mən bu barədə bu yaxınlarda bir daha fikirlərimi bildirmişəm.

Siz qeyd etdiniz ki, Astarada böyük olimpiya kompleksi tikilir. Bu da gözəl bir töhfə olacaq gənclərə. Gənclər evi tikilir. Gənclərimiz həm fiziki, həm mənəvi cəhətdən güclü olmalıdırlar, Vətəni sevməlidirlər, vətənpərvər olmalıdırlar. Yaşlı nəsil, veteranlar, ağsaqqallar onlar üçün örnəkdir. Ona görə biz veteranlara, ağsaqqallara həmişə böyük hörmətlə yanaşmışıq və yanaşacağıq. Onların da maddi təminatı yaxşılaşdırılmalıdır. Bir neçə gün əvvəl mənim tərəfimdən verilmiş tapşırıq hazırda icra olunmağa başlanır. Pensiya təminatı da yaxşılaşdırılmalıdır. İnsanlar yaxşı yaşamalıdırlar, ölkədə sülh, sabitlik, inkişaf olmalıdır, bütün sosial məsələlər həll edilməlidir. Biz belə ölkə qururuq və bu quruculuq uğurludur. Bu sahədə hər bir bölgədə gedən işlər xüsusi əhəmiyyət daşıyır. Xüsusilə sərhədyanı rayonlarda gedən işlərə daha da böyük diqqət göstərilməlidir. Azərbaycan xəritəsində Astara rayonunun çox vacib yeri vardır.

Əminəm ki, gələcəkdə belə kənd yollarının tikintisi davam edəcək və rayonda olan bütün sosial və iqtisadi məsələlər öz həllini tapacaqdır.

Bir daha sizi salamlayıram.

## Astara Gömrük İdarəsində yaradılmış şəraitlə tanışlıq

*Aprelin 15-də Azərbaycan prezidenti İlham Əliyev Astara Gömrük İdarəsində yaradılmış şəraitlə tanış olmuşdur.*

*Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev dövlətimizin başçısına raport verdilər.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Azərbaycan prezidentinin 2007-ci il 1 fevral tarixli Sərəncamı ilə təsdiq olunan «Azərbaycan Respublikası gömrük sisteminin 2007—2011-ci illərdə inkişafına dair Dövlət Proqramı»na əsasən, Dövlət Gömrük Komitəsi tərəfindən Astara Gömrük İdarəsinin Astara gömrük sərhəd-keçid məntəqəsi yenidən tikilərək müasir avadanlıqla təchiz olunmuşdur. Burada yük avtomobillərinin yoxlama maşını quraşdırılmışdır.*

*Prezident İlham Əliyev sərnişin-nəqliyyat gömrük nəzarəti xəttində avtomobillərin gömrük nəzarətindən keçmə prosesi ilə tanış oldu.*

*Bildirildi ki, burada hər cür şərait yaradılmış, ən müasir avadanlıq qurulmuş, iş prosesində kompyuter sistemindən geniş istifadə olunur.*

*Prezident İlham Əliyev burada narkotik vasitələrin aşkarlanmasından bəhs edən alboma, avadanlığa baxdı.*

*Dövlətimizin başçısı idxal və ixrac gömrük nəzarəti xətlərində yaradılan şəraitlə tanış olarkən qeyd edildi ki, bu xətlərin hər birində eyni vaxtda üç avtomobil gömrük nəzarətindən keçə bilər. Bu xətlərin hər birində elektron növbə sistemi də yaradılmışdır.*

*Dövlətimizin başçısı Astara Gömrük İdarəsinin əvvəlki və yeni görüntülərini əks etdirən fotostendə baxdı.*

*Astara Gömrük İdarəsinin inzibati binası ilə tanış olan prezident İlham Əliyev burada piyadaların gediş-gəliş xətlərində, gömrük yoxlama məntəqələrində yaradılan şəraitlə də maraqlandı.*

*İnzibati binada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizin inkişafı istiqamətində gördükləri işləri əks etdirən fotostendlər qurulmuşdur.*

*Sonra prezident İlham Əliyev binanın eyvanından ətrafı seyr etdi. Qeyd olundu ki, burada geniş abadlıq işləri aparılmış, istirahət guşələri yaradılmışdır.*

*Daha sonra dövlətimizin başçısı Gömrük Tədris Mərkəzinin fəaliyyəti ilə tanış oldu. Burada Heydər Əliyev xatirə otağı yaradılmış, ulu öndərin büstü qoyulmuş, görkəmli dövlət xadiminin xatirəsinə həsr olunan kitablar toplanmışdır. Mərkəzdə, həmçinin videokonfrans, tədris otaqları, akt zalı vardır. İnzibati binada idman zalı da yaradılmışdır ki, burada işçilərin istirahəti üçün hər cür şərait nəzərə alınmışdır.*

*İdarənin fəaliyyəti ilə yaxından tanış olan prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, 2009-cu ildə Astara gömrük sərhəd-keçid məntəqəsinin ümumi yük dövriyyəsi 296,6 min ton təşkil etmişdir ki, bundan 108,4 min tonu idxalın, 50,2 min tonu ixracın, 138 min tonu tranzit yüklərin payına düşmüşdür. Astara gömrük sərhəd-keçid məntəqəsindən il ərzində 25 min 849 nəqliyyat vasitəsi keçmişdir. Ötən il məntəqənin ümumi yük dövriyyəsi təxminən 1,32 milyon ton təşkil etmişdir ki, bunun 720,65 min tonu idxalın, 120,50 min tonu ixracın, 477,47 min tonu isə tranzit yüklərin payına düşür. Astara gömrük sərhəd-keçid məntəqəsinin yenidən qurulması yük dövriyyəsini və məntəqənin buraxılış qabiliyyətini 4 dəfə artırmağa imkan vermişdir.*

*Sonra dövlətimizin başçısı Astara Gömrük İdarəsində müasir memarlıq üslubunda tikilmiş «Az Duty Free Shops» – Rüsumsuz Ticarət Mərkəzi ilə tanış oldu. Bildirildi ki, Mərkəzin birinci mərtəbəsində əsasən yeyinti məhsulları, ikinci Mərtəbədə isə elektrotexnika əşyaları istehlakçılara təqdim olunur.*

*Dövlətimizin başçısı görülmüş işlərdən razılığını bildirdi, tövsiyə və tapşırıqlarını verdi.*

## Dövlət Bayrağı Meydanı ilə tanışlıq

*Aprelin 15-də Azərbaycan prezidenti İlham Əliyev Astarada Gənclər evinin açılışında iştirak etmişdir.*

*Əvvəlcə prezident İlham Əliyev Astara şəhərinin Heydər Əliyev prospektində yaradılmış Dövlət Bayrağı Meydanı ilə tanış oldu. Meydanda 65 metr hündürlüyündə Dövlət bayrağı ucaldılmışdır.*

*Dövlətimizin başçısı Gənclər evinin açılışını bildirən lenti kəsdikdən sonra ümumi sahəsi 900 kvadratmetr olan ikimərtəbəli bina ilə tanış oldu. Bildirildi ki, burada gənclərin istirahəti və dincəlməsi üçün hər cür şərait yaradılmışdır. Gənclər internet klubda kompyuterlə işləmək vərdişlərinə yiyələnəcəklər. Şahmat klubunda isə yeniyetmə və gənclər bu qədim oyunun sirlərinə yiyələnə, Dövlət Bayrağı Muzeyində Azərbaycan tarixinin şanlı səhifələri ilə tanış ola biləcəklər. Muzeydə 1918-ci ildən bəri Azərbaycanda mövcud olan dövlət bayraqlarının nümunələri təqdim edilir, bununla yanaşı, qədim pullar, medallar və digər tarixi eksponatlar nümayiş olunur. Muzeydə Azərbaycanın hərb tarixinə dair eksponatlara və ordu zabitlərinin geyim formalarına da geniş yer verilmişdir.*

*Dövlətimizin başçısı görülmüş işləri yüksək qiymətləndirdi.*

## Qaz-kompressor stansiyasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev aprelin 15-də Astara qaz-kompressor stansiyasının açılışında iştirak etmişdir.*

*Stansiyanın kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Prezident İlham Əliyev Astara qaz-kompressor stansiyasının və rayonun qaz təchizatı sxemləri ilə tanış oldu.*

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev prezident İlham Əliyevə məlumat verdi ki, hazırda şəhərlə bərabər, rayonun 26 qəsəbə və kəndi qazlaşdırılmışdır. Digər 10 kəndin qazlaşdırılması ilə bağlı hazırlıq işləri gedir. Bu ilin sonunadək həmin kəndlər də qazlaşdırı-*

*lacaqdır. Digər 14 kəndin qazlaşdırılması isə gələn ilin sonunadək həyata keçiriləcəkdir. Beləliklə, Astaranın 50 kəndi qazlaşdırılacaqdır ki, bu da rayonun 91 faizini əhatə edir.*

*Dövlətimizin başçısı stansiyanın fəaliyyəti ilə yaxından tanış oldu və müəssisəni işə saldı.*

*Bildirildi ki, mövcud Astara qaz-kompressor stansiyası Naxçıvan Muxtar Respublikasının təbii qazla təchizatı məqsədi ilə 2005-ci ildə iki qaz-turbin mühərrikli kompressor və köməkçi avadanlıqla komplektləşdirilərək tikilib istismara verilmişdir. Ətraf rayonların və Naxçıvan Muxtar Respublikasının təbii qazla təchizatının daha etibarlı təmin edilməsi və Azərbaycan ilə İran arasında bağlanmış müqaviləyə uyğun olaraq, qonşu ölkəyə təbii qazın ixracı məqsədi ilə yeni kompressor stansiyasının tikilməsi qarşıya aktual vəzifə kimi qoyulmuşdu. Layihənin iki mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdu. Birinci mərhələdə qaz mühərrikli 6 kompressor aqreqatı quraşdırılmaqla, mövcud kompressor stansiyası ilə birlikdə nəql edilən qazın gündəlik həcmi 3,5 milyon kubmetr səviyyəsinə çatdırılmışdır. İkinci mərhələdə isə kompressor aqreqatlarının sayını 10-dək artırmaqla hər iki kompressor stansiyasının gücünün 5 milyon kubmetrə çatdırılması nəzərdə tutulur.*

*Dövlətimizin başçısı görülmüş işlərdən razılığını bildirdi, stansiyanın kollektivinə uğurlar arzuladı.*

## «Astara-1» kiçik su elektrik stansiyasının təməlqoyma mərasimi

*Aprelin 15-də Azərbaycan prezidenti İlham Əliyev Astara rayonunda İstisu çayı üzərində inşa olunacaq «Astara-1» kiçik su elektrik stansiyasının təməlqoyma mərasimində iştirak etmişdir.*

*«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına ölkəmizdə energetikanın inkişafı və kiçik su elektrik stansiyalarının tikintisi barədə məlumat verdi. Bildirildi ki, Azərbaycanın elektroenergetika sistemi son bir neçə ildə həyata keçirilən kompleks tədbirlər nəticəsində özünün yeni inkişaf*

*mərhələsinə qədəm qoymuşdur. Hazırda respublikamızda ümumi generasiya gücləri 6500 meqavatı üstələyir və artıq ölkəmiz bir neçə ildir ki, elektrik enerjisi ixrac edir.*

*Vurğulandı ki, prezident İlham Əliyevin 2009-cu il 16 noyabr tarixli müvafiq Sərəncamı ilə külək və su elektrik stansiyalarının inşasının da respublikamızda geniş tətbiqi məqsədilə potensial imkanların öyrənilməsi və xüsusi proqramların hazırlanması barədə «Azərenerji» ASC-yə tapşırıq verilmişdir. Prezident İlham Əliyev 2010-cu ili respublikamızda alternativ enerji mənbələrinin istifadəsi və ekologiyanın yaxşılaşdırılması istiqamətində kəskin dönüş ili elan etdikdən sonra ölkəmizdə bu istiqamətdə tədbirlər daha da genişləndirilmişdir.*

*Dövlətimizin başçısına sxemlər əsasında Astara rayonunun Züngüləş kəndi yaxınlığında İstisu çayı üzərində inşa ediləcək kiçik su elektrik stansiyası barədə ətraflı məlumat verildi. Bildirildi ki, mütəxəssislərin ilkin araşdırmalarına görə, respublikamızın müxtəlif bölgələrində dağ çayları və suvarma kanalları üzərində yüzlərlə kiçik su elektrik stansiyası tikmək mümkündür. Kiçik su elektrik stansiyalarının inşası elektrik enerjisi istehsalında yanacağa qənaət etməklə yanaşı, ətraf mühitin qorunması baxımından da mühüm rol oynayır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, respublikamızın alternativ və bərpa olunan enerji mənbələrinin inkişaf perspektivi mütəxəssislərin hərtərəfli müzakirəsi əsasında hazırlanan xüsusi proqram üzrə aparılacaqdır.*

*Dövlətimizin başçısı su elektrik stansiyasının təməlini qoydu, gilizi bünövrəyə buraxdı və beton qarışığı tökən qurğunu işə saldı.*

*Dövlətimizin başçısı energetiklərə və inşaatçılara uğurlar arzuladı, tövsiyə və tapşırıqlarını verdi.*

## Olimpiya İdman Kompleksinin tikintisi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Astaraya səfəri çərçivəsində aprelin 15-də Olimpiya İdman Kompleksinin tikintisi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, kompleksin inşasına «Azərbaycan Respublikası regionlarının, o cümlədən Lənkəran şəhəri, Astara, Lerik, Masallı və Yardımlı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında» prezident İlham Əliyevin 2005-ci il 14 sentyabr tarixli Sərəncamına əsasən başlanılmışdır. 5 hektaradək ərazidə aparılan tikintiyə 2007-ci ilin yayında başlanılmışdır. Baş plana əsasən, müasir memarlıq üslubunda, səkkizguşəli ulduz formasında inşa ediləcək kompleksdə ikimərtəbəli əsas universal idman zalı korpusu olacaqdır. İdman zalında 1000 nəfərlik tribuna, trenajor və məşq zalları, foye, qarderob, məlumat stolu, yeməkxana, inzibati otaqlar, tibb, məşqçi və hakim otaqları və s. yaradılacaqdır.*

*Bildirildi ki, kompleks bu ilin sonunadək təhvil veriləcəkdir.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, tövsiyə və tapşırıqlarını verdi.*

## SALYAN ŞƏHƏRİNDƏ SAKİNLƏRLƏ YOLÜSTÜ GÖRÜŞ

*15 aprel 2011-ci il*

*Aprelin 15-də Azərbaycan prezidenti İlham Əliyev Astara rayonuna səfərini başa çatdırıb qayıdarkən yolüstü Salyan şəhərində olmuşdur.*

*Salyanlılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

**S a k i n:** Sevimli Prezidentimiz! Salyan torpağına xoş gəlmisiniz! Sizin – ulu öndərimizin yadigarının apardığı işləri gördükcə biz fərəh hissi keçiririk. Bu quruculuq işləri qəlbimizi iftixar hissi ilə döyündürür. Azərbaycanda böyük işlər görülür. Hamımız bunun şahidiyik. Salyanda son vaxtlar bənzəri olmayan quruculuq, abadlıq işlərinə başlanılmışdır. Bunların hamısı Sizin sayənizdədir. Mən həmişə Sizinlə görüşəndə yadıma bir misra düşür:

«Sən ülfətlə, məhəbbətlə doğulmusan qoşa, oğul,
Çiçək-çiçək arzuların toxunmasın daşa, oğul.»

**İ l h a m   Ə l i y e v:** Sağ olun. Sizi ürəkdən salamlayıram. Salyan şəhərinin gözəl inkişaf planı hazırlanır. Bu yaxınlarda icra başçısı mənə məlumat verdi və o planı təqdim etdi. Mən də onu bəyəndim, dəstəklədim. İndi əlavə vəsait ayrılacaqdır. Burada gözəl xiyabanlar, binalar tikiləcək, təmir işləri aparılacaq, bütün infrastruktur yenidən qurulacaqdır. Qazlaşdırma, içməli su, kanalizasiya layihələri, sosial infrastruktur – bütün bu işlər planda vardır. Bilirsiniz ki, mən Tahiri bu yaxınlarda təyin etmişəm. O, Daşkəsən rayonunda yaxşı işləyib, özünü göstərib, özünü doğruldub. Ona görə mən məsləhət gördüm ki, onu daha da böyük rayona təyin edim və tapşırıq da verdim ki, burada işlər ən yüksək səviyyədə görülməlidir. Yenə də demək istəyirəm ki, bu yaxınlarda yanıma gəldi, planı təqdim etdi, şəkilləri göstərdi və indi işə başlamısınız. Artıq görürəm ki, binaların təmiri

başlanıbdır. Əlbəttə ki, burada daxili görünüş də gözəl olmalıdır, bütün binalar təmir edilməlidir. Yaşamaq, işləmək üçün bütün şərait yaradılmalıdır. İlk növbədə qazlaşdırma aparılmalıdır. Çünki elektrik enerjisi ilə təminat normaldır. İçməli su, kanalizasiya, sosial infrastruktur layihələri icra edilməlidir. Burada Kürün istiqamətinin dəyişdirilməsi sxemi mənə göstərildi. Mən onu da bəyəndim. Bu işləri kompleks şəkildə görəcəyik. İşlər başlayıb və əminəm ki, yaxın zamanlarda Salyanın yeni, gözəl siması yaradılacaqdır.

Bilirsiniz ki, Salyan xüsusi əhəmiyyətə malik olan bir rayondur. Bakıya yaxındır, həm ulu öndərin, həm də mənim seçki kampaniyalarımız Salyandan başlanmışdır – 1998-ci ildə və 2003-cü ildə. Mən seçki kampaniyasını ilk dəfə olaraq Salyan rayonundan başlamışdım. Sizin xeyir-duanızla bu vəzifəyə gəlmişəm və çalışıram ki, xalqıma xidmət edim.

**S a k i n l ə r:** Allah Sizə uzun ömür, cansağlığı versin. Biz Sizi dəstəkləyirik, cənab Prezident. İnşallah, bu yaxınlarda gəlib görəcəksiniz ki, Salyan çiçəklənib.

**İ l h a m Ə l i y e v:** Bəli, mütləq bunu görəcəyik. Gedək görək nə iş görmüsünüz?!

*Sonra prezident İlham Əliyev Salyan şəhərini gəzdi.*

*Dövlətimizin başçısı şəhərdə görülən işlərlə maraqlandı. Salyan Rayon İcra Hakimiyyətinin başçısı Tahir Kərimov məlumat verdi ki, şəhərdəki bütün binaların fasadları tamamilə dəyişdiriləcək, küçələrin kənarındakı xidmət və ticarət obyektlərinin xarici görünüşü müasir memarlıq üslubunda qurulacaqdır. Mərkəzi küçələrin işıqlandırma sistemləri tamamilə yenilənəcəkdir. Bunun üçün xüsusi işıqlandırma sistemləri və dirəklər sifariş verilmişdir. Şəhərin küçələri boyu çəkilən hasarlar çay daşları ilə bəzədiləcəkdir.*

*Həmçinin Tahir Kərimov Kürün Salyan ərazisindən keçən hissəsinin məcrasının dəyişdirilməsi ilə bağlı hazırlanan layihə barədə də dövlətimizin başçısına məlumat verdi.*

*Prezident İlham Əliyev şəhərdə abadlıq və quruculuq işlərinin ölkənin ümumi inkişaf dinamikasına uyğun aparılmasına dair tapşırıqlarını verdi.*

**İ l h a m Ə l i y e v:** Xoş gördük, necəsiniz?

**S a k i n:** Salyana xoş gəlmisiniz, həmişə Siz gələsiniz! Təzə icra başçısından da razıyıq.

**İ l h a m  Ə l i y e v:** Razısınız?

**S a k i n:** Bəli, çox razıyıq.

**İ l h a m  Ə l i y e v:** Demişəm ki, yaxşı işləsin. Mən onu Daşkəsəndə sınamışam. Orada yaxşı işlədi. Birinci məsələ odur ki, insanlara qulluq etməlidir. Hər bir məmur, hər bir icra başçısı insanların qayğıları ilə yaşamalıdır. Bununla bərabər, iş görməlidir, işgüzar olmalıdır. Salyan 2-3 ildən sonra Azərbaycanın ən gözəl şəhərlərindən birinə çevrilməlidir.

**T a h i r  K ə r i m o v** *(Salyan Rayon İcra Hakimiyyətinin başçısı):* Cənab Prezident, mən həmişə camaatın arasındayam. Camaatla görüşlərdə deyirəm ki, Prezident mənə xalqa xidmət etməyi tapşırıb. Mənim borcum bu tapşırığı layiqincə yerinə yetirməkdir.

**İ l h a m  Ə l i y e v:** Bu hələ təzə başlayır, bir neçə aydan sonra burada böyük dəyişikliklər olacaqdır. Bu dəyişikliklər çoxdan olmalı idi. Əvvəllər də bəzi işlər görülüb. Burada o vaxt Olimpiya İdman Kompleksi tikilmişdi. Ondan sonra rayon xəstəxanası əsaslı təmir edilmiş, məktəblər inşa olunmuşdur.

**S a k i n:** Cavanların bir qismi işsizdir, əziyyət çəkirlər. Gənclərin işləməsi üçün iş yerləri də olsa, çox yaxşı olar.

**İ l h a m  Ə l i y e v:** Bəli, o işlərlə də məşğuluq. İş yerləri də olmalıdır. İşsizlik var və bu hazırda ən ciddi problemlərdən biridir, o da həll olunacaq, pensiyalar da artırılacaq.

**S a k i n:** Bir də ki, kimsəsiz, yaşlı qadınlara müavinət verilsə yaxşı olardı.

**İ l h a m  Ə l i y e v:** Bu məsələyə də baxacağıq. Yəni Azərbaycanda bütün sosial məsələlər öz həllini tapmalıdır. İnsanlar daha da yaxşı yaşamalıdırlar.

**S a k i n:** Sağ olun, bizi sosial yardımla da təmin edirlər.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

## FRANSA SENATININ FRANSA–QAFQAZ DOSTLUQ QRUPUNUN SƏDRİ, SENATOR AMBRUAZ DÜPONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Fransa Senatının Fransa–Qafqaz dostluq qrupunun sədri, senator Ambruaz Düponun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı senator Ambruaz Düponun ölkəmizə yenidən səfər etməsindən məmnunluğunu ifadə etdi. Ambruaz Düponla keçirdiyi ötən görüşlərini xatırladan prezident İlham Əliyev onun ölkəmizə bu səfərinin də uğurlu olacağına əminliyini bildirdi. Azərbaycan ilə Fransa arasında əlaqələrin uğurla və sürətlə inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev bu səfərin Fransa–Azərbaycan əlaqələrinin daha da genişləndirilməsi baxımından əhəmiyyətli olduğunu dedi.*

*Fransa–Qafqaz dostluq qrupunun sədri, senator Ambruaz Düpon bu səfər zamanı da Bakıda böyük inkişafın şahidi olduğunu və dəyişikliklərin onda dərin təəssürat yaratdığını vurğulayaraq son bir neçə ildə paytaxtımızda gedən inkişaf proseslərinin önəmini qeyd etdi. O, ölkəmizə ilk səfərini və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşünü məmnunluqla xatırlatdı. Ümummilli liderlə görüşün onda böyük təəssürat yaratdığını deyən qonaq ölkəmizə həmin səfərindən sonra Azərbaycanı daha yaxından tanımağa başladığını dedi.*

*Görüşdə Azərbaycan–Fransa parlamentlərarası əlaqələrin önəmi qeyd edilərək, bu əlaqələrin münasibətlərimizin daha da genişləndirilməsi işinə öz töhfəsini verdiyi vurğulandı.*

## STRATFOR ÖZƏL ELMİ KORPORASİYASININ YARADICISI, İCRAÇI DİREKTORU VƏ BAŞ ANALİTİKİ GEORGE FRİDMAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Stratfor Özəl Elmi Korporasiyasının yaradıcısı, icraçı direktoru və Baş analitiki George Fridmanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı George Fridmanın ölkəmizə yenidən səfər etməsindən məmnunluğunu bildirdi.*

*Stratfor Özəl Elmi Korporasiyasının yaradıcısı, icraçı direktoru və Baş analitiki George Fridman özünün qlobal dünya siyasətində dəyişikliklərlə bağlı Azərbaycanın regionda aparıcı rolu barədə geniş fikirlərin əks olunduğu «Növbəti onillik» adlı kitabını dövlətimizin başçısına təqdim etdi. George Fridman Naxçıvana gedəcəyini, muxtar respublikada reallaşan sosial-iqtisadi layihələrlə tanış olacağını bildirdi.*

*Naxçıvanın Azərbaycanın ən qədim tarixi bölgələrindən biri olduğunu deyən prezident İlham Əliyev bu ərazilərin hamısında tarixən azərbaycanlıların məskunlaşdığını, sonradan Zəngəzur mahalının Ermənistana verildiyini və Naxçıvanın Azərbaycandan ayrı düşdüyünü dedi. Prezident İlham Əliyev muxtar respublikaya böyük həcmdə sərmayə yatırıldığını, mühüm sosial və infrastruktur layihələrinin həyata keçirildiyini qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlər, regional məsələlər, geosiyasi vəziyyət, enerji sahəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BRONİSLAV KOMOROVSKİYƏ**

Hörmətli cənab Prezident!

Polşa Respublikasının milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və bütün Polşa xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–Polşa əlaqələri dostluq və əməkdaşlıq zəminində müvəffəqiyyətlə inkişaf etməkdədir. Ümidvaram ki, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, işbirliyimizin dərinləşdirilməsi yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Polşa xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 aprel 2011-ci il*

## LATVİYA RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ XANIM LİNDA MURNİESENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Latviya Respublikasının Daxili İşlər naziri xanım Linda Murniesenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Latviya Respublikasının Daxili İşlər naziri xanım Linda Murniesenin ölkəmizə səfər proqramının kifayət qədər geniş olduğunu vurğulayan dövlətimizin başçısı bu səfərin uğurlu olacağına əminliyini ifadə etdi. Riqaya səfərindən sonra Latviyadan Azərbaycana ilk dəfə belə yüksək səviyyəli nümayəndə heyətinin gəlməsinin önəmini qeyd edən prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin inkişaf dinamikasının davam etməsindən və genişlənməsindən məmnunluğunu bildirdi. Riqada latviyalı həmkarı ilə əldə olunan razılaşmaya uyğun olaraq əlaqələrimizin bütün istiqamətlərdə inkişaf etdirilməsinin zəruriliyini bildirdi.*

*Daxili İşlər naziri Linda Murniese Latviya Respublikasının Prezidenti Valdis Zatlersin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Latviya prezidentinin prezident İlham Əliyevin Riqaya səfəri zamanı dövlətimizin başçısı ilə keçirdiyi görüşləri məmnunluqla xatırlatdı və bu səfərin əlaqələrimizin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətli olacağına əminliyini bildirdi.*

*Dövlətimizin başçısı Latviya prezidenti Valdis Zatlersin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Latviya dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## RUMINİYA PREZİDENTİ TRAYAN BESESKUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*18 aprel 2011-ci il*

*Aprelin 18-də Azərbaycan Respublikasında səfərdə olan Rumıniya prezidenti Trayan Beseskunun rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Rumıniya prezidenti Trayan Beseskunu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Rumıniya prezidentinə raport verdi.*

*Rumıniya və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Rumıniya prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Trayan Beseskuya, Rumıniya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Dövlət başçıları rəsmi foto çəkdirdilər.*

## RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKU İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*18 aprel 2011-ci il*

*Aprelin 18-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Rumıniya prezidenti Trayan Beseskunun təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Rumıniya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, energetika və humanitar sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olundu. Dövlət başçıları ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildirdilər.*

*Prezidentlər ikitərəfli, regional və beynəlxalq məsələlər barədə də fikir mübadiləsi apardılar.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 aprel 2011-ci il*

*Aprelin 18-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Rumıniya prezidenti Trayan Beseskunun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Sizi Azərbaycanda ürəkdən salamlayıram, ölkəmizə xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfəriniz çox uğurlu keçəcək, çox gözəl nəticələri olacaqdır. Münasibətlərimiz strateji xarakter daşıyır. Bütün sahələrdə əməkdaşlıq çox uğurla aparılır. Bu gün Sizinlə təkbətək görüşdə bütün bu məsələləri geniş müzakirə etdik və bir daha gördük ki, Rumıniya–Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Siyasi, iqtisadi, humanitar sahələrdə, hər bir istiqamətdə çox gözəl nəticələr vardır və əminəm ki, Sizin səfəriniz bu əlaqələrin inkişafına dəyərli töhfə verəcəkdir.

**T r a y a n B e s e s k u:** Möhtərəm cənab Prezident! Çox təşəkkür edirəm ki, bu gün bizi öz ölkənizə dəvət etmisiniz. Bu səfər çərçivəsində biz ikitərəfli münasibətlərimizi müzakirə edəcəyik və dəyərli dostumla görüşmək imkanı əldə edəcəyik. Azərbaycan–Rumıniya əlaqələrinə gəldikdə, zənnimcə, bizim çox müfəssəl əlaqələrimiz vardır. Bu da ötən səfərlər zamanı müzakirə edilmiş məsələlərin həyata keçməsi ilə əlaqədardır. Bu səbəbdən biz növbəti görüşlərimizə böyük əminliklə baxırıq. Çünki məhz elə bu gün Sizinlə görüşdə də çox dəyərli və mühüm mövzular müzakirə edilmişdir.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*18 aprel 2011-ci il*

*Aprelin 18-də prezident İlham Əliyevin və prezident Trayan Beseskunun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları başa çatdıqdan sonra Azərbaycan–Rumıniya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yerinə yetirilməsi üçün Birgə Fəaliyyət Planı»nı Azərbaycan prezidenti İlham Əliyev və Rumıniya prezidenti Trayan Besesku imzaladılar.*

*«Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Rumıniyanın Kənd Təsərrüfatı və Kənd İnkişafı Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Kənd Təsərrüfatı naziri İsmət Abasov və Rumıniyanın İqtisadiyyat, Ticarət və Biznes Mühiti naziri İon Ariton imzaladılar.*

*«Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Rumıniyanın Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmləri sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Səhiyyə naziri Oqtay Şirəliyev və Rumıniyanın İqtisadiyyat, Ticarət və Biznes Mühiti naziri İon Ariton imzaladılar.*

*«Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Rumıniyanın Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq Protokolu»nu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Rumıniyanın Xarici İşlər Nazirliyinin Dövlət katibi Doru Kostea imzaladılar.*

## AZƏRBAYCAN VƏ RUMINİYA PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*Aprelin 18-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev və Rumıniya prezidenti Trayan Besesku mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli qonaqlar, əziz dostlar!

Mən Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Cənab Prezident, Sizin səfəriniz böyük əhəmiyyət daşıyır. Əminəm ki, səfərin çox uğurlu nəticələri olacaqdır. Səfərdən sonra Rumıniya–Azərbaycan əlaqələri daha da sürətlə inkişaf edəcəkdir. Əlaqələrimizin çox böyük tarixi vardır və çox gözəl gələcəyi olacaqdır. Çünki bütün sahələrdə aramızda əlaqələr dostluq və səmimiyyət üzərində qurulubdur. Siyasi sahədə tərəfdaşıq və bu gün imzalanmış sənəd bir də onu göstərir ki, aramızda, sözün əsl mənasında, strateji tərəfdaşlıq münasibətləri qurulmuşdur. Biz bu münasibətləri çox yüksək qiymətləndiririk. Əminəm ki, bu münasibətlər gələcəkdə bütün sahələrdə bütün istiqamətlər üzrə güclü inkişafa təkan verəcəkdir. Siyasi sahədə görüşlərimiz də mütəmadi xarakter daşıyır. Biz tez-tez görüşürük – həm Rumıniyada, həm Azərbaycanda, həm də başqa ölkələrdə. Bir sözlə, bizim aramızda siyasi dialoq çox güclüdür. Bu, imkan verir ki, siyasi əlaqələr bütün başqa sahələrə də müsbət təsir göstərsin.

Bu gün aramızda iqtisadi sahədə yaxşı perspektivlər açılır. Əminəm ki, siyasi əlaqələrimizin güclü olması həm sərmayə qoyuluşu, həm də müxtəlif şirkətlərin səmərəli fəaliyyəti üçün

müsbət rol oynayır və oynayacaqdır. Enerji sahəsində əməkdaşlıq inkişaf edir, Azərbaycandan Rumıniyaya xam neft ixrac edilir. Azərbaycanın Dövlət Neft Şirkəti Rumıniyada fəaliyyətini genişləndirir. Qaz sahəsində də uğurlu əməkdaşlıq üçün gözəl şərait mövcuddur. Bildiyiniz kimi, bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub qaz dəhlizi üzrə bəyannamə imzalanmışdır. Avropanın enerji təhlükəsizliyi məsələləri bu bəyannamə əsasında, o cümlədən Azərbaycan resursları hesabına ödəniləcəkdir. Azərbaycanın zəngin qaz ehtiyatları vardır və bu resurslar müxtəlif yollarla dünya bazarına çıxarılır. Rumıniya–Azərbaycan əlaqələri bu baxımdan müstəsna xarakter daşıyır. Çünki Rumıniya həm Nabukko layihəsinin fəal üzvüdür, həm də AGRİ layihəsinin təşəbbüskarıdır.

Sizin təşəbbüsünüzlə AGRİ layihəsinə start verilmişdir. Keçən ilin sentyabr ayında Bakıda Sizin iştirakınızla keçirilmiş AGRİ üzrə zirvə görüşü konkret nəticə vermişdir. Hazırda layihənin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması üçün konkret işlər görülür.

Mən ümid edirəm ki, Rumıniya–Azərbaycan əlaqələri Azərbaycan–Avropa əlaqələrinə də güclü təsir göstərəcəkdir. Avropa İttifaqı ilə Azərbaycan arasında hazırda «Şərq Tərəfdaşlığı» çərçivəsində əməkdaşlıq qurulmuşdur. Enerji sahəsində əməkdaşlığın gözəl perspektivləri vardır. Avropa İttifaqı ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin inkişafı üçün gözəl şərait vardır. Bu əlaqələr bərabərhüquqlu əlaqələrdir, dostluq, tərəfdaşlıq prinsipləri üzərində qurulur və qurulmalıdır.

Ölkələrimiz arasında əlaqələr təkcə iqtisadi, enerji və siyasi sahələrlə kifayətlənmir. Humanitar sahədə yaxşı əməkdaşlıq nümunələri vardır. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin abidəsi Buxarestdə ucaldılmışdır. Rumıniyanın görkəmli bəstəkarı Corce Eneskunun abidəsi Bakıda ucaldılmışdır. Biz Sizinlə bərabər bu tədbirlərdə iştirak etmişdik. Bu, insanlar arasındakı əlaqələrə də çox müsbət təsir göstərir. Bir sözlə, münasibətlərimiz, əlaqələrimiz çoxşaxəlidir.

Bu əlaqələrin inkişafı üçün hər iki tərəfdə güclü siyasi iradə mövcuddur.

Mən əminəm ki, əlaqələrimizin inkişafı Qara dəniz və Xəzər dənizi regionlarının əməkdaşlığına da müsbət təsir göstərəcəkdir. Buna da böyük ehtiyac vardır. Xəzər dənizi və Qara dəniz bölgələrini birləşdirən nəqliyyat, enerji layihələri və iqtisadi layihələr dəstəklənməlidir. Bu istiqamətdə Rumıniya və Azərbaycan əlaqələri xüsusi əhəmiyyət daşıyır. Bu əlaqələrin ən yüksək zirvədə olması bizi çox sevindirir.

Bir də demək istəyirəm ki, aramızda çoxlu sənədlər imzalanmışdır, o cümlədən bu gün. Onların içində strateji tərəfdaşlıq sənədi xüsusi əhəmiyyət daşıyır. Sənədin icrası nəticəsində əminəm ki, əlaqələrimiz müxtəlif istiqamətlər üzrə daha da sürətlə inkişaf edəcəkdir.

Cənab Prezident, bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Əminəm ki, Sizin səfəriniz həm uğurlu, həm də Sizin üçün xoş keçəcəkdir.

**Rumıniya prezidenti Trayan Beseskunun bəyanatı**

Mən də öz növbəmdə, cənab Prezident, məni ölkənizə dəvət etdiyinizə görə Sizə dərin təşəkkürümü ifadə etmək istəyirəm. Bütün görüşlərimiz zamanı biz böyük tərəqqiyə nail oluruq. Bu gün də istisna olmamışdır. Bu gün hökumətlər səviyyəsində bir sıra sənədlərin imzalanması, eyni zamanda, strateji tərəfdaşlıq sahəsində imzalanmış sənəd əlaqələrimizdə böyük bir sıçrayış deməkdir.

Azərbaycan Xəzər hövzəsinə bir körpü rolunu oynayır. Rumıniya da Azərbaycan üçün Avropa bazarlarına bir körpü rolunu oynayır. Zənnimcə, əməkdaşlığımızı başladığımız vaxtdan bu günə qədər bütün təşəbbüslərimiz reallığa çevrilmişdir. Bu onu sübut edir ki, siyasi iradəmiz güclüdür və əməkdaşlığımız çox sürətlə həyata keçirilir. Çox sevindiricidir ki, biz bu gün AGRİ layihəsində də böyük uğura nail olmuşuq. Artıq müvafiq şirkət seçilib və dəyərləndirmə işləri həyata

keçirilir. Bu onu göstərir ki, sentyabrdakı zirvə görüşündən sonra biz vaxtımızı boşa xərcləməmişik. AGRİ təşəbbüsünü dəstəklədiyinizə, Nabukkoya dəstəyinizə görə Sizə təşəkkürümü bildirirəm. Bildiyiniz kimi, Rumıniya da bu layihəni var gücü ilə dəstəkləməkdədir.

Bu gün biz Sizinlə digər imkanları da müzakirə etdik. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) Rumıniyanın iqtisadi inkişafında yaxından iştirak edir. Rumıniyada həyata keçirilən özəlləşdirilmə prosesində ARDNŞ-in yaxından iştirakı da bizim üçün çox istənilən və arzuedilən olardı. Zənnimcə, ARDNŞ kimi mühüm bir şirkət Rumıniya bazarında artıq yanacağın paylanması şəbəkəsi yaratmaq imkanına malik olmuşdur.

Onu da qeyd etmək istərdim ki, imzalanmış sənədlərdən başqa, biz müdafiə və hərbi sənaye sahələrində də əməkdaşlığımızı artırmalıyıq. Zənnimcə, bu ilin ikinci yarısında biz Rumıniya ilə Azərbaycan arasında müvafiq sahədə sazişin müzakirəsini yekunlaşdıracağıq.

Qeyd etmək istərdim ki, biz Dağlıq Qarabağ məsələsində Azərbaycanın böyük səbir və danışıqlarda səmimilik nümayiş etdirməsini çox yüksək qiymətləndiririk. Çünki Rumıniya dondurulmuş bu münaqişənin həllinin uzanmasından çox böyük narahatlıq hissi keçirir. Bu münaqişə Qara dəniz hövzəsinə yaxın bir regionda yerləşir. Zənnimcə bu, NATO, Avropa İttifaqı və Rumıniya üçün də çox əhəmiyyətli regiondadır. Əminəm ki, bu münaqişə beynəlxalq hüquq normaları çərçivəsində həll edilməlidir. Ölkələrin ərazi bütövlüyünə və suverenliyinə hörmət başlıca prinsip olmalıdır. Ümid edirəm ki, Dağlıq Qarabağ münaqişəsi məhz bu prinsiplər əsasında, Azərbaycan Respublikasının ərazi bütövlüyünün toxunulmazlığı və beynəlxalq hüquq normaları çərçivəsində öz həllini tapacaqdır.

# ALİ ORDENLƏRLƏ TƏLTİF OLUNMA MƏRASİMİ

*18 aprel 2011-ci il*

*Aprelin 18-də Azərbaycan–Rumıniya sənədlərinin imzalanması mərasimindən sonra Rumıniya prezidenti Trayan Beseskunun və Azərbaycan prezidenti İlham Əliyevin ali ordenlərlə təltif olunma mərasimi keçirilmişdir.*

**İ l h a m  Ə l i y e v :** Hörmətli cənab Prezident!

Hörmətli dostlar!

Cənab Prezident, Siz Azərbaycan dövlətinin ən ali mükafatı olan «Heydər Əliyev» ordeni ilə təltif edilirsiniz.

Rumıniya–Azərbaycan əlaqələri strateji xarakter daşıyır və bu gün imzalanmış sənəd bunu bir daha təsdiq edir. Siz bu əlaqələrin inkişafı üçün böyük xidmətlər göstərmisiniz və Azərbaycan xalqı Sizi çox yaxşı tanıyır. Sizin Azərbaycan ilə bağlı mövqenizi ürəkdən alqışlayırıq.

İki ölkə arasındakı əlaqələrin inkişafına göstərdiyiniz xidmətlərə görə bu yüksək mükafatı Sizə təqdim edirəm.

*Azərbaycan prezidenti İlham Əliyev «Heydər Əliyev» ordenini Rumıniya prezidenti Trayan Beseskuya təqdim etdi.*

*Prezident Trayan Besesku dövlətimizin başçısının Rumıniyanın «Sadiq Xidmət» milli ordeninin Böyük Xaç ranqı ilə təltif edilməsi barədə qərar qəbul etdiklərini bildirdi. O qeyd etdi ki, bu, dövlət başçılarına verilən ali mükafatdır. Prezident İlham Əliyev bu mükafata layiq görülən ikinci dövlət başçısıdır.*

*Rumıniyaya rəsmi səfəri zamanı Azərbaycan prezidenti İlham Əliyev bu ölkənin ali mükafatı «Rumıniya Ulduzu» ordeni ilə təltif olunmuşdur. Rumıniya qanunvericiliyinə görə, «Sadiq Xidmət» milli ordeni bundan əvvəl «Rumıniya Ulduzu» ordeni ilə təltif edilən şəxslərə təqdim olunur.*

*Prezident Trayan Besesku «Sadiq Xidmət» milli ordeninin Böyük Xaç ranqını dövlətimizin başçısına təqdim etdi.*

# ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*18 aprel 2011-ci il*

*Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Rumıniya Respublikasının Prezidenti Trayan Beseskunun şərəfinə rəsmi ziyafət verilmişdir.*

**İlham Əliyev:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və «Xoş gəlmisiniz!» – deyirəm.

Son 5 ildə Azərbaycana Sizin beşinci səfərinizdir. Mən də Rumıniyaya beş dəfə səfər etmişəm. Belə mütəmadi səfərlər ölkələrimiz arasındakı münasibətlərin dinamik inkişafının göstəricisidir. Münasibətlərimiz əsl dostluq və tərəfdaşlıq münasibətləridir.

Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanın prezidenti seçildikdən sonra Şərqi Avropada ilk dəfə Rumıniyaya səfər etmiş, Azərbaycan bu regionda ilk səfirliyini məhz Rumıniyada açmışdır. Mən özüm də prezident kimi, Şərqi Avropa ölkələri arasında ilk dəfə Rumıniyaya səfər etmişəm.

Növbəti il biz diplomatik münasibətlərimizin qurulmasının 20 illiyini qeyd edəcəyik. Ümidvaram ki, biz bu əlamətdar tarixə Rumıniya və Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələrində yeni nailiyyətlər ilə daxil olacağıq.

Bu günə kimi ölkələrimiz arasında əlaqələrin inkişafını təmin edən 50-dən çox sənəd imzalanmışdır. Mənim Rumıniyaya son səfərim zamanı imzaladığımız strateji tərəfdaşlığın yaradılmasına dair razılaşma haqqında Birgə Bəyannamə və bu

dəfə imzalanan strateji tərəfdaşlığın həyata keçirilməsi üzrə Birgə Fəaliyyət Planı ikitərəfli münasibətlərimizin möhkəmlənməsi baxımından görülən işlərin məntiqi nəticəsidir. Ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edir. BMT, ATƏT, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində və GUAM formatında əməkdaşlığımız böyük məmnunluq doğurur. Böyük İpək yolunun bərpası, Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin yaradılması istiqamətində səylərimiz bizi daha da yaxınlaşdırır.

Azərbaycanın xarici siyasətində Avropa İttifaqı və Avroatlantik strukturlarla münasibətlər mühüm yer tutur. Enerji sahəsində əməkdaşlıq Avropa İttifaqı ilə münasibətlərimizin əsas istiqamətlərindən biridir. Elə bu ilin yanvar ayında Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə bunun bariz nümunəsidir. Keçən ilin sentyabr ayında Bakıda Sizin də iştirakınızla imzaladığımız AGRİ layihəsi üzrə bəyannamə aramızdakı etibarın və regionumuzda enerji əməkdaşlığının yeni səhifəsinin açılışının göstəricisi olmuşdur.

Rumıniyalı tələbələrə Heydər Əliyev təqaüdünün verilməsi, eləcə də Buxarest şəhərində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin və Bakı şəhərində müasir rumın milli bəstəkarlıq məktəbinin banisi Corce Eneskunun abidələrinin ucaldılması humanitar sahədə əlaqələrimizin yüksək səviyyəsinin bariz nümunəsidir.

Ötən illər Azərbaycanda çox uğurlu siyasi və iqtisadi islahatlar həyata keçirilmişdir. Bunun nəticəsi olaraq son 7 ildə ölkədə ümumi daxili məhsul təxminən üç dəfə, maaşlar və pensiyalar orta hesabla 5-6 dəfə artmış, yoxsulluq səviyyəsində yaşayan insanların sayı 4,5 dəfə azalmış, ölkəmizə 82 milyard dollar məbləğində sərmayə qoyulmuş, 900 mindən çox yeni iş yeri açılmışdır.

Həyata keçirdiyimiz konkret layihələr bir tərəfdən, Azərbaycanın dinamik inkişafını təmin edir, digər tərəfdən isə bölgəyə sülh və təhlükəsizlik gətirir, burada gedən bütün pro-

seslərə müsbət təsir göstərir. Lakin təəssüflə qeyd etməliyəm ki, Azərbaycanın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bu günə kimi həll edilməmişdir. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi – Dağlıq Qarabağ və ətrafdakı 7 rayon işğal olunmuşdur. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində etnik təmizləmə siyasəti aparılmış, bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Biz münaqişəni danışıqlar yolu ilə həll etməyə çalışırıq. Azərbaycanın ərazi bütövlüyü bütün dünya birliyi və beynəlxalq təşkilatlar tərəfindən tanınıb. Bizim qəti mövqemiz bundan ibarətdir ki, münaqişə beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident, bir daha Sizi ürəkdən salamlayır, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və tərəqqi arzulayıram.

Bu badəni Sizin sağlığınıza, Rumıniya ilə Azərbaycan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırıram.

**T r a y a n  B e s e s k u:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İkitərəfli münasibətlərimizin özəyini enerji məsələsi təşkil edir. Bu halda maraqlarımız üst-üstə düşür. Rumıniya Avropanın enerji mənbələrini şaxələndirmək məqsədi ilə sistemli siyasət yürüdür. Azərbaycan isə enerji marşrutlarını və bazarlarını şaxələndirmək arzusundadır. Nəticədə Rumıniya ilə Azərbaycan Qara dəniz regionunda təbii qazın nəqlində «maye qaz» düsturunu təqdim etməklə regional enerji durumunu dəyişəcək ilk layihə olan AGRİ-nin başlanması prosesinə böyük töhfə vermişdir. 2010-cu ildə Bakıda keçirilən AGRİ zirvə görüşü Azərbaycanın həmin yeni layihənin həyata keçirilməsində mənbə ölkə kimi oynadığı rolu təsdiqlədi.

Cənubi Qafqazda cərəyan edən hadisələri böyük maraqla izləyirik və əminik ki, beynəlxalq ictimaiyyətin davamlı səyləri ilə bu region sabitlik və iqtisadi əməkdaşlıq məkanına

çevriləcəkdir. Biz Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüquq prinsipləri əsasında razılaşdırılmış həllinin tezliklə və dinc yolla müəyyən edilməsinin tərəfdarıyıq. Rumıniya ATƏT çərçivəsində tərəflər arasında danışıqların davam etdirilməsini alqışlayır və münaqişənin tezliklə davamlı nizamlanması üçün tərəflərin qəbul etdiyi hər hansı təklifi dəstəkləyir.

*Sonda prezident Trayan Besesku səfərin nəticələrinin, aparılan danışıqların və əldə olunan razılaşmaların xalqlarımız və regionlarımız üçün töhfə verəcəyinə əminliyini ifadə etdi.*

# TÜRKİYƏNİN QURU QOŞUNLARI KOMANDANI ERDAL CEYLANOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Türkiyənin Quru Qoşunları Komandanı Erdal Ceylanoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Türkiyə arasında əlaqələrin bütün istiqamətlərdə çox yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimizin hərbi sahədə də yaxşı işbirliyinin yaradılmasından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Türkiyənin Quru Qoşunları Komandanı Erdal Ceylanoğlunun səfər proqramı çərçivəsində keçirəcəyi görüşlərdə səmərəli müzakirələr aparılacağına əminliyini ifadə etdi. Qarşılıqlı səfərlərin önəmini qeyd edən prezident İlham Əliyev Erdal Ceylanoğlunun ölkəmizə səfərinin uğurlu keçəcəyinə və Azərbaycan–Türkiyə əlaqələrinin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu dedi.*

*Türkiyənin Quru Qoşunları Komandanı Erdal Ceylanoğlu Azərbaycan ilə Türkiyə arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini vurğuladı və bu münasibətlərin bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə etdi.*

## ÇEXİYANIN KEÇMİŞ BAŞ NAZİRİ, «VAE CONTROLS» ŞİRKƏTİNİN DİREKTORLAR ŞURASININ SƏDRİ MİREK TOPOLANEK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Çexiya Respublikasının keçmiş Baş naziri, «VAE Controls» şirkətinin Direktorlar Şurasının sədri Mirek Topolaneki qəbul etmişdir.*

*Çexiyanın keçmiş Baş naziri, «VAE Controls» şirkətinin Direktorlar Şurasının sədri Mirek Topolanek Bakıda çox böyük inkişafın şahidi olduğunu və burada aparılan quruculuq işlərinin onda dərin təəssürat yaratdığını dedi.*

*Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Mirek Topolanek ilə Praqada keçirilən «Cənub Dəhlizi–Yeni İpək yolu» sammitindəki görüşü məmnunluqla xatırlandı, dövlətimizin başçısının həmin sammitdə iştirakının önəmi qeyd olundu, Azərbaycan ilə Çexiya arasında işgüzar əlaqələrə dair fikir mübadiləsi aparıldı.*

# LİTVANIN DAXİLİ İŞLƏR NAZİRİ RAYMUNDAS PALAYTİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Litva Respublikasının Daxili İşlər naziri Raymundas Palaytisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Litva arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev bu münasibətləri bütün sahələrdə genişləndirməyin zəruriliyini bildirdi. Ölkələrimizin müvafiq qurumları arasında müxtəlif sahələrdə yaxşı əlaqələrin yaradılmasının vacibliyini qeyd edən dövlətimizin başçısı bu baxımdan Litva Respublikasının Daxili İşlər naziri Raymundas Palaytisin ölkəmizə səfərinin uğurlu və məhsuldar keçəcəyinə ümidvar olduğunu bildirdi.*

*Litva Respublikasının Daxili İşlər naziri Raymundas Palaytis bildirdi ki, Azərbaycan çox uğurla inkişaf edən bir ölkədir və Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluq hissi duyur. Raymundas Palaytis dünyanın hər yerində maliyyə böhranının hökm sürməsinə baxmayaraq, Azərbaycanda iqtisadi artımın olduğunu xüsusi vurğuladı. Raymundas Palaytis ölkəsinin Azərbaycan ilə müxtəlif sahələrdə əməkdaşlıq etməyə maraqlı olduğunu bildirdi.*

## BAKININ KƏND VƏ QƏSƏBƏLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI SƏBAİL RAYONUNUN BADAMDAR QƏSƏBƏSİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*20 aprel 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətində şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına həsr olunmuş müşavirədə Bakının kənd və qəsəbələrinin sosial-iqtisadi inkişafı ilə bağlı verdiyi tapşırıqların icrası ilə yerində tanış olmaq üçün ayrı-ayrı yaşayış sahələrində olmuşdur.*

*Aprelin 20-də prezident İlham Əliyev Səbail rayonunun Badamdar qəsəbəsində görülmüş işlərlə yaxından tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov xüsusi sxem əsasında Səbail rayonunda görülmüş işlər barədə prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, rayonun ərazisindəki parklar və dairələr əsaslı təmir edilmiş, mədəniyyət evi, uşaq bağçası, 15 saylı poliklinika, 236 saylı məktəb yenidən qurulmuş, qəsəbədə xeyir-şər evi istifadəyə verilmiş, elektrik şəbəkəsinin yeni binası inşa edilmişdir. 21 min 600 nəfər sakini olan Badamdar qəsəbəsində məhəllədaxili yolların təmirinə başlanılmışdır. İndiyə qədər 18 min kvadratmetr yol sahəsinə yeni asfalt örtüyü döşənmiş, 12 min kvadratmetr yol sahəsində isə hazırlıq işləri başa çatdırılmışdır.*

*Dövlətimizin başçısı sakinlərlə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Bakı qəsəbələrinin inkişafı proqramı hazırlanır. Hər bir qəsəbə üzrə konkret proqram tərtib olunacaq və beləliklə, Bakı ətrafında yerləşən qəsəbələrdə inkişaf daha da

sürətlə gedəcəkdir. Bu proqram artıq hazırlanır və hər qəsəbədə bütün sosial-iqtisadi məsələlər tezliklə həllini tapmalıdır.

Badamdar qəsəbəsində də həllini gözləyən problemlər vardır. Biz onları bilirik və onları həll edəcəyik. İlk növbədə yollardan başlamışıq. Bütövlükdə qəsəbənin yollarının uzunluğu 50 kilometrə bərabərdir. Su problemi vardır və bu, təbii olaraq bizi narahat edir. Bu məsələ bütövlükdə ölkə üzrə həllini tapmaqdadır, o cümlədən Bakıda və Bakıətrafı qəsəbələrdə. Qazlaşdırma yenidən aparılmalıdır, çünki borular köhnəlib. Bəzi hallarda qazın təzyiqi lazımi səviyyədə deyildir. Yeni məktəbin tikintisi məsələsi vardır. Mənə deyirlər ki, bu gözəl məktəb bütün tələblərə cavab versə də, burada şagirdlər iki növbədə oxuyurlar, bu da çətinlik yaradır. Yeni məktəb tikilməlidir. Bir də burada yeni xəstəxana inşa olunmalıdır. Buna da ehtiyac vardır. Biz bütün bu məsələlərə kompleks şəkildə baxacağıq. 2013-cü ilin sonuna qədər Bakıətrafı qəsəbələrdə bütün sosial-iqtisadi məsələlər öz həllini tapmalıdır. İnfrastruktur yenidən qurulmalıdır. Elektrik enerjisi ilə təchizatda problem yoxdur. Ancaq xətlərin çəkilişi aparılmalıdır. Xətlər daha da müasir səviyyədə çəkilməlidir, bəzi yerlərdə yerin altına salınmalıdır. Dediyim kimi, qazlaşdırma, su, kanalizasiya məsələləri təkcə bu qəsəbə üçün deyil, bütövlükdə ölkəmiz üçün çox ciddidir.

Əslində Badamdar qəsəbəsi şəhərin bir hissəsidir. Heç qəsəbə də demək olmaz, çünki burada şəhərtipli infrastruktur mövcuddur, bu qəsəbə şəhərin içindədir. Ancaq qəsəbə statusu vardır. Bütün qəsəbələrdə olduğu kimi, burada da bütün işlər yüksək səviyyədə aparılmalıdır.

Bu gün mən gəlmişəm ki, sizdən soruşum, eşidim, əlavə hansı işlər görülməlidir?! Burada yaşayan sakinləri hansı məsələlər daha çox narahat edir ki, biz onları tezliklə həll edək.

**S a k i n:** Hörmətli cənab Prezident, Badamdar sakinləri Sizi səmimi-qəlbdən salamlayır. Qəsəbəmizə xoş gəlmisiniz! İşinizin çox olmasına baxmayaraq, vaxt ayırıb qəsəbəmizə gəldiyinizə, biz sakinlərlə görüşdüyünüzə görə Sizə dərin minnətdarlığımızı bildirir və təşəkkür edirik.

Hörmətli cənab Prezident! Vaxtilə müdrik şairlərimizdən biri demişdir ki, «Bakı, Azərbaycan, neftə bir bax, Şərqin ilk günəşi buradan doğacaq». Bəli, vaxt yetişdi, 1969-cu ildə o günəş Azərbaycan üzərində doğdu. O günəş Sovetlər İttifaqı dövründə iqtisadi cəhətdən geridə qalmış respublikanı qısa müddətdə hərtərəfli inkişaf etmiş qabaqcıl bir respublikaya çevirən ulu öndərimiz dahi Heydər Əliyev idi.

Hörmətli Prezidentimiz! Mən uzun müddətdir bu qəsəbədə yaşayıram. Vaxtilə Badamdar kiçik bir qəsəbə idi. Buradakı binaları barmaqla saymaq olardı. Ancaq son vaxtlar, xüsusilə son 10 ildə qəsəbəmiz tanınmaz dərəcədə böyümüşdür, çoxlu yaşayış binaları tikilmiş, parklar, yollar salınmış, infrastruktur yaradılmışdır. Xüsusilə son illərdə abadlıq daha yüksək vüsət almışdır.

Azərbaycanın tarixində üç nəfər Bakı şəhərinə su gətirmişdir. Onun birincisi keçən əsrdə Hacı Zeynalabdin Tağıyev, ikincisi ümummilli liderimiz Heydər Əliyev olmuşdur, üçüncüsü isə Sizsiniz, cənab Prezident!

Cənab Prezident! Bizim bir problemimiz də vardır. Qəsəbəmizdə vaxtilə xəstəxana binası var idi. O bina coğrafi, yaxud da ki, memarlıq baxımından, deyə bilmərəm, məsləhət görüldü ki, sökülsün. Söküldü və yerində möhtəşəm hospital binası ucaldılmağa başlandı. O vaxtdan həmin xəstəxana tikilmir. Qəsəbədə yaşayan əhalinin əksəriyyəti neft sənayesində, tikintidə və müxtəlif sahələrdə çalışan adamlardır, hərbi işçilərdir. Ona görə də bizim şəhərə getməyə imkanımız bir az məhduddur. Odur ki, qəsəbəmizdə xəstəxana binasının tikilməsinə sərəncam verməyinizi sakinlər Sizdən xahiş edirlər.

**İlham Əliyev:** Bu məsələ mütləq öz həllini tapacaqdır. Mən xəstəxananın tikintisi ilə bağlı xüsusi sərəncam verəcəyəm ki, işlər dərhal başlansın və gələn ilin dövlət büdcəsində bu məsələnin həlli üçün əlavə vəsait ayrılacaqdır. Yeni məktəb binasının tikintisi də nəzərdə tutulmalıdır. Çünki buna da ehtiyac vardır. Siz qeyd etdiyiniz kimi, qəsəbənin həm ərazisi

genişlənir, həm də əhalisi artır. Burada bütün lazımi infrastruktur obyektləri yaxın zamanlarda tikilməlidir.

Mən bilirəm ki, qazın verilməsi ilə bağlı müəyyən problemlər vardır. Təzyiq bəzi hallarda aşağıdır, çünki borular köhnəlib. İndi bütün ölkə üzrə geniş qazlaşdırma işləri aparılır. Elə bir rayon yoxdur ki, oraya qaz verilməsin. Hətta ucqar kəndlərə də qaz xətləri çəkilir. 2012-ci ilin sonuna qədər ölkəmizdə qazlaşdırma 90–95 faiz təşkil etməlidir və keyfiyyətli qaz verilməlidir. Xüsusilə, Bakıda və Bakıətrafı qəsəbələrdə bu məsələlər daha da tezliklə öz həllini tapmalıdır.

İçməli su problemi əfsuslar olsun ki, bütün dövrlərdə bizim üçün aktual olmuşdur. Azərbaycanı və Bakını su ilə təmin edən xətlər çəkilibdir, siz onu qeyd etdiniz. Hacı Zeynalabdin Tağıyev Şollar kəmərini çəkdirmişdir. Ondan sonra ulu öndər Heydər Əliyev su kəmərləri çəkdirmişdir. İndi Oğuz–Qəbələ su kəməri də tikilib. Bu kəmərin xüsusiyyəti ondan ibarətdir ki, su daxili mənbələr hesabına formalaşır. Həm Kür, həm də Samur çaylarının mənbəyi başqa ölkələrin ərazisindədir və bir növ biz başqa ölkələrdən asılı vəziyyətdəyik.

İndi Badamdarda və başqa yerlərdə su anbarları tikilir. Onlar istifadəyə veriləndən sonra su ilə təchizat daha da yaxşı olacaq, yeni xətlər də çəkilməlidir. Vaxtilə çəkilmiş xətlər köhnəlib, bəzi hallarda çürüyüb, biz onların hamısını yenidən qurmalıyıq. Bu, böyük maliyyə vəsaiti tələb edən bir işdir. Su və kanalizasiya məsələləri texniki cəhətdən çox ağır bir işdir. Hər iki məsələ bütün qəsəbələrdə, Bakıda və bütün rayonlarda paralel şəkildə öz həllini tapmalıdır. İndi nəinki Bakıda, hər bir rayon üzrə xüsusi su layihəsi hazırlanmışdır. Bəzi yerlərdə işlər başlanmışdır. Bəzi yerlərdə isə biz bu işlərə yaxın zamanlarda başlayacağıq.

Əsas infrastruktur məsələləri bundan ibarətdir – su, kanalizasiya, qazlaşdırma, elektrik enerjisinin verilməsi, sosial infrastruktur, xəstəxanalar, məktəblər, yollar. Biz bu işlərlə məşğuluq. Bütün ölkə üzrə proqramlar həyata keçirilir və Bakı qəsəbələri də bu proqramlardan kənarda qalmamalıdır. Hər bir

bölgədə regional inkişaf proqramları vardır. Mən bölgələrdə tez-tez oluram, inkişafı görürəm. Mən istəyirəm ki, hər bir yerdə, hər bir kənddə, hər bir qəsəbədə bu inkişaf özünü göstərsin. Xüsusilə Badamdar kimi böyük tarixə malik olan qəsəbədə işlər yüksək səviyyədə olmalıdır.

Yəni, Bakı qəsəbələrinin inkişafı proqramı icra olunandan sonra 2 il ərzində əsas məsələlər öz həllini tapacaqdır. Bu yolun çəkilişi başlanğıcdır, burada başqa yollar da çəkiləcəkdir. Ondan sonra yollarda işıq dirəkləri quraşdırılmalıdır. Çünki burada işıqlandırma yoxdur, axşamlar qaranlıqdır. Hər yer işıqlı olmalıdır. Biz indi özümüzü elektrik enerjisi ilə təmin edirik. Başqa ölkələrə də qaz, neft ixrac edirik. Ona görə də burada hər bir küçə işıqlandırılmalıdır.

## UKRAYNANIN BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ, İQTİSADİ İNKİŞAF VƏ TİCARƏT NAZİRİ ANDREY KLYUYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Ukraynanın Baş nazirinin Birinci müavini, İqtisadi İnkişaf və Ticarət naziri Andrey Klyuyevi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Ukrayna arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi bildirildi. İqtisadi əlaqələrimizin genişlənməsində hökumətlərarası birgə komissiyanın rolu qeyd olunaraq bu baxımdan komissiyanın Bakıda keçirilən 9-cu iclasının önəmi vurğulandı. Görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli münasibətlərin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi xristianların müqəddəs Pasxa bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzularımı yetirirəm.

Yüz illər boyu Azərbaycanda yaşayan müxtəlif xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin mövcud olması, ayrı-ayrı dinlərin və etiqadların qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərməsi bu gün ölkəmizi dünyada tolerantlıq məkanı kimi tanıtmışdır.

Bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edən sivilizasiyalararası və dinlərarası dialoq problemlərinə həsr edilmiş mötəbər beynəlxalq tədbirlərin son illər ölkəmizdə keçirilməsi ənənə halını almışdır. Azərbaycanda etnik-dini müxtəlifliyin, tarixi-mənəvi irsin qorunub saxlanması dövlət siyasətimizin prioritet istiqamətlərindəndir və bu sahədəki səylərimizi gələcəkdə də davam etdirəcəyik.

Azərbaycan tarixən olduğu kimi, bu gün də dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, burada yaşayan hər kəs üçün doğma vətəndir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, respublikamızın xristian icması və pravoslav vətəndaşlarımız ölkəmizdə gedən böyük quruculuq işlərində yaxından iştirak edir, vətəndaşlıq borcunu layiqincə yerinə yetirirlər.

Əziz dostlar! Pasxa bayramı əmin-amanlıq, həmrəylik, mərhəmət və şəfqət rəmzi kimi, hər il Azərbaycanda təntənə ilə qeyd edilir. Qoy bu nurlu bayram ailələrinizə sevinc, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 aprel 2011-ci il*

## AVRONEST ASSAMBLEYASININ PREZİDENTİ, AVROPA PARLAMENTİNİN ÜZVÜ KRİSTİAN VİGENİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Avronest Assambleyasının prezidenti, Avropa parlamentinin üzvü Kristian Vigenini qəbul etmişdir.*

*Kristian Vigenin ölkəmizə səfərinin əsas məqsədinin Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» proqramı çərçivəsində yaradılan Parlament Assambleyası, həmçinin Avropa İttifaqı, Avropa parlamenti ilə Azərbaycan Respublikasının Milli Məclisi arasında əməkdaşlıq məsələlərinin müzakirə edilməsindən ibarət olduğunu bildirdi. O, dövlət başçıları səviyyəsində bu əlaqələrə maraq göstərilməsinin önəmini vurğuladı.*

*Bu təşəbbüsün və proqramın ölkəmiz üçün əhəmiyyətli olduğunu qeyd edən dövlətimizin başçısı İlham Əliyev Kristian Vigeninin səfərinin bu sahədə gələcək əməkdaşlığımız üçün faydalı olacağına əminliyini bildirdi.*

## MÜXTƏLİF SAHƏLƏRDƏ UĞURLAR QAZANMIŞ BİR QRUP GƏNC VƏ TƏLƏBƏ GƏNCLƏR TƏŞKİLATLARININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 aprel 2011-ci il*

*Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müxtəlif sahələrdə uğurlar qazanmış bir qrup gənci və tələbə gənclər təşkilatlarının nümayəndələrini qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Bu ayın əvvəlində, daha doğrusu, iki həftə bundan əvvəl mənim tərəfimdən «Azərbaycan gəncliyi Dövlət Proqramı» haqqında sərəncam imzalanmışdır. Sərəncamda Prezident Administrasiyasına tapşırıq verilib ki, iki ay müddətində Dövlət Proqramı hazırlansın, daha doğrusu, onun layihəsi hazırlansın və mənə təqdim edilsin. Proqramın layihəsinin hazırlanması ilə bağlı işçi qrupu yaradılmışdır və o, fəal işləməlidir ki, biz konkret proqramı qəbul edək. Bu proqram 2011–2015-ci illəri əhatə etməlidir. Proqram çox konkret olmalıdır, çox dəqiq vəzifələr qoyulmalıdır və əlbəttə ki, orada icra mexanizmləri göstərilməlidir. Proqram sadəcə olaraq, hansısa xoş niyyətin ifadə edilməsi üçün deyil, konkret nəticələrə gətirib çıxarmalıdır. Elə olmalıdır ki, orada hazırda gəncləri narahat edən məsələlər öz əksini, öz həllini tapsın.

Son illər bu istiqamətdə böyük işlər görülmüşdür və bu gün Azərbaycan gəncləri ölkəmizin ictimai-siyasi, iqtisadi həyatında fəal rol oynayırlar. Gənclərimiz dövlətçiliyə sadiqdirlər, vətənpərvərlik ruhunda tərbiyə alırlar, bu çox vacibdir. O ki qaldı proqrama, hesab edirəm ki, orada ilk növbədə gənclərin

məşğulluğu məsələləri öz həllini tapmalıdır. Son illər ölkəmizdə işsizliyin aradan qaldırılması üçün böyük işlər görülmüşdür, yüz minlərlə yeni iş yerləri, yeni müəssisələr açılmışdır. Ancaq yenə də işsizlik problemi var, bu problem bizi narahat edir və elə etməliyik ki, işsizliyin aradan qaldırılması üçün daha da fəal olaq.

Ölkəmizin əhalisi də artır, bu çox müsbət haldır. Keçən il 9 milyonuncu vətəndaş dünyaya gəlmişdir. Bu bizi Cənubi Qafqaz məkanında digər ölkələrdən fərqləndirir və əhalimiz nə qədər artsa, bizim potensialımız da bir o qədər artacaqdır. Ancaq əhalinin artması işçi qüvvəsinin də artmasına gətirib çıxarır və biz buna hazır olmalıyıq. Hazırda ölkədə aparılan iqtisadi və siyasi islahatlar yeni iş yerlərinin açılmasına gətirib çıxarır və biz artan maliyyə imkanlarımızı da bu məqsədlərə yönəldirik. Biz böyük nailiyyətlərə çatmışıq, ancaq işsizliyin aradan qaldırılması üçün daha da fəal olmalıyıq. Ümid edirəm ki, bu proqramda gənclərin işlə təmin olunması məsələləri konkret həllini tapacaqdır.

Gənclərin yaşayış problemlərinin həlli üçün, şübhəsiz, daha da ciddi addımlar atılmalıdır. Son illər ipoteka kreditləşməsi məsələləri həll olunmağa başlanmışdır. Ancaq deyə bilərəm ki, bu təşəbbüs hələ ibtidai səviyyədədir. Elə etməliyik ki, həm güzəştli şərtlər daha da məqbul olsun, həm də ipoteka layihəsinin əhatə dairəsi genişlənsin. Bu, gənclər üçün yaxşı imkanın yaradılmasına xidmət göstərəcəkdir.

Gənclərin peşə hazırlığı ilə bağlı məsələlər çox aktualdır. Xüsusilə ölkəmizin indiki inkişaf dinamikası bunu tələb edir. Qarşımızda duran ən ciddi məsələlərdən biri peşəkar kadrların hazırlanmasıdır. Çünki bizim artan iqtisadi potensialımız, yeni yaradılan sənaye müəssisələrimiz peşəkar kadrlar tələb edir. Biz inkişaf etmiş ölkələrin təcrübəsini yaxşı bilirik və görürük ki, orada peşəkar kadrlar, menecerlər elə hazırlanır ki, onlar istənilən sahədə işləyə bilərlər. Bizdə də elə olmalıdır. Misal üçün, böyük, transmilli şirkətlərin başında duran insanlar bir gün neft şirkətinin prezidenti vəzifəsində işləyirlər, sonra İKT şirkətinə cəlb olunurlar, ondan sonra inşaat şirkətinə rəhbərlik

edirlər. Yəni bizdə də hazırlıq səviyyəsi elə olmalıdır ki, menecerlər istənilən sahədə çalışa bilsinlər. Buna böyük ehtiyac var. Hazırda Azərbaycanda fəaliyyət göstərən böyük şirkətlərin filiallarında xaricilərin sayı kifayət qədər çoxdur. Biz bunu alqışlayırıq. İndi Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır və açıq ölkədir, investisiyalar üçün açıqdır və biz bütün müsbət meyillərə xoş münasibət göstəririk. Ancaq çox istərdik ki, yeni müəssisələrdə, xüsusilə xidmət sektorunda, turizm sektorunda, İKT sektorunda yerli kadrlar üstünlük təşkil etsin.

Bilirsiniz ki, mən bölgələrdə tez-tez oluram, Bakı şəhərində böyük müəssisələrin açılışlarında iştirak edirəm və görürəm ki, bir çox hallarda onlara başçılıq edən insanlar xarici vətəndaşlardır. Azərbaycanın bu sahədəki siyasəti çox açıqdır və biz xarici menecerlərin Azərbaycana cəlb olunmasını alqışlayırıq. Onların buradakı fəaliyyəti və ümumiyyətlə, ölkəmizə xarici investisiyaların cəlb olunması müsbət rol oynayıbdır və oynayır. Lakin çox istərdim ki, bu mühüm vəzifələrdə yerli kadrlar işləsin. Ölkəmizin bugünkü iqtisadi inkişafı və gələcək planlarımız bunu tələb edir, ən müasir, qabaqcıl texnologiyalar tətbiq olunmalıdır.

Ölkəmiz müasir dövlətə çevrilməlidir və bu istiqamətdə biz çox vacib addımlar atırıq. Müasirləşmə, əlbəttə ki, dövlət siyasətinin düzgün qurulmasından və bununla bərabər, gənclərin fəaliyyətindən asılıdır. Siz gənc nəslin nümayəndələrisiniz, Azərbaycan gəncləri müasir, Vətənə bağlı, millətə bağlı, dövlətçiliyə sadiq olmalıdır, eyni zamanda, gənclərimiz bütün mütərəqqi təcrübəyə də açıq olmalıdırlar. Hesab edirəm ki, bu proqramda peşə hazırlığına xüsusi diqqət göstərilməlidir. Texniki peşə təhsilinin təkmilləşdirilməsi işində daha da böyük işlər görülməlidir. Hazırda bizə daha çox bu kateqoriyalı peşəkarlar lazımdır və bütövlükdə təhsillə bağlı məsələləri daha da uğurla həll etməliyik. Bu sahədə də işlər görülür. Həm orta təhsildə, həm ali təhsildə irəliyə doğru addımlar atılır. Hələ ki, bu məsələlər istədiyimiz səviyyədə deyil və məhz buna görə

Dövlət Neft Fondunun xətti ilə gənclərin xaricdə təhsil alması üçün vəsait ayrılır. Əgər bizdə təhsil istədiyimiz səviyyədə olsaydı, buna ehtiyac olmazdı. İki istiqamətdə çox fəal iş aparmalıyıq. İlk növbədə Azərbaycanda təhsilin səviyyəsinin qaldırılması üçün əlavə konkret addımlar atılmalıdır və hesab edirəm ki, proqramda bu məsələlər də öz həllini tapmalıdır, baxmayaraq ki, bu, təhsil sahəsinə aiddir. Təhsil sahəsi, ilk növbədə gənclərlə bağlıdır və xaricdə gənclərimizin təhsil alması üçün əlavə tədbirlər görüləcəkdir. Biz ölkəmizin gələcək inkişaf perspektivlərini və iqtisadiyyatımızın inkişaf istiqamətlərini yaxşı bilirik. Ona görə də kadrların hazırlanması ölkənin ümumi iqtisadi inkişafı ilə bağlı olmalıdır.

Bu proqramda gənclərin bütün problemləri əks olunmalıdır. Fiziki sağlamlığı yaddan çıxarmamalıyıq. Bu məsələyə xüsusi diqqət göstərilir və indi bütün bölgələrdə idmanla məşğul olmaq üçün şərait yaradılır. İdmançılarımıza dövlət tərəfindən qayğı göstərilir, onların fəaliyyəti üçün bütün tədbirlər görülür. Biz burada iki məqsəd güdürük. İlk növbədə idmanın kütləviliyini təmin etməliyik. Bu, birinci məsələdir. İkinci məsələ, Azərbaycanın idman şöhrətinin qaldırılması üçün peşəkar idmançılar da hazırlamalıyıq. Bu istiqamətdə böyük uğurlar əldə edilibdir. Bu, gənclərdə və bütövlükdə cəmiyyətdə vətənpərvərlik hisslərinin güclənməsinə də xidmət göstərir. Hər bir beynəlxalq yarışda, hər bir mötəbər yarışda Azərbaycan bayrağının qaldırılması bizdə haqlı olaraq qürur hissi doğurur və fəxr edirik ki, idmançılarımız, yığma komandalarımız beynəlxalq arenalardan qələbələrlə qayıdırlar.

Fiziki sağlamlıqla bağlı məsələlər də həllini tapmaqdadır. Yəqin ki, əlavə hansısa məsələlər də proqrama daxil edilməlidir. Hərbi hazırlıqla bağlı məsələlərə proqramda mütləq xüsusi yer ayrılmalıdır. Bu bizim üçün çox vacib məsələdir. Biz müharibə şəraitində yaşayırıq. Torpaqlarımız işğal altındadır, hər an hazır olmalıyıq ki, torpaqlarımızı azad edək, ərazi bütövlüyümüzü bərpa edək. Biz bu məsələni diplomatik yollarla həll etməyə

çalışırıq. Bununla bərabər, hərbi potensialımız diplomatik danışıqlara da müsbət təsir göstərir. Biz artıq bunun şahidiyik.

Mənim proqramla bağlı fikirlərim, demək olar ki, bundan ibarətdir. Mən hesab edirəm ki, istiqamətlər düzgün seçilməlidir. Ən önəmlisi, proqramda konkret tədbirlər planı da əksini tapmalıdır ki, konkret proqram olsun. Bir də demək istəyirəm ki, Azərbaycanda son illər ərzində qəbul edilmiş bütün proqramlar konkret xarakter daşıyır. Heç biri şüar naminə qəbul edilməyib. Regional inkişaf proqramı 2004-cü ildən bu günə qədər icra edilibdir və çox gözəl nəticələr vardır. İndi digər proqramlar, Bakı qəsəbələrinin sosial-iqtisadi inkişafı proqramı hazırlanır. Bu proqramda nəzərdə tutulmuş bütün vəzifələr real olmalıdır ki, bütün məsələlər öz həllini tapsın.

Nəzərə alsaq ki, proqram 2011–2015-ci illəri əhatə edəcək, çox yığcam və konkret olmalıdır. O demək deyildir ki, 2015-ci ildən sonra bu məsələ kənarda qalacaqdır. Əlbəttə ki, yox. Ancaq daha da real vəzifələri müəyyən etmək və həll etmək üçün hesab edirəm ki, bu, ən optimal müddətdir. Ümid edirəm ki, siz də öz fikirlərinizi bildirəcəksiniz, həm bu gün, həm proqramın hazırlanması ilə bağlı fəal iştirak edəcəksiniz.

* * *

*Prezident yanında Dövlət İdarəçiliyi Akademiyasının hüquqşünaslıq üzrə ikinci kurs tələbəsi, test imtahanlarında 700 ballıq maksimum nəticə əldə etmiş, Prezident təqaüdçüsü Fəridə Musayeva gənclərlə belə bir görüşün keçirilməsinə və «Azərbaycan Gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramını imzaladığına görə prezident İlham Əliyevə minnətdarlıq etdi.*

**Fəridə Musayeva** (*Dövlət İdarəçilik Akademiyasının ikinci kurs tələbəsi):* Bugünkü görüş hər bir gənc üçün çox əhəmiyyətlidir. Məktəbimizin girişində bu məktəbin məzunu olan ümummilli lider Heydər Əliyevin şəkli var idi. Mən hər dəfə məktəbə daxil olanda o şəklin qarşısında ayaq saxlayıb arzulayırdım ki, nə vaxtsa mənim də prezidentlə

görüşüm olar. Təbii ki, prezidentlə görüşmək hər bir gəncə nəsib olmur. Mən buna layiq olmaq üçün öz üzərimdə daha çox işləyirdim, daha çox çalışırdım. Bu bir növ mənə stimul verirdi. Bunun üçün Sizə təşəkkür edirəm.

**H i k m ə t İ s m a y ı l o v** (*Azərbaycan Tibb Universitetinin altıncı kurs tələbəsi):* Cənab Prezident, əmək bazarında olan imkanla texniki peşə sahəsində verilən təhsili müqayisə etdikdə, müəyyən uyğunsuzluqlar nəzərə çarpmaqdadır. Peşə məktəblərində verilən təhsil heç də müasir dövrün tələblərinə uyğun gəlmir. Deyə bilərəm ki, Azərbaycanda bir çox texniki peşə məktəbləri artıq köhnəlmişdir. Çünki onlar illərdir yeni avadanlıqlar və cihazlarla təmin edilməyibdir. Bu öz növbəsində, təbii ki, gənclərimizin müasir peşələrə uyğunlaşmasına mənfi təsirini göstərməkdədir. Hətta müəyyən peşələr vardır ki, biz həmin işləri icra etmək üçün xaricdən mütəxəssis dəvət etmək məcburiyyətində qalırıq.

Fikrimi xırda bir misalla ifadə edərək əsaslandırmaq istərdim. 2011-ci ili ölkəmizdə «Turizm ili» elan etmisiniz və yeni tikilən beşulduzlu çox görkəmli otellər, idman və istirahət mərkəzləri, həmçinin təmir olunan və yenidən qurulan tarixi mədəniyyət abidələrimiz, müxtəlif beynəlxalq yarışların Azərbaycanda keçirilməsi ölkəmizə böyük turist axınına səbəb olmuşdur. Düşünürəm ki, texniki peşə təhsilinin təkmilləşdirilməsi turistlərə ən gözəl, ən yüksək səviyyədə xidmət göstərməyimizdə bizə müsbət mənada kömək edəcəkdir. Dəyərli vaxtınızı çox almaq istəmirəm. Sizdən rica edirəm ki, bu istiqamətdə müasir təcrübələrin tətbiqinə kömək edəsiniz.

**İ l h a m Ə l i y e v:** Sağ olun, buna doğrudan da böyük ehtiyac vardır. Mən də çıxışımda bunu qeyd etdim. Xüsusilə turizm sahəsində. Bilirsiniz, indi ölkəmizdə bu sahəyə çox böyük diqqət göstərilir. Doğrudan da biz ölkə iqtisadiyyatının neft, qaz amilindən asılılığını gərək kəskin şəkildə azaldaq. Əgər fikir vermisinizsə, son zamanlar, ümumiyyətlə, neft-qaz sektorunda görülən işlər haqqında o qədər də çox söhbət aparılmır. Çünki bu sahədə hər şey yaxşıdır. Ondan başqa, mən

çox istəyirəm ki, Azərbaycanı dünyada neft hasil edən ölkə kimi deyil, müasir, yüksək intellektual potensiala malik olan ölkə kimi tanısınlar.

Beləliklə, qeyri-neft sektorunun inkişafı üçün konkret addımlar atılır. Turizmin inkişafı burada xüsusi əhəmiyyət daşıyır. Çünki xoşbəxtliyimiz ondadır ki, bizim çox gözəl ölkəmiz vardır. Bəlkə dünya xəritəsində çox nadir hallarda belə gözəl, təbii imkanlara malik ölkəyə rast gəlmək olar.

Bizim doqquz iqlim qurşağımız, gözəl dənizimiz, dağlarımız, çaylarımız, bulaqlarımız vardır. Coğrafi vəziyyətimiz, Azərbaycanda hökm sürən sabitlik, ictimai-siyasi asayiş, təhlükəsizlik – bütün bu amillər turistlərin cəlb olunmasında xüsusi rol oynayır.

Hazırda Bakıda beşulduzlu mehmanxanalar tikilir. Özü də bu mehmanxanalar brendlərdir. Orada, əlbəttə ki, xidmət səviyyəsi çox yüksək olmalıdır. Mən fikirləşirəm ki, həmin mehmanxanalar bu il və gələn il açılacaqdır. Biz bu qədər kadrı haradan tapıb işə götürəcəyik?! Yenə də deyirəm ki, xarici mütəxəssislər, xarici xidmətçilər gələcəklər. Ona görə tapşırıq verilibdir ki, təkcə Bakıda deyil, bölgələrdə də turizm sahəsi üzrə peşə məktəblərinin sayı artırılsın. Çünki mehmanxanaların bir neçəsi bölgələrdə yerləşir.

Bizim indi xizək kurortumuz da yaradılır. Hesab edirəm ki, bu da ölkəmiz üçün tarixi hadisədir. Bu ilin sonuna qədər artıq vətəndaşlarımız bu gözəl imkandan istifadə edəcəklər. O ki qaldı bütövlükdə peşə məktəblərinin fəaliyyətinə, əvvəlki illərdə bu sahəyə lazımi diqqət göstərilməmişdir. Yəqin ki, qarşıda bundan da ciddi problemlər dayanmışdı. Qəzalı məktəblərin təmiri, məktəblərin tikintisi – vəsait daha çox bu istiqamətə gedirdi. Bunun nəticəsində 2000-dən artıq yeni məktəb tikilmişdir. Məktəblərdə kompyuterləşmə prosesi sürətlə gedir.

Mən hesab edirəm ki, biz bir neçə il ərzində inqilabi dəyişiklik edə bilmişik. Çünki bu proqrama başlayanda hər 1000 şagirdə 1 kompyuter düşürdüsə, indi hər 20–30 şagirdə 1

kompyuter düşür. Əvvəllər mən bölgələrdə olarkən maraqlanırdım ki, kompyuter sinfi, kompyuterlər var, yoxsa yox?! Bəzi hallarda kompyuterləri mənə göstərmək üçün quraşdırırdılar. Amma yaxınlaşanda görürdüm ki, onlar işləmir. Hazırda hər bir məktəbdə, hər bir rayonda, yəni yeni tikilmiş məktəblərdə kompyuter sinifləri vardır. Ona görə, indiki mərhələdə peşə məktəblərinin fəaliyyətinə xüsusi diqqət göstərilməlidir. Təhsil Nazirliyinə konkret tapşırıqlar verilmişdir. Hesab edirəm ki, gənclərlə bağlı proqramda da bu məsələ öz əksini tapmalıdır.

**Alyona Bandurina** (*Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dördüncü kurs tələbəsi):* Buraxılış kursunda olan bir tələbə kimi, məni həllini tapmayan bir məsələ narahat edir. Bu, gənc rəssamların ölkə mədəniyyətinin inkişafına xidmət göstərmələri üçün emalatxanaların çatmamasıdır. Bu, Dövlət Proqramının olmamasının nəticəsidir. Bir məsələ də vardır ki, mən təklif irəli sürmək istərdim. Bu, mədəniyyət, elm, intellektual oyunlarda və digər sahələrdə fəaliyyət göstərən istedadlı gənclərə Azərbaycan Respublikası Prezidentinin illik təqaüdünün təsis edilməsidir. Təqaüdün təsis edilməsi hər il bütün sahələrdə yüksək nailiyyətləri ilə fərqlənən gənclərin seçilməsinə və həmçinin gənclərin daha yüksək nailiyyətlər əldə etməsi üçün əsas məqsədə çevriləcəkdir. Cənab Prezident, Azərbaycanda və ya onun hüdudlarından kənarda «azərbaycançılıq» sözünü söylədikdə müəyyən fərqli təəssüratlar yaranır. Biz bilmək istəyərdik ki, bu söz Sizin üçün azərbaycançılıq məfhumu kimi hansı təəssürati yaradır?

**İlham Əliyev:** Sağ olun. İlk növbədə Azərbaycan dilində belə gözəl danışdığınıza görə mən sizə minnətdarlığımı bildirmək istəyirəm. Çünki ölkəmizdə bu barədə heç bir məhdudiyyət yoxdur. Rus dilində də danışa bilərsiniz, biz də rusca danışa bilərik. Hesab edirəm ki, Azərbaycan bu məsələlərlə də bağlı dünyada fərqlənir. Amma sizin Azərbaycan dilində belə yaxşı danışmağınız, əlbəttə ki, çox müsbət haldır. Qaldırdığınız məsələlərlə – emalatxanalarla bağlı

müvafiq tapşırıqlar verilmişdir. Xüsusi bir yer seçilsin, orada, ümumiyyətlə, rəssamlar, heykəltəraşlar üçün şərait yaradılsın ki, işləyə bilsinlər. Bu məsələ ilə bağlı mən lazımi tapşırıqları verəcəyəm. Rəssamlıq Akademiyası binasının tikintisi davam edir. Bu binanı biz daha da böyüdəcəyik, gözəl memarlıq abidəsidir, orada bütün şərait də yaradılacaqdır. Təqaüdlərə gəldikdə, mən bu təşəbbüsü alqışlayıram. Hesab edirəm ki, proqramda bu məsələ öz həllini tapmalıdır. Xüsusilə istedadlı gənclərə təqaüdlər verilməlidir. Biz hazırda daha çox ölkə həyatında uzun illərdir ki, fəal rol oynamış, böyük töhfələr vermiş yaşlı nəslə bu təqaüdləri veririk. Hesab edirəm ki, gənclərə də bu təqaüdlərin verilməsi ədalətli olar. O ki qaldı azərbaycançılıq ideologiyasına, azərbaycançılıq məfkurəsinə, bu barədə ulu öndər Heydər Əliyev dəfələrlə öz fikrini bildirmişdir. Məhz onun təşəbbüsü ilə azərbaycançılıq məfkurəsi Azərbaycanda güclənmişdir.

Bildiyiniz kimi, ondan əvvəlki dövrdə müxtəlif fikirlər, müxtəlif yanaşmalar var idi. Ancaq bu, ölkəmizi gələcəyə aparan yoldur. Çünki bu, ölkəmizi birləşdirən, ölkəmizdə yaşayan bütün xalqların, bütün millətlərin nümayəndələrini birləşdirən məfkurədir və məhz Heydər Əliyevin təşəbbüsü ilə və onun fəaliyyəti nəticəsində azərbaycançılıq ideologiyası Azərbaycanda oturuşdu və bu gün bizim dövlət və milli ideologiyamızdır.

Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar və bu, sadəcə, xoş sözlər deyil, reallıqdır. Bu bizim keçmişimizi də əks etdirir və ən önəmlisi, müstəqil ölkə kimi, Azərbaycanın inkişaf dövründə bu prinsiplərə həmişə çox böyük diqqət yetirilmişdir. Təsadüfi deyil ki, dünya birliyi, dünya ictimaiyyəti artıq bunu anlamağa başlayır və Azərbaycanda keçirilən beynəlxalq tədbirlər bunu bir daha təsdiqləyir.

Biz müstəqil ölkə kimi, cəmi 20 ildir yaşayırıq. 20 il həm qısa bir tarixi dövrdür, eyni zamanda, 20 il ərzində çox iş görmək olar. 20 ildə Azərbaycanın dövlətçiliyi tam bərqərar olmuşdur. Biz

müstəqil ölkə kimi, öz taleyimizi özümüz müəyyən edirik və bütün məsələlərlə bağlı, bütün istiqamətlər üzrə dövlətimizin çox dəqiq mövqeyi vardır.

Ölkə daxilində gedən proseslərlə bağlı və ölkənin gələcək inkişaf istiqamətləri ilə bağlı cəmiyyətdə fikir ayrılığı yoxdur. Biz müasir, güclü milli dəyərlərə söykənən dövlət qururuq. Əlbəttə ki, ümumbəşəri dəyərləri bölüşürük, Avropa dəyərlərinə də hörmətlə yanaşırıq. Ancaq bizim öz dəyərlərimiz var. Bu bizim ənənələrimizdir, tariximizdir, mədəniyyətimizdir, dilimizdir. Fəxr edirik ki, biz müstəqil ölkə kimi, öz taleyimizi özümüz müəyyən edirik. Azərbaycanda tarixi keçmişə, mədəniyyətimizə, milli köklərimizə qayğıkeş münasibətə söykənən müasir dövlət quruculuğu prosesi gedir və elə etməliyik ki, dövlətçiliyimizin əsasları sarsılmaz olsun. Çünki Azərbaycanın həm coğrafi vəziyyəti, həm geosiyasi əhəmiyyəti, həm də zəngin təbii resurslarımız və bölgədə artan təsir imkanlarımız diqqətləri Azərbaycana yönəldir. Ölkəmizi, əgər belə demək mümkünsə, öz tərəfinə çəkmək cəhdləri hələ ki, səngimir. Baxmayaraq ki, biz bu cəhdlərə qarşı ardıcıl mübarizə aparır və sübut etməyə çalışırıq ki, Azərbaycanın öz siyasəti var, öz məqsədləri var. Hesab edirəm ki, biz buna müvəffəq olmuşuq. Bütün ölkələrlə xoş münasibətlər qurmaq əzmindəyik və qururuq. Biz əsrlər boyu müstəmləkə, yaxud da ki, yarımmüstəmləkə vəziyyətində yaşamışıq. Qədim və zəngin tarixə, böyük mədəniyyətə malikik, lakin müstəqil xalq kimi yaşamamışıq. İndi isə bizim üçün fürsət və bütün imkanlar var ki – güclü iqtisadiyyat, formalaşan siyasi sistem, cəmiyyətdə ölkəmizin inkişafı ilə bağlı prinsipial məsələlərdə fikir ayrılığının olmaması, maliyyə resurslarımız, təbii resurslarımız, coğrafi vəziyyətimiz – Azərbaycan, sözün əsl mənasında, uğurla inkişaf etsin.

Tam şəkildə müstəqil siyasət aparırıq və yenə də deyirəm, bizim siyasətimiz xoşniyyətlidir. Biz istəyirik ki, qarşılıqlı hörmət əsasında, bir-birinin işinə qarışmamaq şərti ilə bütün ölkələrlə münasibətlərimizi gücləndirək. Buna nail olmaq üçün təkcə enerji, yaxud da maliyyə resursları kifayət etmir. Cəmiyyətdə dövlətçiliyə bağlılıq daha da güclü olmalıdır. Gənc

dövlət üçün dövlət atributlarına hörmət, bizim dövlətçilik prinsiplərimizə sədaqət, gənclərin vətənpərvərlik ruhunda tərbiyə alması xüsusi məna daşıyır.

Biz hələ ki, gənc müstəqil dövlətik, buna baxmayaraq, mən hesab edirəm ki, artıq keçid dövrünü başa vurmuşuq. İqtisadi göstəricilər və reallıq da bunu göstərir. Ona görə gələcək uğurlu həyatımızı təmin etmək üçün mütləq dövlət ideologiyası güclü olmalıdır və bu ideologiya azərbaycançılıq ideologiyasıdır. Mən çox şadam ki, siz bu sualı verdiniz. Hesab edirəm ki, bunlar vacib məsələlərdir və biz bu məsələləri daim diqqət mərkəzində saxlamalıyıq, proqramda bu məsələlər də nəzərdə tutulmalıdır.

**R ü f ə t  Ə z i z o v** *(Xəzər Mühəndisləri Cəmiyyətinin sədri, Britaniya Materiallar İnstitutunun üzvü):*Hazırda neft sənayesindəki inkişaf və digər sənaye sektorlarının inkişaf etdirilməsi və ən əsası, gələcəkdə Azərbaycanın neft ixrac edən ölkədən bilik və texnologiyalar ixrac edən ölkəyə və yaxud da bilik və texnologiyalar mərkəzinə çevrilməsi üçün bizdə həqiqətən də müasir biliklərə, təcrübələrə yiyələnmiş kadrlara böyük ehtiyac vardır. Əgər biz Qərbin təcrübəsinə baxsaq, orada sənaye, təhsil və elm üçbucağı yaradılmışdır, onlar inteqrə olunmuş şəkildə birgə inkişaf edir və bir-birinin tələblərini ödəyir. Bizdə də ilk olaraq bu yola çıxmaq lazımdır. Bunun üçün də ən münasib yol – bu, Qərbdə də geniş yayılmışdır – elmi-texniki sahələrdə peşəkar təşkilatların təsis olunması və artıq fəaliyyət göstərən təşkilatların dəstəklənməsidir.

Qloballaşan dünyada təhsil, sənaye texnologiyaları çox sürətlə inkişaf edir və bu sürətə çatmaq üçün, müasir dünya elminə inteqrasiya olunmaq üçün Azərbaycanın daim yeniləşən, yeni texnologiyalarla, yeni bilgilərlə, təcrübələrlə zənginləşən təhsil sisteminə ehtiyacı vardır. Təhsil sistemində yeniliklər dedikdə, kurikulumlardan başlayaraq, laboratoriya avadanlıqları ilə təchizat, prosedurlar, dərs metodikaları, müəllim-tələbə münasibətlərinin yenilənməsi kimi məsələlərə kompleks şəkildə baxılmalıdır.

Hesab edirəm ki, xaricdə təhsil alıb gəlmiş gənclərimizin birbaşa bu işlərə cəlb olunması, onların xaricdə gördükləri təcrübəni təhsilə və böyük sənaye müəssisələrimizə gətirməsi bu sahədə böyük imkanlar yarada bilər.

Digər tərəfdən, gələcəkdə Azərbaycanın texnologiyalar ixrac edən ölkəyə çevrilməsi üçün biz qloballaşan dünya elmi ilə ayaqlaşmalıyıq. Gələcəkdə özümüz texnologiyalar ixrac etmək istəyiriksə, nəinki həmin o qlobal elmə çatmalı, hətta onu ötüb keçməliyik. Bunun üçün də bizə yenə də müasir kadrlar lazımdır. Bütün bu prosesləri uzunmüddətli etmək üçün isə Azərbaycanda məktəb yaşlarından başlayaraq, elmi-texniki sahələrdə yaradıcı gənclərin ortaya çıxarılması əsas məqsədlərimizdən biri olmalıdır.

Son illərdə idman və mədəniyyət sahələrində çox geniş inkişaf vardır. Bu sahələrdə olan gənclər müxtəlif layihələr vasitəsilə ortaya çıxırlar. Lakin təəssüf ki, elmi-texniki sahələrdə hələ ki, az iş görülübdür. İdman yarışında qalib gəlmiş gənc ilə elm olimpiadasında, elm yarışında qalib gəlmiş gənc arasında fərq olmamalıdır, hər ikisinə yüksək səviyyədə qiymət verilməlidir.

Bütün bu məsələlərdən irəli gələrək, iki təklif vermək istərdim: peşəkar mühəndislik və elmi-texniki təşkilatların inkişafına dövlət dəstəyi; həmin sahələrin inkişafı üçün Azərbaycan Respublikası Prezidentinin illik mükafatlarının təsis olunması. Hesab edirəm, bunlar bir qədər yüksək səviyyəli mükafatlar olmalıdır ki, gəncləri elmi-texniki axtarışlara istiqamətləndirsin.

**İlham Əliyev:** Sağ olun. Hesab edirəm ki, sizin fikirləriniz bu proqramda öz əksini tapmalıdır. Sirr deyil ki, hər bir ölkənin inkişafını müəyyən edən enerji resursları deyil, intellektual potensialdır. Bizim məqsədimiz gələcəkdə, sözün əsl mənasında, inkişaf etmiş ölkələrin sırasına daxil olmaqdır. Hesab edirəm ki, son illərdə Azərbaycanda sənayenin inkişafına, elmin inkişafına göstərilən dəstək yaxın gələcəkdə

öz gözəl nəticələrini verəcəkdir. Ölkəmizdə hazırda sənaye mərkəzləri formalaşmaqdadır.

Bu barədə mən bir müddət bundan əvvəl öz fikirlərimi bildirmişəm. Hesab edirəm ki, əsas üç mərkəz yaradılmalıdır. Biri Sumqayıt şəhəridir. Biz Sumqayıtı müasir sənaye mərkəzinə çevirməliyik. Gəncə şəhəri və Bakının Qaradağ rayonu. Çünki orada həm ərazi, həm də infrastruktur baxımından kifayət qədər yaxşı imkanlar vardır. Bu sənaye mərkəzləri elmin inkişafı ilə də bağlı olmalıdır. Elmimiz daha da sürətlə inkişaf etməlidir və ölkə qarşısında duran vəzifələrin həllinə kömək göstərməlidir. Misal üçün, Sumqayıtda böyük texnopark yaradılır. Artıq 10-a yaxın müasir müəssisə yaradılmışdır. Mən göstəriş vermişəm ki, o texnoparkın nəzdində texniki peşə məktəbləri də fəaliyyətə başlasın ki, kadr hazırlığı prosesi istehsalla uzlaşsın.

Yaradıcı gənclərin dəstəklənməsi məsələləri də xüsusi diqqətə layiqdir. Mükafatlarla bağlı məsələni də biz proqramda nəzərdə tuta bilərik. Hesab edirəm ki, cəmiyyətdə elm sahəsində, idman sahəsində uğurlar qazanmış gənclərə eyni münasibət olmalıdır. Ancaq dünyada gedən proseslər də müəyyən qədər bu fərqli yanaşmanı şərtləndirir. Çünki hər hansı bir dünya çempionatında medal qazanmış insan dərhal dünyada məşhur olur. Bəzi idman növlərində uğur qazanmış insanlar dərhal zənginləşir, varlanır, amma istedadlı alim öz kitablarının hesabına dolanmağa məcburdur. Yəni bu, dünya reallıqlarıdır. Ancaq biz çalışmalıyıq ki, müəyyən dərəcədə bu ayrı-seçkiliyi aradan qaldıraq. Ölkə daxilində bu məsələlərin ədalətli həlli üçün imkanlar vardır. Mükafatlar hesabına, ola bilsin ki, gənclər fondu yaradılsın – daha doğrusu, hesab edirəm ki, yaradılmalıdır – dövlət büdcəsindən ora vəsait ayrılsın və gənclər özləri müəyyən etsinlər ki, bu vəsait hansı istiqamətlər üzrə xərclənməlidir. Bu, mükafatlandırmaya da yönəldilməlidir. Gənclərin elmi araşdırmalar aparmaları, texniki məsələləri həll etmələri üçün vəsait olmalıdır. Bu məsələ ilə ciddi məşğul olacağıq. Ölkəmizin uğurlu inkişafı diqtə edir ki, biz elmi-texniki tərəqqiyə daha da

böyük diqqət göstərək. Bu istiqamətdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı xüsusi əhəmiyyət daşıyır. Çünki bu sahə intellektual potensialın güclənməsinə xidmət göstərəcək, kommersiya cəhətdən çox əlverişlidir. Gələcəkdə İKT sektoru Azərbaycan iqtisadiyyatında daha da təsirli rol oynayacaqdır. Bildiyiniz kimi, kosmik sənayenin yaradılması ilə məşğul olmağa başlamışıq. Süni peykin orbitə çıxarılması ilə məşğuluq.

Hazırda Azərbaycan kimi resurslarla zəngin olan ölkələr texnologiyaları xaricdən alırlar. Bu ən asan yoldur. Halbuki burada da siyasət düzgün aparılmalıdır, bizə lazım olan texnologiyalar alınmalıdır. Ancaq uzun illər bundan sonra belə davam edə bilməz. Biz texnoloji inkişafın bir parçası olmalıyıq. Ona görə hazırda Azərbaycanda İKT sektorunda, hərbi sənaye sektorunda birgə müəssisələrin yaradılması məsələləri öz həllini tapır. Bəlkə də bu müəssisələrin yaradılması daha da çox vaxt və daha da çox vəsait tələb edir. Xaricdən texnologiyanı, yaxud da avadanlığı almaq bəlkə daha da asandır və bəzi hallarda daha da ucuzdur.

Ancaq biz Azərbaycanda bu texnoloji proseslərin qurulması ilə ona görə məşğuluq ki, həm peşəkar kadrlar yetişsin, həm də hər bir elmi-texniki istiqamətdə atılmış addım ondan sonra o sahədə inkişafı şərtləndirir. Necə ki, vaxtilə neft sektoruna, neft quyularına qoyulan investisiyalar xidmət sektoruna sərmayə yatırılmasına xidmət edibdir. Bu məsələlər öz həllini tapmalıdır. Hesab edirəm siz qaldırdığınız məsələlərlə bağlı müraciət etməlisiniz ki, biz də bunu proqramda nəzərə alaq.

**Balakişi Qasımov** *(«Nə? Harada? Nə vaxt?» televiziya verilişinin Azərbaycandaki təmsilçisi və aparıcısı):* Fikrimcə intellektual klublar yaradılmalıdır. Bu klublarda gənclər intellektual oyunlar üzrə yarışlar keçirə bilər. Bu klublar kitab klubları kimi də fəaliyyət göstərə, hansısa əsərləri müzakirə edə, yəni bir-birilərilə kitablarla paylaşa və öz asudə vaxtlarını səmərəli keçirə bilərlər. Kəndlərarası, rayonlararası, şəhərlərarası yarışlar keçirmək və ümumrespublika finalını isə hansısa bir televiziya kanalında göstərmək olar. Bu da gənclərdə

biliyə, elmə, kitaba maraq yarada bilər. Yəni, belə bir təklif vardır. Bundan başqa, istəyərdim belə bir təklif də irəli sürüm ki, bu gün Azərbaycan Televiziyası, sağ olsunlar, intellektual verilişləri və gənclərdə milli dəyərləri kifayət qədər təbliğ edirlər, elmlə bağlı verilişlərə vaxt ayırırlar. Dövlət tərəfindən kommersiya televiziyalarına da məsləhət görülsün ki, onlar da intellektual verilişlərə müəyyən vaxt ayırsınlar, milli dəyərləri, kitabı təbliğ etsinlər, bu gün gənclərə lazım olan dəyərlər haqqında söhbət açsınlar.

Bir də icazə versəniz, cənab Prezident, belə bir sualım vardır. Yəqin ki, tək məni maraqlandırmır. Biz bilirik ki, Sizin iş qrafikiniz çox sıxdır. Ancaq belə bir sual var ki, boş vaxtınız olanda hansı kanalları izləyirsiniz, hansı qəzetləri, jurnalları oxuyursunuz?

**İ l h a m  Ə l i y e v:** Sağ ol, Balakişi, sualına görə. Çalışım cavab verim. Birincisi, mən intellektual klubların yaradılması ideyasını dəstəkləyirəm. Hesab edirəm ki, biz bu təşəbbüsü reallaşdırmalıyıq. Hazırda bizim bəzi bölgələrdə Gənclər evləri fəaliyyət göstərir. Bu yaxınlarda mən Astara rayonunda olmuşam. Orada da yeni Gənclər evi yaradılmışdır. Kompyuterlər, kitabxanalar, müxtəlif dərnəklər fəaliyyət göstərir. O klubların bazasında belə intellektual tədbirlərin keçirilməsi yaxşı olar. Ölkə üzrə çempionatlar da keçirilsin. Sizin yaxşı təcrübəniz var və mən bu məsələni ürəkdən bəyənirəm. Hesab edirəm ki, özəl kanallarda da bu məsələlərə böyük diqqət göstərilməlidir. Mən də hesab edirəm ki, özəl kanallarda ölkəmizin, gənclərin intellektual imkanlarını təqdim edən, yəni milli dəyərlərə söykənən verilişlər nə qədər çox olsa, daha yaxşı olar. Bəzi hallarda daha çox əyləncəli verilişlərə üstünlük verilir. Bu da yəqin ki, bir növ zəmanənin tələbidir, çünki daha çox reklam verilir, daha çox auditoriyanı cəlb edir.

Əlbəttə, televiziya daha çox təhsili, intellektual hazırlığı, milli dəyərlərə bağlılığımızı təbliğ etməlidir.

O ki qaldı mənim asudə vaxtıma, doğrudan da çox azdır. Mən, demək olar ki, gecə-gündüz işlə məşğulam. Vaxtım

olanda çalışıram daha çox idmanla məşğul olum. Çünki əvvəllər də həmişə idmanla məşğul olmuşam. Televiziya kanallarına gəldikdə, əgər hansınınsa adını çəksəm yaxşı olmaz. Mən daha çox pultla işləyirəm. Çünki bəzi hallarda elə verilişlər olur ki, pult həmişə əlinin altında olmalıdır. Mən axtarışdayam, belə desəm daha düzgün olar.

**G ü n a y D a ş d ə m i r o v a** *(Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasının tələbəsi):* Bilirsiniz ki, bu gün Azərbaycan Respublikasının, ümumiyyətlə, Azərbaycan xalqının ən böyük problemi Dağlıq Qarabağ problemidir. Hesab edirəm ki, təkcə Azərbaycan Respublikasının Prezidenti yox, ölkənin hər bir vətəndaşı, hər bir fərdi bu problemlə məşğul olmalıdır, bu problemin həlli üçün öz töhfəsini verməlidir.

Cənab Prezident, Siz Azərbaycan gənclərindən – biz gənclərdən bu problemin həlli ilə bağlı nələr gözləyirsiniz? Biz Qarabağ üçün nələr etməliyik?

**İ l h a m Ə l i y e v:** Doğrudan da bu bizim ən ağrılı problemimizdir. Əfsuslar olsun ki, Azərbaycanın müstəqil həyatı bu problemlə üzləşib. Hətta müstəqillikdən əvvəl erməni separatçıları bu məsələni qaldırmışlar və azərbaycanlılara qarşı cinayətlər törətmişlər. Müstəqilliyimizin ilk illərində baş vermiş hadisələr və ölkədə hökm sürən anarxiya, xaos və vəzifə uğrunda, iqtidar uğrunda mübarizə, vətəndaş müharibəsi bu vəziyyətə gətirib çıxartdı. Biz çalışırıq ki, məsələ öz həllini tapsın. Azərbaycanın mövqeyini siz bilirsiniz, bu, prinsipial mövqedir. Bu mövqe həm ədalətə, həm tarixə, eyni zamanda, beynəlxalq hüquq normalarına əsaslanır. Əfsuslar olsun ki, dünyada mövcud olan ikili standartlar, ayrı-seçkilik, fərqli yanaşmalar imkan vermir ki, bu məsələ öz həllini tapsın.

Mən bu yaxınlarda Liviya ilə bağlı hadisələrə öz fikrimi bildirmişəm. Necə ola bilər ki, BMT Təhlükəsizlik Şurasının qətnaməsi qəbul olunandan bir neçə saat sonra dərhal hərbi əməliyyat başlayır. Ancaq bizim işğal edilmiş torpaqlarla bağlı

18 il bundan əvvəl 4 qətnamə qəbul edilib və hələ də məsələ danışıqlar mövzusudur.

Ermənistan tərəfi hesab edir ki, mahiyyət ondan ibarətdir ki, Dağlıq Qarabağa müstəqillik verilsin. Bu heç vaxt olmayacaqdır. Amma reallıq ondan ibarətdir ki, məsələnin həlli üçün işğal edilmiş torpaqlardan erməni qoşunlarının çıxarılması baş verərsə, o zaman Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi bağlana bilər. Dağlıq Qarabağda hazırda yaşayan insanlar və oraya qayıdacaq Azərbaycan vətəndaşları muxtariyyət şəraitində yaşayacaqlar. Bu, dünya praktikasında tanınmış bir yanaşmadır və məhz belə də həll olunmalıdır. Əgər biz dünya birliyi üçün hələ ki öz əhəmiyyətini itirməmiş Helsinki Yekun Aktına baxsaq, görərik ki, orada xalqların öz müqəddəratını təyin etmək məsələləri ölkələrin ərazi bütövlüyü məsələləri ilə ziddiyyət təşkil etmir. Onu inkar etmir və ərazi bütövlüyü çərçivəsində bu məsələlər öz həllini tapmalıdır. Yenə də deyirəm, necə ki bəzi ölkələrdə, o cümlədən Avropada muxtariyyətlər vardır və o muxtariyyətlər mərkəzi icra orqanları tərəfindən, necə deyərlər, daha da böyük diqqət görürlər. Yəni məsələnin həlli məhz bundan ibarətdir. Azərbaycan dövləti heç vaxt – nə bu gün, nə 10 ildən, nə də 100 ildən sonra razı olmayacaq ki, Dağlıq Qarabağa müstəqillik verilsin. Bu, ümumiyyətlə, danışıqlar mövzusu deyildir. Ermənistan tərəfi isə çalışır ki, müxtəlif yollarla vaxtı uzatsın. Məsələn, danışıqlar prosesində müəyyən irəliləyiş əldə olunur, ondan sonra yenə də geriyə addım atılır. Sadəcə olaraq, vaxt uzadırlar, hesab edirlər ki, dünyadakı erməni lobbisi və bəzi dövlətlərdəki ermənipərəst qüvvələr mövcud status-kvonun saxlanmasında onlara kömək göstərəcəklər.

Son dövrün mühüm əlamətlərindən biri də odur ki, artıq həmsədr ölkələr status-kvonun saxlanmasının qəbuledilməz olduğu haqqında bəyanatlar verirlər. Bu çox vacib məsələdir və dəfələrlə Azərbaycan tərəfi çox təkidlə, israrla tələb etmişdir ki, status-kvo dəyişdirilməlidir. Bu o deməkdir ki, bizim torpaqlarımızdan erməni işğalçı qüvvələrinin çıxarılması

prosesi başlanmalıdır. Hazırda danışıqlar masasında mövcud olan təkliflər bütövlükdə qəbul edilə bilər. Bu təkliflər Azərbaycanın ərazi bütövlüyünü qoruyur. Dağlıq Qarabağda yaşayan insanlar üçün özünüidarə imkanları da yaradır. Hesab edirəm ki, bu düstur gərək əsas götürülsün. Bunun əsasında məsələ öz həllini tapsın.

O ki qaldı məsələ ilə bağlı gənclərin fəaliyyətinə, hesab edirəm, gənclər və cəmiyyətimizin bütün üzvləri hərə öz yerində ölkəmizin güclənməsinə xidmət etməlidir. Kimin imkanı var, təbliğat işini daha da fəal qurmalıdır. Bizə qarşı dünya erməniliyi müharibə aparır. Bu reallıqdır. Bəlkə biz nadir ölkələrdənik ki, bizə qarşı mütəşəkkil qrup – özü də bir ölkədə deyil, müxtəlif ölkələrdə – gündəlik fəaliyyət göstərir. Azərbaycanı qaralamaq üçün, Azərbaycanı gözdən salmaq üçün, Azərbaycanı ləkələmək üçün. Bu addımlarla onlar bir neçə məqsəd güdürlər. Çünki hazırda dünya erməniliyi üçün bir nömrəli düşmən Azərbaycandır. Bu reallıqdır.

Bilirsiniz ki, onlar maliyyə imkanlarına malikdirlər. Müxtəlif ölkələrdə ermənipərəst siyasətçilər də vardır və bu imkanlardan, mətbuatdan istifadə edirlər. Digər məqsəd daha da praqmatik xarakter daşıyır, baxmayaraq ki, o da düşmənçilik üzərində qurulubdur. O da dünya birliyinə sübut etməkdir ki, Azərbaycan qeyri-demokratik ölkədir, burada milli azlıqlar əzilir, onların hüquqları pozulur və Dağlıq Qarabağ erməniləri Azərbaycanın tərkibində yaşaya bilməyəcəklər. Əgər bu nə vaxtsa baş verərsə, burada erməni qalmayacaq, azərbaycanlılar hamısını məhv edəcəklər.

Bu tezis kökündən yanlışdır. Bizim keçmişimiz və indiki vəziyyətimiz onu göstərir ki, Azərbaycan bütün xalqların nümayəndələri üçün doğma vətəndir. Burada heç vaxt nə milli, nə də dini zəmində ayrı-seçkilik olmamışdır və olmayacaqdır. Mən buna tam əminəm. Artıq bizim siyasətimiz o qədər güclüdür ki, heç kim bu siyasətdən kənara çıxa bilməz. Azərbaycanda təşkil edilən beynəlxalq tədbirlər, xüsusilə mədəniyyətlərarası dialoqla bağlı tədbirlər bu mövqeni daha da gücləndirir. Ona

görə biz gənclərdən daha da fəal olmağı gözləyirik. Xüsusilə internet vasitəsilə. İndi Azərbaycanda internet istifadəçilərinin sayı təxminən 50 faizə yaxındır. Bizim gənclərimiz çox fəal, çox müasirdirlər. İmkanı olan hər bir gənc bizim təbliğat işimizə öz dəstəyini verməlidir. Çünki bizim təbliğatımız reallıq əsasında qurulur, ermənilər kimi miflər əsasında, yaxud da ki, yalan məlumat üzərində yox. Haqq, ədalət bizim tərəfimizdədir.

Bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. Bu, tarixi həqiqətdir. Biz bu tarixi yaxşı bilirik. İrəvan xanlığında yaşayanların əksəriyyəti azərbaycanlılar idi, Zəngəzur mahalı Azərbaycandan zorla qopardılıb ki, böyük türk dünyasını parçalasınlar və elə də oldu. Ancaq vaxt gələcək, bu ədalətsizliklər aradan qaldırılacaqdır. Mən şübhə etmirəm ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunun iki yolu vardır – ya hərb yolu, ya sülh yolu. Hələ ki, biz sülh yoluna üstünlük veririk. Çünki ümid edirik ki, bu yolla məsələ öz həllini tapar. Əgər hazırda danışıqlar masasında olan təkliflər ermənilər tərəfindən qəbul olunarsa, o zaman məsələ tədricən, mərhələli yolla öz həllini tapmağa başlayacaqdır. Belə olan halda, Azərbaycan vətəndaşları hazırda işğal altında olan torpaqlara qayıdandan sonra və biz orada bütün şəhərləri bərpa etdikdən sonra, hesab edirəm ki, məsələ ədalətli həllini tapacaqdır.

Bir də demək istəyirəm ki, bu məsələ ilə bağlı bizim mövqeyimiz birmənalıdır, qətidir. Azərbaycanın ərazi bütövlüyü məsələsi heç vaxt müzakirə mövzusu olmayıbdır. Bu məsələ ilə bağlı heç vaxt güzəşt olmayacaqdır. Ermənistan rəhbərliyi bunu nə qədər tez anlasa, onlar üçün bir o qədər yaxşıdır. Çünki vaxt bizə işləyir. Bu reallıqdır. Baxmayaraq ki, bizim vətəndaşlarımız əziyyət çəkirlər, ancaq həm iqtisadi, həm siyasi cəhətdən, həm də geosiyasi maraqlar baxımından bu gün Ermənistan və Azərbaycan müqayisəedilməz səviyyədədir. Bizim aramızda olan bu böyük məsafə, bu uçurum getdikcə daha da böyüyür və Azərbaycan kimi dinamik, müasir, inkişafda olan və böyük hərbi gücə malik ölkə Ermənistan üçün

daim təhlükə mənbəyidir. Bu təhlükəni aradan qaldırmaq üçün onlar işğal edilmiş torpaqlardan çıxmalı və beynəlxalq hüquq normalarına əməl etməlidirlər.

**Ş a h i n  S e y i d z a d ə** *(İngiltərənin Mançester Universitetinin magistri):* Azərbaycanda hər il 100 mindən artıq orta məktəb məzunu var və onlardan 20 mindən bir az çoxu ali məktəblərə qəbul olur. 80 min gənc isə kənarda qalır. Bunu nəzərə alaraq, məşğulluq problemini iş yerlərinin açılmasından savayı, başqa bir yolla həll etmək lazımdır. Gənclər də buna yanaşmanı dəyişməli, başa düşməlidirlər ki, onlar da sahibkar ola bilərlər, iş yeri aça bilərlər və bu bacarıq onlara lazımdır. Bununla bağlı təklifim var ki, ilk növbədə, regionlarda gənc sahibkarlara xüsusi diqqət göstərilsin, onlar başqa yerdə iş axtarmasınlar, özləri də iş yerləri yaratsınlar və bunun əsasında gənc menecer nəsilləri yetişsin.

Xaricdə belə bir praktika var ki, universitetlərin nəzdindəki inkubatorlar tələbələrə – gənc sahibkarlara mini-qrantlar verirlər ki, onlar hər hansı bir ideyanı, təklifi reallaşdıra, hansısa bir məhsulu ortaya çıxara bilsinlər. Bu inkubator modelləri çox aktualdır və Azərbaycanda bununla bağlı təklifim var.

Toxunmaq istədiyim ikinci məsələ çox yaralı yerimizdir. Azərbaycanda boşanmaların sayı ildən-ilə artır. 2011-ci ilin birinci rübündə 15 mindən artıq nikah bağlanıb, 2016 boşanma olubdur. Sonuncu böyük rəqəmdir. Bununla bağlı kifayət qədər işlərin görülməsinə ehtiyac vardır.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Siz konkret təkliflərinizi verin, biz baxaq ki, bu məsələ ilə bağlı hansı addımlar atıla bilər. Boşanmanın artımı bizi də narahat edir. Ancaq burada düzgün addımlar atılmalıdır. Əlbəttə, biz inzibati yollarla heç nə əldə edə bilmərik. Konkret mexanizmlər olsun, biz bu məsələni dərindən araşdırmalıyıq. Konkret təkliflər olarsa, müəyyən mənada bu məsələni də proqramda nəzərə ala bilərik.

Hesab edirəm ki, biznes inkubatorlarının yaradılması çox vacibdir. Biz buna diqqət göstərəcəyik və proqramda bu öz əksini tapmalıdır. Gənc sahibkarlara kreditlərin verilməsi

məsələsinə də baxmaq olar. Bilirsiniz ki, ümumiyyətlə, sahibkarlığın inkişafı üçün dövlət tərəfindən verilən kreditlər mühüm rol oynayır. Hər il güzəştli şərtlərlə təxminən 120-125 milyon manat həcmində kreditlər verilir. Bu məbləğin müəyyən hissəsi sırf gənc sahibkarlar üçün də nəzərdə tutula bilər. Düzdür, burada təcrübə məsələsi ortaya çıxa bilər. Çünki hər bir kredit biznes-plan əsasında verilir, onu hazırlamaq üçün müəyyən təcrübə olmalıdır. Kreditləri alanlar müəyyən illər ərzində daha çox sahibkarlıqla məşğuldurlar. Ona görə bu xüsusiyyəti nəzərə almaqla, Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə xüsusi bir məbləğ nəzərdə tutula bilər. Bu təkliflər də öz həllini tapmalıdır.

**K ö n ü l  A s l a n o v a** *(Azərbaycan İqtisad Universitetinin tələbəsi):* Təhsilin dövlət siyasətinin əsas hissələrindən biri olduğunu nəzərə alsaq, məncə, bu problem də diqqət mərkəzində olmalıdır. Danılmaz faktdır ki, hazırda universitetdə dərs deyən müəllimlərin əksəriyyəti təqaüd yaşına çatmış və müasir dövrün yeniliklərini mənimsəməkdə çətinlik çəkən insanlardır. Bu da tələbənin əldə etdiyi biliyə, bacarığa, ümumiyyətlə, onun inkişafına birbaşa mənfi təsir göstərir. Universitetdə tələbə nəzəri biliklərlə yanaşı, müxtəlif bacarıq və vərdişlərə də yiyələnməlidir. Əldə etdiyi biliyi təcrübədə həyata keçirməyi bacarmalıdır. Bazar iqtisadiyyatı şəraitində rəqabətqabiliyyətli olmalıdır. Faktdır ki, bakalavr pilləsini bitirmiş tələbələrin bir qismi işsizliklə üzləşir. Çünki universitetdə ona əmək bazarına lazım olan bilik verilməyibdir. Mən hesab edirəm ki, bu problemi həll etmək üçün indiki müəllim heyətinin tədricən cavan, müasir təfəkkürlü, xarici dilləri bilən kadrlarla əvəzlənməsi daha yaxşı olardı.

Başqa bir alternativ həll yolu kimi, inkişaf etmiş ölkələrin təcrübəsini misal göstərmək olar. Məsələn, xarici universitetlərdə təkcə həmin ölkənin vətəndaşları deyil, başqa ölkələrdən olan müəllim heyəti də çalışır. Məncə, bu təcrübəni Azərbaycana tətbiq etsək, yəni xaricdən müəllimlər dəvət etsək, onların təcrübələrindən faydalansaq yaxşı olar.

**İ l h a m Ə l i y e v:** Bu çox ciddi məsələdir. Bu məsələ ilə bağlı müvafiq göstərişlər verilmişdir. Mən hesab edirəm ki, biz daha çox buna üstünlük verməliyik. Xaricdə gənclərimizin oxuması da vacibdir. Çünki onlar gedirlər, başqa ölkələrdə yaşayırlar, müstəqil həyat sürürlər. Ancaq ölkə daxilində də təhsilin səviyyəsi elə olmalıdır ki, buna ehtiyac qalmasın. Ona görə xarici müəllimlərin Azərbaycana cəlb edilməsi ilə əlaqədar müvafiq göstərişlər verilmişdir və bu proses tədricən başlayır. Burada əsas məsələ maliyyə məsələsidir. Biz bunu hesablamalıyıq. Çünki yüksək peşəkarlığa malik olan xarici müəllim ancaq əlavə imtiyaz hesabına başqa ölkəyə gedə bilər. Ona görə maliyyə məsələləri, əlbəttə ki, əsasdır. Amma tədricən biz bu işə başlamışıq. O ki qaldı yaşla bağlı sizin fikirlərinizə, mən hesab edirəm, burada biz gərək çox dəqiq siyasət aparaq. Çünki elə yaşlı müəllim var ki, o öz təcrübəsini bölüşərək, gənclərə böyük bilgilər verir. Sadəcə olaraq, burada yaş senzi əsas rol oynamamalıdır. Digər tərəfdən, mən tam əminəm ki, indi bu nəinki təhsil sahəsinə, bütün sahələrə aiddir. Pensiya yaşına çatmış insanlar pensiyaya getməlidirlər. Hazırda pensiyaya çıxanların sosial problemlərinin həlli işində müvafiq göstərişlər verilmişdir. Məsələn, 2006-cı ilə qədər pensiyaya çıxanların pensiya təminatı yaxşılaşdırılacaqdır. Başqa həvəsləndirici amillərdən də istifadə etmək olar ki, pensiya yaşına çatanlar pensiyaya çıxsınlar. Pensiyanın da məbləği elə olmalıdır ki, onları təmin etsin. Xüsusilə biz bunu Avropada, Asiyada da çox görürük, insanlar tələsirlər ki, pensiyaya çıxsınlar. Hesab edirlər ki, ondan sonra həyat başlayır. Çünki onlar ömür boyu işləyiblər, pul qazanıblar, uşaqları böyüdüblər. Pensiyaya çıxandan sonra gedirlər səyahətlərə, gəzməyə, yəni həyatı görməyə başlayırlar. Bizdə isə əksinədir. Bizdə heç kim pensiyaya çıxmaq istəmir. Hamı, demək olar, əksəriyyət axıra qədər işləmək istəyir. Beləliklə, həm dediyiniz məsələ ortaya çıxır, eyni zamanda, iş yerləri də boşalmır. Bu, daimi proses olmalıdır, gənc kadrlar üçün iş yerləri olmalıdır. Hər bir vətəndaş bilməlidir ki, müəyyən yaşa çatandan sonra pensiyaya getməlidir, o vəzifədən, o işdən yapışmamalıdır. Pensiya

təminatı da elə olmalıdır ki, onu qane etsin. Ona görə bu məsələ ilə bağlı bir müddət əvvəl mənim tərəfimdən ümumi göstəriş verilmişdir ki, yaşı çatmış insanların pensiyaya çıxması ilə əlaqədar çox ciddi və dəqiq siyasət aparılsın ki, bu proses müsbət istiqamətdə getsin.

**Ə s m ə r  D a ş d ə m i r o v a** *(«Microsoft Azərbaycan» şirkətində marketinq şöbəsinin rəhbəri):* Hörmətli cənab Prezident, intellektual mülkiyyətin qorunması sahəsində müəyyən işlər görülmüşdür. Biz bilirik ki, Siz və «Microsoft» şirkətinin rəhbərliyi bu il Davosda müzakirələr aparmısınız. Mən əminəm ki, bu razılaşmalar İKT marketinqinin sürətli inkişafına gətirib çıxaracaq, bu isə gənclər üçün külli miqdarda iş yerləri yaradacaqdır. Elə iş yerləri ki, gənclər orada öz intellektual potensiallarını həyata keçirməyə imkan tapacaqlar.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Bu məsələ ilə mən tanışam. «Microsoft» şirkətinin Avropa üzrə prezidenti ilə görüşüm olubdur. O da mənə dedi, bu məni də çox narahat edir. Mən müvafiq göstəriş vermişəm. Müxtəlif tədbirlər görülməlidir. Nəzarət olmalıdır, həm də ictimai nəzarət. Hansısa mexanizmlər olmalıdır, çünki bu sahəyə nəzarət etmək o qədər də asan məsələ deyildir. Bizdə də o qədər böyük təcrübə yoxdur. Bu işə bələd adamlar da o qədər çox deyil, bilsinlər ki, pirat məhsuldur, yoxsa intellektual mülkiyyətdir. Əgər bu məsələ ilə bağlı konkret təklifləriniz olarsa, yaxşı olar ki, biz bu mexanizmi işləyək. Hesab edirəm ki, bu, vacib məsələdir. Çünki, ümumiyyətlə, İKT sektorunun inkişafına biz böyük diqqət veririk. Bu sektorun inkişafı bizim üçün prioritetdir və növbəti illərdə də prioritet kimi qalacaqdır. Mən çox şadam ki, beynəlxalq qurumlar da Azərbaycanın bu sahədəki təcrübəsini alqışlayırlar. Məsələn, Dünya İqtisadi Forumu – Davos forumu Azərbaycanı İKT hazırlığı üzrə MDB məkanında birinci sıraya layiq görmüşdür. Bu il bu birinciliyi saxlamalıyıq, əldən verməməliyik. Yenə də deyirəm, bu sektor həm intellektual potensialın inkişafına xidmət edir, həm ölkənin imici üçün çox vacibdir, həm də burada biznes imkanları kifayət qədər genişdir.

**Ş a h i n  İ s m a y ı l o v** *(Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri):* Əfsuslar olsun ki, axır vaxtlar universitetlərdə tələbələr ancaq tədris prosesində iştirak edirlər. Universitetlər tələbə həyatı üçün o qədər də maraqlı deyil. Bizim 39 universitetdə təşkilatımız var, hamısında da müəyyən problemlər ortaya çıxır. Belə ki, tələbə gənclər təşkilatlarının tələbələri öz arxasınca aparmasında, onların problemlərini qabartmasında, həlli istiqamətində rolu yoxdur. Tələbə təşkilatlarının universitetin həyatında, universitetin idarə olunmasında iştirakı əksər hallarda çox aşağı səviyyədə olur. Məsələn, biz 29 universitetdə araşdırma aparmışıq və məlum olub ki, cəmi üç tələbə gənclər təşkilatının sədri rektoratlıqda və yaxud Elmi Şurada təmsil olunur. Bəzi hallarda rektorlar tələbə təşkilatları rəhbərlərinin seçkilərinə müdaxilə edirlər. Bu, ümumilikdə tələbə həyatının nisbətən sönük keçməsinə səbəb olur, tələbələrin asudə vaxtının səmərəli təşkilində müəyyən problemlər yaradır.

Bilirsiniz ki, tələbələr sosial cəhətdən nisbətən kasıb kütlə sayılırlar. Müəyyən dövrdə biz onlarla sıx şəkildə işlədik. Müəyyən suallar ortaya çıxdı və bu gün çox gözəl imkan yaranıb ki, bu sualları mən sizə çatdıram. Onlar tələbələrə xüsusi güzəştlərin tətbiq olunmasını istəyirlər. Bu sahədə Avropada, ümumiyyətlə, dünyada olduqca böyük təcrübə vardır. Tələbələrə xüsusi endirim kartları tətbiq olunur və onlar həmin kartlardan endirimlər əldə edə bilirlər. Təklif etmək istərdim, əgər mümkün olsa, vahid tələbə kartı yaradılsın və tələbələr bundan müəyyən güzəşt kimi istifadə edə bilsinlər.

Bir məsələyə də toxunmaq istərdim. Universitetlərdə tələbə gənclər təşkilatları ilə yanaşı, tələbə həmkarlar təşkilatları da fəaliyyət göstərir. Araşdırsaq məlum olar ki, ən cavan tələbə həmkarlar təşkilatının sədrinin ən yaxşı halda yaşı 26, ən yaşlısının isə 50-dən yuxarıdır. Bu da müəyyən suallara gətirib çıxarır, tələbələrin təşkilatlardan uzaqlaşmasına səbəb olur.

Cənab Prezident, çox gözəl fürsət düşüb, tələbələrin bizə ən çox sual verdiyi məsələ təqaüdlərin artırılması ilə bağlıdır.

Fürsətdən istifadə edib bu sualı Sizə ünvanlamaq istərdim ki, yaxın gələcəkdə tələbə təqaüdlərinin artırılması ilə bağlı hər hansı planlar varmı?

**İ l h a m  Ə l i y e v:** Sağ olun, qaldırdığınız məsələlərlə biz məşğul olacağıq. Əlbəttə ki, tələbələrin asudə vaxtlarının keçirilməsi üçün konkret təkliflər olarsa, məmnuniyyətlə baxıb məsələni həll edəcəyik. Vahid tələbə kartının tətbiq olunması ilə əlaqədar: əgər dünyada belə praktika varsa, onu öyrənək və biz də onu tətbiq edə bilərik ki, müəyyən güzəştlər edilsin. Elə etməliyik ki, tələbələrin həyatı həm mənalı olsun, həm dolğun olsun, həm də iqtisadi cəhətdən lazımi səviyyədə təmin edilsin. Tələbə təqaüdlərinin qaldırılması bizim planlarımızda var. Ancaq tələbə təqaüdləri bizdə minimum əməkhaqqının səviyyəsi ilə bağlıdır. Belə bir fikir var ki, minimum əməkhaqqının səviyyəsindən üstün olmamalıdır. Hazırda Azərbaycanda minimum əməkhaqqı 85 manatdır. Biz yaxın vaxtlarda onu qaldıracağıq və beləliklə, tələbə təqaüdlərinin qaldırılması üçün də imkan yaranacaqdır. Onu da qeyd etməliyəm ki, təqaüdün məbləği bizi qane etməsə də, MDB məkanında ən yüksək səviyyələrdən biri də Azərbaycandadır.

Konkret təkliflər olarsa, proqramda öz əksini tapa bilər. Mən çox şadam ki, siz bu məsələni qaldırdınız. Çünki bizdə 100 mindən artıq tələbə var və onlar gənc yaşlarından yaxşı yaşamalı, yaxşı da oxumalıdırlar.

**O r x a n  Ə k b ə r o v** *(Xaricdə təhsil alan və məzun olmuş azərbaycanlı gənclərin Beynəlxalq Forumunun həmtəsisçisi və sədri):* Azərbaycan gənclərinin xaricdə təhsil almalarına gənclərimiz bir xülya kimi baxırdılar. İndi isə Sizin imzaladığınız fərmanla təsdiqlənmiş Dövlət Proqramı çərçivəsində dünyanın 24 ölkəsinin 200-dən çox ən yaxşı universitetlərinə azərbaycanlı tələbələr təhsil almağa gedirlər. Hazırda dünyanın 30-dan çox ölkəsində azərbaycanlı gənclər təhsil almaqdadırlar. Onların bir qismi təhsilini bitirdikdən sonra orada qalıb işləyir, digərləri isə Azərbaycana qayıdır.

Bu gün xaricdə təhsil alan Azərbaycan gəncləri pərakəndə şəkildə azlığı deyil, intellektual çoxluğu təşkil edirlər.

Düşünürəm ki, bu fürsətdən maksimum şəkildə istifadə edərək, onların intellektual bacarıqlarını və qabiliyyətlərini Azərbaycanımızın inkişafı üçün, gələcəyi üçün düzgün istiqamətləndirə bilməliyik. Bu nədən ibarətdir? Az öncə toxunulan məsələ Azərbaycanda təhsilin inkişafı məsələsidir. Dövlət Proqramı xətti ilə xaricə göndərilən tələbələr geri qayıtdıqdan sonra 5 il dövlət orqanlarında çalışmalıdırlar. Mənə elə gəlir ki, buna bir əlavə olaraq onların Azərbaycanda ali təhsil ocaqlarında dərs demələri də nəzərdə tutulsa, bu, təhsilimizin inkişafına çox gözəl töhfələr verə bilər. Mənim dostlarımdan neçəsi var ki, bu gün Azərbaycanın bir çox universitetlərində həqiqətən çox uğurla dərs deyirlər. Bu, ilk təklifimdir.

Digər təklifim, cənab Prezident, Bakıda Gənclər Mərkəzinin açılmasına böyük ehtiyac var. Bu ehtiyacı belə açıqlaya bilərəm: Azərbaycanda bir çox fəal gənclər təşkilatı var və onların heç də həmişə maddi imkanı olmur ki, bir oteldə konfrans zalını kirayə edib tədbir keçirsinlər. Əslində bizə bir çox şey verəcək tədbirlər maliyyə problemləri üzündən təxirə salınır. Bunlar olmasın deyə, ümumiyyətlə, gənclərimiz asudə vaxtlarını dəyərləndirsin deyə, sürətli internetlə təchiz olunmuş, beynəlxalq və yerli tədbirlərimizi keçirə biləcəyimiz konfrans və iclas zallarının olduğu və hətta xaricdən qonaqlarımız gəldikdə onları yerləşdirə biləcəyimiz Gənclər Mərkəzinin tikilməsi çox yaxşı olardı. Məsələn, Strasburqdakı İnternational Youth Center kimi.

Digər təklifim bundan ibarətdir ki, xaricdə biz bir çox tədbirlər keçiririk. Əlbəttə ki, böyük tədbirləri Gənclər və İdman Nazirliyi maliyyələşdirir. Amma elə hallar olur ki, biz mütləq ona qarşı cavab tədbiri keçirməliyik, lakin maliyyə məsələlərinə görə baş tutmur. Mənə elə gəlir ki, bunu dediyiniz Gənclər fondu tərəfindən aktiv maliyyələşmə – yəni uzun sənədləri doldurmaq vasitəsilə deyil – yolu ilə həll etmək olar.

Son olaraq demək istədiyim bir məsələ var. Cənab Prezident, Sizinlə ilk görüşümüzdə – 2009-cu ilin martında mən hərbi geyimdə idim, əlimdə silah vardı. Bu gün Sizin qarşınızda

əlimdə qələmlə, əynimdə kostyumdayam. Amma əmin ola bilərsiniz ki, Siz bizim yalnız prezidentimiz deyil, həm də Ali Baş Komandanımızsınız. İstədiyiniz vaxt biz Qarabağ problemini həll etməyə hazırıq. Hər zaman əlimizdəki qələm silahla, əynimizdəki kostyum hərbi geyimlə əvəz oluna bilər.

**İ l h a m Ə l i y e v:** Çox sağ ol, bu məsələləri biz proqramda nəzərə almalıyıq. Bakıda Gənclər Mərkəzinin tikintisi ideyası mənim xoşuma gəlir. Hesab edirəm ki, bu, yaxşı layihə ola bilər. İndi siz qeyd etdiniz, Strasburqda belə bir Mərkəz var, yəqin ki, başqa paytaxtlarda da var. Onların təcrübəsini öyrənməliyik, bəlkə layihə də hazırlansın. Əsas odur ki, bu Mərkəz funksional baxımdan səmərəli olsun – orada hansı tədbirlər keçiriləcəkdir?! Maliyyə məsələlərini də həll edə bilərik. Gələn ilin büdcəsində nəzərdə tutula bilər ki, belə bir Mərkəz tikilsin. Gənclər fondu ilə əlaqədar təklifinizlə bağlı mən də hesab edirəm ki, burada çeviklik çox vacibdir. Bürokratik əngəllərdən uzaq olmalıyıq və vəsait səmərəli şəkildə istifadə olunmalıdır. Ona görə ki, xaricdə keçirilən tədbirlərin xüsusi əhəmiyyəti var. Hazırda bizim xarici ölkələrdəki səfirliklərimizin sayı da artıbdır, 50-dən yuxarı səfirlik var. Onların əksəriyyəti son illər yaradılmışdır. Diaspor təşkilatlarının formalaşmasında müəyyən addımlar atılmışdır. Hazırda biz istənilən paytaxtda istənilən aksiyanı keçirə bilərik. Bizim diaspor təşkilatlarımız və xaricdə oxuyan gənclərimiz də fəal iştirak edirlər. Mən bunu alqışlayıram və belə də olmalıdır.

Xaricdə oxuyan gənclərin sayı artmaqdadır və dövlət tərəfindən ayrılan vəsait də artır. Əgər birinci illərdə 10 milyon manat nəzərdə tutulmuşdusa, bu il bu məbləğ 15 milyon manatdır. Lazım olanda biz bu məbləği artıracağıq ki, bu proqramı davam etdirək. Bilirsiniz ki, bu proqram Dövlət Neft Fondunun xətti ilə icra edilir. Dövlət Neft Fondunun xətti ilə icra edilən layihələr xüsusi əhəmiyyət kəsb edən layihələrdir. Xaricdə gənclərin oxuması layihəsi proqrama daxil edilərkən biz öz niyyətimizi göstərmişik. Doğrudan da hazırda xaricdə oxuyan gənclərin həm təhsil səviyyəsi, həm peşəkarlığı müsbət

cəhətdən fərqlənir. Məqsəd ondan ibarətdir ki, – hesab edirəm ki, burada bu barədə fikir ayrılığı yoxdur – Azərbaycanda təhsilin səviyyəsi o qədər yüksək olsun ki, o fərq aradan qalxsın.

**G ü l s e l S ə f ə r o v a** *(Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası İctimai Birliyinin sədri):* Zənnimcə, burada deyilənlərin üst qatında ideoloji aspektlər durur. Cənab Prezident, Sizin də qeyd etdiyiniz kimi, dövlətçilik, azərbaycançılıq, milli mənəvi dəyərlərə sahib çıxma özündə bir ideologiya formalaşdırır. Düşünürəm ki, bu gün Azərbaycan gəncliyində kifayət qədər potensial var. Dövlətin də kifayət qədər potensialı var ki, Azərbaycan gəncliyi modelini dünyaya çıxaraq. Avropaya inteqrasiya təşkilatı olaraq biz və eyni zamanda, digər gənclər Avropada qurumlarda təmsil olunuruq, Azərbaycanın haqq və ədalət səsini dünyaya çatdırırıq. Belə bir anda Azərbaycan gəncliyi modelinin formalaşdırılıb dünyaya təqdim edilməsi, düşünürəm ki, çox mütərəqqi hal olardı. Onu da qeyd edim ki, artıq bu model formalaşmağa doğru gedir, sadəcə, bunda azərbaycançılıq ideologiyasının hökm sürməsi daha yaxşı olardı. Belə bir anda mən çox istərdim ki, Azərbaycan gəncliyində intellektual təhlükəsizlik formalaşsın. İntellektual təhlükəsizlik özündə keyfiyyətli düşünməni ehtiva edir. Bir neçə on illər öncə Azərbaycanda fundamental elmlərlə bağlı böyük işlər görülüb. Bizim komanda belə düşünür ki, bu fundamental elmlərin daha da inkişafı sayəsində keyfiyyətli düşünmənin yeni mərhələsi başlayacaqdır. Nəticədə intellektual təhlükəsizlik formalaşacaq, biz öz sözümüzü intellektual gücümüzlə deyə biləcəyik. Burada mən konkret təklif vermək istəyirəm. İlk addım kimi, biz belə düşünürük, bir ixtiraçılıq mərkəzinin, ixtiraçılıq institutunun açılması yaxşı olardı. Çünki düşünürəm ki, Azərbaycan sosial, iqtisadi, elmi, siyasi potensialına görə fərqlənən bir dövlətdir. Burada Azərbaycan gəncinin üzərinə düşən əsas məsələ iddiadır. Misal üçün, mən çox istərdim ki, Azərbaycan yaxın 20 ildə Yaxın Şərqin düşünmə mərkəzi olsun. Çünki biz o potensiala malikik. Baxın,

burada nə qədər potensiallı gənclər var. Əlbəttə, 4-5 il ərzində ilk addımlar atılarsa, 10 ildən sonra biz istədiyimiz nəticəni əldə edəcəyik.

İkinci bir məsələ barədə qısaca demək istəyirəm. Burada yəqin regionlardan gələn gənclər də var, yəqin onlar da danışacaqlar. İstər paytaxt gəncləri, istərsə də region gəncləri olsun, bu, Azərbaycan gəncliyidir. Amma bu gün paytaxt gəncliyində daha çox fəallıq müşahidə olunur. Bunu Siz də görürsünüz. Biz bir neçə illərdir region gəncləri ilə kifayət qədər iş təcrübəsinə malik təşkilatıq.

Əgər biz 3 milyon gəncdən danışırıqsa, onun, demək olar ki, əksəriyyəti region gəncləridir. Mən region gəncləri üçün bir forumun keçirilməsini təklif edirəm.

**İ l h a m   Ə l i y e v:** Çox sağ olun, sizin təklifinizi də nəzərə alacağıq. Region gəncləri ilə bağlı təklifiniz dəyərlidir. Xüsusilə Azərbaycanı intellektual mərkəzə çevirmək təklifinizi qeyd etmək istəyirəm. Doğrudan da belə imkanlar var və biz buna çalışmalıyıq. Biz özümüzü həm dünyaya olduğumuz kimi təqdim etməliyik, həm də ən önəmlisi, ölkə daxilində işlər elə qurulmalıdır ki, Azərbaycanın potensialı daha da güclənsin. Bu isə ilk növbədə, intellektual potensialdır. Əgər o dediyiniz ixtiraçılıq mərkəzi yaranarsa və yaxşı nəticə verərsə, ölkəmiz üçün böyük töhfə ola bilər. Hesab edirəm ki, biz bu dəyərli təklifləri mütləq proqramda nəzərə almalıyıq.

**C e y h u n   O s m a n o v** *(Milli Məclisin deputatı):* Məni indi seçicilər televizorda izləyirlər, onların deputatı cənab Prezidentlə görüşür və rayonun müəyyən problemlərini diqqətə çatdırmasam bunu çox mənfi dəyərləndirərlər. Oradakı gənclərin bir xahişi var. Kənd gənclərinin həyatında məktəb ən önəmli infrastrukturdur. Onların həm təhsili, həm mədəni, həm idman həyatı məktəblə bağlıdır. Siz çıxışınızda qeyd etdiniz ki, Azərbaycanda qəzalı məktəb probleminə son qoyulacaqdır. Təəssüflə qeyd edirəm ki, mənim seçildiyim rayonda da qəzalı məktəblər vardır. Onların bərpası kənd camaatının ürəyincə olardı. Kənd yerlərində gənclərin işlə təminatda problemləri

daha çoxdur. Çalışmalıyıq ki, kəndlərimiz boşalmasın, gənclər iş dalınca şəhərə gəlməsin. İri aqrar layihələr hazırlanıb həyata keçirilsə, bu problem həll oluna bilər.

**İlham Əliyev:** Qəzalı məktəblərin təmiri ilə bağlı konkret proqram vardır. Bizdə qəzalı məktəblərin sayı haradasa, 200–300 civarındadır və onların hamısını yenidən qurmaq, tikmək, təmir etmək müəyyən vaxt aparacaqdır. Hesab edirəm ki, ən real müddət 2 ildir. Biz 2011 və 2012-ci illərdə qəzalı məktəblərin təmiri ilə məşğul olacağıq, onların hamısını yüksək səviyyəyə çatdıracağıq.

Hər bir millət vəkili seçildiyi dairədə gedən işlərlə məşğul olmalıdır. Belə olan halda regionlarda işlər daha da sürətlə gedəcəkdir. Deyə bilərəm ki, dünyada, sözün əsl mənasında, inkişaf etmiş ölkələrin sayı çox deyildir. Ancaq mən hesab edirəm ki, nə üçün Azərbaycan onların sırasında olmasın?! Çünki bizdə bütün imkanlar var. Birincisi, siyasi iradə vardır. Bu məqsədə nail olmaq üçün düşünülmüş strategiya vardır. Taktiki addımlarımız da konkretdir, məqsədyönlüdür və nəticəyə gətirib çıxarır. İkincisi, ölkəmizin intellektual potensialı kifayət qədər yüksəkdir, xüsusilə gənclərin. Sizin qaldırdığınız məsələlərin həlli hesabına biz intellektual potensialımızı daha da artıracağıq. Üçüncüsü, ölkəmiz müasirləşmə dövrünü yaşayır və bu da bizim strateji seçimimizdir. Müasirləşmə bütün istiqamətlərdə özünü göstərməlidir. Həm iqtisadi, həm siyasi islahatlarda, həm də texnoloji inkişafda, sənaye potensialımızın inkişafında.

Bizim təbii resurslarımız var. Yəni iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Bu bizə imkan verir ki, siyasətimizi Azərbaycan xalqının maraqları üzərində quraq. Azərbaycan dünya birliyinin dəyərli üzvüdür. İnkişaf etmiş ölkələrlə bizim çox səmərəli əlaqələrimiz və imkanlarımız var ki, gələcəkdə o ölkələrin sırasına daxil olaq. Həm bütün iqtisadi və siyasi islahatların aparılması, həm ekoloji standartlar, həm də yaşayış səviyyəsinin keyfiyyəti baxımından. Son illərdə Azərbaycan bütün reytinqlərdə çox uğurla inkişaf edir. Birləşmiş Millətlər Təşkilatının, Davos İqtisadi Forumunun, digər mötəbər beynəlxalq

təşkilatların reytinqlərində uğurlarımız qeyd olunur. Hətta böhranlı illərdə də reytinq agentlikləri reytinqimizi artırıblar. Nəzərə alsaq ki, hazırda Azərbaycanın inkişaf modeli və strategiyası tamamilə müəyyən edilib və biz bu yolla gedirik, hesab edirəm, biz inkişaf etmiş ölkələrin sırasına daxil olmalıyıq.

Xüsusilə cəmiyyətin fəal təbəqəsi olan gənclər bu təşəbbüslərə bilirəm ki, böyük həvəslə qoşulurlar. Birgə fəaliyyətin nəticəsində biz ölkəmizi inkişaf etdirəcəyik. İnkişaf etmiş ölkəyə çevirəcəyik və müstəqilliyimizi daha da güclü edəcəyik.

**F u a d  M u r a d o v** *(Milli Məclisin deputatı)*: Cənab Prezident, zənnimcə, bugünkü görüşün əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycan gəncliyi dövlətçiliyimizin, müstəqilliyimizin möhkəmləndirilməsində, ictimai-siyasi hadisələrdə həmişə öndə olan gənclikdir.

Cənab Prezident, Sizin dəstəyinizlə bir neçə il bundan öncə çox geniş bir proqram başladı. Bu da gənc ailələrə ipoteka proqramıdır. Hətta orada mütərəqqi ideyalar oldu. Sizin göstərişiniz əsasında qanunvericilikdə bir neçə pilləli ipoteka təsbit olundu – sosial ipoteka, normal ipoteka və sosial ipoteka şərtləri. Oraya hərbçilər, elmlə məşğul olan insanlar daxil oldu. Təbii ki, o vaxt Azərbaycan inkişafda idi. Bu gün Azərbaycan inkişafının yeni mərhələsindədir. O vaxtkı ipoteka şərtləri bugünkü reallıqları əks etdirmir. Çünki orada minimal məbləğ 35 min manat çərçivəsində idi. Amma bu gün artıq Azərbaycanın hər yerində sürətli inkişaf gedir. Bu gün, demək olar ki, hətta regionda da belə qiymətə mənzil tapmaq çətindir.

Biz çox xahiş edərdik ki, – bu, gənclərin ümumi fikridir – bu istiqamətdə ilkin ödəniş məsələsinə baxılsın. İndi biz proqramın həyata keçirilməsini gözləyirik, bu təklifləri oraya verəcəyik. Bu gün Azərbaycanın imkanları çox sürətlə artır. Çox istərdik ki, bu məsələyə bir də baxılsın. Məsələn, Skandinaviya modelinin tətbiqi məsələsini nəzərdən keçirmək olar. Gənc ailələrə dövlət tərəfindən müəyyən şərtlərlə mərhələlər üzrə ev verilə bilər. Amma gənc də gərək işləsin, çalışsın ki, özünə mənzil ala bilsin.

İkinci istiqamət isə özünüz burada vurğuladınız ki, Gənclər fondunun yaranmasıdır. Bir neçə il öncə Sizin tapşırığınız əsasında biz parlamentdə «Dövlət gənclər siyasəti haqqında» Qanuna Gənclər və İdman Nazirliyi ilə birlikdə baxdıq və oraya çox mütərəqqi əlavələr etdik.

Əlavənin biri də məhz Azərbaycanda Gənclər fondunun yaranması idi. O gündən bu günə qədər, demək olar ki, dünyada olan bütün təcrübə öyrənilib. Bu gün biz bu istiqamətdə tam hazırıq, cənab Prezident. Təbii ki, biz bu təkliflərimizi artıq işçi qrupuna da vermişik və bütün sənədləri hazırlamışıq.

Bu gün Azərbaycanda gənclər təşkilatları çox fəaldır. Demək olar ki, əksər böyük tədbirlər məhz gənclər tərəfindən həyata keçirilir. Bu, normal haldır, çünki Azərbaycan gəncləri sayca da çoxdurlar, intellektual səviyyəcə də irəlidədirlər, yeni texnologiyadan bacarıqla istifadə edirlər.

**İlham Əliyev:** Fuad, hesab edirəm ki, qaldırdığın məsələlər də öz həllini tapmalıdır, həm mənzil-qərargahla, həm də ipoteka ilə bağlı. İndi ölkəmizin imkanları da artır və biz bütün məsələləri gərək ədalətli həll edək.

O ki qaldı Gənclər fondunun yaradılmasına, mən giriş sözümdə bu barədə dedim və bilirəm ki, sizin də fikriniz eynidir. Tezliklə bu fond yaradılmalıdır. Yəqin ki, proqramda da onun yaradılması haqqında göstəriş verilməlidir və dövlət, əlbəttə ki, o fondun fəaliyyəti üçün maliyyə dəstəyini göstərəcəkdir.

Hesab edirəm ki, əgər hazırlıq işləri ilə bağlı konkret təkliflər hazırlanarsa, orada istiqamətlər üzrə məsələlərin həlli üçün vəsait nəzərdə tutulmalıdır. Vəsaitin idarə olunması prinsipləri çox şəffaf olmalıdır. Yəqin ki, biz bu vəsaitdən gənclər təşkilatlarının birbaşa iştirakı ilə və ən prioritet məsələlərin həlli üçün istifadə etməliyik. Həm ölkə daxilində gənclərlə bağlı siyasəti gücləndirmək üçün, eyni zamanda, xaricdəki tədbirləri də müəyyən dərəcədə o fondun hesabına həll etmək üçün.

Mən bugünkü görüşü çox yüksək qiymətləndirirəm. Biz çox istəyirik ki, gənclərimiz həm peşəkar, həm bilikli, həm də

Vətənə, dövlətə bağlı olsunlar, Vətəni sevsinlər. Biz çalışırıq öz işimizlə ölkəmizi elə inkişaf etdirək ki, hər bir vətəndaş haqlı olaraq fəxr etsin ki, müstəqil Azərbaycanın vətəndaşıdır.

Ölkəmizdə aparılan işlər – xarici siyasətimiz, siyasi islahatlar, iqtisadi təşəbbüslər bütövlükdə müsbət istiqamətdə gedir. Ancaq biz daim inkişafda olmalıyıq. Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik və daim axtarışda olmalıyıq. Xüsusilə gənclər. Gənclər həmişə axtarışdadırlar. Gənclər cəmiyyətimizin ən fəal üzvləridir. Mən çox şadam ki, gənclərimiz Vətənə bağlıdırlar, Vətəni sevirlər, vətənpərvərdirlər, biliklidirlər, peşəkardırlar və biz bu müsbət meyilləri gücləndirməliyik.

Belə görüşlərin keçirilməsində böyük fayda vardır. Çünki mən sizdən sizi narahat edən problemləri eşidirəm, sizin təklifiniz çox vacibdir. Bütün bu təkliflər ümumiləşdirilib Dövlət Proqramına daxil edilməlidir. Yenə də deyirəm, Dövlət Proqramı konkret xarakter daşımalıdır. Bu gün danışdığımız məsələlərlə bağlı əgər bütün təklifləriniz lazımi səviyyədə öz həllini taparsa, demək olar ki, bu istiqamətdə çox ciddi addımlar atılacaqdır.

Çox sag olun.

## BEYNƏLXALQ ATÇILIQ FEDERASİYASININ PREZİDENTİ ÜLYAHƏZRƏTLƏRİ HAYA BİNT ƏL-HÜSEYN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Beynəlxalq Atçılıq Federasiyasının prezidenti ülyahəzrətləri Haya bint əl-Hüseyni qəbul etmişdir.*

*Beynəlxalq Atçılıq Federasiyasının prezidenti ülyahəzrətləri Haya bint əl-Hüseyni Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva qarşıladı.*

*Sonra prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın ülyahəzrətləri Haya bint əl-Hüseynlə görüşü oldu.*

*Ülyahəzrətləri Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri, Dubay əmiri Şeyx Məhəmməd bin Rəşid əl-Məktumun və İordaniya Haşimilər kralı II Abdullahın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri, Dubay əmiri Şeyx Məhəmməd bin Rəşid əl-Məktumla bir neçə il bundan əvvəl Dubayda keçirdiyi görüşünü məmnunluqla xatırlatdı, İordaniya kralı II Abdullahla isə mütəmadi olaraq görüşdüyünü vurğuladı.*

*Görüşdə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş atçılığın konkur növü üzrə beynəlxalq yarışın əhəmiyyəti qeyd edildi.*

*Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri, Dubay əmiri Şeyx Məhəmməd bin Rəşid əl-Məktumun və İordaniya Haşimilər kralı II Abdullahın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Dubay əmirinə və İordaniya kralına çatdırmağı xahiş etdi.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ ATÇILIQ TURNİRİNİN FİNAL YARIŞI

*Binə Atçılıq Mərkəzi*

*24 aprel 2011-ci il*

*Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş atçılığın konkur növü üzrə 4 günlük beynəlxalq turnir aprelin 24-də Binə Atçılıq Mərkəzində Qran-Pri final yarışları ilə başa çatmışdır.*

*Final yarışlarını Azərbaycan dövlətinin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Beynəlxalq Atçılıq Federasiyasının prezidenti ülyahəzrətləri Haya bint əl-Hüseyn izləmişlər.*

*Binə Atçılıq Mərkəzində yarışları izləyən çoxsaylı tamaşaçılar prezident İlham Əliyevi, Mehriban xanım Əliyevanı və ülyahəzrətləri Haya bint əl-Hüseyni hərarətlə qarşıladılar.*

*Azərbaycan Dövlət Sərhəd Xidmətinin əlahiddə nümunəvi orkestri marş ifa etdi.*

*Azərbaycan Atçılıq İdmanı Federasiyasının prezidenti Elçin Quliyev çıxış edərək, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunan bu mötəbər turnirin ölkəmizdə həyata keçirilən uğurlu idman siyasətinin mühüm tərkib hissəsi olduğunu dedi. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycanın idman nailiyyətlərinin daha da artdığını bildirən E.Quliyev dedi ki, ölkəmizdə müasir idman infrastrukturu yaradılmışdır. Bu sırada atçılıq idman növünün inkişafı da mühüm yer tutur. Elçin Quliyev onu da diqqətə çatdırdı ki, hazırda Qarabağ və Diliboz at cinslərinin əvvəlki şöhrətinin qaytarılması, yeni atçılıq mərkəzlərinin yaradılması istiqamətində mühüm işlər görülür. Son illərdə beş atçılıq mərkəzi, həmçinin indiki beynəlxalq turnirin keçirildiyi Binə Mərkəzi istifadəyə verilmişdir. Yaxın gələcəkdə ümumi sahəsi 86 hektar olan və atçılıq idmanının bütün növlərinin əhatə olunacağı Mərkəzi Atçılıq Bazasının tikintisi başlanacaqdır. 2011-ci ildə isə yeddi beynəlxalq yarışın keçirilməsi nəzərdə tutulub ki, onlardan üçü artıq təşkil edilmişdir.*

*Sonra turnirin hakimləri və qaydalar elan olundu. Bildirildi ki, turnirin keçirildiyi meydanda 13 maneə quraşdırılıb və 16 sıçrayış nəzərdə tutulub. Maksimum hündürlük 150 santimetr, vaxt normativi isə 84 saniyədir. Turnirin mükafat fondu 117 min dollardır. Yarışda 12 idmançı 20 atla mübarizə aparır.*

*Meydana ilk olaraq Azərbaycan idmançısı Gennadi Qaşibəyazov «Ladzero» ləqəbli atı ilə çıxdı. Bütün maneələri 84.86 saniyəyə 4 cərimə balı ilə başa vuran idmançının çıxışı uğurlu oldu. Sonra Rusiyadan Olqa Danilova «Kilar» ləqəbli atla, Azərbaycandan Hikmət Musayev «Layt Limerik», Seyid Musayev isə «Ursula» ləqəbli atlarla, Polşa təmsilçisi Aleksandra Lusina «Çiara MNM» ləqəbli atla, Azərbaycan idmançıları Patrik Mak Enti «David», Françesko Franko isə «San Sebastian» ləqəbli atlarla çıxış etdilər. Turnirin ən uğurlu çıxışını Azərbaycan idmançısı Camal Rəhimov etdi. O, «Bill Klinton» ləqəbli atı ilə maneələrin hamısını 79.15 saniyəyə heç bir cərimə xalı olmadan keçərək bütün rəqiblərini geridə qoydu.*

*Bolqarıstan təmsilçisi Tenev Venetto «Uterusa», Belarusdan olan Viktor Petrov «Sindi Lupə», Gürcüstandan Şalva Qaçeçeladze isə «Konrad Deluks» ləqəbli atlarla o qədər də uğurlu çıxış etmədilər. Azərbaycan idmançısı Gennadi Qaşibəyazov «Papirus», Rusiya təmsilçisi Olqa Danilova «Vodka laym», Azərbaycan idmançıları Hikmət və Seyid Musayevlər «Arko VDH» və «Habab de Belou», Polşa idmançısı Aleksandra Lusina «Bahar MNM», Azərbaycandan Patrik Mak Enti isə «Konkord-57» ləqəbli atlarla çıxış etdilər. Azərbaycan idmançıları Françesko Franko «Zidan», Camal Rəhimov «Platin E», Gürcüstan təmsilçisi Kaxaber Kikiani isə «Kalitsa MS» ləqəbli atlarla yarışları başa vurdular.*

*Yarışlar başa çatdıqdan sonra keçirilən şouda məşhur Qarabağ atı nümayiş etdirildi. Balaca idmançılar öz məharətlərini göstərdilər. Digər məşhur at cinslərinin nümunəvi çıxışları da azarkeşlər tərəfindən maraqla qarşılandı.*

*Sonra Pekin Yay Olimpiya oyunlarının təsnifat mərhələsində Azərbaycanın atçılıq idmanını layiqincə təmsil edən 16 yaşlı*

*«Hollivud» ləqəbli at meydana gətirildi və «fəxri təqaüdə» göndərildi.*

*Turnirdə ən yaxşı nəticə göstərən «Bill Klinton» ləqəbli atın sahibinə isə «KİA» markalı avtomobilin açarları təqdim olundu.*

*Daha sonra qalib idmançıların mükafatlandırma mərasimi keçirildi.*

*Beşinci yerin qalibi «David» ləqəbli at ilə Azərbaycan idmançısı Patrik Mak Enti oldu.*

*Dördüncü yerə Azərbaycan təmsilçisi Camal Rəhimov «Platin E» ləqəbli atla, üçüncü yerə isə digər Azərbaycan idmançısı Gennadi Qaşibəyazov «Ladzero» ləqəbli atla çıxdı.*

*İkinci yerin sahibi də «Konkord-57» ləqəbli at ilə Azərbaycan idmançısı Patrik Mak Enti oldu.*

*Nəhayət, Qran-Pri turnirində birinci yerin və Heydər Əliyev kubokunun sahibi elan edildi. Bu mükafatlara «Bill Klinton» ləqəbli at ilə Azərbaycan idmançısı Camal Rəhimov layiq görüldü.*

*Mükafatları Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ülyahəzrətləri Haya bint əl-Hüseyn təqdim etdilər.*

*Mərasim Azərbaycan Respublikasının Dövlət himninin səslənməsi ilə başa çatdı.*

## ABŞ-ın DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ MÜŞAVİRİ TİNA KAYDANOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də ABŞ-ın Dövlət katibinin Cənubi Qafqaz regionu üzrə müşaviri Tina Kaydanovu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri, regional və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ İLLİK ÜMUMİ YIĞINCAĞI*

*26 aprel 2011-ci il*

*Aprelin 26-da Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağı keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yığıncaqda iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Azərbaycan Milli Elmlər Akademiyasının binası ətrafında aparılmış yenidənqurma və abadlıq işləri ilə tanış oldu.*

*Akademiyanın prezidenti Mahmud Kərimov bildirdi ki, ərazidə fəaliyyət göstərən Milli Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında yenidənqurma işləri görülmüş, binalar təmir olunmuş, geniş yaşıllıq zolağı salınmışdır. 2007-ci ilin sonundan başlanan təmir və yenidənqurma tədbirlərinin tamamlandığı, iş otaqlarının zəruri avadanlıqla təchiz olunduğu, akademiya işçilərinin elmi fəaliyyəti üçün hər cür şəraitin yaradıldığı qeyd edildi.*

*Prezident İlham Əliyev binanın əvvəlki vəziyyətini və aparılmış təmir işlərini əks etdirən fotolara baxdı.*

*Bildirildi ki, dövlətimizin başçısının qayğısı sayəsində paytaxtın gözəl memarlıq nümunəsi olan Azərbaycan Milli Elmlər Akademiyasının binası yenidən möhtəşəm görkəmi ilə Bakıya yaraşıq verir.*

---

* Азярбайъан Милли Елмляр Академийасынын иллик цмуми йыьынъаьында Милли Елмляр Академийасынын президенти Мащмуд Кяримов, академик Акиф Ялизадя, академик Исмайыл Щаъыйев, академик Акиф Щаъыйев, академик Вагиф Фярзялийев вя академик Бякир Нябийев чыхыш етдиляр.

*Sonra Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağı keçirildi.*

**M a h m u d  K ə r i m o v** *(AMEA-nın prezidenti)*: Möhtərəm cənab Prezident!

Sizin Bakı şəhərinin unikal memarlıq incisi sayılan Azərbaycan Milli Elmlər Akademiyası binasının əsaslı təmir və yenidən qurulmasından sonra onun açılışı mərasimində iştirakınız, həmçinin əlamətdar hadisə olan akademiyanın illik ümumi yığıncağına gəlişiniz ölkəmizin elmi ictimaiyyəti tərəfindən böyük minnətdarlıq hissi ilə qarşılanır.

Azərbaycan Milli Elmlər Akademiyasının elmi-tədqiqat institutlarının böyük bir hissəsi keçən əsrin 60-cı illərində görkəmli memar, akademik Mikayıl Hüseynovun layihəsi əsasında tikilmiş bu binada yerləşir. Bu bina uzun illər ölkəmizin elm məbədgahı funksiyasını yerinə yetirmişdir. Sizin xüsusi tapşırığınıza əsasən bu möhtəşəm binada 2007-ci ilin sonundan əsaslı təmir və yenidənqurma işlərinə başlanılmışdır. Budur, artıq bu bina klassik memarlıq xüsusiyyətləri ilə modern memarlıq üslubunu özündə birləşdirən möhtəşəm bir sənət abidəsi kimi, yenidən alimlərin ixtiyarına verilir.

Xüsusi olaraq qeyd etmək istərdim ki, son illərdə akademiyanın elmi-tədqiqat müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, binalarının əsaslı təmiri və yenidən qurulması intensiv hal almışdır. Sizin birbaşa göstərişiniz əsasında Azərbaycan Milli Elmlər Akademiyasının Şamaxı Astrofizika Rəsədxanasının, Milli Azərbaycan Tarixi Muzeyinin, Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyinin əsaslı təmirini misal gətirmək olar. Buna görə mən akademiyanın çoxsaylı kollektivi, bütövlükdə, respublikamızın elmi ictimaiyyəti və şəxsən öz adımdan Sizə dərin minnətdarlığımı bildirirəm.

Cənab Prezident! Siz digər sahələrdə olduğu kimi, dövlətin elm siyasəti sahəsində də ümummilli liderimiz Heydər Əliyevin ənənələrini davam etdirir, Azərbaycanın milli sərvətinin ayrılmaz tərkib hissəsi olan elmi potensialın qorunmasını, inkişaf

etdirilməsini dövlət siyasətinin ən vacib istiqamətlərindən biri hesab edirsiniz. Sizin akademiya işçilərinin maddi rifah halının yaxşılaşdırılmasına, onun strukturunun təkmilləşdirilməsinə, milli cəmiyyət və demokratik dövlət quruculuğu işində elmi potensialdan istifadəyə yönəlmiş sərəncamlarınız bunun bariz nümunəsidir.

Sizin akademiyaya xüsusi diqqət və qayğınız, bu sahədə həyata keçirdiyiniz siyasət, bu siyasətin göstəricisi olan əməli addımlarınız akademiyanın çoxsaylı kollektivi qarşısında yeni vəzifələr qoyur. Hazırda Azərbaycan elmi Sizin sərəncamınızla təsdiq edilmiş «Azərbaycan Respublikasında 2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı»nın prinsiplərinə və tələblərinə uyğun fəaliyyət göstərir.

## Azərbaycan prezidenti İlham Əliyevin AMEA-nın ümumi yığıncağında giriş nitqi

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, məni akademiyaya dəvət etdiyinizə görə sizə minnətdarlığımı bildirmək istəyirəm. Bu gün akademiyanın ümumi illik yığıncağı keçirilir. Əminəm ki, yığıncaq çox uğurlu keçəcəkdir və Azərbaycan elminin gələcək inkişafı üçün burada çox dəyərli fikirlər səslənəcəkdir. Akademiyanın əsas binasında qısa müddət ərzində çox gözəl işlər görülmüşdür və bildiyimə görə, akademiyanın digər binalarında da təmir işləri aparılır. Burada yaradılan şərait ən yüksək səviyyəyə cavab verir. Bütövlükdə akademiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi işində konkret addımlar atılır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Elə etməliyik ki, akademiyanın bütün ehtiyacları təmin olunsun və maddi-texniki bazası daha da gücləndirilsin.

Azərbaycan Elmlər Akademiyası 1945-ci ildən fəaliyyət göstərir. 1945-ci ildən bu günə qədər akademiya böyük və

uğurlu yol keçmişdir. Alimlərimiz Azərbaycanın inkişafına müxtəlif dövrlərdə dəyərli töhfələrini vermişlər. Azərbaycan müstəqilliyə qovuşanda isə müxtəlif fikirlər var idi. Hətta– siz yəqin ki, bunu yaxşı xatırlayırsınız – 1992-ci ildə akademiyanın ləğvi barədə, bağlanması haqqında təkliflər irəli sürülmüşdü. Əgər 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıtmasaydı, yəqin ki, akademiyanın taleyi çox acınacaqlı ola bilərdi. Məhz Heydər Əliyevin Azərbaycan elminə bütün dövrlərdə göstərdiyi diqqət və qayğı nəticəsində elmin inkişafı sürətlə aparılırdı. Müstəqil yaşamağa başlayanda, əlbəttə ki, ölkədə mövcud olan ciddi iqtisadi və sosial məsələlər gündəliyin birinci sıralarında idi. Ulu öndər Heydər Əliyev Azərbaycanın gələcəyini düşünərək və uzaqgörənliklə, müdrikliklə bütün dövrlərdə, o cümlədən müstəqillik dövründə elmin inkişafına çox böyük diqqət göstərmişdir. Burada səsləndi və təsadüfi deyil ki, hakimiyyətə qayıdandan sonra onun Azərbaycan ictimaiyyəti ilə ilk görüşü məhz akademiyada olmuşdur.

Akademiyada Azərbaycanın intellektual elitası cəmlənib. Akademiyanın inkişafı Azərbaycanda elmin inkişafına birbaşa təsir göstərir. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, həmin ölkələrin uğurlarının təməlində ideya, fikir, innovasiya, elmi-texniki tərəqqi dayanır. Biz də ölkəmizdə müxtəlif istiqamətlərdə islahatlar apararkən müasirləşməyə üstünlük veririk. Müasir dövlətin qurulması elmin inkişafı olmadan mümkün deyildir.

Bu gün Heydər Əliyev siyasəti Azərbaycanda bütün istiqamətlərdə davam etdirilir, o cümlədən dövlətin elmə olan münasibətində də özünü göstərir. Təsadüfi deyil ki, akademiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi işinə çox böyük diqqət göstərilir. Akademiyanın fəaliyyətinin genişləndirilməsi və elmi tədqiqatların iqtisadiyyatla, bizim iqtisadi siyasətlə uzlaşması üçün konkret addımlar atılır.

2009-cu ildə Elmin İnkişafı üzrə Milli Strategiya və Dövlət Proqramı qəbul edilmişdir, ondan sonra Elmin İnkişafı Fondu yaradılmışdır. Bu fondun xətti ilə nəinki müasir avadanlığın

alınması öz həllini tapır, müxtəlif qrantlar verilir ki, biz Azərbaycanda elmi araşdırmaları stimullaşdıraq.

Azərbaycan müstəqil dövlət kimi, uğurlu siyasət aparır. Ölkəmiz inkişaf edir. Bu inkişaf özünü bütün istiqamətlərdə göstərir. Elmin inkişafı da ümumi inkişaf templəri ilə uzlaşmalıdır. Azərbaycanda elmin, ali təhsilin, iqtisadiyyatın birliyi yaradılmalıdır. Bizim üçün elmin inkişafı ilə bağlı əsas məsələ prioritetlərin düzgün seçilməsidir. İşimizi bu prioritetlər üzərində qurmaq üçün konkret təkliflər verilməlidir.

Bütün dövrlərdə alimlərimiz Azərbaycanın müxtəlif istiqamətlərdə inkişafına dəyərli töhfələrini vermişlər. İndiki şəraitdə, müstəqilliyimizin inkişafı və möhkəmlənməsi şəraitində elmi potensialın güclənməsinə böyük ehtiyac vardır.

Azərbaycan alimləri müxtəlif sahələrdə öz sözlərini demişlər. Azərbaycanda dünya səviyyəsində aparılan araşdırmalar da öz müsbət təsirini göstərmişdir. Geoloq alimlərimiz ölkəmizin təbii resurslarının kəşfi ilə bağlı əvəzolunmaz xidmətlər göstərmişlər. Bu gün təbii resurslar ölkəmizin müstəqilliyini gücləndirir, müstəqil siyasət aparmaq imkanlarımızı böyük dərəcədə şərtləndirir. XX əsrin ortalarında Xəzər dənizində dünyada ilk dəfə kəşf edilmiş neft bu gün müstəqil Azərbaycana xidmət göstərir. Azərbaycanda uğurlu neft strategiyasının aparılması nəticəsində bu gün biz enerji təhlükəsizliyimizi tam şəkildə təmin edə bilmişik. Təbii resurslardan çox səmərəli şəkildə istifadə edirik. Avropanın enerji təhlükəsizliyi məsələlərinin həlli üçün səylərimizi göstəririk. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün ən vacib tərəfdaşlardan biridir.

Əgər vaxtilə alimlərimiz böyük neft-qaz yataqlarını kəşf etməsəydilər və Azərbaycanın bu təbii resursları olmasaydı, müstəqil həyatımız başqa istiqamətdə inkişaf edə bilərdi. Bir daha demək istəyirəm ki, bu amil iqtisadi müstəqillik verir. Azərbaycanda siyasi müstəqillik də lazımi səviyyədədir. Hesab edirəm ki, gələcək illərdə bu sahədə əlavə tədbirlər görülməlidir. Bu gün maliyyə resurslarımız belə imkanlar

yaradır. Elə etməliyik ki, uzun illər, onilliklər ərzində Azərbaycan dünya enerji bazarında öz rolunu daha da artırsın və milli maraqlarımız tam şəkildə təmin edilsin.

Hesab edirəm ki, bütövlükdə Xəzər dənizinin tədqiqi ilə bağlı əlavə addımlar atılmalıdır. Bu istiqamətdə böyük işlər görülüb, ancaq biz hələ də Xəzər dənizini istədiyimiz qədər bilmirik, tanımırıq. Ona görə, elmi sahədə bu məsələ daim diqqət mərkəzində olmalıdır.

Bu gün Azərbaycan iqtisadiyyatı qarşısında duran çağırışlar elmin inkişafı ilə bilavasitə bağlı olmalıdır. Biz böyük neft-kimya kompleksinin tikilməsi üzərində işləyirik. Neft-kimya sahəsində böyük perspektivlər vardır. Nəzərə alsaq ki, ölkəmizdə bu istiqamətdə bütün dövrlərdə çox güclü elmi məktəb olmuşdur, bu, iqtisadi gücümüzü artıracaq, yeni iş yerlərinin açılmasına gətirib çıxaracaqdır. Hesab edirəm ki, bu gün alimlərimiz öz işlərini bu sahə üzrə müvafiq dövlət qurumları ilə əlaqəli şəkildə aparmalıdırlar. Azərbaycan hökumətinə müvafiq göstərişlər verilmişdir ki, bu sahəyə biz Azərbaycan elmini də cəlb edək.

Bu gün ölkə qarşısında duran vəzifələr prioritetlər əsasında müəyyən edilib. Elm qarşısında duran məsələ də eyni qaydada həll olunmalıdır. İlk növbədə enerji təhlükəsizliyi məsələləri gündəlikdə durmuşdur. Bu məsələlər öz həllini tapıbdır və hazırda biz ölkəmizin hərtərəfli inkişafı ilə bağlı siyasətimizi aparırıq. İqtisadiyyatımızın qeyri-neft sektorunun inkişafı ilə bağlı çox ciddi addımlar atılıbdır. Konkret proqramlar icra edilir.

Son 7 ildə Azərbaycanda bir milyona yaxın yeni iş yerləri açılmışdır ki, bunların mütləq əksəriyyəti qeyri-neft sektorunda yaradılmışdır. Bütövlükdə Azərbaycan iqtisadiyyatının uğurlu inkişafı dünya miqyasında bir fenomendir. Son bir neçə il ərzində ölkəmizdə iqtisadi artım ən yüksək səviyyədədir və biz bu göstəriciyə görə dünya miqyasında birinci yerdəyik. Bununla bərabər, iqtisadiyyatın hərtərəfli inkişafı da beynəlxalq maliyyə qurumları tərəfindən qiymətləndirilir. Azərbaycanın beynəlxalq

reytinqləri artır. Hətta böhranlı 2009–2010-cu illərdə bu göstəricilər ən yüksək səviyyədədir. Biz uzunmüddətli inkişaf strategiyamızı müəyyən edərkən mütləq güclü elmi bazaya, iqtisadi inkişafımızın gələcək istiqamətlərini müəyyən edərkən güclü elmi əsaslara söykənməliyik. Düzgün proqnozlar verilməlidir. Biz nəinki beşillik proqramı icra edərkən bu məsələlərlə məşğul olmalıyıq, uzaq gələcəyə baxmalıyıq – 20 ildən, 30 ildən sonra Azərbaycan hansı imkanlar hesabına inkişaf edəcəkdir?! Azərbaycanda elə güclü potensial yaradılmalıdır ki, ölkəmizin inkişafı uzunmüddətli, uğurlu və dayanıqlı olsun. Biz neft-qaz amilindən asılılığımızı tədricən azaldırıq. Artıq bu istiqamətdə müəyyən işlər görülmüşdür. Gələcəkdə isə biz çoxşaxəli iqtisadiyyat yaratmaqla elmi əsaslara söykənərək, dayanıqlı inkişaf modelimizi qurmalıyıq. Burada alimlər öz sözünü deməlidirlər. Biz hökumətlə bərabər, dövlət strukturları ilə birgə bu fəaliyyəti gücləndirməliyik. Ona görə, bu sahədə aparılan işlərə xüsusi diqqət göstərilməlidir. Ərzaq təhlükəsizliyi məsələləri ilə çox ciddi məşğuluq. Bildiyiniz kimi, sovet dövründə vahid xalq təsərrüfatı kompleksi mövcud idi. Bu məsələlər sovet hökuməti tərəfindən tənzimlənirdi. Müstəqillik dövründə, xüsusilə bəzi hallarda təbii fəlakətlər nəticəsində ərzaqla bağlı yaranan çətinliklərlə üzləşərək biz ərzaq təhlükəsizliyi məsələlərimizi daxili imkanlar hesabına təmin etməliyik. Bu istiqamətdə işlər aparılır.

Azərbaycanda sahibkarlığın inkişafının dəstəklənməsi, kreditlərin verilməsi, özəl sektorun inkişafı bir məqsədi güdür ki, biz ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin edək. Hesab edirəm ki, növbəti 2-3 il ərzində biz özümüzü əsas ərzaq məhsulları ilə təmin etməliyik və bununla bərabər, çox güclü ixrac potensialımızı da yaratmalıyıq. Ona görə, aqrar elmlərin inkişafı və iqtisadi inkişafla uzlaşması xüsusi məna daşıyır. Hesab edirəm ki, Milli Elmlər Akademiyasının aqrar bölməsinin yaradılması üçün konkret addımlar atılmalıdır. Vaxt itirmədən bu bölmə yaradılmalıdır və fəal işə başlamalıdır. Beləliklə, əgər bu məsələlər öz həllini taparsa, hesab edirəm ki,

bu, Azərbaycan elminin inkişafına güclü təkan olacaq, sifarişlər veriləcəkdir. Dövlət qurumları və özəl sektor tərəfindən sifarişlər verilməlidir. Alimlərimiz bu sifarişlər əsasında işləyəcəklər. Azərbaycan dövləti bundan sonra da elmin inkişafı üçün maliyyə dəstəyini verəcək.

Ölkəmizdə hazırda müasirləşmə siyasəti aparılır. Bu siyasət özünü bütün istiqamətlərdə göstərməkdədir. Xüsusilə elmi-texniki tərəqqi ilə bağlı addımlarımız gələcəyə yönəldilib. Bəlkə biz gənc müstəqil ölkə üçün xas olmayan təşəbbüslərlə çıxış edirik. Azərbaycanda kosmik sənayenin yaradılması prosesi gedir. Əminəm ki, bu proses sürətlə gedəcəkdir. Bu bizim dövlət siyasətimizdir. Hesab edirəm ki, birinci telekommunikasiya peykinin orbitə çıxarılmasından sonra bu sahəyə daha da böyük təkan veriləcəkdir. Azərbaycanda çox güclü kosmik sənaye yaradılacaqdır. Azərbaycan elmi də bu təşəbbüslərə öz dəstəyini verməlidir. Burada beynəlxalq əlaqələr də öz rolunu oynamalıdır. Dünyanın aparıcı elmi mərkəzləri ilə əməkdaşlıq səviyyəsi daha da güclü olmalıdır. Çünki bu sahədə bizdə olan potensial, hesab edirəm ki, hələ istədiyimizə cavab vermir. Bütövlükdə beynəlxalq elmi mərkəzlər ilə əməkdaşlıq daha da geniş olmalıdır.

İnformasiya-kommunikasiya sektorunda uğurlarımız göz qabağındadır. Qısa müddət ərzində bu sahədə böyük nailiyyətlər əldə edilmişdir. Bu gün MDB məkanında Azərbaycan İKT ilə bağlı ön sıralardadır. Ancaq vəzifəmiz bununla bitmir. İstəyimiz ondan ibarətdir ki, Azərbaycan dünya miqyasında İKT-nın inkişafı üzrə birinci sıralarda olsun. Dövlət dəstəyi, maliyyə təminatı göstərilir, bəzi hallarda kreditlərin verilməsi ilə əlaqədar beynəlxalq maliyyə qurumları ilə aparılan danışıqlar nəticə verməyəndə, Azərbaycan dövləti öz maliyyə imkanlarını təşkil edir. İndi imkanlarımız genişlənir və elmin, elmi tərəqqinin inkişafına xüsusi diqqət göstərilməlidir, xüsusilə İKT sektorunda. Çünki İKT-nın inkişafı bir neçə məqsədi güdür. İlk növbədə bu, Azərbaycanın intellektual potensialının inkişafına xidmət göstərəcəkdir. Ölkədə gedən müasirləşmə siyasətinə dəstəyini verəcəkdir. Digər tərəfdən, bu sahədə çox böyük

iqtisadi imkanlar vardır. Gələcəkdə İKT sektorunda yaranacaq gəlir Azərbaycan iqtisadiyyatının inkişafına çox böyük təsir göstərəcəkdir. Hesab edirəm ki, akademiyada bu istiqamətdə daha da ciddi addımlar atılmalıdır.

Biz hərbi sənaye kompleksini yaradırıq. Qısa müddət ərzində, demək olar ki, yaratmışıq. Bu gün Azərbaycanda 430 adda hərbi təyinatlı məhsul buraxılır. Gələcəkdə bu məhsulların sayı daha da çoxalacaqdır.

Tanınmış beynəlxalq şirkətlərlə birgə fəaliyyətimiz genişlənir, yeni texnologiyalar gətirilir və hazırda Azərbaycanda istehsal olunan məhsullar dünya səviyyəsindədir. Hərbi gücümüzü daim möhkəmləndirməliyik və ordu quruculuğu prosesi Azərbaycanda sürətlə gedir, buna böyük ehtiyac vardır. Biz müharibə şəraitində yaşayırıq və dövlətin bu məsələlərə çox böyük diqqəti və maliyyə təminatı vardır. Azərbaycan alimləri bu istiqamətdə də öz sözünü deməlidirlər. Dövlət qurumları ilə, xüsusilə Müdafiə Sənayesi Nazirliyi ilə işlər daha da yüksək səviyyədə aparılmalıdır. Bu çox perspektivli istiqamətdir və daim diqqət mərkəzində olmalıdır.

Bir sözlə, iqtisadi inkişafımızla, sənaye inkişafımızla bağlı çox konkret proqramlar vardır. Azərbaycan elmi bu istiqamətdə öz sözünü deməlidir. Hazırda Azərbaycanda böyük texnoparklar və çox böyük sənaye potensialı yaradılır. Əlbəttə ki, bu təşəbbüslər gözəl nəticələrini verəcək və qeyd etdiyim kimi, ölkə iqtisadiyyatının neft amilindən asılılığını azaltmaq üçün öz təsirini göstərəcəkdir. Bu halda Azərbaycan elmi də burada ön sıralarda olmalıdır.

Humanitar elmlərlə bağlı məsələlər daim diqqət mərkəzindədir və bu sahədə aparılan işlər çox uğurludur, təqdirəlayiqdir. Bu sahəyə daim diqqət göstərməliyik, çünki müstəqillikdən əvvəl bizi millət kimi qoruyub saxlayan milli dəyərlərimiz, milli ənənələrimiz, ana dilimiz, ədəbiyyatımız, musiqimiz olub. Hesab edirəm ki, Elmlər Akademiyası bu istiqamətdə çox uğurlu fəaliyyət göstərir.

Ana dilimizə hörmət və qayğı daimi olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz – Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq. Bu məsələyə çox ciddi diqqət göstərilməlidir.

Ədəbiyyat üzrə araşdırmalar davam etdirilir. Burada da fəaliyyət üçün çox geniş meydan vardır. Çünki ədəbiyyatımız dünya ədəbiyyatının inkişafında çox böyük rol oynamışdır. Biz haqlı olaraq bu barədə qürur hissi ilə danışa bilərik.

Arxeoloji qazıntıların aparılmasına dəstək verilir, vəsait ayrılır. Bu da çox vacib sahədir. Biz keçmişimizi daha da dərindən öyrənməliyik və bu istiqamətdə aparılan işlər davam etdiriləcəkdir. Arxeoloji qazıntılar bizə yeni bilgilər, yeni məlumatlar verir. Beləliklə, tariximiz haqqında bizdə və dünyada daha da dolğun təsəvvür yaranacaqdır.

Tarix elmləri ilə bağlı məsələlər daim diqqət mərkəzindədir. Bu məsələyə çox böyük diqqət göstəririk. Mən çox şadam ki, tarixçilərimiz çox sanballı və əsaslı əsərlər yaradırlar. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki, bu sahəyə daha da böyük diqqət göstərək. Bu bölgənin tarixi ermənilər tərəfindən daim saxtalaşdırılır, daim təhrif olunur. Şadam ki, alimlərimiz mənim çağırışıma müsbət cavab verərək, qısa müddət ərzində bu bölgənin tarixi ilə bağlı çox gözəl və real faktlara əsaslanmış əsərlər yaratmışlar. Başlıcası, İrəvan xanlığının tarixi ilə bağlı yaradılmış əsərlər xüsusi məna daşıyır. Əfsuslar olsun ki, dünya birliyi, demək olar, bilmirdi ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır.

Biz təşəbbüslərimiz, tarixə müraciətimiz və konkret dəlillərlə, faktlarla mövqeyimizi əsaslandırmışıq ki, İrəvan Ermənistanın paytaxtı kimi, Azərbaycan dövləti tərəfindən 1918-ci ildə verilmişdir. İrəvan xanlığında yaşayan əhalinin əksəriyyəti azərbaycanlılar idi. Zəngəzur mahalı qədim Azər-

baycan torpağıdır və süni şəkildə Ermənistana verilmişdir. Zəngəzur mahalının Ermənistana verilməsi böyük ədalətsizlik idi. Doğma torpağımızın bir parçası Ermənistana birləşdirildi. Bunun çox böyük mənfi nəticəsi oldu. Bu, türk dünyasını parçaladı. Bu gün türk dünyası coğrafi baxımdan parçalanıb. Düzdür, biz siyasi addımlarla, iqtisadi təşəbbüslərlə, türkdilli dövlətlərin zirvə görüşlərinin keçirilməsi ilə – mən TÜRKSOY-un fəaliyyətini də qeyd etməliyəm – çalışırıq və çalışacağıq ki, bütün türk dünyasını birləşdirək, siyasi maraqları birləşdirək, iqtisadi sahədə daha da çoxtərəfli əməkdaşlıq aparılsın. Ancaq coğrafi cəhətdən bu gün türk dünyası parçalanıbdır. Bu tarixi həqiqətlər işıq üzü görməlidir. Nəinki ölkə daxilində, xaricdə də bunu bilməlidirlər. Ona görə bu kitabların xarici dillərdə nəşri xüsusi məna daşıyır.

Bütün indiki Ermənistan ərazisinin əksər toponimləri Azərbaycan mənşəlidir. Şəhərlərin, kəndlərin adları. Hətta bunu Böyük Sovet Ensiklopediyasında da görmək mümkündür. O vaxt erməni şəhərlərinin adları və onların əski variantı yazılmışdı. Biz bütün bunları bilməliyik. Bu gün Ermənistan dövləti bizə qarşı ərazi iddiası ilə çıxış edir. Torpaqlarımız işğal altındadır. Dağlıq Qarabağ işğal altındadır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Erməni təbliğatı bütün dünyada bizə qarşı işə salınıbdır. Biz isə həqiqətləri çatdırmalıyıq ki, Xankəndi şəhəri Stepanakert deyil, Xankəndidir. Stepanakert quldur dəstəsinin rəhbəri Şaumyanın adına verilmişdir. Mən dəfələrlə bu barədə demişəm, əgər o yaşayış məntəqəsinin tarixi adı olsa idi, o tarixi adı ermənilər bərpa edərdilər. Bu bizim torpağımızdır. Elmi araşdırmalar və elmi əsərlər, kitablar çox vacibdir. Bu sahədəki işimizi daha da gücləndirməliyik, müasirləşdirməliyik. Bu məsələlərə nəinki alimlərimiz, hesab edirəm ki, ictimaiyyətin üzvləri də internet vasitəsilə fəal qoşulmalıdırlar. Bu sahədəki işlərlə bağlı təşəbbüslər reallaşır. Hesab edirəm ki, bu məsələyə xüsusi diqqət göstərilməlidir. Biz həm bu məsələnin elmi tərəfindən, həm də təbliğatımızda bu amildən daha da geniş şəkildə istifadə etməliyik.

Mən bu gün ölkəmizin və elmimizin inkişafı ilə bağlı bəzi fikirlərimi ifadə etdim və əminəm ki, hörmətli alimlər, siz bütün bu məsələləri yaxşı bilirsiniz. Sizin təklifləriniz, əlbəttə ki, nəzərə alınacaqdır. Hazırda qeyd etdiyim təşəbbüslər – Elmin İnkişaf Fondunun yaradılması, Azərbaycan Elminin İnkişafı üzrə Strategiyanın və Dövlət Proqramının qəbul edilməsi də alimlər tərəfindən verilmiş təşəbbüslər idi.

Biz elə etməliyik ki, Azərbaycan elmi inkişaf etsin, yaşasın və Azərbaycan dövlətinə, Azərbaycanın milli maraqlarına həmişə olduğu kimi xidmət etsin.

Mən sizi bir daha ürəkdən salamlayıram. Dəvətinizə görə minnətdaram. Sizə və akademiyanın bütün üzvlərinə yeni uğurlar arzulayıram.

## YEKUN NİTQİ

Mən burada səslənən təkliflərə münasibətimi bildirmək istəyirəm. Bu təkliflər çox dəyərlidir. Müvafiq tapşırıqlar veriləcəkdir ki, qaldırdığınız məsələlər tezliklə öz həllini tapsın. İstəyirəm burada qaldırılan məsələlərə öz fikrimi bildirim.

Sosial məsələlərin həlli daim diqqət mərkəzindədir, Azərbaycanda maaşlar, təqaüdlər vaxtaşırı qaldırılır. Ancaq son illər ərzində maaşların və təqaüdlərin bir neçə dəfə qaldırılmasına baxmayaraq, xüsusilə dövlət sektorunda çalışanların sosial təminatı hələ ki, istədiyimiz səviyyədə deyildir. Bu məsələyə baxılacaq və akademiya işçilərini narahat edən məsələlər öz həllini tapacaqdır.

Kitabxananın tikintisi ilə bağlı verilən təklifləri dəstəkləyirəm. Bu məsələ bir müddət bundan əvvəl müzakirə edilmişdi, bəzi təkliflər də irəli sürülmüşdü. Bu məsələyə daha da ciddi baxmalıyıq. Ola bilsin ki, gələn ilin dövlət büdcəsində kitabxananın tikintisi ilə bağlı artıq maliyyə mənbələri də müəyyən edilsin. Layihələndirmə işləri bu il də başlana bilər. Müasir, gözəl kitabxananın tikintisinə böyük ehtiyac vardır. Əminəm ki, biz buna nail olacağıq.

Struktur islahatları ilə bağlı məsələləri siz özünüz müəyyən etməlisiniz. Ən optimal variant seçilməlidir. Seçdiyiniz variantı mən də dəstəkləyəcəyəm. Əsas odur ki, işin səmərəliliyini təmin edək. Struktur islahatları real nəticələrə gətirib çıxarmalıdır.

Xəzər dənizinin tədqiqatları ilə bağlı beynəlxalq mərkəzin yaradılması təklifinə baxmaq olar. Bildiyiniz kimi, hazırda bütün Xəzəryanı ölkələr bir-biri ilə çox sıx əlaqədədir. Keçən ilin sonunda Bakıda Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşünün keçirilməsi və görüş zamanı qəbul edilmiş çox vacib qərarlar Xəzər dənizində əməkdaşlıq meyillərini daha da gücləndirir. Bütün qonşularımız qeyd etmişlər ki, Xəzər ilə bağlı Bakıda keçirilən zirvə görüşü çox uğurlu olmuşdur. Bu beştərəfli əməkdaşlıq, əlbəttə ki, davam etdiriləcəkdir. Burada Xəzərin bioresursları ilə əlaqədar müəyyən təkliflər var, Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi ilə əlaqədar danışıqlar gedir və Azərbaycan bütün bu məsələlərdə çox konstruktiv mövqe nümayiş etdirir. Elə etməliyik ki, Xəzər dənizi bundan sonra da dostluq, mehriban qonşuluq dənizi olsun. Xəzər dənizinin tədqiqatları ilə bağlı mərkəzin yaradılmasına da baxmaq olar. Əgər belə bir mərkəz yaranacaqsa, bunun mərkəzi Bakı olmalıdır. Çünki Bakı Xəzəryanı ölkələr arasında yeganə paytaxtdır və Bakının Xəzərin tədqiqatında və təbii resursların işlənməsində xüsusi yeri vardır.

Gənc alimlər üçün fondun yaradılması məsələsinə baxmaq olar. Hazırda «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramı hazırlanır. Azərbaycan elminin inkişafı üzrə Dövlət Proqramı da 2015-ci ilə qədər hesablanıbdır. Bu iki proqramı biz bir növ bir-biri ilə bağlamalıyıq və gənclərin, ümumiyyətlə, elmə cəlb edilməsi üçün, əlbəttə ki, əlavə tədbirlər nəzərdə tutulmalıdır. Mən o fikirlə tam razıyam ki, gəncləri elmə cəlb etmək üçün əlavə mexanizmlər hazırlamalıyıq, stimullaşdırmalıyıq. Hərbi xidmətlə bağlı məsələlərə də baxacağıq.

Neft hasilatının sabit səviyyədə saxlanılması məsələsi bizim üçün çox vacibdir. Azərbaycanda fəaliyyət göstərən beynəlxalq

şirkətlər böyük investisiyalar qoyurlar və Azərbaycan tərəfi də bu işlərdə fəal iştirak edir. Hazırda konsorsium tərəfindən hasil edilən neftin gəlir hissəsinin 75 faizi Azərbaycanın payına düşür. Bu, məhz vaxtilə «Əsrin müqaviləsi»nin üzərində danışıqların aparılması zamanı Azərbaycanın mövqeyinin kifayət qədər ciddi olmasından xəbər verir. Baxmayaraq ki, o vaxt iqtisadi vəziyyətimiz o qədər də yaxşı deyildi, siyasi proseslər də müəyyən dərəcədə bizi narahat edirdi. O vaxt maksimum məqbul şərtləri əldə etmişdik. Məhz buna görə bu gün xarici tərəfdaşlar tərəfindən hasil edilən neftin əksər hissəsi Azərbaycanın payına düşür. Xarici şirkətlərlə apardığımız danışıqlarda biz daim bu məsələ ilə bağlı öz fikrimizi bildiririk. Biz istəyirik ki, uzunmüddətli hasilata nail olaq. Hasilatın artırılmasına o qədər də müsbət baxmırıq, hazırkı səviyyə optimaldır. Elə etməliyik ki, uzun illər neftimiz iqtisadiyyatımızın inkişafına xidmət göstərsin.

Hazırda biz böyük qaz layihəsinin icrası ilə məşğuluq və «Şahdəniz» qaz yatağı dünya miqyasında ən böyük yataqlardan biridir, nadir yataqdır. «Şahdəniz» yatağından sonra Azərbaycan alimləri, geoloqları, neftçiləri «Ümid» yatağını aşkar ediblər. Çox böyük qaz potensialı yaranır və giriş sözümdə qeyd etdiyim Avropanın enerji təhlükəsizliyi məsələləri də müəyyən dərəcədə Azərbaycan qazının hesabına təmin edilə bilər. Hazırda bu istiqamətdə ciddi danışıqlar aparılır. İlin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub qaz dəhlizi üzrə bəyannamə imzalanmışdır, işçi qrupu yaradılmışdır. İlk növbədə ölkəmizin və xalqımızın milli maraqlarını təmin etməliyik. Bizə xüsusilə qazın ixracı üçün yeni bazarlar, tərəfdaşlara isə yeni alternativ mənbələr lazımdır. Maraqlarımız, demək olar ki, üst-üstə düşür və gələcəkdə Azərbaycanda həm neftin, həm də qazın hasilatının səviyyəsini biz müəyyən edəcəyik.

Mən seysmoloji xidmətin inkişafı ilə əlaqədar verilən təkliflərə baxmağa hazıram. Əgər əlavə vəsait ayırmaq lazımdırsa, bunu edərik ki, bu sahədəki işi daha da təkmilləşdirək. Zəlzələdən, demək olar ki, 10 il vaxt keçir. Ola bilsin ki, o vaxt

alınmış avadanlıq köhnəlib. Yeni texnologiyalar, yeni avadanlıqlar çıxır, buna baxacağıq.

Tarixi Təbiət Muzeyinin təmiri ilə əlaqədar təklifə baxarıq. Bu muzeyi ya yüksək səviyyədə təmir etdirək, yaxud da yenisini yaradaq. Əgər yenisini yaradacağıqsa, gərək yer müəyyən edilsin, şəhərin mərkəzində gözəl bir yer olsun. Çünki nümayiş etdirmək üçün kifayət qədər materiallar, eksponatlar vardır. Siz yaxşı bilirsiniz ki, palçıq vulkanlarının sayına görə Azərbaycan dünyada birincidir. Əfsuslar olsun ki, nə ölkə daxilində, nə də ki, xaricdə bu barədə kifayət qədər bilgilər yoxdur. Alimlər bunu bilir, ancaq geniş ictimaiyyət bundan xəbərsizdir. Həm də muzeyin yaradılması, internet materiallarının hazırlanması, elmi tədqiqatların aparılması sayəsində dünyaya göstərəcəyik ki, Azərbaycan bu sahədə də birinci yerdədir.

Şamaxı astrofizika rəsədxanasında əsaslı təmir işləri gedir, daha doğrusu, bütün infrastruktur yenidən qurulur. Bu məqsədlər üçün prezidentin ehtiyat fondundan vəsait ayrılmışdır. Bir müddət bundan əvvəl Şamaxı rayonunda olarkən orada gedən işlərlə tanış olmuşdum. Alimlərin yaşaması, fəaliyyəti, elmi tədqiqatların aparılması üçün bütün işlər çox gözəl, müasir səviyyədə görülür. Hesab edirəm ki, bu rəsədxana dünya miqyasında öz müasirliyi və gözəlliyi ilə seçiləcəkdir. Azərbaycan elminin inkişafına, bu sahədəki elmin inkişafına yeni təkan veriləcəkdir. Gələcəkdə rəsədxana turistlər üçün də açıq olmalıdır. Orada müəyyən ekskursiyalar təşkil olunmalıdır. İndi Azərbaycanda turizm imkanları geniş inkişaf edir. Bakıda, Bakıya yaxın olan Şamaxı rayonunda böyük quruculuq işləri aparılır, gözəl yol çəkilib. İndi biz Bakı–Şamaxı yolunu genişləndirəcəyik.

Sumqayıtda Polimer Materialları İnstitutunun təmiri ilə əlaqədar fikir səslənmişdir. Tapşırıq verəcəyəm ki, bu məsələ araşdırılsın və kömək göstəriləcəkdir. Bütövlükdə kimya elminin inkişafına diqqət göstərilməlidir və göstərilir. Mən giriş sözümdə qeyd etdim ki, neft-kimya sahəsinə böyük diqqət

göstərilir. Azərbaycanda müasir neft-kimya kompleksinin yaradılması ilə əlaqədar tapşırıqlar verilmişdir. Müasir neftayırma zavodunun tikintisi ilə bağlı tapşırıqlar verilmişdir. İndi layihə hazırlanır. Bu sahədə də ən müasir texnologiyaları cəlb etməliyik. Dövlət Neft Şirkətinə göstəriş verəcəyəm ki, Azərbaycan alimlərini bu işlərə maksimum dərəcədə cəlb etsinlər və bu işləri birgə görsünlər.

Nizami mərkəzinin yaradılması ilə əlaqədar səslənən təkliflər, hesab edirəm ki, təqdirəlayiqdir. Heç kimdə şübhə yoxdur ki, Nizami Gəncəvi dahi Azərbaycan şairidir. Bunu dünya bilir. Əgər ehtiyac yaranıbsa ki, bunu kiməsə sübut edək, biz bunu çox asanlıqla sübut edə bilərik. Nizaminin xatirəsi hər bir azərbaycanlı üçün əzizdir, doğmadır. Nizaminin əsərləri milli şüurumuzun tərkib hissəsidir. O ki qaldı hansısa qüvvələr tərəfindən bu əsərlərə yiyə çıxmaq, yaxud da özününküləşdirmək məsələsinə, əfsuslar olsun ki, biz belə hallarla dəfələrlə üzləşirik. Bunun da əsas səbəbi ondadır ki, Azərbaycan ədəbiyyatı, Azərbaycan mədəniyyəti, incəsənəti o qədər zəngindir ki, başqa tərəflərdən bizim milli sərvətimizi özününküləşdirmək üçün cəhdlər göstərirlər. Bu təkcə ədəbiyyatla, yaxud da ki, Nizaminin əsərləri ilə bağlı deyil, musiqimiz də ermənilər tərəfindən utanmadan oğurlanır. Dahi Üzeyir bəyin əsərləri, milli mətbəximiz ermənilər tərəfindən oğurlanır. Dünyaya erməni mətbəxi kimi təqdim etməyə çalışırlar. Halbuki milli yeməklərimizin adları da Azərbaycan sözləridir. Əgər ermənidən soruşsan, dolma ermənicə nə deməkdir, deyə bilməz. Necə ki, Qarabağ deyəndə, onlar üçün bu, sadəcə bir sözdür, mənasını bilmirlər. Çünki erməni sözü deyildir.

Biz öz milli, mədəni irsimizi qorumalıyıq. Bunun üçün təbliğat işləri daha da güclü olmalıdır, imkanlarımızı artırmalıyıq. Dünyada Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərir, 50-dən çox ölkədə Azərbaycan səfirlikləri uğurla fəaliyyət göstərir. Təbliğat imkanlarımız genişdir. Biz heç vaxt başqa xalqın milli dəyərinə, yaxud da ki, milli irsinə göz

dikməmişik. Ancaq əfsuslar olsun ki, bizə qarşı həmişə belə cəhdlər olub. Yenə də deyirəm, bunun əsas səbəbi Azərbaycan xalqının istedadı və mədəniyyətimizin zəngin olmasıdır. Biz mədəni irsimizi qoruyacağıq, bütövlükdə müstəqilliyimizi qoruyacağıq, müstəqil seçimimizi qoruyacağıq.

Əziz dostlar, bir daha sizi ürəkdən salamlayıram. Əminəm ki, akademiyanın inkişafı bundan sonra da uğurlu olacaqdır. Verilən əlavə tapşırıqlar yaxın zamanlarda akademiyanın inkişafına müsbət təsir göstərəcəkdir.

# RUSİYANIN MÜSTƏQİL HƏMKARLAR İTTİFAQLARI FEDERASİYASININ SƏDRİ, ÜMUMHƏMKARLAR İTTİFAQLARI BEYNƏLXALQ KONFEDERASİYASININ PREZİDENTİ MİXAİL ŞMAKOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Rusiya Federasiyası Müstəqil Həmkarlar İttifaqları Federasiyasının sədri, Ümumhəmkarlar İttifaqları Beynəlxalq Konfederasiyasının prezidenti Mixail Şmakovu qəbul etmişdir.*

*Mixail Şmakov Bakıda keçiriləcək «Miqrasiya problemləri və çağırışlar: Həmkarlar ittifaqlarının rolu» mövzusunda II konfransın önəmini qeyd etdi. O, Beynəlxalq Əmək Təşkilatı ilə birgə təşkil edilən bu tədbirdə müxtəlif ölkələrin nümayəndələrinin iştirak edəcəyini dedi. Qonaq bildirdi ki, tədbirin əsas məqsədlərindən biri də beynəlxalq miqrasiya məsələlərini müzakirə etməkdən ibarət olacaqdır. O bu baxımdan həmkarlar ittifaqı təşkilatlarının işçi miqrantların hüquqlarının qorunması istiqamətində həyata keçirdikləri işlərin əhəmiyyətini qeyd etdi. Rəhbəri olduğu təşkilatın Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə səmərəli əməkdaşlıq etdiyini vurğulayan qonaq bu mühüm məsələnin Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə imzalanan yeni müqavilədə də öz əksini tapdığını dedi.*

*Dövlətimizin başçısı Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə Rusiya Federasiyasının Müstəqil Həmkarlar İttifaqları Federasiyası arasında əməkdaşlığın ikitərəfli*

*münasibətlərimizin inkişafına öz töhfəsini verəcəyinə əminliyini bildirdi. İşçi miqrantların fəaliyyətinin hüquqi tənzimlənməsi məsələsinə toxunan dövlət başçısı bu məsələnin həm ikitərəfli münasibətlərin inkişafında, həm də MDB çərçivəsində əməkdaşlıq baxımından önəmini vurğuladı. Prezident İlham Əliyev sürətlə inkişaf edən ölkəmizdə xaricdən gələn işçi qüvvəsinin artdığını bildirərək, Azərbaycanda miqrantların əmək fəaliyyəti istiqamətində görülən işləri qeyd etdi.*

*Mixail Şmakov vaxtilə Sovetlər İttifaqının Həmkarlar İttifaqı Təşkilatına rəhbərlik edən bir qrup şəxsin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə çəkdirdiyi fotoşəkli xatirə olaraq dövlətimizin başçısına təqdim etdi. Sonra Mixail Şmakov dövlətimizin başçısını Ümumhəmkarlar İttifaqları Beynəlxalq Konfederasiyasının Fəxri gümüş nişanı, Beynəlxalq Rabitə İşçiləri Həmkarlar İttifaqları Komitəsinin Qızıl ordeni ilə təltif etdi. Mixail Şmakov Rusiya Federasiyası Müstəqil Həmkarlar İttifaqları Federasiyasının 100 illik yubileyi münasibətilə hazırlanmış abidənin maketini prezident İlham Əliyevə təqdim etdi.*

# İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MƏHƏMMƏD MEHDİ AXUNDZADƏ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da İran İslam Respublikası Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Məhəmməd Mehdi Axundzadəni qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlər, Xəzər dənizinin hüquqi statusunun hazırlanması istiqamətində aparılan danışıqların vəziyyəti müzakirə edilmiş, bu baxımdan Xəzəryanı ölkələrin dövlət başçılarının Bakı Sammitinin önəmi vurğulanmışdır.*

## *bp* ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də bp şirkətinin icraçı direktoru Robert Dadlini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə bp şirkəti arasında uzun illər uğurlu əməkdaşlıq həyata keçirildiyi vurğulandı.*

*bp şirkətinin icraçı direktoru Robert Dadli icrada olan layihələr üzrə işlərin gedişi barədə Azərbaycan prezidentinə məlumat verdi.*

*Görüşdə, həmçinin əməkdaşlığımızın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## ŞƏHƏRƏTRAFI QƏSƏBƏLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI SABUNÇU QƏSƏBƏSİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*27 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətində şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına həsr edilmiş müşavirədə kənd və qəsəbələrdə abadlıq və quruculuq işləri ilə bağlı verdiyi tapşırıqların icrası ilə tanış olmaq üçün ayrı-ayrı yaşayış sahələrində olmuşdur.*

*Aprelin 27-də dövlətimizin başçısı həyata keçirilən abadlıq və quruculuq işləri ilə yaxından tanış olmaq üçün Sabunçu qəsəbəsinə gəldi.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qəsəbənin sxemi əsasında görülən işlər barədə prezident İlham Əliyevə məlumat verdi.*

*Azərbaycan prezidenti Sabunçu vağzalının ətrafında əvvəlki vəziyyəti əks etdirən fotostendə baxdı. Bildirildi ki, Sabunçu vağzalının ətrafındakı ərazidə kanalizasiya, su və rabitə xətləri yeniləri ilə əvəz edilmişdir. 28 min kvadratmetr sahəsi olan Əslidar Məmmədəliyev küçəsinə ikiqat asfalt və 950 metr uzunluğunda səkiyə qranit piltə döşənib. Səkilərdə 1700 kvadratmetr sahədə asfalt işləri görülüb. Əlavə olaraq 22 min kvadratmetr sahəsi olan qəsəbədaxili küçələrə asfalt döşəmək üçün hazırlıq işləri aparılır. Sabunçu vağzalının binasında yenidənqurma işləri başa çatdırılıbdır.*

*Görülən işlərlə yaxından tanış olan prezident İlham Əliyev sakinlərlə görüşdü.*

*Qəsəbə sakinləri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

**S a k i n:** Hörmətli Prezidentimiz, xoş gəlmisiniz! Sizin son vaxtlar verdiyiniz sərəncamlar hamımızın ürəyincədir. Sizi həmişə dəstəkləmişik, yenə də dəstəkləyəcəyik. Çox sağ olun!

**İ l h a m Ə l i y e v:** Sağ olun. Bu sərəncamlar icra olunur. İndi bütün qəsəbələrdə yaxşı işlər gedir, yollar çəkilir, o cümlədən Sabunçu qəsəbəsində də bu işlər başlanmışdır. Bütün qəsəbələrin sosial-iqtisadi problemləri öz həllini tapmaqdadır. Bir neçə gündən sonra böyük Dövlət Proqramı qəbul olunacaqdır. Proqramda bütün məsələlər öz əksini tapacaqdır. Mən bilirəm ki, Sabunçu qəsəbəsinin də problemləri var. Biz bu problemləri bilirik və həll etməyə çalışırıq. İlk növbədə, yolların çəkilişi öz həllini tapmalıdır. Sonra kanalizasiya xətləri çəkilməlidir. Ümumiyyətlə, Sabunçu və digər qəsəbələrdə kanalizasiya xətləri olmayıb. Biz bu problemin həlli üçün çalışırıq. Bütün qəsəbələrdə su problemi var. O da ciddi problemdir. Elektrik enerjisi, qaz məsələsi tədricən öz həllini tapır. Ancaq biz bunu daha da böyük həcmdə etməliyik.

Proqramda Sabunçu qəsəbəsində yerləşən uşaq bağçalarının, məktəblərin təmiri nəzərdə tutulur. Əminəm ki, Sabunçu qəsəbəsinin sakinləri bu proqramın icrasını hiss edəcəklər. Qarşımıza bir neçə vacib məsələ qoyulubdur. Bakıətrafı qəsəbələrin inkişafı onların içərisində prioritet məsələdir. Mən qəsəbələrdə oluram, vəziyyətlə tanış oluram, özüm görürəm işlər necə gedir. Sizdən də eşitmək istərdim ki, hansı məsələlər sizi daha çox narahat edir. Biz hansı məsələlərdən başlamalıyıq? Yəni prioritetlər nədir və sizi narahat edən hansı məsələlərdir?

**S a k i n:** Cənab Prezident, Sabunçu qəsəbəsində 31 minə yaxın əhali yaşayır, bunların 5 minə yaxını məcburi köçkündür. Hər yerdə müəyyən problemlər olduğu kimi, Sabunçu qəsəbəsində də problemlər vardır. Bu problemlərdən biri poliklinika məsələsidir. Qəsəbədə həm böyüklər, həm də uşaqlar üçün poliklinika var. Böyüklər üçün olan 1898-ci ildə tikilib istifadəyə verilmiş bir binada yerləşir. Uşaq poliklinikasının yerləşdiyi bina isə 1925-ci ildə tikilmişdir. Hər ikisi bir-birinə yaxın yerdə yerləşir. İkisi də günün tələblərinə cavab vermir.

Sabunçuda yaşayan bütün əhali bu poliklinikalara müraciət edir. Bütün sakinlər adından Sizdən xahiş edirəm qəsəbəmizdə hər iki poliklinikanın yerləşəcəyi yeni bir binanın tikilməsinə sərəncam verəsiniz. Bu bizə ən yaxşı töhfə olardı.

**İ l h a m Ə l i y e v:** Yaxşı, biz bunu təşkil edərik. Doğrudan da buna böyük ehtiyac vardır. İndi ölkəmizin bütün yerlərində müasir tibb ocaqları yaradılır. Bakıda və Bakı qəsəbələrində də bu işlər lazımi səviyyədə aparılmalıdır. Burada bu məsələlər müasir səviyyədə öz həllini tapmalıdır. Çünki bu tibb ocaqları köhnəlibdir, avadanlıq da sıradan çıxıbdır. Şərait də o qədər yaxşı deyildir.

**S a k i n:** Qəsəbəmizdə yeni poliklinika binasının tikilməsi üçün sərəncam versəniz çox yaxşı olar. Biz hamımız Sizi həmişə alqışlamışıq, alqışlayırıq və ömrümüzün axırına qədər alqışlayacağıq.

**İ l h a m Ə l i y e v:** Bu hələ birinci mərhələdir. Əsas yollar təmir olunacaq, uşaq bağçaları, məktəblər, tibb məntəqələri tikiləcək, kanalizasiya, su xətləri çəkiləcək. Biz bu işlərə kompleks şəkildə yanaşırıq ki, 2013-cü ilin sonuna qədər əsas məsələlər öz həllini tapsın. Proqramı da biz məhz 2011–2013-cü illər üçün nəzərdə tutmuşuq. 2011-ci ilin ilk dörd ayının artıq başa çatmasına baxmayaraq, qalan aylar ərzində çox ciddi işlər başlanacaqdır. Bəli, Sabunçu qəsəbəsinin çox böyük tarixi vardır, qədim yaşayış məntəqəsidir. Ona görə, biz gərək bu tarixi qəsəbəni gözəlləşdirək, abadlaşdıraq. Burada yaşamaq, işləmək üçün şərait yaxşı olmalıdır, iş yerlərinin yaradılması üçün tədbirlər görülməlidir. Hər şey bu yol kimi yüksək səviyyədə, müasir səviyyədə olmalıdır.

**S a k i n:** Sabunçu qəsəbəsindən aeroporta getməyə imkanımız yoxdur. Elə Bakıxanov qəsəbəsinə də. Biz avtobusa minib Maştağa tərəfə getməli, sonra oradan mərkəzi yola qayıtmalı və Bakıxanov qəsəbəsinə gəlməli oluruq, çünki inzibati mərkəzlərimiz orada yerləşir. Məhz Bakıxanov qəsəbəsinə tez gedib çatmağa imkan yoxdur. Bu problemi qısa müddətdə həll etmək olar, çünki bizdə birtərəfli bir yol vardır, onu imkan daxilində genişləndirmək mümkündür.

**İ l h a m Ə l i y e v:** Belə məsələləri qısa müddətdə həll etmək olar. Bülbülədə bu işi bir həftəyə gördük.

**S a k i n:** Özü də çox gözəl yerinə yetirilmişdir.

**İ l h a m Ə l i y e v:** Həm də rahat olmuşdur. Biz yollar, böyük traslar tikirik. Yaxşı ki, siz bu məsələni qaldırdınız.

**S a k i n:** Gəlişinizə görə Sizə təşəkkür edirik! Sizə cansağlığı, xoşbəxtlik diləyir, ən xoş arzularımızı bildiririk.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Dediyiniz kimi, Sabunçu rayonunda bütün millətlərin nümayəndələri tarix boyu bir ailə kimi yaşayıblar. Bu, ölkəmizin xüsusiyyətidir. Biz bu vəziyyəti yaxşı qiymətləndiririk, dəyərləndiririk. Bundan sonra da Azərbaycanda bütün xalqların nümayəndələri bir ailə kimi, mehriban qonşuluq şəraitində yaşayacaqlar. Əlbəttə, hər bir qəsəbənin inkişafı çox böyük əhəmiyyətə malikdir. Çünki Bakıətrafı qəsəbələrdə 800 mindən artıq əhali yaşayır. Sabunçu qəsəbəsində 30 min, amma Sabunçu rayonunda isə 200 mindən artıq əhali vardır.

* * *

*Qəsəbə sakinləri ilə görüşdən sonra Azərbaycan prezidenti İlham Əliyev Sabunçudan Bakıxanov qəsəbəsinə və Heydər Əliyev prospektinə aeroport istiqamətində nəqliyyatın çıxışını təmin etmək üçün çəkiləcək yeni yolun keçəcəyi ərazi ilə tanış olmaq məqsədilə həmin sahəyə gəldi. Ərazi ilə yaxından tanış olan prezident İlham Əliyev yeni yolun çəkilişi ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

# ABŞ KONQRESİNDƏ AZƏRBAYCAN ÜZRƏ İŞÇİ QRUPUNUN HƏMSƏDRİ BİLL ŞUSTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 aprel 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də ABŞ-ın Pensilvaniya ştatından respublikaçı, Konqresin Silahlı Qüvvələr və Nəqliyyat komitələrinin üzvü, Azərbaycan üzrə işçi qrupunun həmsədri Bill Şusterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nümayəndə heyətinin tərkibinə Nyu-Cersi ştatından respublikaçı, Silahlı Qüvvələr, Təbii Ehtiyatlar və Veteranlar məsələləri üzrə komitələrin üzvü Con Runian, İllinoys ştatından respublikaçı, Enerji və Ticarət komitələrinin üzvü Adam Kinzinger, Viskonsin ştatından respublikaçı, Maliyyə Xidmətləri və İqtisadiyyat komitələrinin üzvü Şon Daffi, Luiziana ştatından demokrat, Milli Təhlükəsizlik və Kiçik Biznes komitələrinin üzvü Sedrik Riçmond, Konnektikut ştatından demokrat, Xarici Əlaqələr, Nəzarət və Hökumət İslahatları komitələrinin üzvü Kristofer Mörfi daxildirlər.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələri, energetika sahəsində həyata keçirilən əməkdaşlıq və digər sahələrdə əlaqələrin bugünkü vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmış, Azərbaycanın Əfqanıstandakı sülhməramlı missiyada iştirakı və beynəlxalq antiterror əməliyyatlarının həyata keçirilməsi işinə verdiyi töhfə qeyd olunmuşdur.*

*Görüşdə, həmçinin regional məsələlərə də toxunulmuşdur.*

## UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*28 aprel 2011-ci il*

*Aprelin 28-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Ukrayna prezidenti Viktor Yanukoviçin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Ukrayna prezidenti Viktor Yanukoviçi qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Ukrayna prezidentinə raport verdi.*

*Ukraynanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Ukrayna prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Viktor Yanukoviçə, Ukrayna nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*28 aprel 2011-ci il*

*Aprelin 28-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yanukoviçin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.*

*Dövlət başçıları yüksək səviyyədə qarşılıqlı səfərlərin əlaqələrin möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd etdilər.*

*Prezidentlər ölkələrimiz arasında siyasi, iqtisadi, energetika, humanitar və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu bildirdilər, əlaqələrin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə etdilər.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏR ŞURASININ ÜÇÜNCÜ İCLASI

*Prezident sarayı*

*28 aprel 2011-ci il*

*Aprelin 28-də Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yanukoviçin təkbətək görüşü başa çatdıqdan sonra iki ölkənin Prezidentlər Şurasının üçüncü iclası olmuşdur. İclasda Azərbaycan və Ukrayna nümayəndə heyətlərinin üzvləri iştirak etmişlər.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Viktor Fyodoroviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda ürəkdən salamlayıram. Sizi ölkəmizdə görməyə çox şadam. Bu Sizin Ukrayna prezidenti kimi, Azərbaycana ilk səfərinizdir. Əminəm ki, səfər uğurlu olacaq, yaxşı nəticələr əldə ediləcək, biz irəliyə doğru fəal hərəkət edəcəyik. Mən, həmçinin keçən il Sizin ölkənizə səfərim zamanı mənə göstərilmiş qonaqpərvərliyə görə təşəkkür etmək istəyirəm. Biz ölkələrimiz arasında əməkdaşlığın əsas istiqamətlərini müəyyən etmişik. Bütün istiqamətlər üzrə fəal irəliləyirik. Hökumətlərarası Komissiya səmərəli işləyir, siyasi dialoq inkişaf edir. Bu gün Sizinlə təkbətək görüşdə biz münasibətlərimizin geniş gündəliyini müzakirə etdik. Lakin bu gün razılaşdırılmış gündəliyi Prezidentlər Şurasının iclasında da müzakirə edəcəyik. Gündəlik geniş, çox müfəssəl və konkretdir. Əminəm ki, Prezidentlər Şurasının iclasının yekunlarına əsasən biz öz münasibətlərimizin inkişafının sonrakı addımlarını müəyyən edəcəyik. Biz bu münasibətləri çox yüksək qiymətləndiririk, onların qədrini bilirik və əminik ki, Ukrayna ilə Azərbaycan ara-

sında münasibətlərin daha da inkişaf etməsi regional kooperasiyanın da genişlənməsinə kömək edəcəkdir.

Sizi bir daha ürəkdən salamlayıram və ümid edirəm ki, səfər uğurlu və xoş olacaqdır.

Xoş gəlmisiniz!

**V i k t o r Y a n u k o v i ç:** Sağ olun, möhtərəm İlham Heydər oğlu!

Hörmətli iclas iştirakçıları!

İlham Heydər oğlu, mən ilk növbədə, Azərbaycan Respublikasına rəsmi səfərə dəvət edildiyimə və buraya gəlmək imkanıma görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Bizim ölkələr artıq çoxdandır ki, strateji tərəfdaşlardır. Mən deyərdim, bu bir-biri ilə çox yaxın olan iki ölkə arasında münasibətləri necə qurmaq lazım olduğunu göstərən parlaq nümunədir.

Biz ikitərəfli səviyyədə münasibətlərimizi çox uğurla inkişaf etdiririk. Bizim Hökumətlərarası Komissiya və altkomissiyalar gözəl işləyirlər. Onlar bütün istiqamətlər üzrə iş aparırlar. Keçən ilin yekunları bu işin nəticəsi olmuşdur. Bu səmərəli işin əyani nümunəsi belədir: ölkələrimiz arasında əmtəə dövriyyəsi artımı rekord səviyyəyə çatmışdır. Lakin bu hələ son hədd deyildir. Əminəm ki, imkanlarımız bundan qat-qat genişdir. Bunu görmək mənə xoş oldu ki, Ukrayna Rusiyadan sonra Azərbaycanın ikinci ticarət tərəfdaşına çevrilmişdir. Bu çox gözəl nəticədir.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*28 aprel 2011-ci il*

*Aprelin 28-də Azərbaycan və Ukrayna Prezidentlər Şurasının üçüncü iclasından sonra Azərbaycan–Ukrayna sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası və Ukrayna prezidentlərinin strateji tərəfdaşlıq münasibətlərinin gələcək inkişafı barədə Birgə Bəyannamə»ni, «Azərbaycan Respublikası və Ukrayna Prezidentlər Şurasının üçüncü iclasının Protokolu»nu, «Azərbaycan Respublikası ilə Ukrayna arasında 2011–2015-ci illərdə Hərtərəfli Əməkdaşlığa dair Tədbirlər Planı»nı Azərbaycan prezidenti İlham Əliyev və Ukrayna prezidenti Viktor Yanukoviç imzaladılar.*

## AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*Prezident sarayı*

*28 aprel 2011-ci il*

*Aprelin 28-də Azərbaycan–Ukrayna sənədlərinin imzalanması mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yanukoviçin birgə mətbuat konfransı olmuşdur.*

*Dövlət başçıları əvvəlcə jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox hörmətli Viktor Fyodoroviç!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Viktor Fyodoroviç, Sizi Azərbaycanda ürəkdən salamlayıram. Bu Sizin Ukrayna prezidenti kimi, ölkəmizə ilk səfərinizdir. Mən şadam ki, səfər çox uğurlu keçir, bu gün aparılan danışıqlar, fikir mübadiləsi bir daha ölkələrimizin və xalqlarımızın, dövlətlərimizin mövqelərinin nə qədər yaxın olduğunu göstərir.

Ölkələrimiz arasında ənənəvi çox mehriban dostluq münasibətləri mövcud olmuşdur. Hazırda bu münasibətlərin inkişafı yeni mərhələyə qədəm qoymuş, konkret məzmun kəsb etmişdir. Münasibətlərimiz dinamizmi və əlaqələrimizi bütün istiqamətlərdə inkişaf etdirmək üçün qarşılıqlı əzmlə fərqlənir.

Siyasi baxımdan çox fəal dialoq aparırıq. Biz daim əlaqədəyik və rəsmi səfərlər mübadiləsi ölkələrimiz arasında qarşılıqlı siyasi fəaliyyətin yüksək səviyyəsindən xəbər verir. Mən ötən ilin sonlarında Ukraynaya rəsmi səfərimi böyük səmimiyyətlə xatırlayıram. Təbii ki, qarşılıqlı səfərlər ölkələrimizin yaxınlaşmasına kömək edir. Biz, həmçinin beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edir, bir-birimizi dəstəkləyirik. BMT, ATƏT, Avropa Şurası, MDB və digər beynəlxalq təşkilatlarda əməkdaşlığımız böyük əhəmiyyət kəsb edir.

Bu gün biz iqtisadi, siyasi sahələrdə qarşılıqlı fəaliyyətlə bağlı çox geniş müzakirələr apardıq. Mən Ukrayna prezidentinə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vəziyyət barədə məlumat verdim. Münaqişənin həllində prinsipial mövqeyinə görə Ukraynaya təşəkkürümü bildirmək istəyirəm. Bu mövqe bu gün imzalanan Birgə Bəyannamədə də öz əksini tapmışdır. Bəyannamədə deyilir ki, münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ərazi bütövlüyü, suverenlik və dövlətlərin sərhədlərinin pozulmazlığı prinsipləri nəzərə alınmaqla nizama salınmalıdır.

Bu gün biz Prezidentlər Şurasının iclasında münasibətlərimizin iqtisadi hissəsini də müzakirə etdik, yaxşı rəqəmlər, nəticələr, əmtəə dövriyyəsinin artmasını gördük. Əlbəttə, əmtəə dövriyyəsinin sürətlə artması böyük nikbinlik və ümid doğurur.

Bizim şirkətlər tərəfindən həyata keçirilən investisiya layihələri də vardır. Əminəm ki, yaxın vaxtlarda onların həcmi artacaqdır.

Hərbi-texniki sahədə əməkdaşlıq da ənənəvi formata malikdir. Bu gün biz iqtisadiyyatın bu mühüm seqmentində yeni keyfiyyət səviyyəsinə çıxırıq, əməkdaşlığın istiqamətlərini genişləndiririk. Əminəm ki, bu gün mövcud olan təcrübə qarşılıqlı faydalı hərbi-texniki əməkdaşlığı çox fəal inkişaf etdirməyə imkan verəcəkdir. Bu əməkdaşlıq həm də birgə tədqiqatları və müştərək istehsalı nəzərdə tutur.

Energetika sahəsində əməkdaşlıq münasibətlərimizin mühüm tərkib hissəsidir. Burada işlərimiz çox uğurla gedir. Bu

artımın nə qədər sürətli olmasını görmək üçün Azərbaycandan Ukraynaya neft və neft məhsulları satışının həcminə dair keçən ilin statistikasına nəzər salmaq kifayətdir. Təkcə keçən il Ukraynaya təqribən 1,5 milyon ton Azərbaycan nefti nəql edilmişdir. Bu, ölkələrimiz arasında fəal və çox səmərəli əməkdaşlığın nəticəsi olan yeni layihədir. Bu məsələ uzun illər boyu diskussiya mərhələsində olmuşdur. Bu gün o, artıq özünün konkret həllini tapmışdır.

Bu ilin yanvar ayında biz, iki prezident Azərbaycanın maye qazının Ukrayna ərazisinə nəql edilməsi haqqında sənəd də imzalamışıq. Biz bu layihəyə böyük əhəmiyyət veririk və bu gün həmin mövzuda məsləhətləşmələr aparılır. Bizim çox zəngin qaz ehtiyatlarımız vardır və qaz satışının coğrafiyasını şaxələndirməyə çalışırıq. Zənnimcə, bu da ukraynalı tərəfdaşlarımız üçün maraq doğurur.

Başqa sözlə desək, bugünkü müzakirələrin və Prezidentlər Şurasının iclasının yekunları çox sanballıdır. Bir daha deyirəm, bu nəticələr konkret, praqmatik, realist olmaqla möhkəm siyasi və humanitar əlaqələrə əsaslanır.

Dostumuz Viktor Fyodoroviç Yanukoviçi ölkəmizdə qəbul etmək mənə çox xoşdur. Ölkəmizə Sizin sonuncu səfərinizi xatırlayıram, o vaxt Siz Baş nazir idiniz. O vaxtdan 5 il keçmişdir. Lakin bütün bu illər ərzində əlaqələrimiz, münasibətlərimiz davam etmişdir. Bu gün bu münasibətlər ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə çox cəhətdən kömək edir.

Bir daha xoş gəlmisiniz, Viktor Fyodoroviç!

## Ukrayna prezidenti Viktor Yanukoviçin bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Ukraynanın və Azərbaycan Respublikasının nümayəndə heyətlərinin hörmətli üzvləri!

Azərbaycan Respublikasının və Ukraynanın Prezidentlər Şurasının növbəti, üçüncü iclası indicə başa çatmışdır. Bundan

əvvəl İlham Heydər oğlu ilə təkbətək formatda bir sıra məsələləri müzakirə etmişik. Biz indicə İlham Heydər oğlunun dediyi məsələlərin praktiki olaraq bütün spektrini, birgə planlarımızın həyata keçirilməsi mexanizmlərini çox ətraflı müzakirə etməyə müvəffəq olduq. Hörmətli İlham Heydər oğlu, demək istəyirəm ki, Bakının yeniləşmiş görkəmi məni ürəkdən sevindirir. Biz Bakıya gələn kimi, imkan tapib həmkarlarımızla fikir mübadiləsi apardıq. Çünki mənim kimi, burada iştirak edənlərin əksəriyyəti son 5 ildə Bakıda olmamışlar. Biz gördük ki, müxtəlif informasiya məlumatlarında, statistik nəşrlərdə deyilən tərəqqi göz qabağındadır. Bunlar onu göstərir ki, Azərbaycan iqtisadiyyatı ilbəil çox yüksək sürətlə inkişaf edir. Bizim üçün bu, hər hansı kəskin daxili və xarici siyasi dəyişiklikləri qəbul etməyən dövlət idarəçiliyi sisteminin necə səmərəli işləyə bilməsini göstərən əyani nümunədir. Sabitlik dövlətin inkişafının əsasıdır.

Mənə çox xoşdur ki, Azərbaycanın Ukraynaya münasibətdə siyasəti də bu sabitliyin tərkib hissəsidir. Bu ənənələr hələ Heydər Əliyevlə başlanmışdır. Ukrayna üçün çox ağır illərdə Heydər Əliyev bizə kömək əlini uzatmışdır. O vaxt, keçən əsrin 90-cı illərində Ukraynada yanacaq-sürtkü materialları yox idi. Azərbaycan həmin məhsulların əldə olunmasında Ukraynaya kömək etdi və biz ölkəmizdə kənd təsərrüfatı işlərini yanacaqla təmin etdik və bütövlükdə ölkəyə, necə deyərlər, bir udum oksigen verdik. Ukrayna xalqı bunu unutmur, Heydər Əliyevin ruhu şad olsun.

Ölkələrimiz arasında münasibətlərin əsasını təşkil edən ənənələr davam edir. Əgər bu gün ölkələrimizin bu qədər böyük potensiala malik olduğu bir şəraitdə xalqlarımızın həyatını yaxşılaşdırmağın əsası olan iqtisadiyyatın səviyyəsini xeyli artırmaq vəzifəsini qarşıya qoymasaq, yəqin ki, haqlı olmarıq.

Ötənilki əmtəə dövriyyəsi ölkələrimizin müstəqillik qazandığı bütün illər içərisində görünməmiş səviyyədir. Bu il Ukrayna da, Azərbaycan da müstəqilliklərinin 20-ci ildönümünü qeyd edəcəkdir. Biz ötən il parlaq nümunə göstərdik, əmtəə dövriyyəsi elə səviyyəyə qalxdı ki, hazırda Ukrayna

Azərbaycanla bu göstərici üzrə ikinci yeri tutur. Mən bu gün bunu artıq ikinci dəfədir deyirəm. Bu bizim üçün xoşdur. Əlbəttə, razılaşmalarımızı yerinə yetirməyimiz, onlara əməl etməyimiz çox vacibdir. Nəhayət, Odessa–Brodı neft kəməri işə düşdü. Əlbəttə, onun Baltik dənizinə qədər uzadılması vacibdir. Yəqin ki, biz bu məsələni yaxın gələcəkdə necə həll etmək barədə düşünməliyik. Biz bu məsələni İlham Heydər oğlu ilə müzakirə etmişik. Biz neft kəmərinin Baltik dənizinədək çatması üzərində işləyəcəyik. Mən planlarımızın təfsilatları barədə danışmayacağam. Lakin biz gözəl başa düşürük ki, mövcud imkanları mütləq birlikdə həyata keçirməliyik.

İlham Heydər oğlu məni, demək olar ki, bir çox məsələlər barədə danışmaq imkanından məhrum etdi. Çünki o çox şey barədə danışdı. Təkcə onu əlavə edə bilərəm ki, birgə həyata keçirmək barədə razılığa gəldiyimiz müştərək sərmayə layihələri əlli-əlliyə gerçəkləşdiriləcəkdir. Bu layihələri birlikdə maliyyələşdirmək nəzərdə tutulmuşdur. Bu o deməkdir ki, inşa edəcəyimiz obyektlər, hansı ərazidə tikilməsindən asılı olmayaraq, dövlətlərimizin – Azərbaycan Respublikasının və Ukraynanın birgə mülkiyyəti olacaqdır. Bu, etimadın ən yüksək səviyyəsidir və əlbəttə, düşünürəm ki, biz əvvəlcə birlikdə layihələşdirib, sonra həyata keçirsək səmərəlilik daha da artar.

İndi nəzərdən keçirdiyimiz bir sıra layihələr təkcə layihələşdirməyə deyil, həm də müxtəlif elmi tədqiqatlara, yeni texnologiyaların inkişafı sahəsinə, elmi-təcrübə bazalarımızın, elmi-tədqiqat təşkilatlarının fəaliyyətinə aiddir. Bunlar ən yaxın gələcəkdə həyata keçirəcəyimiz planlardır. Bu gün biz belə müqavilələr imzaladıq. Başqa sözlə, birgə qərarlarımızın səmərəliliyi bu gün imzaladığımız 2014–2015-ci illərədək olan dövr üçün planların əsasını təşkil edir. Orada müxtəlif sənədlər vardır.

Mən həm də Azərbaycan torpağında bizə göstərdiyiniz çox böyük qonaqpərvərliyə, əlbəttə, qərarların qəbul edilməsində və həyata keçirilməsində operativliyə görə nümayəndə heyətimiz

adından təşəkkürümü bildirmək istəyirəm. Bu, ikitərəfli münasibətlərimiz üçün səciyyəvidir.

Qarşıda bizi müxtəlif beynəlxalq təşkilatlarda birgə fəaliyyətimizin əlaqələndirilməsinə dair böyük işlər gözləyir. Bu, iqtisadiyyatın qloballaşdırılması, müxtəlif texnogen qəzaların nəticələrinin aradan qaldırılması şəraitində çox vacibdir. Bununla əlaqədar, Çernobıl Atom Elektrik Stansiyasında «Örtük» layihəsinin həyata keçirilməsi üçün Çernobıl Fonduna bir milyon dollar köçürülməsi barədə qərara görə, İlham Heydər oğlu, Sizə, Azərbaycan xalqına təşəkkürümü bildirmək istəyirəm. Bu da xalqlarımız arasında qırılmaz əlaqələrin dar gündə də, Ukrayna sakinlərinin təhlükəsizliyi, 25 il əvvəl baş vermiş faciə ilə bilavasitə bağlı qərar qəbul etmək vaxtı çatanda da özünü büruzə verməsinin parlaq nümunəsidir. Bu faciə indi də Ukrayna xalqını böyük gərginlikdə saxlayır. Çünki biz o faciənin nəticələrinə görə təkcə qonşu ölkələr qarşısında deyil, həm də Avropa qarşısında, bütün dünya qarşısında məsuliyyət hiss edirik. Biz bilirik ki, bu layihə 2015-ci ildən sonra Çernobıl qəzasının nəticələrini birdəfəlik aradan qaldırmağa, başqa sözlə, qəzalı bloku söküb nüvə yanacağının qalıqlarını oradan çıxarmağa imkan verəcəkdir. Buna görə də Sizə çox böyük təşəkkürümü bildirir, Azərbaycan xalqı qarşısında baş əyirəm.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.*

**S u a l: Hörmətli prezidentlər, maye qaz barədə razılaşmanı bir qədər konkretləşdirə bilərdinizmi? Məsələn, Ukraynada terminalın necə inşa ediləcəyi məsələsində artıq aydınlıq vardırmı? Bu işə sərmayə qoyulacaq, yoxsa dövlətlərin hesabına tikiləcəkdir? Azərbaycan bu terminalı qazla təmin edə bilərmi və o rəqabətədavamlı olacaqdırmı?**

**İ l h a m Ə l i y e v:** Bu barədə sənəd bu ilin yanvar ayında Davosda Viktor Fyodoroviçlə görüşümüz zamanı imzalanmışdır. O qədər də çox vaxt keçməmişdir və indi biz bu mövzuda ciddi məsləhətləşmələrə başlayırıq. Sizin dediyiniz məsələlər bu

layihənin həyata keçirilməsi baxımından çox böyük əhəmiyyət kəsb edir. Çünki bu layihəni həyata keçirmək üçün bütün texniki, kommersiya, hüquq məsələləri həll edilməlidir. Bizim diskussiyalar zamanı gördük ki, ukraynalı tərəfdaşlarımız bu layihəni həyata keçirməyə çox səy edirlər. Bu layihə Ukrayna tərəfinin təşəbbüsü ilə başlanmışdır. Bu onu göstərir ki, Ukrayna bu layihənin həyata keçirilməsində, eləcə də təchizat mənbələrinin şaxələndirilməsində maraqlıdır. Buna görə bu gün biz ölkələrimizin nazirlikləri, həmçinin şirkətləri səviyyəsində bu mövzuda fəal məsləhətləşmələr aparırıq və düşünürəm ki, bu məsləhətləşmələrin nəticəsi artıq konkret təkliflər və texniki-iqtisadi əsaslandırmalar olacaqdır. Bu sənədlərdə məhz mənim dediyim məqam – layihənin kommersiya tərəfi, təchizatın həcmi, nəqliyyat amili, bu qazın çatdırılması üçün zəruri vasitələr öz əksini tapacaqdır. Bildiyiniz kimi, burada da müxtəlif variantlar vardır. Ona görə də biz bunu perspektivli layihə hesab edirik və biz onun həyata keçirilməsi ilə əlaqədar proseslərdə fəal iştirak edəcəyik.

Təchizatın həcmi məsələsinə gəldikdə, burada yəqin ki, bizim malik olduğumuz rəqəmləri göstərmək kifayətdir, mən həcm göstəricilərini nəzərdə tuturam. Azərbaycanda təbii qazın təsdiqlənmiş ehtiyatlarının həcmi 2,2 trilyon kubmetrə bərabərdir. Yaxın gələcəkdə planlaşdırılan investisiyaların məbləği milyardlarla, bəlkə də 10 milyardlarla dollar ilə ölçüləcək. Bu, hasilatı artırmağımıza imkan verəcəkdir və təbii ki, biz təchizatın şaxələndirilməsində maraqlıyıq. Bu gün biz qaz ehtiyatlarımızı qonşu ölkələrə nəql edirik. Əlbəttə, biz bu ənənəvi bazarlara təchizatın artırılmasında, eləcə də yeni bazarlara çıxmaqda maraqlıyıq. İstehlakçı ölkələr yeni mənbələrdə maraqlı olduğu kimi, istehsalçı ölkələr də yeni bazarlarda maraqlıdırlar. Burada istehlakçıların və istehsalçıların maraqları üst-üstə düşür. Düşünürəm ki, biz lap yaxın vaxtlarda bu mövzuda fəal silsilə məsləhətləşmələr aparacağıq və onda artıq bu məsələdə daha çox aydınlıq olacaqdır.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Energetika sahəsində Azərbaycan ilə Ukrayna arasında əməkdaşlıq uğurla inkişaf edir. Qeyri-neft sektorunda da ölkələrimiz arasında münasibətlərin inkişaf etdirilməsi üçün böyük imkanlar vardır. Siz bu sahədə əməkdaşlığın perspektivlərini necə qiymətləndirirsiniz?**

**İ l h a m  Ə l i y e v:** Bu gün biz bu məsələləri çox fəal müzakirə etmişik və Prezidentlər Şurasının iclasında bu məsələ diskussiyalarımızın bir hissəsi olmuşdur. Əlbəttə, energetika sahəsində əməkdaşlıqla əlaqədar məsələlər xüsusi maraq doğurur. Lakin biz iqtisadiyyatlarımızı da şaxələndirməli, əmtəə dövriyyəsinin strukturuna da nəzər salmalıyıq. Hökumətlərarası komissiyanın həmsədrləri bizə bu gün məruzə etdilər ki, bizim Ukraynaya ixracın mütləq əksəriyyəti neft və neft məhsullarıdır. Bu özlüyündə yaxşı amildir. Biz istərdik ki, ixracın nomenklaturu daha çox şaxələnsin. Xüsusən ona görə ki, Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına böyük əhəmiyyət verilir. Emal sənayesi inkişaf edir, sənaye istehsalı artır. Düşünürəm ki, hökumətlərarası komissiyanın bu yaxınlarda Bakıda keçirilmiş iclası çərçivəsində bu məsələ müzakirə olunmuşdur və bizim necə əməkdaşlıq edə biləcəyimizin konkret yolları müəyyən ediləcəkdir.

Bu gün müzakirə etdiyimiz məsələlərdən, qeyri-neft sektorunda əlaqələrin konkret istiqamətlərindən hərbi-texniki sahədə əməkdaşlığın adını çəkmək istərdim. Bu barədə mən artıq danışdım. Burada da bizim bir neçə komponentimiz vardır – alışlar, birgə istehsal, habelə müştərək araşdırmalar. Bundan əlavə, biz bu gün aerokosmik sahədə əməkdaşlığın perspektivlərini də müzakirə etdik. Burada Ukraynanın da çox böyük potensialı və bu sahədə ənənələri vardır, Azərbaycan da bu sahəni inkişaf etdirməyi çox arzulayır. Bizim kosmik məsələlər üzrə agentlik yaratdığımızı, kosmik sənaye yaratmaqda olduğumuzu və gələn ilin sonuna qədər ilk telekommunikasiya peyki buraxacağımızı nəzərə alsaq, bu sahə bizim üçün prioritet sahələrdən birinə çevrilir.

Zənnimcə, qeyri-neft sektorunda bu iki istiqamət üstünlük təşkil edəcəkdir. Əlbəttə, kənd təsərrüfatı məhsulları istehsalı, emal məhsulları istehsalı sahəsində də böyük perspektivlər vardır. Biz müştərək istehsalatlar yaratmaq, həm ixracın, həm də idxalın nomenklaturunu genişləndirmək barədə fikirləşirik.

**Viktor Yanukoviç:** Mən vurğulamaq istərdim ki, Ukraynada Azərbaycana ixracın strukturunda məhsulların spektri çox genişdir və bunlar əsasən əlavə dəyər səviyyəsi yüksək olan məhsullardır. Buraya maşınqayırma, elektrotexnika məhsulları, Ukrayna ilə Azərbaycan arasında onilliklər boyu əlaqələri olan iqtisadiyyatın ənənəvi sahələrinin məhsulları daxildir. Lakin bu gün biz artıq o barədə danışırıq ki, bu məhsulun bir qismini Azərbaycanda buraxmaq olar. Biz bu məsələləri müzakirə etmişik və gələcəkdə bu strategiyaya riayət edəcəyik. Yəni, Azərbaycan ərazisində müştərək müəssisələr yaradacağıq ki, gələcəkdə bu texnikaya xidmət etmək, servis xidmətləri göstərmək, Ukraynada istehsal edilən, Azərbaycanda istehsal etməyin mənası olmayan dəstləşdirmə məmulatlarından qismən istifadə etməklə məhsul istehsal etmək mümkün olsun. Dəstləşdirici məmulatların müəyyən hissəsi isə Azərbaycanda istehsal ediləcəkdir.

Bir daha təkrar edirəm, bu məhsulların spektri çox genişdir. İlham Heydər oğlu çox məsələlər haqqında danışdı, mən isə, əlbəttə, əlavə edə bilərəm ki, Azərbaycanda işləyə biləcək kənd təsərrüfatı texnikasının, Ukraynada istehsal edilən müxtəlif markalı avtomobillərin buraxılışı məsələlərini də müzakirə etməyə dəyər və bu gün həmin avtomobillər Azərbaycanda istismar edilir. Lakin biz onları burada yığa bilərik və bu, təkcə Azərbaycan üçün deyil, bizim həmin texnika ilə təmin etdiyimiz bütün Xəzər regionu üçün maraqlı olacaqdır.

Bütövlükdə əməkdaşlığımız bizim iqtisadiyyatların bir-birini qarşılıqlı tamamlamasına və ölkələrimizdə mövcud olan ənənəvi istiqamətlərin rəqabət qabiliyyətini təmin etməyə yönəlmişdir. Bu gün biz düşünürük ki, Ukraynada olan potensialımız azərbaycanlı həmkarlarımız, tərəfdaşlarımız üçün

tam həcmdə istifadə edilə bilsin. Təbii ki, İlham Heydər oğlu ilə biz Azərbaycan məhsullarının Ukraynaya göndərilməsi barədə də danışdıq. Hazırda yanacaqdoldurma stansiyaları tikirik. Bu bizim marağımıza uyğundur, həmçinin Ukrayna ərazisində neft emalı zavodunun tikilməsi, ola bilsin ki, alınması, modernləşdirilməsi məsələlərini də müzakirə edirik. Perspektiv baxımından bu tamamilə real və maraqlıdır. Əlbəttə, xammal satışından əlavə, onu bizdə, Ukrayna ərazisində emal etmək də maraqlıdır. Buna görə də münasibətlərimizin əsasını təşkil edən etimad, dostcasına qarşılıqlı anlaşma qərarlar qəbul edilməsini və yaxın müddət üçün nəzərdə tutduğumuz işlərin yerinə yetirilməsini müəyyən dərəcədə sürətləndirəcəkdir. Hesab edirəm ki, bizim bu işlərin sürətini yalnız artırmaq perspektivi vardır. Bu gün həmin sürət optimaldır, münasibətlərimiz üçün əlverişlidir və güman edirəm ki, biz münasibətlərdə bu vəziyyəti uzun müddət qoruyub saxlayacağıq.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 aprel 2011-ci il*

**MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT**
**VI MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Mərakeş şəhərində törədilmiş terror aktı nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi olduqca sarsıtdı.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorun bütün təzahürlərini qətiyyətlə pisləyir, terrorizmə qarşı mübarizəni hər cür dəstəkləyirik.

Baş vermiş faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Mərakeş xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 aprel 2011-ci il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ**

Ülyahəzrət!

Nəvəniz – Şahzadə Uilyamın toyu münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Sizə ən xoş arzularımı yetirir, yeni ailə həyatına qədəm qoyan gənclərə möhkəm cansağlığı və xoşbəxtlik diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 aprel 2011-ci il*

# BAKIDA KEÇİRİLƏN X AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR, II ÜMUMRESPUBLİKA DAXİLİ TURİZM SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*Bakı Sərgi Mərkəzi*

*29 aprel 2011-ci il*

*Aprelin 29-da prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Sərgi Mərkəzində keçirilən X Azərbaycan Beynəlxalq turizm və səyahətlər, II Ümumrespublika daxili turizm sərgiləri ilə tanış olmuşlar.*

*Son illər Azərbaycanın uğurlu iqtisadi inkişafı, dayanıqlı sabitlik respublikamıza turist axınını şərtləndirən əsas amillərdəndir. Azərbaycanın coğrafi baxımdan əlverişli məkanda yerləşməsi, flora və fauna növlərinin müxtəlifliyi ölkəmizin turizm imkanlarını daha da artırır. Prezident İlham Əliyevin sərəncamı ilə 2011-ci ilin Azərbaycanda «Turizm ili» elan edilməsi bu sahənin daha da inkişaf etdirilməsi istiqamətində mühüm addım olmuşdur. Kifayət qədər turizm potensialı olan Azərbaycan bu sahədə dünyanın aparıcı ölkələri ilə rəqabətə girməyə və öz imkanlarını nümayiş etdirməyə qadirdir. Ölkəmizin turizm imkanları ilə maraqlanan əcnəbilər bu sahəyə göstərilən dövlət qayğısını da yüksək qiymətləndirirlər. Artıq beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilən Azərbaycanda turizm sərgilərinin təşkili bu sahəyə olan marağın göstəricisidir. Belə sərgilər, həm də ölkəmizin turizm imkanlarının nümayiş etdirilməsi üçün əlverişli imkanlar yaradır.*

*Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi ilk dəfə 2002-ci ildə keçirilmişdir. Həmin il sərgidə 5 ölkədən 26 şirkət iştirak edirdisə, indi onların sayı xeyli artmışdır. Ötən illər ərzində sərgiyə təxminən 900-ə yaxın şirkət qatılmışdır.*

*Təsadüfi deyildir ki, Azərbaycan Beynəlxalq turizm sərgisi bütün Xəzəryanı regionun səyahət sənayesinin əsas hadisəsinə çevrilmişdir. Sərgi çərçivəsində müxtəlif görüşlər keçirilir, əməkdaşlıq müqavilələri imzalanır, yeni proqram, layihə və istiqamətlər müəyyənləşdirilir.*

*«İteca Caspian» şirkətinin dəstəyi ilə baş tutan Beynəlxalq sərginin II Ümumrespublika daxili turizm sərgisi ilə eyni vaxtda keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Çünki bu, xarici qonaqlara Azərbaycanın zəngin turizm potensialı, gözəl təbiəti, müalicəvi kurortları ilə tanış olmaq fürsəti verir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva X Azərbaycan Beynəlxalq turizm və səyahətlər və II Ümumrespublika daxili turizm sərgiləri ilə tanış olmaq üçün Bakı Sərgi Mərkəzinə gəldilər.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev bildirdi ki, sərgilərin «Turizm ili» kimi qeyd olunan 2011-ci ildə təşkil edilməsi əlamətdar hadisədir. Sərgidə Azərbaycanın turizm bölgələri də yüksək səviyyədə təmsil olunmuşdur.*

*Xaçmaz rayonu stendinin qarşısına gələn prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, bu rayonun geniş turizm imkanları vardır. Azərbaycanın ən tanınmış və sevilən istirahət zonalarından olan Xaçmaz həm dəniz, həm də meşə turizminin inkişafı baxımından çox əlverişlidir. Hazırda Xaçmazda 32 turizm obyekti lisenziya ilə fəaliyyət göstərir. Rayonda 2003-cü ildə mehmanxana və mehmanxana tipli bir obyekt var idisə, indi bu rəqəm 57-yə çatmışdır. Xaçmazda 62 tarixi abidənin olması rayonun turizm imkanlarını daha da artırır.*

*Bu potensial özünü Quba–Qusar bölgəsində də göstərir. Həmin region həm qış, həm də yay turizmi üçün əlverişlidir. Gözəl təbiət bu bölgəyə turistləri ilin bütün fəsillərində cəlb edir. Bu rayonlarda turistlərin qəbulu üçün gözəl şərait yaradılmışdır. 8 il əvvəl Qubada bir mehmanxana var idisə, hazırda onların sayı 29-dur. Bu, regiona gələn turistlərin istirahəti üçün geniş imkanlar açır.*

*Azərbaycanın cənub bölgəsi də özünün turizm potensialı ilə diqqəti cəlb edir. Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, özünəməxsus təbiəti və geniş istirahət imkanları olan bu bölgədə son illər turizmin inkişafı ilə bağlı görülən işlər öz bəhrəsini verir. Bu sırada Masallı da xüsusi yer tutur. Azərbaycanın gözəl guşələrindən olan bu rayona istirahətə gələnlərin sayı ilbəil artır. Hazırda rayonda Mədəniyyət və Turizm Nazirliyinin lisenziyası əsasında 22 turizm obyekti fəaliyyət göstərir. Eyni şərait Lənkəranda da yaradılmışdır. Burada 9 turizm obyekti turistlərin ixtiyarına verilmişdir. Lənkəranda çoxlu tarixi abidələrin olması turistlərin bu bölgəyə olan marağını daha da artırmışdır.*

*Dövlətimizin başçısı və xanımı Lənkəranın «Nənələr» folklor ansamblının ifasını dinlədilər.*

*Qeyd edildi ki, Lerik də cənub bölgəsində turizm imkanları geniş olan rayondur. Bildirildi ki, 2003-cü ilədək burada heç bir turizm obyekti olmasa da, indi onların sayı səkkizə çatmışdır.*

*Sərgidə İsmayıllı rayonunun turizm imkanlarının əks olunduğu stend də prezident İlham Əliyevdə və xanımı Mehriban Əliyevada maraq doğurdu. Bildirildi ki, rayonun dəniz səviyyəsindən 2500 metr yüksəklikdə yerləşən Lahıc kəndi daim öz sənətkarları ilə məşhur olmuşdur. Hər il Lahıca 8-10 min turist gəlir ki, onların da 80 faizi əcnəbilərdir. Bu rayonda müxtəlif millətlərin nümayəndələrinin birgəyaşayışı qonaqlarda maraq doğurur.*

*Azərbaycan prezidenti və xanımı «İvanovka» folklor qrupunun çıxışını izlədilər.*

*Qax və Zaqatala rayonlarının turizm potensialını əks etdirən stendlər də diqqət çəkirdi. Burada əks olunan məlumatlardan görünürdü ki, bölgənin turizm imkanları kifayət qədər inkişaf etmişdir. Hazırda Qaxda 7, Zaqatalada isə 6 turizm obyekti fəaliyyət göstərir.*

*Məlumat verildi ki, son illər Şəkidə də turizmin inkişafı üçün mühüm işlər görülmüşdür. Bunu rayona istirahətə gələnlərin*

*sayında müşahidə olunan artımdan da görmək olur. Əgər 2004-cü ildə Şəkiyə 2800 turist gəlmişdisə, ötən il onların sayı 15 minə yaxınlaşmışdır.*

*Qəbələ stendində rayonun səfalı yerləri ilə yanaşı, həm də müasir səviyyədə inşa edilən mehmanxana kompleksləri nümayiş olunur. Ötən il Qəbələyə 30 mindən çox turist gəlmişdir. Onlardan 4 mindən çoxu müxtəlif xarici ölkələrdən gələn qonaqlar olmuşdur. Turistlərin sayındakı artım, şübhəsiz ki, Qəbələdə yaradılan müasir turizm infrastrukturunun nəticəsidir.*

*Azərbaycanın ən səfalı bölgələrindən olan Şamaxının da turizm imkanları bu sərgidə yüksək səviyyədə nümayiş etdirilmişdir. Stendlə tanış olan dövlətimizin başçısına və xanımına məlumat verildi ki, səfalı təbiəti ilə diqqəti çəkən Şamaxı rayonunda həm yay, həm də qış turizmi üçün geniş imkanlar vardır. Hazırda Şamaxıda 12 turizm obyekti fəaliyyət göstərir.*

*Ölkəmizin həm qədim, həm də müasir şəhəri olan Gəncənin stendində isə sənətkarların əl işləri daha çox maraq doğururdu. Stenddə Gəncədə, Göygöldə, Daşkəsəndə və Hacıkənddəki istirahət mərkəzləri barədə geniş məlumatlar yer almışdır.*

*Diqqətə çatdırıldı ki, Azərbaycanın ən qədim və gözəl guşələrindən olan Naxçıvan da sərgidə uğurla təmsil olunur. Naxçıvanın coğrafi mövqeyi, özünəməxsus iqlimi, fauna və florası, qədim tarixə malik mədəniyyət abidələri bölgənin turizm imkanlarının genişliyindən xəbər verir. Naxçıvandakı müalicəvi sular, «Duzdağ» Fizioterapiya Mərkəzi turistlərdə böyük maraq doğurur.*

*Azərbaycan mədəniyyətinin zəngin hissəsini özündə yaşadan Qarabağın malik olduğu imkanlar, bununla belə, hazırda işğal altındakı bölgələrimizdə mövcud turizm potensialının ermənilər tərəfindən məhv edilməsi də sərgiyə gələnlərin diqqətinə çatdırılır. Onlara Qarabağın tarixi, mədəniyyəti, etnoqrafiyası barədə məlumatlar verilir.*

*Paytaxtımızın yerləşdiyi Abşeron yarımadasının qədim tarixi abidələri, o cümlədən nadir coğrafi mövqeyi bu regionu da turistlərin maraq dairəsinə daxil etmişdir. Xəzər dənizinin*

*sahilində yerləşən çoxsaylı istirahət mərkəzləri daim turistləri cəlb edən məkana çevrilmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, hazırda Bakıda beynəlxalq standartlara cavab verən 6 müasir mehmanxana kompleksinin tikintisi gedir. Bu komplekslərin istifadəyə verilməsi paytaxtımızın gözəlliyinə əlavə çalarlar qatmaqla bərabər, turizmin inkişafında mühüm rol oynayacaqdır. Bununla yanaşı, son illərdə bölgələrdə də müasir turizm kompleksləri istifadəyə verilir. Qusarda inşa olunan Şahdağ qış-yay turizm kompleksi ölkəmizin iqtisadi gücünün göstəricisi olmaqla yanaşı, Azərbaycanın turizm imkanlarını da nümayiş etdirir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Mədəniyyət və Turizm Nazirliyinin pavilyonu ilə tanış oldular. Dövlətimizin başçısına ölkəmizdə turizmin inkişaf dinamikası barədə ətraflı məlumat verildi.*

*Bildirildi ki, ötən il Azərbaycana 1 milyon 962 min 906 nəfər gəlmişdir ki, onlardan da 1 milyon 494 min 725 nəfəri turistdir.*

*Qeyd edildi ki, ölkəyə gələn turistlər üçün yeni imkanlar yaradılır. Bu sırada «Azərbaycan turizm naviqasiyası» layihəsi xüsusi əhəmiyyət daşıyır. Layihə çərçivəsində yaradılan onlayn turist naviqatoru geniş imkanlara və özəlliklərə malikdir. Burada üç dildə Azərbaycanın yeddi turizm marşrutuna dair məlumatlar yer almışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva X Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisində xarici ölkələrin turizm şirkətlərinin pavilyonları ilə tanış oldular.*

*Türkiyə yubiley sərgisinə beş şirkətlə qatılmışdır. Türkiyə artıq ikinci dəfədir ki, bu sərginin əsas tərəfdaşı kimi çıxış edir. Ümumilikdə isə sərgidə 24 ölkədən 230 şirkət təmsil olunur. Şirkətlər 61 turizm istiqamətini əhatə edir. Ötən illə müqayisədə builki sərgidə daha çox iştirakçının olması Bakıda keçirilən bu tədbirə beynəlxalq səviyyədə yaranan maraqdan xəbər verir. Misir, Gürcüstan, Rusiya Federasiyasının Dağıstan Respublikası, Çexiya, Yunanıstan və Hindistanın milli stendlərinin geniş yer aldığı sərgi qonaqları turizmin müxtəlif*

*istiqamətləri ilə tanış edir. Sərgidə Seyşel, Mavriki və Maldiv adaları öz turizm proqramlarını təqdim edir. Sanatoriyalar və kurortlar tərəfindən təqdim olunan müalicə turizmi ilə Azərbaycan, Rusiya, Ukrayna və Çexiyanın stendlərində tanış olmaq mümkündür. Sərgi Azərbaycan üçün ilk dəfə olaraq Laos, Kamboca, Macarıstan, Vyetnam, Myanma və Meksika kimi ölkələrə yeni istiqamətlər açacaqdır.*

*Sərgini dolğun işgüzar proqram müşayiət edir. Belə ki, Mədəniyyət və Turizm Nazirliyi sərgiyə xarici ölkələrdən Səudiyyə Ərəbistanı Krallığı, Küveyt, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya üçün informasiya turları təşkil etmişdir. Bununla yanaşı, turizm sahəsinin peşəkarları Ümumdünya Turizm Təşkilatı və digər şirkətlər tərəfindən təşkil ediləcək seminarlar, təqdimat mərasimləri və təkmilləşdirmə kurslarında iştirak etmək imkanı qazanmışlar.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Zirə adasında inşası nəzərdə tutulan «Azərbaycan mirvarisi» layihəsi ilə tanış oldular.*

*Daha sonra dövlətimizin başçısı və xanımı Azərbaycan Milli Kulinariya Mərkəzinin nümayəndələri ilə söhbət etdilər, onların təqdim etdiyi mətbəx nümunələrinə və əl işlərinə baxdılar.*

*Kulinarlar prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ilə xatirə şəkli çəkdirdilər.*

## NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

Əlahəzrət!

Ölkənizin milli bayramı – Konstitusiya günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–Norveç münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında öz inkişafını davam etdirəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Norveç xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 may 2011-ci il*

## LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA QRİBAUSKAYTENİN AZƏRBAYCANA

## RƏSMİ SƏFƏRİ

*2 may 2011-ci il*

*Mayın 2-də Litva Respublikasının Prezidenti xanım Dalya Qribauskayte Azərbaycan Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Litva dövlət başçısının rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Litva prezidenti xanım Dalya Qribauskayteni qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Litva prezidentinə raport verdi.*

*Litvanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Litva prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Dalya Qribauskayteyə, Litva nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.*

## LİTVA PREZİDENTİ DALYA QRİBAUSKAYTE İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*2 may 2011-ci il*

*Mayın 2-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Litva prezidenti Dalya Qribauskaytenin təkbətək görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v :** Hörmətli xanım Prezident, xoş gəlmisiniz! Sizi Azərbaycanda görməyimə çox şadam. Bu Sizin ölkəmizə ilk səfərinizdir. Əminəm ki, səfər çox uğurlu olacaq və biz çox maraqlı müzakirələr aparacağıq. Çünki ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir və bir çox sahəni əhatə edir. Ona da əminəm ki, Sizin səfəriniz bu əlaqələrin genişləndirilməsində, aramızdakı siyasi dialoqun və iqtisadi əlaqələrin dərinləşməsində vacib rol oynayacaqdır. Regional əhəmiyyət daşıyan bir sıra məsələləri də müzakirə edəcəyik. Uğurlu nəticələr əldə edəcəyimizə əminəm. Bir daha Sizə «Azərbaycana xoş gəlmisiniz!» – deyirəm və ümid edirəm ki, ölkəmizə səfəriniz uğurlu olacaqdır.

**D a l y a  Q r i b a u s k a y t e:** Dəvətinizə görə çox minnətdaram. Bir neçə ay əvvəl Sizinlə danışanda qərara gəlmişdim ki, ATƏT-ə sədrlik edən dövlətin başçısı kimi, Azərbaycana səfərə gələcəyəm. İkitərəfli iqtisadi münasibətlərimizin yaxşı olduğunu nəzərə alaraq, müzakirə edə biləcəyimiz bir çox məsələlər, görəcəyimiz işlər vardır.

Avropa ilə apardığınız danışıqlardan, Tvininq layihəsi vasitəsilə verilən töhfədən, danışıqların aparılmasında təcrübə mübadiləsindən bəhrələnə bilərik. Biz Sizinlə təcrübə mübadiləsi aparmağa açığıq.

## AZƏRBAYCAN VƏ LİTVA PREZİDENTLƏRİNİN

## MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*Mayın 2-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev və Litva prezidenti Dalya Qribauskayte bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli xanım Prezident!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Əminəm ki, səfəriniz uğurlu olacaqdır. İkitərəfli münasibətlərimizə aid müxtəlif aspektlər, o cümlədən regional məsələlər ətrafında çox maraqlı müzakirələr oldu. Əminəm ki, bu müzakirələr regionda baş verən hadisələri, çağırışları və problemləri daha yaxşı anlamağa və irəliyə doğru hansı yolla gedəcəyimizi təsəvvür etməyə imkan yaradacaqdır. İkitərəfli münasibətlərə gəldikdə, bildirmək istəyirəm ki, onlar əladır. Bizim çox fəal siyasi dialoqumuz vardır. Beynəlxalq təşkilatlar çərçivəsində yaxşı əməkdaşlıq edirik. Litva Azərbaycanın Avropaya inteqrasiya siyasətini daim dəstəkləyir. Əminəm ki, xanım Prezidentin səfəri ölkələrimiz arasında siyasi münasibətləri daha da möhkəmləndirəcəkdir. Zənnimcə, iqtisadi sahədə əlaqələrimizin, xüsusən də işgüzar dairələr arasında birbaşa təmasların inkişafı üçün yaxşı potensial vardır. Bilirəm ki, hazırda qarşılıqlı maraq artmaqdadır. Biznes dairələrimiz tərəfindən Litvada müxtəlif sərmayə imkanları qiymətləndirilir. Hesab edirəm ki, gələcəyə nəzər salaraq iqtisadi əlaqələrimizin genişləndirilməsi üzərində düşünməliyik. Çünki iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparmır, bir-birini tamamlayır.

Nəqliyyat sektorunda yaxşı imkanlar vardır. Azərbaycan müxtəlif daşıma layihələrini həyata keçirməkdədir. Bu layihələr yeni infrastrukturu, quru, dəmir və hava yollarını yaradacaqdır. Həmçinin Xəzər dənizi vasitəsilə nəqliyyat məsələləri də bu

halda nəzərdə tutulur. Bu, Baltik, Qara və Xəzər dənizləri regionları arasında nəqliyyat əməkdaşlığının bir hissəsi ola bilər. Bu, ölkələrimizin öz regionlarında olduqca mühüm rol oynadığı regional əməkdaşlıq siyasətini gücləndirəcəkdir.

Bu gün biz, həmçinin enerji təhlükəsizliyi məsələlərini müzakirə etdik. Bildiyiniz kimi, Azərbaycan bu baxımdan daha fəal rol oynayır. Cari ilin yanvarında Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə imzaladıq. Bu, irəliyə doğru atılan mühüm bir addım oldu. Bu həmin sahədə daha geniş əməkdaşlığın qurulmasına əsas yaradacaqdır.

Azərbaycanın nəhəng neft və qaz ehtiyatları vardır. Ölkəmiz artıq mövcud daşıma infrastrukturuna və karbohidrogenlərimizi müxtəlif istiqamətlərə nəql edən çox sayda boru kəmərinə malikdir. Bu sahədə Avropa ilə Azərbaycan arasında mövcud əməkdaşlıq qarşılıqlı faydaya əsaslanır. Əminəm ki, gələn illər ərzində bunun daha yaxşı nəticələrini görəcəyik. Əlbəttə ki, enerji sahəsində əlaqələr Avropa İttifaqı ilə əməkdaşlığımızın mühüm bir hissəsidir. Biz Azərbaycanın iştirak etdiyi «Şərq Tərəfdaşlığı» proqramına verdiyi dəstəyə görə Litvaya minnətdarıq.

Təbii ki, bu gün biz regional təhlükəsizlik məsələlərini də müzakirə etdik. Bu məsələ, həmçinin ikitərəfli gündəliyimizin bir hissəsidir. Litva hazırda ATƏT-ə sədrlik edən ölkədir. Münaqişənin həlli müzakirələrimizin bir hissəsi oldu. Uzun illərdir ki, Azərbaycan ilə Ermənistan arasındakı münaqişə həll olunmayıb. Minsk qrupu, demək olar ki, 20 ildir fəaliyyət göstərir. Lakin indiyə qədər praktiki nəticələr yoxdur. Bu yaxınlarda ATƏT-in sahə qiymətləndirmə missiyası Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etmiş və hesabat hazırlamışdır. Həmin hesabatda aydın şəkildə deyilir ki, işğal olunmuş ərazilərdə bütün infrastruktur dağıdılıb, qeyri-qanuni məskunlaşdırma faktları vardır. Rayonların tarixi adlarını, inzibati sərhədlərini dəyişmək cəhdləri və Ermənistanın işğalçı siyasəti ilə bağlı bir çox digər sübutlar vardır. Azərbaycanın

Dağlıq Qarabağ bölgəsinin inzibati hüdudlarından kənarda yerləşən 7 rayonu da işğal altındadır. Biz etnik təmizləmə siyasətindən əziyyət çəkirik. Bir milyondan çox azərbaycanlı öz doğma torpaqlarında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizi işğal altındadır. Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. Əlbəttə ki, münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında həll edilməlidir.

Mən xanım Prezidenti danışıqların hazırkı statusu, müzakirə olunan məsələlər barədə məlumatlandırdım. Ümidvarıq ki, Ermənistan ATƏT-in Minsk qrupunun təkliflərinə konstruktiv yanaşma nümayiş etdirməklə irəliyə doğru addım atacaq və Azərbaycanın işğal olunmuş ərazilərindən çıxmağa başlayacaqdır. Bundan sonra bölgədə sülh bərqərar ola bilər. Ermənistan ilə Azərbaycan arasındakı münaqişə regional təhlükəsizliyə və sabitliyə əsas təhdiddir. Bu münaqişənin beynəlxalq hüquq əsasında tezliklə həlli bütün tərəflərin marağındadır.

Mən xanım Prezidentə dəvəti qəbul edib bu gün ölkəmizə səfər etdiyinə görə bir daha minnətdarlığımı bildirirəm. Ümidvaram ki, səfəriniz uğurlu olacaq və səfərinizdən məmnun qalacaqsınız.

**D a l y a  Q r i b a u s k a y t e:** Çox sağ olun. Səfərimin ilk dəqiqələrindən deyə bilərəm ki, çox razıyam.

Çünki cənab Prezidentlə onun qeyd etdiyi bütün məsələlər, ikitərəfli münasibətlərə, eləcə də Azərbaycan ilə Avropa arasında əlaqələrə aid məsələlər ətrafında, o cümlədən hamımızın üzləşdiyi problemlərin ATƏT çərçivəsində çözülməsinə dair çox səmimi söhbətimiz oldu. Qeyd olunan problemlərin həlli və əməkdaşlıq edəcəyimiz bütün sahələr nəinki ölkəniz, o cümlədən Avropa və ATƏT, bütövlükdə isə bütün dünya üçün vacibdir.

Litva ilə Azərbaycan arasında ikitərəfli münasibətlərə gəldikdə, iqtisadi əlaqələrimizin təkmilləşməsindən çox razıyıq. Biznes dairələrimiz hər iki tərəfdən əməkdaşlıq imkanlarını araşdırıb, müəyyən ediblər. Səfirliklərimiz ölkələrimizdə

müvafiq qaydada işləyirlər. Sizin səfiriniz bizim ölkədə, bizim səfirimiz isə sizin ölkədə fəal çalışırlar. Mən onları təbrik etmək istəyirəm. Onlar çox yaxşı iş görürlər. İşgüzar dairələrimiz hər iki ölkədə iş aparmaq imkanlarından çox məmnundurlar. Onların bizneslə məşğul olmaları üçün yaxşı şansları vardır.

Azərbaycanda korrupsiyaya qarşı mübarizə proqramının həyata keçirilməsi sahəsində müəyyən müsbət addımlar vardır. Biz bunu yeni qəbul etdiyiniz korrupsiyaya qarşı proqramın həyata keçirilməsində görürük. Bu məsələ, şəxsən mənim və ölkəmin gündəliyində duran məsələdir. Bu problem bu və ya digər dərəcədə hər bir ölkədə vardır.

Təbii qaz və digər enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsində ölkəniz Avropa üçün böyük əhəmiyyət kəsb edir. Bu münasibətlərin böyük gələcəyi vardır. Mən arzulayaram ki, ölkəniz bundan tam istifadə etsin və bu məsələlər Avropa İttifaqının istənilən üzv ölkəsi ilə əlaqələrin daha da yaxşı olmasına töhfə versin.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və bu cür münaqişələr hər bir ölkəyə böyük itkilər verir. Mənəvi dəyərlərə, münasibətlərə, iqtisadiyyata çox pis təsir göstərir. Bu çətinlikləri aradan qaldırmaq olduqca mürəkkəbdir. Bunun üçün sizə səbir, açıq yanaşma və əlbəttə ki, sülhsevər münasibət lazımdır. Avropa və bütün dünya istəyir ki, münaqişələr dinc yolla həll edilsin. Bu məsələnin həllində Litva həm ATƏT-in, həm Avropa İttifaqının üzvü kimi, həm də ki, ikitərəfli formatda sizə bacardığı qədər kömək etməyə hazırdır.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*2 may 2011-ci il*

*Mayın 2-də Litva prezidenti xanım Dalya Qribauskayte Azərbaycana rəsmi səfəri çərçivəsində Heydər Əliyev Fondunda olmuşdur.*

*Litva dövlətinin başçısını Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ali qonağa xalqımızın ümummilli liderinin xatirəsinə yaradılmış fondun məqsədi və fəaliyyəti barədə məlumat verdilər.*

*Bildirildi ki, fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə kömək edir. Ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.*

*Ali qonaq ulu öndər Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu.*

*Dalya Qribauskayte fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

*Sonra qarşılıqlı hədiyyələr təqdim edildi.*

*Ali qonaq Heydər Əliyev Fondundan zəngin təəssüratla ayrıldı.*

## BELARUSUN DÖVLƏT TƏHLÜKƏSİZLİK KOMİTƏSİNİN SƏDRİ VADİM ZAYTSEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Belarusun Dövlət Təhlükəsizlik Komitəsinin sədri Vadim Zaytsevi qəbul etmişdir.*

*Vadim Zaytsev Belarus prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın önəmi qeyd olundu, təhlükəsizlik sahəsində əlaqələri genişləndirməyin zəruriliyi bildirildi.*

*Dövlətimizin başçısı Belarus prezidenti Aleksandr Lukaşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarus dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

Əlahəzrət!

Nənəniz şahzadə Muza bint Həməd əl-Xəlifənin vəfatı xəbərini kədər hissi ilə qarşıladım.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin üzvlərinə, bütün Bəhreyn xalqına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 may 2011-ci il*

## KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏL-SABAHA

Əlahəzrət!

Qardaşınız Şeyx Xalid əl-Əhməd əl-Cabir əl-Sabahın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 may 2011-ci il*

## SABİRABAD VƏ SAATLI RAYONLARINA SƏFƏR

*5 may 2011-ci il*

*Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabirabad rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Sabirabad şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, hazırda rayonda abadlıq və quruculuq işlərinin növbəti mərhələsinə başlanılmışdır. Bu mərhələdə ulu öndər Heydər Əliyevin abidəsinin yerləşdiyi parkda geniş abadlıq işləri görülmüş, yaşıllıq zolağı salınmış, sakinlərin istirahəti üçün hər cür şərait yaradılmışdır.*

### Sabirabad–Qasımbəyli–Narlıq–Qaraqaşlı avtomobil yolunun 15 kilometrlik hissəsinin yenidənqurmadan sonra açılışı mərasimi

*Mayın 5-də Azərbaycan prezidenti İlham Əliyev Sabirabad–Qasımbəyli–Narlıq–Qaraqaşlı avtomobil yolunun 15 kilometrlik hissəsinin yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına yolun texniki-iqtisadi göstəriciləri barədə məlumat verildi. Qeyd edildi ki, Kür və Araz çaylarının daşması nəticəsində baş vermiş təbii fəlakətin fəsadlarının aradan qaldırılması məqsədi ilə rayonun 7 min 400 təsərrüfatını əhatə edən və 33 min 500 nəfər əhalinin yaşadığı 17 yaşayış məntəqəsini birləşdirən 68 kilometrlik Sabirabad–Qasımbəyli–Narlıq–Qaraqaşlı avtomobil yolunun əsaslı surətdə yenidən qurulması üçün dövlətimizin başçısının ötən ilin noyabrında imzaladığı sərəncama əsasən prezidentin ehtiyat fondundan maliyyə vəsaiti*

*ayrılmışdır. Artıq bu yolun 15 kilometrlik Sabirabad–Qasımbəyli hissəsinin əsaslı bərpası və asfaltlanması işləri başa çatdırılmışdır. Hazırda yolun digər hissələrində yenidənqurma işləri davam etdirilir. Sabirabad rayonunun həyatında mühüm əhəmiyyətə malik olan bu yolun yenidən qurulması təbii fəlakətdən zərər çəkən əhalinin rahatlığını təmin etməyə və kəndlərarası avtomobil əlaqəsini daha da asanlaşdırmağa imkan verəcəkdir.*

* * *

*Dövlətimizin başçısı Sabirabad–Qasımbəyli–Narlıq–Qaraqaşlı avtomobil yolunun 15 kilometrlik hissəsinin açılışından sonra Qasımbəyli kəndində əsaslı təmir edilmiş Hilal Ənnağıyev adına tam orta məktəbinə gəlmişdir.*

**İ l h a m Ə l i y e v:** Mən sizi yeni məktəbin açılışı münasibətilə təbrik edirəm. Gözəl məktəbdir, uşaqlar üçün yaxşı şərait yaradırıq. Sizi yeni yolun çəkilişi münasibətilə də təbrik edirəm. Bu hələ birinci mərhələdir, çünki yolun çəkilişi davam edir. Hələlik 15 kilometr çəkilmişdir. Artıq bir neçə kəndə yol çəkilib, yolun ümumi uzunluğu 68 kilometr olacaqdır.

Mən bilirəm ki, burada yaşayan əhalini ən çox narahat edən məsələlərdən biri də yolun bərbad vəziyyətdə olması idi. Ona görə tədbirlər görüldü, prezidentin ehtiyat fondundan vəsait ayrıldı və birinci mərhələ artıq başa çatmışdır. Əvvəlki dövrlərdə bu yol torpaq yol idi. Heç vaxt asfalt vurulmamışdı. Ancaq indi gözəl asfalt yol çəkilir və dediyim kimi, bu birinci mərhələdir. Azərbaycanda bütün kənd yolları təmir olunur, yenidən tikilir. Həm Bakıətrafı qəsəbələrdə, həm də ən ucqar kəndlərdə, ən ucqar rayonlarda yolların tikintisi prosesi sürətlə gedir. Ümid edirəm ki, rayonun yeni rəhbərliyi bu işləri uğurla icra edəcəkdir. Yeni təyin edilmiş icra başçısı təcrübəlidir. Bir neçə rayonda işləyib və yaxşı nəticələr göstərib. Sabirabad kimi böyük rayonda, əminəm ki, sizin köməyinizlə yaxşı işləyəcəkdir.

Mən istəyirəm ki, Sabirabad rayonunda bütün sosial və iqtisadi məsələlər tezliklə öz həllini tapsın. Bunu etmək üçün, əlbəttə ki, əlavə vəsait ayrılacaqdır. Regionların sosial-iqtisadi inkişafı

Dövlət Proqramında nəzərdə tutulan bütün məsələlər həllini tapmalıdır. Növbəti bir neçə il ərzində əsas infrastruktur məsələləri həllini tapacaqdır. Məktəb tikintisinə böyük ehtiyac vardır. Sabirabadda 84 məktəb vardır. Orada təmir işləri aparılmalıdır, yeni məktəblər tikilməlidir.

Qasımbəyli kəndi keçən il sel və daşqınlar nəticəsində subasmaya məruz qalmışdır. Mənə verilən məlumata görə, bütövlükdə Sabirabad rayonunda mindən artıq ev uçmuşdur, ya da qəzalı vəziyyətə düşmüşdür. Bu evlərin bərpası, yenidən tikilməsi prosesi gedir, minə yaxın ev tikilibdir. Ancaq hələ ki, bu proses davam edir. Biz burada əsas vəzifəmizi onda görürük ki, gələcək illərdə istənilən təbii fəlakətə hazır olaq. Bu məqsədlə bəndbərkitmə işləri daha da keyfiyyətlə aparılmalıdır. Daha da genişmiqyaslı işlər aparılmalıdır. Evlərin bərpası, məktəblərin tikintisi, tibb məntəqələrinin təmiri işləri daha da sürətlə aparılmalıdır. Mən ümid edirəm ki, nəzərdə tutduğumuz bütün vəzifələr icra ediləcəkdir.

Bunu etmək üçün bizdə həm siyasi iradə, həm də düşünülmüş proqramlar vardır. Bu proqramları biz icra edirik. Əminəm ki, 2013-cü ilə qədər ikinci regional proqramın başa çatması ilə bağlı bütün sosial infrastruktur məsələləri həllini tapmalıdır. Yenə də deyirəm, bu yolun çəkilişi birinci mərhələdir. Hələ çox yollar çəkilməlidir və çəkiləcək, çox məktəblər tikiləcəkdir. Elə etməliyik ki, insanların yaşaması, işləməsi üçün bütün şəraiti yaradaq.

**S a k i n:** Çox sağ olun, cənab Prezident. Sizi camaatımız adından salamlayır, «Xoş gəlmisiniz!» – deyirəm. Qasımbəyli kəndinə bu şəraiti yaratdığınıza görə Sizə, bütün doğmalarınıza Allahdan uzun ömür, möhkəm cansağlığı arzulayırıq. Dediyiniz kimi, ötən il kəndimiz, rayonumuz təbii fəlakətlə üz-üzə qaldı. Bir il ərzində Siz üçüncü dəfədir ki, bizimlə görüşə gəlirsiniz, problemlərimizi həll etmək üçün verdiyiniz tapşırıqların icrasını yerindəcə yoxlayırsınız. Ötən il baş verən fəlakət zamanı ancaq Sizə güvəndik, cənab Prezident, Sizə arxalandıq! Siz doğrudan da bizə arxa durdunuz. Evlərimiz dağıldı, on minlərlə əkin

sahələrimiz su altında qaldı. Bu gün durduğumuz bu ərazinin hamısı suyun altında idi. Sizin tapşırığınızla burada cənnətməkan yaradılıb. Buna görə, Sizə necə təşəkkür edəcəyimizə söz tapa bilmirik. Bütün bunlara görə Sizə çox sağ olun – deyirik!

**İlham Əliyev:** Sağ olun. Mən çox şadam ki, bütün bu təmir-bərpa işləri qısa müddət ərzində öz həllini tapmışdır. Fəlakət zamanı birinci vəzifəmiz ondan ibarət idi ki, bütün insanları itkisiz, təhlükəsiz yerlərə köçürək, onlar üçün şərait yaradaq. O vaxt bütün dövlət qurumları, eyni zamanda, özəl şirkətlər çox gözəl, fəal işlədilər. Bütün şərait, hətta tibb məntəqələri də yaradıldı. Uşaqların oxuması üçün şərait yaradıldı. Çadırlar quruldu, isti yeməklər təşkil olundu. Yəni, bütün xalqımız səfərbər olundu. Nə üçün?! Çünki vətəndaşlarımız çətin vəziyyətə düşmüşdü.

Bu təbii fəlakət qarşısında biz öz gücümüzü və xalqın səfərbərliyini göstərdik. O zaman burada olarkən qarşıya vəzifə qoymuşdum ki, bütün işlər qısa müddət ərzində görülməlidir. Bərpa işləri aparılmalıdır, evlər tikilməlidir. Bir neçə ay ərzində evlərin böyük əksəriyyəti tikilmişdir. Çox böyük vəsait tələb olundu. Biz dövlət büdcəsinə əlavələr etdik. Böyük məbləğ təşkil olundu. Təkcə Sabirabad rayonunda dövlət hesabına minə yaxın gözəl ev tikilmişdir. Siz yaxşı bilirsiniz ki, burada evlərin çoxu çiy kərpicdən tikilmişdi. Su dəyən kimi uçub dağılmışdı. İndi yaxşı şəraitli gözəl daş evlərdir, gözəl məktəblərdir.

Ona görə, bir də demək istəyirəm ki, bu hadisə bizim üçün bir sınaq idi. Biz bu sınaqdan şərəflə çıxdıq. Digər tərəfdən, ölkəmizin gücünü göstərdik. Biz bütün bu işləri öz hesabımıza, heç bir itki vermədən görə bildik. Bu gün həmin gözəl işlərin nəticələrini görürük. Hesab edirəm ki, gördüyümüz bu işlər görəcəyimiz işlərin bir hissəsidir. Hələ çox işlər görülməlidir. Biz bütün ölkəmizi abadlaşdırmalıyıq, şərait yaratmalıyıq. Yeni iş yerlərinin açılması ilə bağlı işlər gedir. Bu gün mən bir neçə rayonda tədbirlərdə iştirak edəcəyəm. Yeni müəssisələr açılır, yeni binalar, məktəblər tikilir, yollar çəkilir. Hər bir yerdə inki-

şaf, quruculuq gedir. Mən istəyirəm ki, bu işlər daha da sürətlə getsin. İstəyirəm özüm vəziyyətlə tanış olum, görüm əlavə hansı işlər görülməlidir ki, işlərimizi lazımi səviyyədə aparaq.

**S a k i n l ə r:** Çox sağ olun, cənab Prezident, Allah ömür versin. 464 yerlik bu məktəb də suyun altında idi. Əslində bu məktəb yenidən tikildi. Kənddə evlərin 75-80 faizi çiy kərpicdən idi. Hamısı uçdu-dağıldı. İndi Sizin sayənizdə elə evlər tikiblər ki, tayı-bərabəri yoxdur.

**İ l h a m Ə l i y e v:** Elə də olmalıdır!

**S a k i n:** Cənab Prezident! Gəldiyiniz bu məktəb mənim həyat yoldaşımın adını daşıyır. Qarabağ uğrunda döyüşlərdə şəhid olub. Onun büstü də Sizin sayənizdə qoyulub. Mənim üçün də ev tikilir.

**İ l h a m Ə l i y e v:** Şəhidlərimizə Allah rəhmət eləsin! Sizin eviniz uçmuşdu?

**S a k i n:** Qəzalı vəziyyətdə idi. İndi yenisi tikilir. Sizə ailəmiz adından təşəkkürümü bildirirəm, cansağlığı, uzun ömür arzulayıram.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**S a k i n:** Hörmətli cənab Prezident, bu məktəblə bərabər, nümayəndəliyimizdə daha bir yeni məktəb tikilib. İki məktəb, bir uşaq bağçası əsaslı təmir olunub. Bütün müəllimlər və şagirdlər adından Sizə minnətdarlığımızı bildiririk. Doğrudan da Sizin himayəniz sayəsində Qasımbəyli inzibati vahidliyi çox gözəlləşib. Bizə çəkdirdiyiniz yoldan 35 min əhali istifadə edir. Həyatımız boyu biz belə abad yol görməmişdik. Torpaq yol idi, yayda toz, qışda palçıq olurdu. Sizdən bir xahişimiz də var, Kür çayının üzərində burada saldırdığınız körpünün birinin də tikilməsinə göstəriş verəsiniz.

**İ l h a m Ə l i y e v:** Buna ehtiyac var?

**S a k i n:** Bəli, ehtiyac var. O yol Kürdəmirə qədər uzanır.

**İ l h a m Ə l i y e v:** Siz təklifinizi verin, baxarıq və investisiya proqramına daxil edərik. İndi 17 kəndə yol çəkilib. Ancaq bizim işimiz bununla bitmir. Növbəti mərhələdə başqa kəndlərə də gözəl yollar çəkilməlidir. Artıq 33 min əhalini bu

yol birləşdirəcəkdir. Ancaq rayonun əhalisi təqribən 150 min nəfərdən çoxdur. Ona görə də yol çəkilişi, kənd yollarının çəkilişi bundan sonra daha da sürətlə gedəcəkdir.

Birinci mərhələdə bizim üçün əsas layihələr magistral yolların çəkilişi idi. Biz onları, demək olar ki, başa çatdırırıq. Bakıdan bütün sərhədlərə qədər gözəl yollar çəkilir. Ancaq bununla yanaşı, şəhərlərarası yollar, kənd yolları da mütləq çəkiləcəkdir. Sizin təklifləriniz də nəzərə alınacaqdır.

* * *

*Qasımbəyli kəndinin sakinləri ilə görüşdən sonra dövlətimizin başçısı əsaslı təmir edilmiş Hilal Ənnağıyev adına tam orta məktəbin binası ilə tanış olmuşdur.*

*Qeyd edildi ki, ötən ilin mayında Kür çayının daşması ilə yaranan təbii fəlakət nəticəsində Qasımbəyli kəndinə külli miqdarda ziyan dəymiş, demək olar ki, bütün infrastruktur dağılmışdı. Kənd məktəbi də tamamilə yararsız vəziyyətə düşmüşdü. Lakin dövlətimizin başçısının tapşırığına əsasən məktəbin binası qısa müddətdə müasir tələblər səviyyəsində yenidən qurulub istifadəyə verilmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, əsaslı təmirdən sonra daha geniş və müasir standartlara uyğunluğu ilə seçilən bu məktəb binası qasımbəylililər üçün əsl hədiyyə olmuşdur. Hazırda 246 şagird yeri olan binada təlim-tədris üçün bütün şərait yaradılmış, sinif otaqları zəruri avadanlıqla təchiz edilmişdir. Şagirdlərin informasiya-kommunikasiya texnologiyalarından istifadə imkanları diqqət mərkəzində saxlanılmışdır. Fənn laboratoriyalarında da yüksək şərait yaradılmışdır. Əyani vəsaitlərin bolluğu ilə diqqət çəkən siniflərdə şagirdlərin elmin sirlərinə yiyələnmələri üçün heç bir problem yoxdur. Şagirdlərin yüksək təhsili və pedaqoji kollektivin səmərəli fəaliyyəti üçün bütün amillər nəzərə alınmışdır. Məktəb istilik sistemi ilə təchiz olunmuş, burada yaradılmış müasir idman zalında zəruri avadanlıq quraşdırılmışdır.*

*Prezident İlham Əliyev məktəbin idman zalında güləşçilərin nümunəvi çıxışlarını izlədi.*

*Bildirildi ki, rayonda təhsil sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə bir sıra digər tədbirlər də həyata keçirilir. Sabirabadın Yuxarı Axtaçı kəndində 240 şagird yerlik orta məktəb binası tikilir. Ulacalı, Mürsəlli, Bala Həşimxanlı kənd orta məktəblərində əsaslı təmir işləri başa çatdırılmış, Əsgərbəyli və Muradbəyli kənd məktəblərində isə yenidənqurma işləri davam etdirilir.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi.*

## Qasımbəyli kəndində tikilmiş yeni evlərlə tanışlıq

*Mayın 5-də Azərbaycan prezidenti İlham Əliyev Sabirabadın Qasımbəyli tam orta məktəbi ilə tanışlıqdan sonra ötən ilin mayında Kür çayının daşması nəticəsində bu kənddə evlərini itirmiş sakinlər üçün tikilmiş yeni mənzillərlə tanış olmuşdur. Sakinlər dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

**S a k i n:** Cənab Prezident, xoş gəlmisiniz, Allah Sizi qorusun!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Necəsiniz?

**S a k i n:** Sağ olun, hər şey yaxşıdı. Allah köməyiniz olsun. Siz bu evi tikdirib bizə verdiniz, gözəl şərait yaratdınız.

**İ l h a m Ə l i y e v:** Çox şadam ki, ev tikildi, gözəl daş evdir. Burada rahat yaşamaq olar. Bu sizin köhnə evinizdir? Burada su nə qədər qalxmışdı?

**S a k i n:** 3 metr.

**İ l h a m Ə l i y e v:** Bu ev nədən tikilmişdi?

**S a k i n:** Şpaldan.

*Dövlətimizin başçısı Qasımbəyli kənd sakini Bəxtiyar Abışovun evində oldu.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, təbii fəlakət nəticəsində evlərini itirən əhali üçün bütün standartlara uyğun və yüksək keyfiyyətli tikinti materiallarından istifadə edilməklə*

*yeni evlər inşa olunmuşdur. Yeni mənzillər əvvəlkilərlə müqayisədə daha genişdir və otaqların sayı da çoxdur.*

*Dövlətimizin başçısına bildirildi ki, Qasımbəyli kəndində 74 ev tikilib və onlardan 55-i artıq istifadəyə verilib. Ümumilikdə isə Qasımbəyli də daxil olmaqla, Sabirabadın Yuxarı Axtaçı, Muradbəyli və Əsgərbəyli kəndlərində tikilən 169 fərdi evdən 85-i artıq istifadədədir. Prezident İlham Əliyevə məlumat verildi ki, Kür və Araz çaylarının daşması nəticəsində dəymiş ziyanın aradan qaldırılması və dağılmış infrastrukturun bərpası, demək olar ki, başa çatdırılmışdır. Zərər çəkən insanlara 10 milyon manata qədər kompensasiya ödənilmişdir. Sabirabad rayonunun Kürboyu ərazilərində yerləşən kəndlərində bəndvurma və sahilbərkitmə işlərinin əsas mərhələsi başa çatdırılmışdır.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev mayın 5-də Qasımbəylidə tikilmiş yeni evlərlə tanışlıqdan sonra onu qarşılamaq üçün yol üstünə çıxmış Əsgərbəyli kəndinin sakinləri ilə də görüşdü.*

**İ l h a m Ə l i y e v:** Gəlmişəm ki, özüm vəziyyətlə tanış olum. Gördüm ki, dayanmısınız. Maşını saxlatdırdım ki, bəlkə mənə sözünüz var?

**S a k i n l ə r:** Qədəmləriniz mübarək olsun, xoş gəlmisiniz!

**İ l h a m Ə l i y e v:** Mənim işim budur ki, gedim yoxlayım, harada nə çatışmır, onu biz düzəldək. Yollar çəkilir, evlər, körpülər tikilir, bəndlər salınır.

**S a k i n:** Cənab Prezident, Allah Sizə uzun ömür versin. Muradbəyli, Qasımbəyli, Yuxarı Əsgərbəyli kənd camaatı Sizə dəfələrlə məktub yazmış, teleqram vurmuşdur. Həqiqətən böyük işlər görülüb. Bunun üçün Sizə minnətdarıq. Çox istərdik ki, bizim kənddə də orta məktəb olsun. Natamam orta məktəbdir, poçtumuz da yoxdur.

**İ l h a m Ə l i y e v:** Məktəbiniz yoxdur?

**S a k i n:** Var, bir qədər irəlidədir, doqquzillik məktəbdir. Orta məktəb statusu verilsə, övladlarımız təhsillərini orada davam etdirərlər. Poçtumuz və tibb məntəqəmiz də yoxdur.

**İ l h a m Ə l i y e v:** Təklifləriniz qeydə alınır, yazılır, mənə məruzə ediləcəkdir. Mən müvafiq göstərişlər verəcəyəm ki, buradakı problemlər tezliklə öz həllini tapsın.

Yaxşı bilirsiniz ki, təbii fəlakətin miqyası böyük idi, 3 min hektar torpağı 2-3 metr hündürlükdə su basmışdı. Biz bu vəziyyətdən itki vermədən insanları köçürdük. Məktəb tikilməlidir, tibb məntəqəsi, evlər, yollar, özü də təkcə burada deyil, qonşu rayonlarda da. Böyük işdir, amma biz bu işləri lazımi səviyyədə aparacağıq. Ona görə yolüstü dayandım ki, sizinlə görüşüm, fikirlərinizi, nədən əziyyət çəkdiyinizi öyrənim. Biz daha da fəal çalışacağıq ki, bütün işlər görülsün. Sizi narahat edən bütün məsələlər öz həllini tapsın. Sağ olun.

## SAATLI ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*5 may 2011-ci*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 5-də Sabirabada səfərini başa çatdıraraq Saatlı rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Saatlı şəhərinin mərkəzindəki parkda ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, rayonda abadlıq və yaşıllaşdırma sahəsində diqqət çəkən işlərdən biri Heydər Əliyev adına park və meydandır. Ümumi sahəsi 5,6 hektar olan park və meydan rayon sakinlərinin ən sevimli istirahət mərkəzlərindəndir. Burada geniş abadlıq və yaşıllaşdırma işləri görülmüş, fəvvarə quraşdırılmış, həmçinin Heydər Əliyev Muzeyi fəaliyyət göstərir.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi.*

### Saatlı–Musalı–Məzrəli avtomobil yolunun yenidənqurmadan sonra açılışı mərasimi

*Mayın 5-də Azərbaycan prezidenti İlham Əliyev Saatlı rayonuna səfəri çərçivəsində Saatlı–Musalı–Məzrəli avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevə yolun texniki-iqtisadi göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, dövlətimizin başçısının 2010-cu ildə imzaladığı sərəncama əsasən yenidən qurulan yolun ümumi uzunluğu 17 kilometrdir. Rayonun səkkiz yaşayış məntəqəsini əhatə edən bu müasir yoldan 20 mindən artıq sakin istifadə edəcəkdir.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## SAATLI RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*5 may 2011-ci il*

*Mayın 5-də Azərbaycan prezidenti İlham Əliyev yenidən qurulmuş Saatlı–Musalı–Məzrəli avtomobil yolunun açılışından sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

*Sakinlər dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

**İlham Əliyev:** Necəsiniz, nə var, nə yox? İşlər necədir? Yolun əvvəlki şəkilləri burada göstərilib. Torpaq yolu idi. Özü də subasmadan sonra, ümumiyyətlə, sıradan çıxmışdır. İndi yeni yol çəkilib, həm Saatlı, həm də İmişli rayonlarının kəndlərini birləşdirir. Rahat və gözəl yoldur. On minlərlə insan bu yoldan istifadə edir. Gözəl hadisədir. Bildiyiniz kimi, bütün bölgələrdə kənd yolları bərpa edilir, yenidən tikilir. Kəndlərimizdə yolların əksəriyyəti torpaq yolları idi. Xüsusi göstərişlər verilmişdir. O cümlədən Saatlı rayonunda da bu işlər başlayıb.

Bu birinci mərhələdir. Bu, xəritədə göstərilir. Burada əlavə tədbirlər görülməlidir ki, bütün kənd yolları bərpa olunsun. Bunu edəndən sonra bu yollarla gedib-gəlmək rahat olacaqdır. Rayonun inkişafı ilə bağlı müvafiq göstərişlər verilmişdir. Bildiyiniz kimi, təbii fəlakətdən sonra xüsusi diqqət göstərilir, təmir-bərpa işləri gedir. Böyük bir qəsəbə salınmışdır – 178 evdən ibarət qəsəbə. Artıq orada vətəndaşlar yerləşiblər. Ondan əlavə, 350 yeni ev tikilmişdir. Təmir-bərpa işləri də davam edir. Çünki qəzalı vəziyyətdə evlər vardır. Biz onları da təmir edəcəyik ki, təbii fəlakətin bütün fəsadlarını aradan qaldıraq. İndi məktəblər, yollar, evlər, sosial obyektlər tikilir. Bütün bunlar böyük vəsait tələb edir. Bu vəsaiti Azərbaycan dövləti ayırır ki, biz insanların yaşayış səviyyəsini yaxşılaşdıraq.

**S a k i n:** Hörmətli Prezident, mən Sizi salamlayıram, xoş gəlmisiniz! Biz Sizinlə fəxr edirik. Allah Sizi qorusun, bu işlərinizdə Sizə uğurlar qismət etsin!

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Saatlı rayonunda iqtisadi məsələlər də öz həllini tapmaqdadır. Yeni müəssisələr tikilir, zavodlar, bazalar. Bu gün «Aqroservis» bazası istifadəyə veriləcəkdir. Soyuducu anbar tikilibdir. Buna da çox böyük ehtiyac vardır. Çünki indi bütün rayonlarda soyuducu anbarlar tikilir ki, fermerlər məhsullarını saxlaya bilsinlər.

Regionların inkişafı ilə bağlı proqramda bütün məsələlər nəzərdə tutulub. Növbəti aylarda, xüsusilə bu il və gələn ilin sonuna qədər rayonun qazlaşdırma ilə bağlı problemlərinin tam əksəriyyəti öz həllini tapmalıdır. Mən bilirəm ki, bu məsələyə həmişə olduğu kimi, böyük diqqət yetirilməlidir. Müəyyən işlər görülmüşdür, ancaq əksər yaşayış məntəqələrində qaz xətləri yoxdur. Keçmişdə də olmayıb, olanlar da sıradan çıxıb.

Ona görə Dövlət Neft Şirkətinə göstəriş vermişəm ki, 2012-ci ilin sonuna qədər Azərbaycanın bütün yaşayış məntəqələri harada ki, mümkündür qazlaşdırılsın. Beləliklə, ölkə ərazisinin 95 faizi qazlaşdırılacaqdır. O ki qaldı Saatlı rayonuna, burada qazlaşdırma 100 faiz olmalıdır. Çünki burada dağlıq kəndlər yoxdur. Dağlıq kəndlərə qaz çəkmək daha da çətindir. Burada kəndlər, demək olar ki, bir-birinə yaxındır. İndi yollar da çəkilir. Hesab edirəm ki, gələn ilin sonuna qədər Saatlıda qazlaşdırma ilə bağlı bütün problemlər həll olunmalıdır. Bu məsələ daim diqqət mərkəzindədir. Mən məsələ ilə maraqlanıram, soruşuram ki, vaxt itirməyək. İndi bizim texniki imkanlarımız da, maliyyə imkanlarımız da vardır. Dövlət Proqramında da bu məsələlər öz əksini tapıbdır.

Vətəndaşları narahat edən digər məsələ içməli su ilə bağlıdır. Bu məsələ, əfsuslar olsun ki, əsrlər boyu bizi incidib. Çünki kifayət qədər su mənbələrimiz olmamışdır. Vaxtilə çəkilmiş xətlər sıradan çıxmışdır. Rayon yerlərində, ümumiyyətlə, kanalizasiya xətləri olmamışdır. Böyük layihədir, böyük proqramdır, indi icra olunmağa başlamışdır. Saatlıda hələ ki,

işlər başlanmayıb. Mən tapşırıq verəcəyəm ki, tezliklə başlansın. Biz çalışmalıyıq ki, bu layihəni də 2013-cü ilin sonuna qədər icra edək. Həm texniki cəhətdən çox çətin, həm iqtisadi cəhətdən, maliyyə baxımından çox böyük vəsait tələb edən layihədir. Ancaq bu iki layihəni – qazlaşdırma ilə içməli su, kanalizasiya məsələlərini biz həll etsək böyük bir iş olacaqdır. Yaşamaq, işləmək üçün şərait daha da yaxşı olacaqdır. İş yerləri açılmalıdır. Biz bu məsələyə də daim diqqət göstərməliyik.

İdman-sağlamlıq mərkəzinin, xəstəxananın tikintisi başlamışdır. Saatlıda gözəl, müasir xəstəxana tikiləcəkdir. Bütün bu işləri biz görürük və görəcəyik.

**S a k i n:** Hörmətli Prezident, Sizə camaatımızın adından «Xoş gəlmisiniz!» – deyirəm. Mən sürücüyəm.Yayda bu yolun tozuna, qış aylarında palçığına batmışıq. Mən indi bu yolu görürəm – rayonla bizim aramız beş kilometrdir – bu beş kilometri gedincə, bəlkə deyim, bir saat çəkirdi, bəlkə də çox. İndi çox rahat gedirik, mənzil başına çox tez çatırıq. Buna görə Sizə duaçıyıq. Başınız həmişə uca, adınız şərafətli olsun. Bizə göstərdiyiniz diqqət və qayğıya görə çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Bu yol doğrudan da çox gözəl yoldur. Ancaq bu birinci mərhələdir. İcra hakimiyyəti tərəfindən yeni təkliflər veriləcəkdir. Yeni vəsait ayrılacaq, yollar çəkiləcəkdir. Elə etməliyik ki, bütün kənd yolları belə olsun. Bu, böyük sosial məsələdir. Azərbaycan kəndlərində gözəl asfalt yollar tikilir. Bu məsələ öz həllini tapmalıdır və tapacaqdır.

**S a k i n:** Cənab Prezident, keçən il, təbii fəlakət zamanı bu yol sel sularının altında qalıb bərbad hala düşmüşdü. Sizin sərəncamınızla yenidən bərpa edildi. Bu yoldan Arazboyu 70 kəndin 20 mindən artıq sakini istifadə edəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Keçən il, demək olar ki, bütün qitələrdə təbii fəlakətlər baş vermişdir. Gördünüz, həm yanğınlar, həm daşqınlar, həm zəlzələlər. Bu, necə deyərlər, hər bir ölkədə özünü göstərmişdir. Dünya insan itkisi ilə üzləşmişdir. Ancaq

biz bütün insanları vaxtında köçürdük, şərait yaratdıq, müvəqqəti yaşayış məntəqələri yaratdıq. İndi evlərin bərpası ilə məşğuluq. İşlərin böyük əksəriyyəti görülmüşdür. Ancaq hələ ki, təmirə ehtiyacı olan evlər vardır. O vaxt qeydiyyat aparılanda bu evlərin sayı göstərilmişdir. Ondan sonra il ərzində bəzi evlər dəymiş ziyana görə yararsız vəziyyətə düşmüşdür. Yəni onların yenidən qeydiyyata alınması prosesi gedir. Ona görə keçən il nəzərdə tutduğumuzdan daha da artıq iş görülməlidir. Bu məqsədlər üçün əlavə vəsait ayrılacaq ki, bütün bu işləri lazımi səviyyədə görək. Bir məsələ də vardır. O da bilirəm ki, müəyyən suallar doğurur. Çiy kərpicdən tikilmiş evləri yeniləri ilə əvəz edirik. Möhkəm daş evlərdir. Amma uçmamış, çiy kərpicdən olan evlər necə var idi, elə də qalmışdır.

Burada müəyyən mənada ədalətsizlik yaranır. Kimin ki, evi uçub, onun şəraiti yaxşılaşıb. Kimin ki, evi uçmayıb, o elə köhnə evdədir. Ona görə, bu məsələ ilə bağlı gərək təkliflər verilsin, biz baxaq, hansı əlavə işləri görək ki, ehtiyacı olan evləri də təmir etdirək. Bu, böyük işdir. Biz təkcə Saatlı rayonunda deyil, bütün ətraf rayonlarda da evlərin qəzalı vəziyyətə düşməsi ilə üzləşmişik. Ancaq bunu edəcəyik.

**S a k i n:** Musalı kəndinə çəkilən yeni yol istifadəyə verilib. Ötən il bizim kəndimiz – Musalı və Nəriman kəndləri də su altında qalmışdı. Sizin tapşırığınızdan sonra bizim Nəriman kənd orta məktəbi, tibb, poçt məntəqələri, məscid qısa bir müddətdə əsaslı təmir olundu. Sizin təhsilə diqqətinizi biz gözəl bilirik. Rayonumuzda təhsil ilə əlaqədar çox böyük, möhtəşəm işlər görülmüşdür. Beş böyük, yeni məktəb binası tikilib istifadəyə verilmişdir. Onlarca məktəb binası əsaslı təmir olunmuşdur. Bütün müəllimlər, valideynlər, şagirdlər adından Sizə öz minnətdarlığımı bildirirəm. Sizə xoşbəxtlik, ailə səadəti arzulayıram.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Məktəb tikintisi də davam etməlidir və edir. Amma hələ ki, təmirə ehtiyacı olan məktəblər vardır. Son 5-6 il ərzində böyük proqramla 2000-dən artıq

məktəb tikilmişdir. Ancaq qəzalı vəziyyətdə məktəblər hələ ki, çoxdur. Bu ilin dövlət büdcəsində əlavə vəsait nəzərdə tutulacaq ki, qəzalı vəziyyətdə olan məktəbləri biz ilin sonuna qədər təmir edək. Biz bu proqramı da 2013-cü ilin sonuna qədər başa çatdıracağıq. Beləliklə, Azərbaycanda bir dənə də qəzalı, yaxud da ki, pis vəziyyətdə məktəb olmayacaqdır. Bu da böyük bir nailiyyət olacaqdır. Çünki ölkəmizdə 4500-dən artıq məktəb vardır. Onların 2000-dən bir az artığını biz tikmişik. Amma hələ ki, 2000-ə yaxın məktəb vardır ki, onların da müəyyən qədəri təmir edilməlidir. Biz bütün bu problemləri bilirik. Əsas məsələ də problemi bilmək, düzgün təhlil etmək və həlli yollarını tapmaqdır. İstər sosial-iqtisadi, istərsə də infrastruktur, qazlaşdırma, meliorasiya, suvarma məsələləri çox ciddi məsələlərdir. Burada kənd şəraitində yaşayan insanlar yaxşı bilirlər ki, suvarma məsələləri də öz həllini tapmalıdır. Hər bir rayon, bütövlükdə ölkə üzrə konkret proqramlar vardır və biz bunları icra edirik.

**S a k i n:** İcazə verin, rayonumuzun gəncləri adından Sizi salamlayım, «Xoş gəlmisiniz!» – deyim. Sizin Azərbaycan gəncləri ilə son günlərdə keçirdiyiniz görüşlər bizdə xoş əhval-ruhiyyə, xoş ovqat yaratmışdır. Möhtərəm Prezident, məlumdur ki, respublikamızda genişmiqyaslı işlər görülür, yeni-yeni olimpiya kompleksləri tikilib istifadəyə verilir. Qonşu Sabirabad rayonunda yeni olimpiya kompleksi tikilib istifadəyə verilmişdir. Eşitmişik ki, İmişli rayonunda da yeni olimpiya kompleksi istifadəyə veriləcəkdir. Bir Saatlı rayonu qalır arada. Xahiş edirik ki, bizə də kömək göstərəsiniz. Azərbaycan gəncləri Sizinlədir, Sizinlə qürur duyuruq.

**İ l h a m  Ə l i y e v:** Yaxşı ki, bu məsələni siz qaldırdınız. Çünki indi o qədər olimpiya kompleksləri tikilmişdir ki, yadda saxlamaq çətindir harada tikilib, harada tikilməyib. İmişlidə bu gün açılacaq kompleks 31-cidir. Saatlıda da mütləq gözəl olimpiya kompleksi yaradılacaqdır. Onun yanında Gənclər evi də yaradılmalıdır. Dediyimiz kimi, «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramı hazırlanır. Orada həm Bakıda Gənclər Mərkəzinin

tikintisi nəzərdə tutulmalıdır, həm də rayonlarda. Ona görə də bu məsələ ilə bağlı göstəriş veriləcəkdir.

**S a k i n:** Mən Sizin qarşınızda çıxış edərkən bir xahiş etmişdim. Bu, işıq problemi idi. Sizin diqqətiniz, qayğınız və köməkliyiniz nəticəsində az bir müddət ərzində işıq problemi tamamilə həll olundu. İndi camaatımız işıqdan fasiləsiz istifadə edir. Sevincimin həddi-hüdudu yoxdur. Xalqımız kimi, mən də sevinirəm. Ona görə ki, üçüncü dəfədir Sizinlə görüşürəm. Allah Sizi xoşbəxt eləsin, sağ olun.

**İ l h a m Ə l i y e v:** Siz də sağ olun.

## «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyətinin Saatlı «Aqroservis» filialının açılışı mərasimi

*Mayın 5-də Azərbaycan prezidenti İlham Əliyev ictimaiyyətin nümayəndələri ilə görüşdən sonra «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyətinin Saatlı «Aqroservis» filialının açılışında iştirak etmişdir.*

*Filialın kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Kənd Təsərrüfatı naziri İsmət Abasov prezident İlham Əliyevə məlumat verdi ki, «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyətinin yeni yaradılan Saatlı «Aqroservis» filialı rayonda kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaqdır. Ümumi sahəsi 1 hektar olan Saatlı «Aqroservis» filialının tikintisinə 2010-cu ildə başlanılmışdır. Filialın ərazisində inzibati bina, təmir emalatxanası, texnikaların saxlanılması üçün talvar və açıq meydança yaradılmışdır. Bundan əlavə, filialda gübrə və pestisidlər anbarı da vardır. Ümumi tutumu 2 min ton olan anbarda Almaniyadan gətirilmiş pestisidlər, Rusiya, Ukrayna və Qazaxıstan istehsalı olan mineral gübrələr fermerlərə veriləcəkdir. Filialın təmir emalatxanasında kənd təsərrüfatı texnikalarına texniki xidmət göstərmək üçün hərtərəfli şərait yaradılmışdır. Filialda 30 nəfər daimi işlə təmin edilmişdir.*

*Prezident İlham Əliyevə «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyətinin regional logistik bazaları, aqroservis filialları barədə də ətraflı məlumat verildi. Qeyd edildi ki, hazırda Sabirabad,*

*Şəki, Cəlilabad, Şəmkir, Bərdə və Xaçmaz rayonlarında cəmiyyətin regional logistik bazaları fəaliyyət göstərir. 18 rayonda isə «Aqroservis» filialları vardır. Bu il daha 5 filialın istifadəyə verilməsi nəzərdə tutulur.*

*Prezident İlham Əliyev cəmiyyətin rayonlararası təchizat, regional logistik bazalarının və aqroservis filiallarının əvvəlki vəziyyətini əks etdirən fotolara baxdı.*

*Saatlı «Aqroservis» filialındakı texnika ilə tanışlıq zamanı dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, buraya ümumilikdə 3 milyon 700 min manat dəyərində kənd təsərrüfatı texnikası verilmişdir. Onlardan 2 milyon 900 min manatlıq texnika lizinqə, yerdə qalanı isə filiala verilmişdir. Filialda Finlandiya, Rusiya, Türkiyə və Polşada istehsal edilən kənd təsərrüfatı texnikaları ilə yanaşı, Gəncə avtomobil zavodunda buraxılan traktorlar da vardır. «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyəti ilə Gəncə Avtomobil zavodu arasında bağlanmış müqaviləyə əsasən hər il cəmiyyət zavoddan 500 traktor alır. Bundan əlavə, Gəncə Avtomobil zavodunda bu traktorlar üçün kotanlar da istehsal edilir. İndiyədək, cəmiyyət zavoddan 1890 traktor almışdır. Filialın fəaliyyətə başlaması Saatlı rayonunda kənd təsərrüfatı məhsullarının istehsalçılarına geniş imkanlar açacaqdır. Buradakı müasir kənd təsərrüfatı texnikalarının fermerlərə verilməsi məhsulun keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, bolluğuna da imkan verəcəkdir. Filialda ümumilikdə 290 texnika vardır. Onlardan 88-i traktor, 27-si kombayn, yerdə qalanları isə asılan və qoşulan texnikalardır.*

*«Aqrolizinq» Açıq Səhmdar Cəmiyyətinin Saatlı «Aqroservis» filialı ilə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.*

## İMİŞLİDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*5 may 2011-ci il*

*Mayın 5-də Azərbaycan prezidenti İlham Əliyev Saatlıya səfərini başa çatdıraraq İmişli rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin İmişli şəhərinin mərkəzindəki Mədəniyyət və istirahət parkında ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin yerləşdiyi Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında görülmüş işlər barədə məlumat verildi. Qeyd edildi ki, şəhərin mərkəzi olan bu ərazidə geniş abadlıq işləri aparılmış və park salınmışdır. Burada rayon sakinlərinin istirahəti üçün hər cür şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi.*

## İmişli–Qaravəlili–Mirili avtomobil yolunun yenidənqurmadan sonra açılışı mərasimi

*Prezident İlham Əliyev mayın 5-də İmişli–Qaravəlili–Mirili avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə yolun əvvəlki və indiki vəziyyətini əks etdirən fotoşəkillərə baxdı.*

*Prezident İlham Əliyevə yolun texniki-iqtisadi göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, uzunluğu 12 kilometr olan bu yol əvvəllər istifadəyə yararsız halda olmuşdur. Prezident İlham Əliyevin sərəncamına əsasən, 42 minə yaxın əhalisi olan 7 yaşayış məntəqəsini əhatə edən İmişli–Qaravəlili–Mirili avtomobil yolunun əsaslı təmir işlərinə ötən ilin sonlarında başlanılmışdır. Həmin avtomobil yolu müasir tələblərə uyğun olaraq yenidən qurulmuş, yolboyu abadlıq və yaşıllaşdırma işləri aparılmışdır. Yolun istifadəyə verilməsi, həmçinin İmişli və Saatlı rayonları arasındakı gediş-gəliş məsafəsini iki dəfə azaltmışdır.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi, görülmüş işlərdən razılığını bildirdi.*

## «Azərsun Holdinq» şirkətinin müəssisələri ilə tanışlıq, yem fabrikinin açılışı və kəllə qənd zavodunun təməlqoyma mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev mayın 5-də İmişli rayonuna səfəri çərçivəsində «Azərsun Holdinq» şirkətinin müəssisələri ilə tanış olmuş, yem fabrikinin açılışında, kəllə qənd zavodunun təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə «Green Land» yem fabrikinin açılışında iştirak etdi.*

*Bildirildi ki, prezident İlham Əliyevin sahibkarlığın inkişafına dəstək siyasətinə uyğun olaraq, «Green Land» yem fabriki dövlətin güzəştli krediti və «Azərsun Holdinq»in vəsaiti hesabına inşa olunmuşdur.*

*Dövlətimizin başçısı fabrikdə istehsal olunan hazır yem məhsullarına baxdı. Qeyd edildi ki, təqribən bir hektar ərazisi olan fabrikdə qaramal və davar, eləcə də broyler və yumurtalıq quş yemləri istehsal olunacaqdır.*

*Prezident İlham Əliyev fabrikin idarəetmə mərkəzindən istehsal prosesini izlədi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, fabrik mərkəzləşdirilmiş kompyuter sistemi ilə idarə olunur. Bir sözlə, prosesə insan müdaxiləsi yoxdur. Hazırda fabrikdə idarə olunan sistem dövlət standartlarına uyğundur.*

*Fabriklə tanış olan prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, 80 nəfərin işlə təmin olunduğu müəssisənin illik istehsal gücü 150 min tondur. Burada altı xam maddə, bir hazır məhsul anbarı da vardır.*

*Dövlətimizin başçısı şirkətin bitki yağları fabriki ilə də tanış oldu.*

*Bildirildi ki, müəssisə 1,2 hektar ərazini əhatə edir.*

*Prezident İlham Əliyev fabrikdə istehsal prosesini izlədi. Qeyd olundu ki, müəssisədə quraşdırılmış avadanlıqlar ən müasir standartlara cavab verir.*

*Dövlətimizin başçısı fabrikdə istehsal olunan məhsulların nümunələrinə də baxdı. Məlumat verildi ki, müəssisədə həm xam bitki yağları, həm də günəbaxan cecəsi və soya jımıxı hazırlanacaqdır. İllik istehsal gücü 60 min ton olan fabrikdə 80 nəfər işlə təmin edilmişdir. Müəssisədə Azərbaycanda ən böyük üç saxlama anbarı yaradılmışdır. Anbarın quraşdırılmasında Sahibkarlığa Kömək Milli Fonduna müraciət olunmuş və dövlətin güzəştli kreditlərindən istifadə edilmişdir.*

*Sonra prezident İlham Əliyev müəssisədə yağın alınması prosesinin son mərhələsini izlədi.*

*Dövlətimizin başçısı xam şəkər saxlanılacaq anbarla tanış oldu. Bildirildi ki, anbarda 40 min ton xammal saxlamaq mümkündür.*

*Prezident İlham Əliyev küspə qurutma sexi ilə tanış oldu.*

*Qeyd olundu ki, burada yüksək keyfiyyətli həm peletli, həm də peletsiz çuğundur cecəsi hazırlanacaqdır. Bu yemlər ətlik, südlük mal-qara və qoyunlara verilən samanın və otun keyfiyyətini artırır. Müəssisədə, həmçinin melas qarışıqlı heyvan yeminin də hazırlanması nəzərdə tutulur. Sexin illik istehsal gücü 15 min tondur. Burada 30 nəfər işlə təmin olunmuşdur. Avadanlıqlar isə hazırda bu sahədə inkişaf etmiş ölkələrdə istifadə olunan avadanlıqlardır.*

*Dövlətimizin başçısı kəllə qənd zavodunun təməlqoyma mərasimində də iştirak etdi.*

*Zavodun sxemi ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, müəssisənin tikintisi üçün 7,5 hektar torpaq sahəsi ayrılmışdır. İllik istehsal gücü 60 min ton olan müəssisədə müxtəlif çeşiddə kəllə qənd hazırlanacaqdır. Zavod işə düşdükdən sonra 220 nəfər işlə təmin olunacaqdır.*

*Prezident İlham Əliyevə Azərbaycan Şəkər İstehsalat Birliyinin sənaye spirti zavodu barədə məlumat verildi. Burada 96 dərəcə sənaye etil spirti hazırlanır.*

*Qeyd edildi ki, ərazidə Azərbaycan Şəkər İstehsalat Birliyinin bütün əməkdaşları üçün 700 nəfərlik yeməkxana binası inşa olunmuşdur.*

*Dövlətimizin başçısı gilizi təmələ buraxdı və beton qarışığı tökdü, zavodun tikintisi ilə bağlı tapşırıq və tövsiyələrini verdi və müəssisənin kollektivini salamladı.*

**İ l h a m Ə l i y e v:** Sizi təbrik edirəm. Bura böyük bir sənaye mərkəzinə çevrilib. Vaxtilə şəkər zavodunun tikintisi nəticəsində bu ərazi abadlaşıb. Bu müəssisələrdə həm iş yerləri yaranır, həm yerli istehsal təmin edilir, idxaldan asılılığımız azalır. Bu işlər Azərbaycan dövlətinin iqtisadiyyatla bağlı olan inkişaf proqramına uyğun şəkildə təmin olunub. Biz kənd təsərrüfatını, emal sənayesini inkişaf etdirməliyik. Belə müəssisələrin yaradılması məqsədimizə tam uyğundur. Həm iş yerləri açılır, həm də yerli istehsal, gözəl müasir avadanlıq və daxili tələbata hesablanmış ixracyönümlü məhsulların istehsalı təmin edilir.

Təməl daşını qoyduğumuz kəllə qənd zavodu da, əminəm ki, yaxın zamanlarda tikiləcək və gözəl, keyfiyyətli məhsul istehsal edəcəkdir.

Sizi təbrik edirəm, yeni uğurlar arzulayıram.

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Prezident İlham Əliyev mayın 5-də İmişli Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı kompleksin açılışını bildirən lenti kəsdi.*

*Gənclər və İdman naziri Azad Rəhimov prezident İlham Əliyevə bildirdi ki, bu, ölkədə istifadəyə verilən sayca 31-ci Olimpiya İdman Kompleksidir. İmişli şəhərinin mərkəzində yerləşən kompleksin tikintisinə 2007-ci ilin oktyabrında başlanılmışdır. Bu nəhəng idman qurğusunun inşası üçün 5 hektar torpaq sahəsi ayrılmışdır. Tikinti işləri ən yüksək səviyyədə aparılmış və mayın əvvəlində başa çatdırılmışdır. İkimərtəbəli kompleksin binasında universal idman zalı, üzgüçülük hovuzu, boks, güləş, trenajor, şahmat və konfrans zalları, eləcə də yeməkxana və mehmanxana fəaliyyət göstərir.*

*Bildirildi ki, tikinti sahəsi 12 min kvadratmetr olan əsas bina 5 hissədən ibarətdir.*

*Dövlətimizin başçısı birinci mərtəbədə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin respublikamızda bədən tərbiyəsinin və idmanın inkişafına göstərdikləri diqqət və qayğını, idmançılarımızın müxtəlif beynəlxalq yarışlarda uğurlarını əks etdirən fotostendlərə baxdı.*

*Prezident İlham Əliyev kompleksin birinci mərtəbəsində boks və güləş zalları ilə tanış oldu. Bildirildi ki, zallar bütün lazımi idman avadanlıqları ilə təchiz olunmuşdur.*

*Medallar, qələbələr qazanmaq, idmanla məşğul olmaq üçün gözəl şərait yaradılıb.*

*Prezident İlham Əliyev üzgüçülük hovuzuna baxdı. Hovuzun uzunluğu 25, eni isə 12,5 metrdir. Burada xüsusi nəmalma qurğusu quraşdırılmışdır.*

*Prezident İlham Əliyev kompleksin mehmanxanası ilə də yaxından tanış oldu. Bildirildi ki, 15 otaqdan ibarət mehmanxana 32 yerlikdir. Burada həm idmançılar, həm də qonaqların istirahəti üçün hər cür şərait yaradılmışdır.*

*Açıq havada quraşdırılan idman qurğuları ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, burada inşa edilmiş futbol, basketbol və voleybol meydançalarında həm rayon, həm də respublika səviyyəli yarışlar keçirmək mümkündür.*

*Dövlətimizin başçısı görülən işlərdən razılığını bildirdi.*

## İMİŞLİ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Mayın 5-də Azərbaycan prezidenti İlham Əliyev İmişli Olimpiya İdman Kompleksinin açılışından sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*İctimaiyyətin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

**İ l h a m Ə l i y e v:** Əziz dostlar, mən Sizin hamınızı ürəkdən salamlayıram. İmişlidə olimpiya kompleksinin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, bu gözəl idman qurğusu İmişli idmançılarına gözəl xidmət göstərəcəkdir. Burada idmanla məşğul olmaq üçün bütün şərait var və deyə bilərəm ki, ölkəmizdə istifadəyə verilmiş olimpiya komplekslərinin arasında bu, ən gözəl komplekslərdən biridir. Böyük idman zalları, açıq meydançalar, qapalı idman zalları, üzgüçülük hovuzu, kiçik mehmanxana və s. var. Eyni zamanda, kompleksin çox gözəl xarici görünüşü də vardır. Mən çox şadam ki, İmişlidə də gözəl Olimpiya İdman Kompleksi tikilmişdir. Bu, Azərbaycanda son illər ərzində tikilmiş komplekslərin arasında, yenə də demək istəyirəm ki, öz gözəlliyi və funksional tərəfi ilə seçilən komplekslərdəndir. Sayca 31-cidir. Azərbaycanda qısa müddətdə 31 Olimpiya İdman Kompleksi tikilmişdir və bu proses davam edir. Hazırda 9 rayonda yeni komplekslər tikilir.

Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı üçün çox böyük addımlar atılır. İdmançılarımız da öz növbəsində bizi qələbələrlə sevindirirlər. Beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya oyunlarında idmançılarımız Azərbaycanı ləyaqətlə təmsil edirlər. Azərbaycanda beynəlxalq yarışların keçirilməsi artıq gözəl ənənəyə çevrilmişdir. Bu beynəlxalq yarışlar nəinki Bakıda, bölgələrdə də keçirilir.

Əgər vaxtilə bizim tərəfimizdən irəli sürülmüş təşəbbüs reallaşmasaydı, belə tədbirlərin keçirilməsi üçün şərait olmayacaqdı. Bu gün həm yerli idmançıların məşq prosesinin təşkili, həm də ölkədaxili və beynəlxalq yarışların keçirilməsi üçün bütün şərait vardır. Qarşıya məqsəd qoyulub ki, Azərbaycanın hər bir rayonunda idmanla məşğul olmaq üçün gözəl, müasir şərait yaradılsın.

İdmançılarımız bizi sevindirirlər. Bizim olimpiya, dünya və Avropa çempionlarımız vardır. İdmanın kütləviliyini təmin etmək üçün biz öz siyasətimizi aparırıq. Belə komplekslərdə uşaqlar, gənclər, yeniyetmələr məşq edəcəklər, öz peşəkarlıqlarını artıracaqlar, fiziki cəhətdən sağlam olacaqlar.

Bizə həm fiziki cəhətdən, həm mənəvi cəhətdən sağlam yeni nəsil lazımdır. Mən çox şadam ki, idman bölmələrinə axın güclənir, uşaqlar, gənclər, yeniyetmələr idmanla məşğul olmaq üçün bölmələrə gəlirlər, məşğul olurlar, fiziki sağlamlıqlarını möhkəmləndirirlər. Uşaqların, yeniyetmələrin, gənclərin idmana cəlb olunmasını biz beynəlxalq yarışlarda əldə edilmiş uğurlarda da görürük. Xüsusilə yeniyetmələrin I Olimpiya oyunlarında Azərbaycan gənclərinin əldə etdikləri uğurlar bizi hədsiz dərəcədə sevindirir. İlk dəfədir ki, beynəlxalq miqyasda yeniyetmələrin Olimpiya oyunları keçirilmişdir. Azərbaycan milli komandası bu yarışlarda dünya miqyasında 11-ci yerə layiq görülmüşdür. Bu, böyük qələbədir. Bu həm də onu göstərir ki, Azərbaycan, sözün əsl mənasında, idman dövlətidir. Onu da göstərir ki, burada idman prosesi çox düzgün təşkil edilib, gənclər, yeniyetmələr, uşaqlar idmanla məşğul olurlar və ölkəmizi beynəlxalq arenalarda ləyaqətlə təmsil edirlər.

Biz elə etməliyik ki, Azərbaycan gəncləri fiziki cəhətdən sağlam, mənəvi cəhətdən möhkəm, dövlətə, dövlətçiliyə sadiq olsunlar, vətənpərvərlik ruhunda tərbiyə alsınlar. Bildiyiniz kimi, Azərbaycanda çox güclü gənclər siyasəti aparılır. Bu yaxınlarda «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramı qəbul ediləcəkdir. Bu proqramda gənclərlə bağlı bütün məsələlər öz əksini tapacaqdır. Gənclərin məşğulluğu, sağlam yaşaması, iş yerlərinin açılması, idmanla məşğul olması üçün orada xüsusi məsələlər öz həllini tapacaqdır. Gənc alimlərin fəaliyyəti üçün əlavə tədbirlər görüləcəkdir. Gənclər fondu yaradılacaqdır. Bakıda və rayonlarda gənclər mərkəzləri tikiləcəkdir. Bütün bunlar proqramlarımızda var və biz elə etməliyik ki, Azərbaycanda idmanın inkişafı bundan sonra da

sürətlə getsin. Gənclər siyasəti də Azərbaycanda yüksək səviyyədə aparılır və aparılmalıdır.

Ölkəmiz müstəqil ölkə kimi gəncdir. Amma çox dinamik şəkildə inkişaf edir. Ölkəmizdə bütün istiqamətlər üzrə konkret proqramlar icra olunur və layihələr reallaşır. Bölgələrin inkişafı ilə bağlı Dövlət Proqramının ikinci hissəsi icra edilir. Bu proqram bütün bölgələri əhatə edir. Hər bir rayon üzrə xüsusi tədbirlər planı var və bu planlar icra edilir. O cümlədən, İmişli rayonunun sosial-iqtisadi inkişafı proqramı icra edilir. Burada bütün istiqamətlər üzrə işlər gedir, sosial infrastruktur yaradılır. Gözəl olimpiya mərkəzi, məktəblər tikilir və təmir edilir. Rayon xəstəxanasının əsaslı təmiri başlanmışdır. Xəstəxana ən müasir avadanlıqla təchiz ediləcəkdir. Böyük qazlaşdırma proqramı reallaşacaqdır. Gələn ilin sonuna qədər İmişlinin bütün kəndləri qazlaşdırılmalıdır. Qarşıya belə vəzifə qoyulub. Meliorasiya, içməli su, kanalizasiya xətlərinin çəkilişi ilə bağlı müvafiq göstərişlər verilmişdir və onlar yaxın zamanlarda icra edilməyə başlanacaqdır.

Digər sosialyönümlü təşəbbüslər irəli sürülür. İş yerlərinin açılması ilə bağlı konkret və çox dəqiq proqram icra edilir. Bu gün mən İmişli rayonunda bir neçə yeni müəssisənin açılışında iştirak etmişəm. Mən yeni müəssisənin təməl daşının qoyulmasında iştirak etmişəm. Bir neçə il əvvəl burada böyük şəkər zavodunun tikintisi, demək olar ki, Azərbaycanın qeyri-neft sektoruna qoyulan ən böyük sərmayələrindən biri idi. Böyük vəsait qoyulmuşdur və ən müasir tələblərə cavab verən zavod yaradılmışdır. İndi o zavodun ətrafında yeni zavodlar tikilir. İmişlidə yeni müasir emal sənayesi ilə bağlı təşəbbüslər irəli sürülür və həll olunur.

Bu zavodlarda minlərlə yeni iş yerləri açılmışdır. Gələcəkdə görüləcək tədbirlər nəticəsində bu zavodlar böyüyəcək, onların iş funksiyaları artacaq və beləliklə, yerli istehsalın artırılmasına nail olacağıq, idxaldan asılılığımızı azaldacağıq, yeni iş yerləri də açacağıq. Azərbaycanda bu proses aparılır və son 7 il ərzində ölkədə 900 mindən artıq yeni iş yeri açılmışdır ki, onların tam

əksəriyyəti daimi iş yerləridir. İşsizliklə bağlı olan bütün problemləri bilirik, onları həll edirik və edəcəyik.

Yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması, sənaye potensialımızın möhkəmlənməsi, qeyri-neft sektorunun inkişafı, regional inkişaf proqramının icrası – bütün bunlar bizim üçün əsas istiqamətlərdir və hər bir istiqamət üzrə konkret nəticələr vardır. Bu gün bu gözəl, möhtəşəm Olimpiya İdman Kompleksinin açılışı özlüyündə Azərbaycanın güclü dövlət olduğunu göstərir. Biz iqtisadiyyatı inkişaf etdirməklə sosial proqramların həllinə də nail olmuşuq. Sosial problemlərin həlli və imkansız təbəqənin yaşayış səviyyəsinin yaxşılaşdırılması məsələləri daim diqqət mərkəzindədir. Bildiyiniz kimi, əhalinin qaza, suya olan borcları silindi. Nə üçün? Ona görə ki, kimin ki, imkanı yoxdur, o borc yükünü onların çiyinlərindən götürək. Digər sosial proqramlar – ünvanlı sosial yardım icra edilir. İndi pensiyaların, minimum əməkhaqqının artırılması ilə bağlı konkret təkliflər verilmişdir.

Bir sözlə, Azərbaycanda güclü iqtisadi və sosial siyasət aparılır. Bu gün ölkəmiz öz resursları hesabına yaşayır və inkişaf edir. Bizdə olan inkişafın dünya miqyasında heç bir analoqu olmayıb. Çünki 7 il ərzində iqtisadiyyatımız 3 dəfə artıbdır, dünya təcrübəsində belə göstərici olmayıbdır. Yəni, inkişafımız dinamikdir, dayanıqlıdır və hərtərəflidir. Bununla bərabər, ölkədə hələ ki, problemlər vardır və bu problemlər öz həllini tapmaqdadır. Ölkəmizin, regionların inkişafı üçün əlavə tədbirlərin görülməsi nəzərdə tutulur. Elə etməliyik ki, Azərbaycanda yaşayan hər bir vətəndaş həm işlə təmin olunsun, həm də onun məvacibi tələblərinə uyğun olsun. Bizneslə məşğul olanlar üçün gözəl şərait yaradılır. Belə olmasaydı, bu gün özəl sektor inkişaf etməzdi. Özəl sektorun inkişafı üçün konkret tədbirlər görülür. Bu gün mən aqroservis bazasının fəaliyyəti ilə tanış oldum. Bir neçə il bundan əvvəl «Aqrolizinq» dövlət şirkətinin yaradılması ilə biz, demək olar ki, kənd təsərrüfatı texnikası ilə təminatı xeyli dərəcədə yaxşılaşdıra bilmişik. İndi qıtlıq yoxdur. Biz hər bir sahə üzrə fəal işləməliyik, məqsədyönlü siyasət aparmalıyıq. Bütün

cəmiyyət bu amal ətrafında birləşməlidir ki, müstəqilliyimizi daha da gücləndirək, iqtisadiyyatımızı möhkəmləndirək, insanların yaxşı yaşamasını təmin edək.

Bu gün isə açılan bu gözəl idman mərkəzi, əminəm ki, imişlililərə yaxşı xidmət göstərəcəkdir. Hesab edirəm ki, bu kompleksdən nəinki idmançılar, rayon sakinləri də istifadə etməlidirlər. İdmanla məşğul olmaq üçün bütün şərait vardır.

Mən sizi bir daha bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, bütün imişlililərə cansağlığı və xoşbəxtlik arzulayıram.

### Araz çayının yeni qolunun üzərində tikilmiş körpünün açılışı mərasimi

*Mayın 5-də Azərbaycan prezidenti İlham Əliyev İmişli rayonuna səfəri çərçivəsində Araz çayının yeni qolunun üzərində tikilmiş körpünün açılışı mərasimində iştirak etmişdir.*

*Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, körpünün tikintisinə ötən ilin oktyabrında başlanılmışdır. Bəhrəmtəpə–Biləsuvar avtomobil yolunun 4-cü kilometrliyində inşa edilən körpünün uzunluğu 230 metr, eni isə 12,5 metrdir. Körpünün istifadəyə verilməsi Bəhrəmtəpə–Biləsuvar istiqamətində avtomobillərin hərəkətini asanlaşdıracaqdır.*

*Prezident İlham Əliyevə Araz çayının yeni qolunun üzərində aparılan işlər barədə ətraflı məlumat verildi.*

*Sonra dövlətimizin başçısı körpünün açılışını bildirən lenti kəsdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞCABƏDİ RAYONUNA SƏFƏRİ

*6 may 2011-ci il*

*Mayın 6-da Azərbaycan prezidenti İlham Əliyev Ağcabədi rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Ağcabədi şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin yerləşdiyi ərazidə və rayonda görülmüş abadlıq-quruculuq işləri barədə məlumat verildi. Bildirildi ki, abidənin ətrafında yeni yaşıllıq zolağı salınmış, ağac və bəzək kolları əkilmiş, müasir işıqlandırma sistemi quraşdırılmışdır.*

## Heydər Əliyev adına Mədəniyyət və istirahət parkı ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev mayın 6-da Ağcabədiyə səfəri çərçivəsində rayonun mərkəzində salınmış Heydər Əliyev adına Mədəniyyət və istirahət parkı ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, ölkəmizdə aparılan abadlıq-quruculuq işləri əhalinin istirahətinin səmərəli təşkilinə öz töhfəsini verməkdədir. Əhalinin mənalı istirahətinin təşkilində, şəhər və rayonlarımızın simasının daha da gözəlləşməsində yeni parkların salınması mühüm rol oynayır.*

*Bildirildi ki, Ağcabədi şəhərində 2000-ci ildə istifadəyə verilən Heydər Əliyev adına parkın ümumi sahəsi 4 hektardır. 2008-ci ildə yenidən qurulan parkda ulu öndərin abidəsi ucaldılmışdır. Abidənin arxa hissəsində qranitdən Azərbaycanın xəritəsi işlənmişdir. Şəhərin ən gözəl guşəsinə çevrilən parkda həm uşaqlar, həm də böyüklərin rahatlığı üçün hər cür şərait yaradılmışdır. Parkın ərazisində müxtəlif əyləncə qurğuları quraşdırılmışdır. Bu istirahət məkanında çay evi də sakinlərin ixtiyarına verilmişdir. Mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün səhnə quraşdırılmışdır.*

*Məlumat verildi ki, milli ornamentlərdən geniş istifadə olunan park xüsusi memarlıq üslubunda yenidən qurulmuşdur. Giriş qapısı, parkətrafı yollar və mərkəzi yollar, mərkəzi meydan,*

*burada tikilmiş iki fəvvarə və müasir işıqlandırma sistemi parkın gözəlliyini daha da artırır. Parkda iki hektaradək ərazidə yaşıl örtük salınmış, həmişəyaşıl ağaclar əkilmiş, çəmənliklərdə xüsusi zövqlə çiçəklər əkilmişdir. Bütün bunlara görə Heydər Əliyev adına Mədəniyyət və istirahət parkı ağcabədililərin və rayonun qonaqlarının ən sevimli istirahət məkanına çevrilmişdir.*

*Parkda yaradılmış şəraiti yüksək qiymətləndirən dövlətimizin başçısı görülmüş işlərdən razılığını bildirdi.*

## Üzeyir Hacıbəyli adına Qarabağ Muğam Mərkəzinin fəaliyyəti ilə tanışlıq

*Mayın 6-da prezident İlham Əliyev Ağcabədi şəhərinin mərkəzində yerləşən Üzeyir Hacıbəyli adına Qarabağ Muğam Mərkəzinin fəaliyyəti ilə tanış olmuşdur.*

*Azərbaycan prezidentinə məlumat verildi ki, 1,7 hektar ərazisi olan parkda yerləşən Qarabağ Muğam Mərkəzi 2008-ci ilin sentyabrında inşa olunmuşdur. Ümumi sahəsi 830 kvadratmetr olan Mərkəzdə hər biri 155 yerlik qış və yay zalları fəaliyyət göstərir.*

*Dövlətimizin başçısı dahi bəstəkar Üzeyir Hacıbəylinin Mərkəzin binası önündə ucaldılmış büstünün önünə gül dəstəsi qoydu. Sonra prezident İlham Əliyev büstün ətrafında dahi bəstəkarın dünyaca məşhur «Arşın mal alan» və «O olmasın, bu olsun» əsərlərini təcəssüm etdirən epizodik lövhələrlə tanış oldu.*

*Dövlətimizin başçısı binanın foyesində ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyevanın xalqımızın milli mədəni dəyərləri içərisində özünəməxsus yeri olan muğamımızın inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşəyə baxdı.*

*Bildirildi ki, burada Azərbaycanın tanınmış muğam ustadlarının, Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil edilən*

*müxtəlif muğam müsabiqələrinin qaliblərinin şəkilləri də nümayiş olunur.*

*Azərbaycan prezidenti məktəbin tələbəsinin ifasında «Qarabağ şikəstəsi»ni dinlədi.*

*Qeyd edildi ki, Mərkəzin yay zalı ilin isti aylarında açıq konsertlərin təşkili üçün nəzərdə tutulmuşdur. Burada keçirilən tədbirlər böyük razılıqla qarşılanır və zəngin təəssürat doğurur. Təkcə son beş ayda Qarabağ Muğam Mərkəzində 42 tədbir keçirilmişdir. Bu isə muğamsevərlərin Mərkəzin fəaliyyətinə olan marağını ifadə edir.*

*Dövlətimizin başçısı Mərkəzdə yaradılmış şəraitdən razılığını bildirdi.*

## Əsaslı təmirdən sonra istifadəyə verilmiş Yaqub Məmmədov adına rayon Mədəniyyət evində görülmüş işlərlə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Ağcabədiyə səfəri çərçivəsində mayın 6-da şəhərin Heydər Əliyev prospektində yerləşən və əsaslı təmirdən sonra istifadəyə verilmiş Yaqub Məmmədov adına rayon Mədəniyyət evində görülmüş işlərlə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ötən əsrin 60-cı illərində inşa olunmuş rayon Mədəniyyət evi son vaxtlaradək əsaslı təmir olunmamışdır. Azərbaycan prezidentinin 2008-ci ilin yanvarında Ağcabədi rayonuna səfəri zamanı verdiyi tapşırıqlara müvafiq olaraq bu mədəniyyət ocağının əsaslı təmirinə başlanılmışdır.*

*Bildirildi ki, ətrafda yaşıllıqlar salınmış, dekorativ gül və ağac kolları əkilmiş, müasir işıqlandırma sistemi yaradılmışdır. 945 kvadratmetr sahəsi olan binanın fasadı tam yenilənmişdir. Mədəniyyət evinin foyesində ulu öndər Heydər Əliyevin mədəniyyətimizin inkişafı ilə bağlı fikirlərini əks etdirən yazılar əks olunmuşdur. Birinci mərtəbədə qonaq və qrim otaqları və 304 nəfərlik zal fəaliyyət göstərir. Zalda bütün texniki vəsaitlər və*

*elektrik sistemi alman texnologiyası ilə təchiz olunmuşdur. Zalın və səhnənin işıqlandırma sistemi müasirləşdirilmişdir. Binada xarici texnologiya əsasında havalandırma sistemi qurulmuş, səsləndirmə sistemi yüksək keyfiyyəti ilə seçilir. Binanın ikinci mərtəbəsində iş və texniki otaqlar yerləşir. Burada müxtəlif dərnəklər də fəaliyyət göstərir.*

*Dövlətimizin başçısı şəhərin incəsənət məktəbi şagirdlərinin ifasını dinlədi.*

*Azərbaycan prezidenti Mədəniyyət evində yaradılmış şəraiti yüksək qiymətləndirdi, tövsiyə və tapşırıqlarını verdi.*

## Şahmat məktəbinin yeni binasının açılışı mərasimi

*Mayın 6-da prezident İlham Əliyev Ağcabədi şəhərinin Üzeyir Hacıbəyli prospektində yeni inşa olunmuş Şahmat məktəbinin binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın açılışını bildirən lenti kəsdi və məktəblə yaxından tanış oldu.*

*Məlumat verildi ki, rayonda 1983-cü ildən fəaliyyət göstərən Uşaq Gənclər Şahmat Məktəbinin əvvəlki binası yararsız halda olduğundan ötən ilin iyunundan yeni binanın tikintisinə başlanılmışdır. Müasir üslubda inşa olunmuş bu tədris binası şahmat meydançasına bənzədilmişdir.*

*Prezident İlham Əliyev dərs otaqlarına baxdıqdan sonra binanın ikinci mərtəbəsində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin idmana, xüsusən də şahmata və şahmatçılara olan diqqət və qayğısını əks etdirən fotolardan ibarət stendlərə baxdı.*

*Oyun zalı ilə tanış olan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, ümumi sahəsi 148 kvadratmetr olan zalda eyni vaxtda 100-dək şahmatçı görüş keçirə bilər. Oyunların canlı izlənilməsi üçün zalda bir neçə kamera quraşdırılmışdır. Binanın girişində quraşdırılan monitor məktəbdə gedən yarışları canlı izləməyə imkan verir. Zalda müxtəlif şahmat fiqurlarından və kompozisiyalardan ibarət xüsusi guşələr də yaradılmışdır.*

*Bütün siniflər və yarış zalı şahmat taxtaları, saat və lazımi avadanlıqla təchiz olunmuşdur.*

*Sonra prezident İlham Əliyev burada yaradılan kompyuter otağına baxdı. Bildirildi ki, kompyuter otağı yüksək sürətli internetlə təmin edilmişdir ki, bu da dərslərin kompyuter vasitəsilə keçirilməsinə, ən son yenilikləri qısa zaman çərçivəsində öyrənməyə şərait yaradacaqdır.*

*Vurğulandı ki, Ağcabədi Şahmat Məktəbi bir sıra respublika səviyyəli yarışlara da ev sahibliyi etməyə hazırdır. Təsadüfi deyildir ki, Ağcabədi şahmatçıları son 3 il ərzində respublika şahmat turnirlərində 100-dək medal, diplom və kuboklara layiq görülmüşlər. 2008-ci ilin avqustunda Bakıda keçirilən Uşaq Gənclər Şahmat Məktəbi komandalarının Respublika birinciliyinin final mərhələsində iştirak edən Ağcabədinin qızlardan ibarət komandası uğurla çıxış edərək, üçüncü yerə layiq görülmüşdür. Fərdi yarışlarda isə Fərid Abdullayev, Əsmər Həsənova, Aysun Bədəlova medal qazanmışlar.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Şahmat məktəbinin yanında 100 min cildlik elektron kitabxananın tikilməsi üçün yer ayrılmışdır.*

*Prezident İlham Əliyev yaradılmış şəraiti yüksək qiymətləndirdi, görülmüş işlərdən razılığını bildirdi.*

## Mərkəzi Rayon Xəstəxanasının təməlqoyma mərasimi

*Mayın 6-da Azərbaycan prezidenti İlham Əliyev Ağcabədi şəhərinin Hüsü Hacıyev küçəsində inşa olunacaq 205 çarpayılıq Mərkəzi Rayon Xəstəxanasının təməlqoyma mərasimində iştirak etmişdir.*

*İnşaatçılar Azərbaycan prezidentini hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı yeni inşa olunacaq xəstəxananın Baş planının və layihələrin əks olunduğu stendə baxdı.*

*Səhiyyə naziri Oqtay Şirəliyev prezident İlham Əliyevə məlumat verdi ki, 4 hektar ərazidə tikiləcək xəstəxana kompleksi bir-birinə keçidi olan 4 böyük korpusdan və 3 əlavə yardımçı binadan ibarət olacaqdır. Ən müasir avadanlıqla təchiz ediləcək xəstəxananın zirzəmisində camaşırxana və mətbəx yerləşəcəkdir. Birinci mərtəbədə qəbul, ginekologiya və doğum şöbələri, uşaq poliklinikası, diaqnostika, laboratoriya, poliklinika, otolarinqologiya şöbələri fəaliyyət göstərəcəkdir. İkinci mərtəbədə observasiya şöbəsi, əməliyyat bloku, reanimasiya, intensiv terapiya, cərrahiyyə və uşaq terapiyası şöbələri yerləşəcəkdir. Üçüncü mərtəbədə isə fərdi doğum palataları, uşaq terapiyası, tibbi bərpa mərkəzi, kardiologiya və terapiya şöbələri xəstələrin ixtiyarına veriləcəkdir. Xəstəxananın dördüncü mərtəbəsində doğuş-əməliyyat bloku, terapiya otaqları və konfrans zalı olacaqdır. Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, burada ağcabədililərlə yanaşı, qonşu rayonların da əhalisinə yüksək səviyyəli xidmət göstərmək mümkün olacaqdır. Ən müasir avadanlıqlarla təchiz olunacaq xəstəxanada yüksək ixtisaslı tibbi kadrlar işləyəcəklər.*

*Sonra dövlətimizin başçısı metal gilizi bünövrəyə buraxdı və beton qarışığı tökən qurğunu işə saldı.*

*Prezident İlham Əliyev inşaatçılarla söhbət etdi, tövsiyə və tapşırıqlarını verdi.*

## Yeni süd emalı zavodunun açılışı mərasimi

*Mayın 6-da prezident İlham Əliyev Ağcabədi şəhərində yeni süd emalı zavodunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, son illərdə ölkəmizdə davamlı sosial-iqtisadi yüksəliş nəticəsində kənd təsərrüfatının inkişafı ölkənin bütün rayonlarını əhatə etməkdədir. Xüsusilə də heyvandarlığın inkişaf etdirilməsi onunla bağlı bir sıra sahələrin də artımına təkan vermişdir. Bu baxımdan süd və süd məhsullarının istehsalının artımı ilə bağlı olaraq, heyvandarlığın inkişaf etdiyi rayonlarda yeni müəssisələr açılır. Bu həm də dövlətimizin sahibkarlığın inkişafı ilə bağlı həyata keçirdiyi siyasətin prioritet istiqamətlərindən biridir.*

*Bildirildi ki, Ağcabədi Süd emalı zavodunun açılması bu rayonda sahibkarlığın inkişafına dəstək olmaqla yanaşı, ağartı məhsullarının yüksək keyfiyyətlə istehsalında növbəti uğurlu addımdır. Ümumi ərazisi iki hektar olan bu zavodun qapalı hissəsinin sahəsi 5 min kvadratmetrdir. Zavod beynəlxalq standartlara cavab verən avadanlıqla təchiz edilmişdir. Müəssisənin həyətində abadlıq və yaşıllaşdırma işləri aparılmışdır. Zavodun fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə ərazidə transformator qoyulmuşdur. Zavodda 12 adda müxtəlif ağartı məhsullarının istehsalı nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev zavodu işə saldı.*

*Qeyd edildi ki, sutkalıq emal gücü 20–50 ton olan zavoda süd Ağcabədinin müxtəlif kəndlərindən gətirilir. Bu məqsədlə ətraf kəndlərdə 5 südtoplama məntəqəsi təşkil edilmişdir. Məntəqələr soyuducu qurğularla təchiz edilmişdir. Zavodun satış şəbəkəsi, müasir tələblərə cavab verən laboratoriyası və digər xidməti bölmələri vardır. Zavodun istehsal sahəsində 50, südtoplama məntəqələrində 20, satış şəbəkəsində isə 30 nəfər işlə təmin edilmişdir.*

*Dövlətimizin başçısı zavodun istehsal bölməsində iş prosesini izlədi, zavodun məhsullarının nümayiş etdirildiyi stendlə tanış oldu.*

*Bildirildi ki, müəssisənin istehsal bölməsində geniş çeşiddə pendir, qatıq, dovğa, ayran, kəsmik, xama, kərə yağı və s. istehsal edilir. Holland pendirinin istehsalı avtomatlaşdırılmış qaydada həyata keçirilir. Bu məhsulların hər biri zavodda yaradılan ayrı-ayrı sexlərdə gigiyenik qaydalara uyğun olaraq hazırlanır. Hər bir məhsul laboratoriyalarda müvafiq yoxlamalardan keçir. Sexlərdə quraşdırılan havalandırma sistemi istehsal sahələrində normal temperaturun təmin edilməsinə imkan yaradır. Zavodda süd və süd məhsullarının tərkibinin müəyyənləşdirilməsi və keyfiyyətinin ölçülməsi məqsədilə müasir standartlara cavab verən iki laboratoriya fəaliyyət göstərir.*

*Zavodun fəaliyyəti ilə tanış olan dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verdi.*

## «Atena» süd məhsulları kombinatının açılışı mərasimi

*Mayın 6-da Ağcabədiyə səfəri çərçivəsində Azərbaycan prezidenti İlham Əliyev rayonun Ağabəyli kəndində tikilən «Atena» süd məhsulları kombinatının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, «Atropatena» şirkəti tərəfindən inşa olunan «Atena» süd məhsulları kombinatı Azərbaycanda sahibkarlığın kompleks şəkildə inkişafına göstərilən dövlət dəstəyinin bariz nümunəsidir. Ümumi ərazisi 22 hektar olan kombinatın tikinti hissəsinin sahəsi 1,2 hektardır. Müəssisənin ərazisi abadlaşdırılmış, yaşıllıqlar salınmış, müasir işıqlandırma sistemi quraşdırılmışdır. Kompleksdə ildə 7,6 min ton süd istehsalı və 90 min ton süd emalı nəzərdə tutulmuşdur. Hazırda kombinatda 100 nəfər işlə təmin edilmişdir.*

*Prezident İlham Əliyev kombinatı işə saldı.*

*Müəssisənin fəaliyyəti ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, kombinatda Avropanın ən müasir avadanlığı*

*quraşdırılmışdır. Kombinatda ilkin olaraq 42 çeşiddə süd məhsullarının istehsalı planlaşdırılır. Gələcəkdə bu rəqəmi 100-ə çatdırmaq nəzərdə tutulur.*

*Müəssisənin idarəetmə mərkəzi ilə tanışlıq zamanı bildirildi ki, kombinatda emal prosesi tam şəkildə kompyuterləşdirilmişdir və bütün proses vahid mərkəzdən idarə olunur. Mütəxəssislər emal prosesini kompyuter vasitəsilə kənardan izləyirlər.*

*Kombinatda süd, qatıq, kəsmik, pendir və digər məhsulların hər biri xüsusi şəraitdə hazırlanır və gigiyenik normalara uyğun şəkildə qablaşdırılır. Məhsulların qablaşdırılması üçün tələb olunan taralar kombinatda hazırlanır. Müəssisənin xammalla təmin edilməsi məqsədilə Ağcabədidə və ətraf rayonlarda 21 süd qəbulu məntəqəsi təşkil olunmuşdur. Bu isə regionda fəaliyyət göstərən fermerlərin və ailə təsərrüfatlarının inkişafına təkan verəcəkdir.*

*Laboratoriya ilə tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, kombinatda bütün emal prosesi yüksək keyfiyyətli laborator avadanlıqla yoxlamadan keçirilir. Bu proses bir neçə dəfə təkrar olunur.*

*Diqqətə çatdırıldı ki, «Atena» süd emalı və heyvandarlıq kompleksinin tikintisi üçün dövlət tərəfindən 5 milyon manat güzəştli kredit verilmişdir. Hazırda dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq müəssisənin xammalla təmin olunması məqsədilə heyvandarlıq kompleksinin yaradılması istiqamətində işlər aparılır. Bu layihənin icrası isə daha 115 nəfərin işlə təmin olunmasına şərait yaradacaqdır.*

*Dövlətimizin başçısı istehsal prosesinin son mərhələsini, məhsulların qablaşdırılması üçün tələb olunan taraların hazırlanması prosesini izlədi, soyuducu kamera ilə tanış oldu.*

## Ağcabədi–Qaradolaq–Kəbirli avtomobil yolunun 24,5 kilometrlik hissəsinin yenidənqurmadan sonra açılışı mərasimi

*Mayın 6-da prezident İlham Əliyev Ağcabədi rayonuna səfəri çərçivəsində Ağcabədi–Qaradolaq–Kəbirli avtomobil yolunun 24,5 kilometrlik hissəsinin yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yolun əvvəlki və hazırkı vəziyyətini əks etdirən fotostendə baxdı.*

*Prezident İlham Əliyev yolun üzərində yerləşən Qaradolaq, Yeni Qaradolaq, Aran, Kəbirli və Mehrablı kəndləri ərazisində təhsil, səhiyyə və mədəniyyət sahələri ilə bağlı görülən işləri əks etdirən fotostendlə də tanış oldu. Bildirildi ki, ümumilikdə 11 minədək əhalinin yaşadığı 5 kəndi birləşdirən yolun yenidən qurulması nəticəsində yaşayış məntəqələri ilə rayon mərkəzi arasında gediş-gəliş asanlaşmışdır. Uzun müddət istismara yararsız halda olan və bir sıra yaşayış məntəqəsini əhatə edən yolun bu hissəsi prezidentin ehtiyat fondundan ayrılmış vəsait hesabına Ağcabədi Rayon İcra Hakimiyyətinin sifarişi ilə yenidən qurulmuşdur.*

*Qeyd edildi ki, eni 6 metr olan dördüncü dərəcəli ikizolaqlı yolboyu həm avtomobillərin, həm də piyadaların sərbəst hərəkəti üçün lazımi şərait yaradılmış, istiqamətverici işarələr qoyulmuşdur. Müasir standartlara cavab verən yolun giriş hissəsində abadlıq işləri aparılmışdır. Magistral yoldan girişdə 1, kəndarası yollarda isə 2 müasir tipli dayanacaq quraşdırılmışdır. Yol kənarında 30 minədək ağac və gül kolu əkilmiş, yaşıllıq zolağı salınmışdır. Ümumilikdə yolboyu 6 körpü və ötürücü inşa edilmişdir ki, burada da 54 yolgöstəricisindən istifadə olunmuşdur. 2010-cu ilin noyabrından inşasına başlanılan yolun tikintisində 80 nəfərlik işçi qüvvəsindən və 40-dan artıq texnikadan istifadə olunmuşdur.*

*Prezident İlham Əliyev yolun açılışını bildirən lenti kəsdi və yeni yolda avtomobili idarə etdi.*

* * *

*Sonra dövlətimizin başçısı Qaradolaq kənd ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Kənd sakinləri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

**S a k i n:** Cənab Prezident, kəndimizə xoş gəlmisiniz! Camaatımız yol sarıdan əziyyət çəkirdi. İndi bizim rahat yolumuz vardır. Buna görə də biz Sizə minnətdarıq, təşəkkürümüzü bildiririk. Allah köməyiniz olsun. Siz Azərbaycanın bayrağını zirvələrə qaldırmısınız. Azərbaycanımızın bayrağı həmişə uca olsun. Kəndimizin camaatı adından Sizə minnətdarlığımızı bildiririk. Buraya gəlməklə bizi şərəfləndirmisiniz.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Yol həyat, inkişaf deməkdir. Bütün bölgələrdə kənd yolları çəkilir. Bu yol da gözəl yoldur. Bir neçə kəndi birləşdirir. Daha da çox işlər görəcəyik. Göstəriş vermişəm ki, bütün kəndlərə qaz xətləri çəkilsin. Ağcabədi rayonunda 100 faiz qazlaşdırma aparılmalıdır. İçməli su layihəsi, suvarma ilə bağlı bütün məsələlər həllini tapmalıdır. O ki qaldı kənd yollarına, gələcək mərhələlərdə biz kəndləri abadlaşdıracaq, yollar çəkəcəyik. Elə etməliyik ki, gediş-gəliş rahat olsun. Bu yol torpaq yolu olmuşdur. Heç vaxt bu yola asfalt vurulmamışdır. İndi görün gediş-gəliş üçün nə gözəl yoldur.

Ağcabədi rayonunda aparılan quruculuq-abadlıq işləri məni sevindirir. Çox şadam ki, burada işlər yaxşı gedir, böyük işlər görülür. Rayonlar, kəndlər abadlaşır, sosial məsələlər öz həllini tapır. Belə olan halda, əlbəttə ki, həm rayon inkişaf edəcək, həm də ölkəmiz qabağa gedəcək. Bu gün Ağcabədidə sosial, iqtisadi məsələlər öz həllini tapır. Böyük süd kompleksləri tikilir. Orada yüzlərlə yeni iş yerləri açılır. Məktəblər tikilir, xəstəxana tikiləcək, böyük xəstəxananın təməl daşı qoyulacaqdır. Parklar salınır, olimpiya kompleksləri tikilir, kənd yolları çəkilir – yəni bütün şərait yaradılmalıdır. Hər bir rayonda, xüsusilə Ağcabədi kimi böyük rayonda bütün bu işlər lazımi səviyyədə aparılmalıdır. Kənd

yollarının tikintisi isə bundan sonra da davam edəcəkdir. Biz çalışmalıyıq ki, bütün kəndləri belə gözəl yollarla birləşdirək. Sizə cansağlığı, uğurlar arzulayıram.

Qazlaşdırma bütün kəndlərdə gələn ilin sonuna qədər bitməlidir. O ki qaldı su layihəsinə, o da icra olunacaqdır. Bu məsələlər çox vacibdir – qaz, işıq, su, suvarma və yol. Xəstəxana tikiləcək, yəqin ki, bir ilə, il yarıma istifadəyə veriləcəkdir. Sosial obyektlərin, məktəblərin tikintisinə dair proqramımız, planlarımız vardır. Bu proqramı icra edəcəyik.

**S a k i n:** Mən kənd məktəbinin müəllimləri adından burada çıxış edirəm. Bu il bizim üçün təzə məktəb tikilib, artıq istifadəyə verilib. Bunun üçün Sizə təşəkkür edirik. Çox gözəl, çox layiqlidir. Biz müəllimlər də çalışacağıq ki, bütün biliyimizi Azərbaycanın gəncliyi yolunda sərf edək. Sizin göstərişinizlə «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramının hazırlanması ilə bağlı görülən işlər bizi sevindirir. Bunun üçün Sizə təşəkkür edirik. Biz Azərbaycan gəncləri, Azərbaycan müəllimləri, Azərbaycan xalqı Sizinlə fəxr edirik.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mən məktəbin şəklini gördüm, çox gözəl məktəbdir.

**S a k i n l ə r:** Çox sağ olun, təşəkkür edirik.

## QARABAĞ İQTİSADİ ZONASINDA KƏND TƏSƏRRÜFATI SAHƏSİNDƏ SAHİBKARLIĞIN İNKİŞAFI MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ *

*Ağcabədi*

*6 may 2011-ci il*

Bu gün Ağcabədi rayonunda yeni süd kombinatının açılışında iştirak edirik. Çox gözəl, böyük süd kompleksidir. Azərbaycanda son illər ərzində qeyri-neft sektorunda yaradılmış müəssisələrin sırasında bu kompleksin öz yeri vardır.

Mən çox şadam ki, Azərbaycanda özəl sektor inkişaf edir. Yerli sahibkarlar Azərbaycan iqtisadiyyatına sərmayə qoyurlar. O sahələrə ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafında mühüm rol oynayır. O sahələrə ki, harada biz hələ idxaldan asılıyıq. Ona görə, belə böyük və müasir komplekslərin yaradılması çox vacib məsələdir. Bu kompleks nəinki bölgədə, Cənubi Qafqazda, qonşu ölkələrdə tikilmiş komplekslərin arasında həm müasirliyi, həm də istehsal gücü ilə fərqlənir. Mən çox şadam ki, Azərbaycanda məhz müasir sənaye müəssisələri yaradılır. Bu müəssisələr bundan sonra uzun illər ərzində Azərbaycan iqtisadiyyatının inkişafına xidmət edəcəkdir.

---

* Азярбайъан президенти Илщам Ялийевин сядрлийи иля Гарабаь игтисади зонасында кянд тясяррцфаты сащясиндя сащибкарлыьын инкишафы мясяляляриня щяср олунмуш мцшавирядя Кянд Тясяррцфаты назири Исмят Абасов, Аэъабяди Район Иъра Щакимиййятинин башчысы Шащин Мяммядов вя Аьъабяди район Сцд комбинатынын тясисчиси Мцлщазил Балакишийев чыхыш етдиляр.

Bütövlükdə Ağcabədi rayonunda sənaye və sosial infrastrukturun yaradılması işində müsbət meyillər vardır. Burada həm sosial obyektlər tikilir – bu gün kənd yolunun açılışında iştirak etmişəm – həm də kənd təsərrüfatının inkişafı ilə bağlı vacib məsələlər öz həllini tapır. Bu gün yeni, müasir xəstəxana binasının təməl daşının qoyulmasında iştirak etmişəm. Bir sözlə, burada sosial-iqtisadi inkişaf templəri lazımi səviyyədədir. Dünən Sabirabad, Saatlı, İmişli rayonlarında vəziyyətlə tanış olmuşam. Hər bir bölgədə inkişaf vardır.

Azərbaycan iqtisadiyyatı hərtərəfli inkişaf edir. Biz iqtisadiyyatımızın şaxələndirilməsi işində müsbət nailiyyətlərə çatmışıq. Elə etməliyik ki, gələcək illərdə bu müsbət meyillər daha da güclənsin və ölkəmizdə müasir sənaye komplekslərinin sayı artsın.

Qeyri-neft sektorunun inkişafı üçün konkret proqramlar icra edilir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci mərhələsi başlanmışdır. İkinci Dövlət Proqramı 2013-cü ilə qədər başa çatmalıdır. Proqramın icrası nəticəsində ölkə qarşısında duran əsas sosial və iqtisadi məsələlər öz həllini tapacaqdır.

Son illərdə bir milyona qədər yeni iş yerləri açılmışdır. Ancaq hələ ki, işsizlik vardır. Belə gözəl komplekslərin yaradılması işsizliyin aradan qaldırılması üçün çox mühüm əhəmiyyətə malikdir. Bununla bərabər, yerli istehsalın artırılması, idxaldan asılılığımızın azaldılması, yoxsulluğun aşağı salınması məsələləri də öz həllini tapmaqdadır.

Biz növbəti illərdə kənd təsərrüfatının emal sahəsinin inkişafı ilə bağlı əlavə addımlar atacağıq. Kənd təsərrüfatının inkişafı üçün çox gözəl imkanlar vardır. Birinci növbədə dövlət siyasəti düzgün istiqamətdə aparılır, sahibkarlığın inkişafına dəstək verilir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə hər il böyük məbləğdə vəsait nəzərdə tutulur. Bu il sahibkarlara 125 milyon manat vəsait veriləcəkdir. Bu kompleksin yaradılmasında müəyyən dərəcədə dövlət imkanlarından istifadə olundu. Ancaq qeyd etməliyəm ki, investisiyaların mütləq əksəriyyəti

sahibkarlar tərəfindən qoyulmuşdur. Bu da çox müsbət haldır. Bu onu göstərir ki, sahibkarların Azərbaycanın iqtisadi inkişafına böyük inamı vardır.

Həm yerli sahibkarlar, həm xarici investorlar Azərbaycana maraq göstərirlər. Bu onun nəticəsidir ki, ölkəmizdə çox düzgün investisiya siyasəti aparılır. Son illərdə ancaq kənd təsərrüfatı sahəsinə 100 milyon dollarla ölçülən investisiyalar qoyulmuşdur. Azərbaycanda bütövlükdə investisiyaların həcmi 100 milyard dollara yaxındır. Bu investisiyaların, demək olar ki, əlli faizdən bir az çoxu daxili investisiyalardır.

Dövlət İnvestisiya Şirkəti bu istiqamətdə çox vacib funksiyalar icra edir, daha böyük infrastruktur və sənaye müəssisələrinin yaradılmasına maliyyə dəstəyi göstərir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə isə daha çox kənd təsərrüfatı, emal müəssisələri və regional əhəmiyyət daşıyan müəssisələrin yaradılmasına xidmət göstərilir.

Azərbaycanda ümumi iqtisadi inkişaf çox müsbətdir. Hətta böhranlı illərdə iqtisadiyyatımız artmışdır. Bu ilin investisiya proqramında çox vacib məsələlər həllini tapacaqdır. İnfrastruktur layihələri icra edilir. İndi ölkəmizdə genişmiqyaslı qazlaşdırma prosesi, kənd yollarının tikintisi uğurla gedir. Növbəti illərdə içməli su, kanalizasiya, suvarma, meliorasiya məsələlərinə daha çox diqqət göstərilməlidir. Bu yaxınlarda Bakının və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilmişdir. Bu proqramın icrası nəticəsində 2013-cü ilə qədər Bakıətrafı qəsəbələrdə bütün sosial və iqtisadi məsələlər öz həllini tapacaqdır.

Qeyd etdiyim kimi, regional inkişaf proqramı uğurla icra olunur. 2004-cü ildən bu proqram icra edilir və proqramın ikinci mərhələsi 2013-cü ildə başa çatacaqdır. Ondan sonra biz baxacağıq ki, əlavə hansı tədbirlər görülməlidir. Məqsəd qoyulmuşdur ki, 2004–2013-cü illərdə, yəni 10 il ərzində ölkə qarşısında duran əsas infrastruktur, sosial və iqtisadi məsələlər öz həllini tapsın. Biz bu məqsədə yaxınlaşırıq. Ötən 8 ilin təcrübəsi onu göstərir ki, istənilən istiqamətdə çox gözəl nəticələr vardır. İş yerləri açılır,

yoxsulluq azalır, sənaye müəssisələri yaradılır, infrastruktur layihələri icra edilir. Biz elektroenergetika sahəsinə çox böyük investisiyalar cəlb etmişik və bu gün nəinki özümüzü təmin edirik, hətta ixrac potensialımız yaranıbdır.

Çalışmalıyıq ki, emal müəssisələrinin fəaliyyəti də ixracyönümlü olsun. Düzdür, birinci mərhələdə biz daxili tələbatı daxili istehsal hesabına tam şəkildə təmin etməliyik. Bu çox vacib məsələdir. Əgər buna nail olsaq, bir neçə vacib məsələni həll etmiş olacağıq, o cümlədən işsizliklə bağlı məsələlər də daha tezliklə həllini tapacaqdır. Ancaq biz ondan sonrakı mərhələdə kənd təsərrüfatı məhsullarının və emal məhsullarının ixracı ilə bağlı yeni bazarlara çıxmalıyıq. Bunun üçün, əlbəttə ki, istehsal edilən məhsullar yüksək keyfiyyətə malik olmalıdır. Biz nəinki qonşu bazarlara ixrac imkanlarımızı, potensialımızı artırmalıyıq, Avropa bazarlarına da çıxmalıyıq. Avropa bazarlarına çıxmaq üçün, əlbəttə ki, yüksək keyfiyyətli məhsullar istehsal olunmalıdır. Belə müasir səviyyədə qurulmuş bu süd kombinatından əminəm ki, istənilən ölkəyə məhsul ixrac etmək mümkün olacaqdır.

Sahibkarlara bundan sonra da dövlət dəstəyi göstəriləcəkdir. Bu həm siyasi, həm iqtisadi, həm də maliyyə dəstəyidir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə gələn illərdə də lazımi səviyyədə vəsait nəzərdə tutulacaqdır. Azərbaycanda maliyyə problemləri artıq həllini tapır. Yalnız keçən il 15 milyard dollar səviyyəsində investisiya qoyulmuşdur. Bu il büdcəmizə düzəlişlər edilməlidir, dürüstləşmə aparılmalıdır. Bu dürüstləşmə infrastruktur layihələrini əhatə etməlidir, insanların sosial məsələlərinin həlli üçün orada vəsait nəzərdə tutulacaqdır. Maaşların, pensiyaların qaldırılması məsələləri öz həllini tapacaqdır.

Bir sözlə, dövlət ölkəmizin inkişafı üçün bütün tədbirləri görür. Sahibkarlar da ölkəmizin iqtisadiyyatına sərmayə qoymaqla həm öz imkanlarını genişləndirirlər, eyni zamanda, ölkəmizin inkişafına xidmət etmiş olurlar. Mən çox şadam ki, Azərbaycanda sahibkarların əksəriyyəti məsuliyyətli

insanlardır. Onlar sosial məsələlərin həlli ilə də məşğuldurlar. Kimin imkanı varsa, bu məsələyə daha da böyük diqqət göstərməlidir. Eyni zamanda, sahibkarlar rəqabət- qabiliyyətli məhsulların istehsalına daha da çox üstünlük verməlidirlər.

Mən «keyfiyyətli məhsullar istehsal olunmalıdır ki, Avropa bazarlarına çıxsın» – deyəndə, onu da qeyd etməliyəm ki, daxili bazara da ancaq və ancaq keyfiyyətli məhsullar lazımdır. İndi dövlət qurumları bu məsələ ilə bağlı çox fəal iş aparırlar. Bazarda keyfiyyətsiz məhsulların yığışdırılması prosesi gedir, monitorinq aparılır. Bu məsələyə çox böyük diqqət göstərilməlidir. Keyfiyyətsiz məhsullara qarşı ciddi mübarizə aparılmalıdır. Bu həm idxal mallarına, həm də Azərbaycanda istehsal olunan mallara aiddir. Keyfiyyət birinci dərəcəli məsələdir.

Mən hesab edirəm ki, bu siyasətimizin nəticəsində gələcək illərdə ölkəmizdə çox güclü sənaye, yəni emal sənayesi potensialı yaradılacaqdır. Artıq müxtəlif bölgələrdə yeni gözəl emal kompleksləri tikilir, o cümlədən süd kombinatları tikilməkdədir və bu proses davam etdiriləcəkdir.

Rəqabət artdıqca rəqabətlə bağlı məsələlər daha da qabarıq şəkildə özünü büruzə verəcəkdir. Elə etməliyik ki, ölkəmizdə sağlam rəqabəti təmin edək. Bu həm sahibkarlardan, həm də daha çox dövlət qurumlarından asılıdır. Çünki bəzi hallarda qeyri-sağlam rəqabət, inhisarçılıqla mübarizə işimizə çox böyük maneə törədir. İnhisarçılıq həm idxalda, həm də ki, yerli istehsalda özünü göstərir. Biz Novruz bayramı ərəfəsində bu vəziyyətlə üzləşmişdik, Azərbaycanda istehsal olunan ərzaq məhsullarının qiymətləri süni şəkildə qaldırılırdı. Ona görə çox ciddi tapşırıqlar verildi və nəzarət təşkil edildi ki, həm Azərbaycanda istehsal olunan məhsulların qiymətləri şişməsin, digər tərəfdən, məhsulların idxalında tam şəffaflıq təmin edilsin. Sağlam rəqabət biznes mühitinin yaxşılaşdırılması üçün ən vacib amillərdən biridir.

Bununla bərabər, Azərbaycanda rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi də öz müsbət nəticələrini

verməkdədir. Bu özünü sosial sahədə göstərir, dövlət qurumlarının fəaliyyəti daha da şəffaf olur, ictimai nəzarət güclənir. Biznes sektorunda da rüşvətxorluğa, əsassız tələblərə son qoyulmalıdır. Mən bu məsələ ilə bağlı bir neçə dəfə fikirlərimi bildirmişəm, müvafiq tapşırıqlar da vermişəm. Sahibkarlar da öz tərəfindən əsassız tələblərə qarşı mübarizə aparmalıdırlar, müqavimət göstərməlidirlər, hər bir xoşagəlməz hallarla üzləşəndə mütləq müvafiq dövlət qurumlarına məlumat verməlidirlər.

Bütün maliyyə sistemimizdə şəffaflığı təmin etməliyik, bunu edirik və bu sahədə böyük uğurlara nail ola bilmişik. Mən Azərbaycan Dövlət Neft Fondunu misal gətirə bilərəm. Dünya miqyasında fəaliyyət göstərən bütün oxşar fondların arasında ən şəffaf və ən gözəl idarə olunan Azərbaycan Dövlət Neft Fondudur. Təsadüfi deyildir ki, Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq təşkilatlar tərəfindən Neft fondunun fəaliyyəti yüksək qiymətləndirilir. Bu Dövlət Neft Fondunu biz yaratmışıq və biz idarə edirik. Bu onu göstərir ki, siyasi iradə, düzgün menecment və peşəkarlıq olan yerdə biz ən yüksək dünya standartlarına nail ola bilərik və belə olan halda bütün başqa sahələrdə də şəffaflıq, dürüstlük olmalıdır. Biznesə gəldikdə, bir də demək istəyirəm ki, sağlam rəqabət aparılmalıdır.

Bugünkü iclasda bölgənin rayonlarının icra hakimiyyəti başçıları da iştirak edirlər. Mən dəfələrlə onlara da öz sözümü demişəm. Onlar sahibkarlığa kömək göstərməlidirlər, maneçilik törətməməlidirlər. Dövlət tərəfindən sahibkarlara diqqət hər bir bölgədə, hər bir rayonda, hər bir kənddə göstərilməlidir. Deyə bilərəm ki, bu sahədə son illərdə çox müsbət dəyişikliklər vardır. Yerli icra orqanlarının əksəriyyəti dövlət siyasətini düzgün başa düşür və düzgün icra edir. Bilirsiniz ki, mən bölgələrdə tez-tez oluram, bütün bölgələri gəzirəm. İnsanlarla görüşürəm, soruşuram, məlumat mənbələrim vardır. Harada nəyin baş verməsindən də kifayət qədər xəbərim vardır. Ona görə deyə bilərəm ki, əksər hallarda yerli icra orqanları bu işlərdə özlərini yaxşı göstərirlər. Harada ki nöqsanlar, qüsurlar

var, bu məsələyə də biz lazımi diqqət göstəririk, lazımi ölçülər götürülüb və götürüləcəkdir.

* * *

*İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev güzəştli kreditlərlə bağlı görülən işlər barədə məlumat verdi.*

**Şirzad Abdullayev***:* Möhtərəm cənab Prezident, bu ilin əvvəlindən Sizin tapşırığınıza uyğun olaraq, Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 125 milyon manat güzəştli kreditin sahibkarlara çatdırılması nəzərdə tutulmuşdur. Artıq ötən dövr ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 500 sahibkara 37,2 milyon manat güzəştli kreditin verilməsi təmin olunmuşdur ki, bu verilmiş kreditlər hesabına 2016 yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur.

Bakı qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, son günlərdə Bakı qəsəbələrində mütəmadi olaraq sahibkarlığın inkişafına dəstək proqramı çərçivəsində tədbirlər həyata keçirilir. Həmin tədbirlər çərçivəsində artıq 40-a yaxın sahibkara 4,5 milyon manat güzəştli kreditin verilməsi təmin olunmuşdur ki, bu kreditlər hesabına 400-ə qədər yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur.

Ümumiyyətlə, ötən dövr ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 12 minə yaxın sahibkara 700 milyon manatdan çox güzəştli kreditin verilməsi təmin olunmuşdur və gələcəkdə də bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik.

**İlham Əliyev:** Kreditlərin qaytarılması necə? Vaxtında qaytarırlar?

**Şirzad Abdullayev:** Bəli, cənab Prezident. Artıq bu ildən verilən kreditlərin 73 faizi, yəni 91 milyon manatı geri qaytarılan vəsaitlər hesabına təmin olunur. Güzəştli kreditlərin geri qaytarılmasında hər hansı bir problemimiz yoxdur.

**İlham Əliyev:** Çalışın ki, qalan məbləği də bir neçə ay ərzində verəsiniz. Çünki 37 milyon manat verilib, haradasa 90 milyon manata yaxın məbləğ hələ verilməyib. Artıq ilin 4

ayı başa çatıbdır. Çalışın, heç olmasa, oktyabr ayına qədər bu kreditlərin hamısı verilsin. Sizdə bütün layihələr var, yoxsa hələ yoxdur?

**Ş i r z a d A b d u l l a y e v:** Bəli, bu gün 28 böyük layihə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə maliyyələşdirilibdir. Həmçinin 30-a yaxın layihəyə də artıq baxılıb, müsbət qərar verilib və hissə-hissə tranşlarla maliyyələşdirilməsi təmin olunur. Bu gün mövcud layihələr çərçivəsində 80 milyon manat vəsaitin yerləşdirilməsi, demək olar ki, təmin olunub.

**İ l h a m Ə l i y e v:** 37 milyon manat verilib, 80 milyon manat müəyyən olunub, qalan hissə o qədər də böyük deyil, onu da müəyyən edərsiniz. Bir də ki, bizdə vaxtilə limitlər qoyulmuşdu, indi də vardır. Düzdür, biz vaxtaşırı limitləri qaldırırıq. Bəlkə gələn ildən limitləri bir az da qaldıraq. Çünki misal üçün, belə böyük süd emalı kompleksi tikilib, vəsaitin böyük əksəriyyəti sahibkarlar tərəfindən verilibdir. Buraya 40 milyon manata qədər investisiya qoyulub. Fonddan isə 5 milyon manat kredit verilibdir.

**Ş i r z a d A b d u l l a y e v:** Cənab Prezident, ümumi layihəyə – süd emalı müəssisəsi və heyvandarlıq kompleksinə 5 milyon manat güzəştli kreditin verilməsi təmin olunubdur.

**İ l h a m Ə l i y e v:** Ona görə baxmaq lazımdır, bəlkə gələn ildən biz o limiti qaldıraq və kreditlərin həcmini də artıra bilərik. İndi 125 milyon manatın neçə faizi əvvəlcədən verilmiş kreditlərin qaytarılması hesabına təşkil olunub?

**Ş i r z a d A b d u l l a y e v:** 73 faizi, cənab Prezident. 27 faizi, – 34 milyon manatı dövlət büdcəsindən ayrılacaq, 91 milyon manatı və ya 73 faizi geri qaytarılan vəsaitlər hesabına formalaşacaqdır.

**İ l h a m Ə l i y e v:** Deməli, dövlət büdcəsinə qoyulan yükün həcmi azalır.

**Ş i r z a d A b d u l l a y e v:** Bəli, ilbəil azalır. Gələn il isə 120 milyon manata qədər vəsaitin geri qaytarılması gözlənilir.

**İ l h a m Ə l i y e v:** Onda biz gələn il də o fonda daha çox vəsait təşkil etməliyik. Bəlkə 150, 160, 170 milyon manat. Çünki görüləsi işlər çoxdur. Bu kreditlərin də verilməsi hesabına, qeyd etdiyim kimi, minlərlə iş yerləri açılır. Yəni bu həm inkişafımıza gözəl təkan verir, həm dövlət qayğısını göstərir, həm də şirkətləri stimullaşdırır ki, daha da böyük həvəslə vəsait qoysunlar. Biz növbəti illərdə kənd təsərrüfatının inkişafına müxtəlif mənbələrdən daha da böyük məbləğdə vəsait cəlb etməliyik. Əlbəttə ki, dövlət infrastruktur layihələri də hesablanmalıdır. Sahibkarın dediyi kimi, əgər elektrik enerjisi və təchizatı lazımi səviyyədə olmasaydı, yollar olmasaydı, heç kim bu qədər vəsait qoymazdı. Eyni zamanda, kreditlərin məbləğini artırmalıyıq və digər mənbələrdən vəsait təşkil edilməlidir ki, növbəti illərdə kənd təsərrüfatına daha da böyük investisiyalar qoyulsun.

## YEKUN NİTQİ

Kənd təsərrüfatı bizim üçün prioritet sahədir. Qeyd etdiyimiz kimi, biz kənd təsərrüfatının inkişafı hesabına həm işsizliyin aradan qaldırılmasına nail olacağıq, həm yerli istehsalın inkişafını təmin edəcəyik və həm də ölkə iqtisadiyyatı daha da dayanıqlı olacaqdır. Nəzərə alsaq ki, Azərbaycan əhalisinin təxminən 50 faizi kəndlərdə yaşayır, bu, böyük sosial məsələdir. Ona görə, növbəti illərdə, əlbəttə ki, dövlət investisiya proqramında bütün bu məsələlər nəzərdə tutulacaqdır. Növbəti illərdə kəndlərin inkişafına daha da böyük diqqət göstərilməlidir.

Böyük işlər görülübdür. İndi qazlaşdırma prosesi gedir. Elektrik enerjisi ilə təchizat, demək olar ki, öz həllini tapmışdır. Bütün rayonlarda, kəndlərdə qaz xətləri çəkilir. 2012-ci ilin sonuna qədər mənim tərəfimdən verilən tapşırığa uyğun olaraq, əksər kəndlərdə bütün qazlaşdırma işləri başa çatmalıdır. O ki qaldı Qarabağ zonasına, burada, hesab edirəm ki, 100 faiz qazlaşdırma təmin edilməlidir və bu istiqamətdə işlər gedir.

İçməli su və kanalizasiya problemləri ənənəvi olaraq bizi, necə deyərlər, həmişə incidir, üzür. Çünki kanalizasiya xətlərinin olmaması, içməli suyun lazımi səviyyədə verilməməsi xüsusilə kənd yerlərində ən ciddi problemdir. Bu məsələnin həlli üçün ölkə miqyasında konkret proqramlar icra edilir. Çalışacağıq ki, 2013-cü ilin sonuna qədər bu məsələ də tam şəkildə öz həllini tapsın. Düzdür, burada çox böyük investisiyalar nəzərdə tutulur və texniki çətinliklər vardır. Ancaq müvafiq tapşırıqlar verilib və yenə də deyirəm, çalışacağıq ki, regional proqramın icrası bu məsələləri ehtiva etsin. 2013-cü ilə qədər maksimum nə mümkündürsə etməliyik.

Kənd yollarının çəkilişi prosesi daha da sürətlə gedir. Dünən və bu gün 4 rayonda yeni kənd yollarının açılışlarını etdik və bu proses davam etdirilməlidir. Nəinki bu bölgədə, bütün rayonlarda. Əlavə vəsait ayrılır və kənd yollarının tikintisi həm sosial, həm iqtisadi cəhətdən çox vacib olan məsələlərdir. Bu məsələyə bu ilin büdcəsində əlavə vəsait nəzərdə tutulub və gələn ilin büdcəsində də mütləq kənd yollarının tikintisinə daha böyük diqqət göstərilməlidir.

Prezident Administrasiyasına göstəriş verilib, yerlərdən bütün təklifləri almısınız. O təkliflər mənə verilibdir. O təkliflər əsasında prezidentin ehtiyat fondundan bu yollara – Sabirabad, Saatlı, İmişli, Ağcabədi rayonlarında kənd yollarına vəsait ayrıldı. Bu ən vacib yollar idi. Misal üçün, Sabirabad rayonunda 68 kilometr, Ağcabədidə 24 kilometr, Saatlıda, İmişlidə 27 kilometr yollar böyük kəndləri birləşdirən yollardır. Ancaq belə təkliflər hər bir rayondan gəlir. Ona görə, onları həm bu ilin, həm də xüsusilə gələn ilin proqramına salaq ki, biz kənd yollarını maksimum dərəcədə bərpa edək. Özü də biz bu yolları yüksək səviyyədə tikirik. Vaxtilə yollar hamısı torpaq yollar olmuşdur. Heç asfalt vurulmamışdı. İndi gözəl asfalt yollardır. Bu da kəndlərin inkişafına çox böyük təkan verəcəkdir.

Keçən il subasmaya məruz qalmış kəndlərdə bərpa işləri gedir. Böyük işlər görülübdür. Ancaq görüləsi işlər hələ də çoxdur. Dünən Sabirabadın Qasımbəyli kəndində olarkən yeni

məktəbin açılışında iştirak etmişdim. Orada yeni evlər tikilib. Nəinki Sabirabadda, digər bölgələrdə işlərin böyük əksəriyyəti görülmüşdür. Ancaq gərək bütün kəndlərə diqqət göstərilsin. Qasımbəylidən qayıdarkən gördüm ki, qonşu kəndin sakinləri yolda durub məni gözləyirlər. Mən maşını saxladım, çıxıb soruşdum ki, nədir məsələ? Deyirlər ki, onların kəndində – Əsgərbəylidə işlər ləng gedir. Bir kənddə işlər sürətlə gedir, digər kənddə isə ləng gedir. Mənim proqramımda Qasımbəyli kəndi nəzərdə tutulmuşdu. Yəqin ona görə də orada işlər daha yaxşı gedir. Amma onun yanındakı Əsgərbəyli kəndinə getməsəydim bilməyəcəkdim ki, orada vəziyyət necədir. Ona görə belə məsələlərə də diqqət göstərilməlidir.

İşin həcmi çox böyükdür. Biz öz hesabımıza qısa vaxtda – bir neçə ay ərzində işlərin böyük əksəriyyətini görə bilmişik. Dövlət hesabına minlərlə ev, məktəb, sosial obyekt tikilib. 70 min hektar torpaq su altında qalmışdı. Bir neçə min ev tamamilə uçub dağılmışdı. Minlərlə ev qəzalı vəziyyətə düşmüşdü. İndi vaxt keçdikcə biz bu məsələyə yenidən baxmalıyıq. Vaxtilə qəzalı ev kimi qeydiyyata alınmayan evlər sonra qəzalı vəziyyətə düşdü. Yenidən təftiş aparılmalıdır və qış gələnə qədər əlavə tədbirlər görülməlidir ki, bu evlər bərpa olunsun, zərərçəkmiş bütün insanlar diqqət-qayğı görsünlər.

İnfrastruktur layihələrinin içində suvarma və meliorasiya məsələləri xüsusi məna daşıyır. Əgər biz kənd təsərrüfatımızı bundan sonra da inkişaf etdirmək istəyiriksə – biz bunu mütləq istəyirik – bu məsələlərə daha da böyük diqqət göstərilməlidir. İndi ölkəmizdə böyük layihələr icra edilir. O layihələrin icrası nəticəsində minlərlə, bəlkə də 10 minlərlə yeni torpaq sahələri suvarılacaqdır. Şəmkirçay, Taxtakörpü su anbarları tikilir, digər layihələr vardır. Kanallar tikilməlidir, Samur–Abşeron su kanalı tikilir. Yəni, bütün bu layihələr böyük investisiyalar tələb edir. Ora 100 milyonlarla manat investisiya qoyulur ki, kənd təsərrüfatının inkişafına təkan verilsin.

Yeni torpaq sahələrinin dövriyyəyə buraxılması nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalı artacaqdır. Bununla

bərabər, biz dəfələrlə bu barədə danışmışıq, kənd təsərrüfatının inkişafı intensiv xarakter daşımalıdır. Burada ən müasir texnologiyalar tətbiq olunmalıdır. Biz aqrar elmi bu işlərə cəlb etməliyik. Bu yaxınlarda Elmlər Akademiyasında keçirilən illik yığıncaqda da bu barədə fikir mübadiləsi aparıldı. Ondan sonra mənim sərəncamımla, Baş nazirin rəhbərliyi ilə xüsusi komissiya yaxın zamanlarda konkret təkliflər verəcəkdir. Aqrar elmin lazımi səviyyəyə qaldırılmasına böyük ehtiyac vardır.

İndi bizdə bir neçə aqraryönümlü institut fəaliyyət göstərir. O institutların fəaliyyəti daha da təsirli olmalıdır. Onların buraxdığı məhsul daha da keyfiyyətli olmalıdır və institutların işini təkmilləşdirmək üçün konkret təkliflər verilməlidir. Bu təkliflər nədən ibarət olacaq, onu siz müəyyən edəcəksiniz – təklif verəcəksiniz, baxacağıq. Biz doğrudan da aqrar elminə daha böyük diqqət göstərməliyik. Bu sahəyə kifayət qədər lazımi səviyyədə diqqət göstərilməmişdir. Ancaq indi vaxt çatıb və biz aqrar elmin inkişafı və mütərəqqi texnologiyaların Azərbaycana gətirilməsi sahəsində böyük dönüşə nail ola bilərik. Xüsusilə indi həm texnika, həm ən gözəl cins mal-qara alınır. Amma onların saxlanması, onlara şəraitin yaradılması, ətraf infrastruktur əgər lazımi səviyyədə olmasa, istədiyimiz nəticəni verməyəcəkdir. Ona görə bütün bu məsələlərə kompleks şəkildə baxılmalıdır. Xarici aqraryönümlü elmi-tədqiqat mərkəzləri ilə əlaqələr daha da ciddi olmalıdır. Biz bu işlərə xarici mütəxəssisləri də cəlb etməliyik. Çünki biz bilməliyik dünyada nələr baş verir, hansı inkişaf etmiş ölkələrdə bu məsələlər necə həll olunur?! Onların təcrübəsini tətbiq etməliyik, əlbəttə ki, daxili şəraitə də uyğunlaşdırmalıyıq.

Ona görə bu məsələlər – suvarma, meliorasiya və aqrar elmin inkişafı ilə bağlı məsələlər xüsusi məna daşıyır. Suvarma və meliorasiya məsələlərini biz dövlət investisiyaları hesabına həll edəcəyik. Buna böyük ehtiyac vardır. Əlavə təkliflər verilməlidir. Biz əkin sahələrinin həcmini artırmalıyıq. Dünən İmişli Şəkər zavodunda olarkən – bildiyiniz kimi, orada yeni müəssisələr fəaliyyətə başlayır – məsələ qaldırıldı ki, zavodun

fəaliyyətinin 12 faizi daxili istehsal hesabına təşkil olunur. Bu da müsbət haldır. Çünki zavod fəaliyyətə başlamazdan əvvəl, ümumiyyətlə, bizdə çuğundur çox az əkilirdi. İndi müxtəlif bölgələrdə, rayonlarda çuğundur istehsal olunur və emala gətirilir. Ancaq biz bilirik ki, başqa ölkələrdə şəkər zavodları öz işlərini daha çox yerli xammal üzərində qurur. Hesab edirəm ki, 12 faiz azdır. Ona görə 12 faizdən çox qalxmır ki, münbit torpaq azdır. Ona görə nəinki çuğundurla, bütün başqa sahələrlə bağlı suvarma işləri aparılmalıdır. İndi biz iri taxılçılıq fermer təsərrüfatlarını yaradacağıq. O yerlər də müəyyən edilib. Nə qədər müəyyən edilib?

**İ s m ə t  A b a s o v** *(Kənd Təsərrüfatı naziri)***:** İlkin mərhələdə 100 min hektar. Amma geniş proqramda 200 min hektar nəzərdə tutulubdur.

**İ l h a m  Ə l i y e v:** 200 min. Bu sahələr artıq müəyyən edilib?

**İ s m ə t  A b a s o v:** 100 min hektarı, bəli. Hazırda Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən torpaqların keyfiyyəti araşdırılır ki, həmin torpaqlarda nə işlər görülməlidir və yaxud da onların bugünkü vəziyyəti necədir, gələcəkdə orada hansı kənd təsərrüfatı bitkilərini əkmək mümkündür? Ondan sonra meliorativ işlərlə də məşğul olunacaq, sonra məhsul istehsalına başlanılacaqdır.

**İ l h a m  Ə l i y e v:** Amma 100 min və 200 min əlavə hektarın dövriyyəyə buraxılması əlavə vəsait tələb edəcəkdir. İndi əlavə texnika, gübrələr alınmalıdır. Hər şey hesablanmalıdır. Biz hazır olmalıyıq, məsələyə çox ciddi yanaşmalıyıq və kompleks tədbirlər görülməlidir ki, doğrudan da bu işin nəticəsi bizim maraqlarımıza uyğun olsun.

Bununla bərabər, kəndlərdə sosial infrastrukturun yaradılması işinə daha da böyük diqqət göstərilməlidir. İndi bütün rayonlarda müasir xəstəxanalar, idman qurğuları, mədəniyyət ocaqları, məktəblər tikilir. Bu proses geniş vüsət almışdır. Növbəti illərdə bu məsələyə daha da böyük diqqət göstərilməlidir. Qəzalı vəziyyətdə olan bütün məktəblər təmir olunmalıdır. Onların siyahısı vardır.

Təhsil Nazirliyinə, Prezident Administrasiyasına göstəriş verilmişdir. Yerli icra orqanları da siyahılar tərtib ediblər, göndəriblər. Dövlət investisiya proqramında həm bu il, həm gələn il bu məsələlər öz əksini tapacaqdır. O cümlədən Bakıda və Bakıətrafı qəsəbələrdə də qəzalı vəziyyətdə məktəblər, əfsuslar olsun ki, vardır. Məktəblərin təmiri 2013-cü ilin sonuna qədər başa çatmalıdır. Çalışmalıyıq ki, bütövlükdə məktəblərlə, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı məsələləri də regional proqramın başa çatması ilə əlaqələndirək və 2013-cü ilin sonuna qədər bu məsələ də öz həllini tapsın.

Həm bu bölgədə, həm digər bölgələrdə indi kifayət qədər taxıl anbarları tikilib. Əlavə taxıl anbarlarının tikintisinə sanki ehtiyac yoxdur. Siz bu məqsədlər üçün daha vəsait nəzərdə tutmursunuz, yoxsa yenə də ehtiyac vardır?

**Şirzad Abdullayev:** Əgər sahibkarların təşəbbüsü olacaqsa, cənab Prezident, bu layihənin maliyyələşdirilməsi məsələsinə baxılacaqdır. Amma bu gün respublikanın əsasən taxıl anbarları kompleksləri ilə təmin olunması mümkündür. Çünki bu gün respublikada bir milyon tona qədər tutumu olan, müasir tələblərə cavab verən taxıl anbarları kompleksləri artıq fəaliyyətdədir.

**İlham Əliyev:** Amma nəzərə alsaq ki, bizdə taxılın istehsalı artacaq, onda bəlkə də müəyyən mərhələdə yenə də tikmək lazım olacaqdır.

**İsmət Abasov:** Hazırda mövcud layihələr hesabına təxminən 267 min ton tutumu olan taxıl anbarları vardır. Bundan başqa, nəzərə alsaq ki, Fövqəladə Hallar Nazirliyi tərəfindən də bu tədbirlər həyata keçirilmişdir, mən düşünürəm ki, bu gün üçün hələlik kifayət edər. Amma gələcəkdə ehtiyac olarsa, yenidən bu məsələyə İqtisadi İnkişaf Nazirliyi ilə birlikdə baxmaq olar.

**İlham Əliyev:** Biz bu məsələni qısa müddət ərzində həll etdik. Konkret tapşırıqlar verildi, vəsait ayrıldı. İndi soyuducu anbarların tikintisi də davam edir. Orada da böyük işlər görülür. Ancaq hələ ki, işlər görülməlidir. Buna ehtiyac

vardır. Yəqin siz də investisiya proqramında bunu nəzərdə tutacaqsınız.

«Aqrolizinq»lə bağlı məsələlər öz həllini tapır. Bir neçə il bundan əvvəl biz «Aqrolizinq»i yaratdıq. Dünən «Aqroservis» bazasında olarkən yeni texnika ilə tanış oldum. Bir daha gördüm ki, əgər vaxtilə «Aqrolizinq»i yaratmasaydıq, ümumiyyətlə, indi kənd təsərrüfatı necə inkişaf edəcəkdi?!

**İ s m ə t  A b a s o v:** Cənab Prezident, rayonlarda «Aqroservis» filiallarının yaradılması Sizin təşəbbüsünüzlə oldu. Yəni o vaxt Siz dəstək verməsəydiniz, bu yaranmayacaqdı. Filiallar Sizin təklifiniz və razılığınızla yaradıldı. Yoxsa deyirdilər ki, bu texnikalar yalnız lizinqə verilsin. Amma nəzərə alsaq ki, kombayn mövsümdə bir ay yarım işləyir, fermerlərin böyük vəsait hesabına bu texnikanı almalarına lüzum yoxdur.

**İ l h a m  Ə l i y e v:** Vaxtilə «Aqrolizinq»i yaradanda da müxtəlif fikirlər var idi. Ancaq mən hesab edirəm və həyat bunu göstərdi ki, bu ən düzgün addım idi. İndi bəzi fikirlər var ki, «Aqroservis»lər sovet dövründən qalan mirasdır. Amma sovet dövründə də axı müsbət hallar, müsbət təşəbbüslər kifayət qədər idi. Məhz sovet dövründə Azərbaycanda 2 milyon ton üzüm, 1 milyon ton pambıq istehsal olunurdu. Bunlar Heydər Əliyevin fəaliyyətinin nəticəsi idi. O, hakimiyyətə gələndə Azərbaycanda pambıq istehsalı 150 min tonu keçmirdi.

**İ s m ə t  A b a s o v:** 150 min ton pambıq, 264 min ton üzüm istehsal olunurdu.

**İ l h a m  Ə l i y e v:** Bəli, pambıq istehsalı bir milyon tona, üzüm isə 2 milyon tona çatdı. Ona görə biz müsbət təcrübəni tətbiq etməliyik. Xüsusilə üzümçülüklə bağlı verdiyim tapşırıqlar indi icra olunur və olunmalıdır, biz geniş proqram qəbul etməliyik. Bilirəm ki, bu məsələ ilə bağlı da fikir ayrılığı vardır. Bəzi fikirlər var ki, biz o əkin sahələrini daha çox ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün, taxılçılıq üçün saxlayaq. Ərzaq təhlükəsizliyi məsələləri çox vacibdir və biz bu məsələlərə böyük diqqət göstəririk. Amma biz hamımız yaxşı bilirik ki, üzümçülüyün inkişafı hesabına XX əsrin 70-ci

illərində on minlərlə kəndli pul qazandı, ev tikdi, maşın aldı, güzəranını yaxşılaşdırdı. Ona görə üzümçülüyün inkişafına diqqət verilir və verilməlidir.

**İ s m ə t A b a s o v:** Üzümçülüyün inkişaf etdirilməsi, əlbəttə, Sizin dediyiniz kimi, həyata keçiriləcəkdir. Söylədiyiniz kimi, ərzaq təhlükəsizliyinin təmin edilməsinə, məhsuldarlığın artırılmasına daha çox diqqət yetirilməlidir. Biz mütəxəssislər düşünürük ki, suvarılan sahələri olan fermerlər yaxşı olardı ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə məşğul olsunlar.

**İ l h a m Ə l i y e v:** Yəni, taxılçılıqla.

**İ s m ə t A b a s o v:** Bəli, taxılçılıqla. Amma dəmyə şəraitində olan sahələrdə üzümçülüyü inkişaf etdirmək daha məqsədəuyğundur. Biz hesablamalar aparmışıq ki, Azərbaycanda təxminən 50 min hektar üzüm bağı olsa və hektardan 100 sentner məhsul götürülərsə, bu, 500 min ton deməkdir. Nəzərə alsaq ki, həmin məhsul öz bazarını tapıb satılmalıdır, ilkin mərhələdə 500 min ton Azərbaycan üçün kifayət edər.

**İ l h a m Ə l i y e v:** Bəli. Amma, əlbəttə ki, bu məsələlər kompleks şəkildə öz həllini tapmalıdır. Biz istehsalı artıra bilərik, ondan sonra emal müəssisələri və satış məsələləri gəlir. Satışla bağlı inanmıram ki, hər hansı bir problem ortaya çıxsın. Əvvəlki dövrdə ənənəvi bazarlarımız olubdur və o bazarlara çıxmaq üçün hesab edirəm ki, bizdə imkanlar vardır. Bu məsələyə kompleks şəkildə baxmalıyıq – istehsaldan satışa qədər. Gərək bu zənciri müəyyən edək və siz də bunun üzərində işləyin. Orada nə qədər dövlət vəsaiti olmalıdır. Dövlət vəsaitini illər üzrə bölün. Biz bilməliyik, texnika almaq, fermerləri stimullaşdırmaq üçün nə qədər vəsait lazımdır. Çünki bu sahə bir az unudulub.

**İ s m ə t A b a s o v:** Ötən il 130 min ton üzüm istehsal olunmuşdur. Cənab Prezident, nəzərə almaq lazımdır ki, ölkədə təkcə sənaye üçün üzümün istehsalı deyil, süfrə üzümünə çox böyük ehtiyac vardır. Süfrə üzümünün qeyri-mövsümdə də satılması üçün soyuducu kameralar tikilir. Bundan başqa, süfrə üzümünün emal edilərək kişmiş və digər formada satılması da iqtisadiyyatımıza müsbət təsir göstərər.

**İ l h a m   Ə l i y e v:** Mütləq buna da fikir verilməlidir. İndi bəzi hallarda süfrə üzümü Azərbaycana idxal edilir.

Bizim üstünlüyümüz ondadır ki, ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının hamısı təbiidir. Orqanik deyirlər bunlara. Yaxşı bilirsiniz ki, xaricdə orqanik, yəni təbii məhsullar daha da baha qiymətə satılır. Biz bu təbiiliyi saxlamalıyıq. Ona görə bu məsələyə çox ciddi diqqət verilməlidir. Bu həm iqtisadi inkişaf, həm də insanların, fermerlərin sosial məsələlərinin həlli baxımından çox vacibdir. Biz bu ənənəni bərpa etməliyik. Vaxtilə bizim üzüm bağlarımızı sovet hökuməti məhv edib. Azərbaycana, azərbaycanlılara qarşı qərəzli münasibət bunda da özünü göstəribdir. O vaxt digər respublikalarda da üzüm istehsal olunurdu – Ukraynada, Moldovada, Ermənistanda, Gürcüstanda. Orada nədənsə üzüm bağları məhv edilməmişdir. Amma mərkəzi hökumət və onların buradakı xidmətçiləri canfəşanlıqla bütün üzüm bağlarını məhv etdilər, insanları çörəksiz qoydular. Biz bu sahəni bərpa etməliyik.

Beləliklə, kənd təsərrüfatının inkişafı ilə bağlı bütün məsələlərə daha kompleks şəkildə baxılmalıdır, onlar həllini tapmalıdır. Biz bu məsələlərlə bağlı vaxtaşırı görüşürük. Sahibkarlarla görüşlərimdə də əsas diqqət kənd təsərrüfatının inkişafına yönəldilir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə əsas vəsait kənd təsərrüfatının emal sənayesinin inkişafına gedir. Bu sahə daim diqqət mərkəzindədir və bütün dövlət qurumları – Prezident Administrasiyası, Kənd Təsərrüfatı, İqtisadi İnkişaf nazirlikləri, fond, yerli icra orqanları öz işlərini əlaqəli şəkildə qurmalıdırlar ki, ölkəmizin bu istiqamətdəki siyasəti daha da təsirli və məqsədyönlü olsun.

Azərbaycanda kənd təsərrüfatının, sahibkarlığın inkişafı sahəsində böyük uğurlar, nəticələr vardır və bu gözəl süd kombinatı da bunun bariz nümunəsidir. Nəinki qonşuluqda, hətta Şərqi Avropada da buna bənzər gözəl kompleks yoxdur. Mən istəyirəm ki, belə gözəl komplekslərin sayı çox olsun.

Sizə uğurlar və yeni nailiyyətlər arzulayıram.

## ZƏRDAB RAYONUNDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*6 may 2011-ci il*

*Mayın 6-da Ağcabədiyə səfərini başa çatdıran Azərbaycan prezidenti İlham Əliyev Zərdab rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyev rayonun mərkəzində ümummilli liderin adını daşıyan parkda tikiləcək Heydər Əliyev Mərkəzinin eskiz layihəsinə baxdı.*

*Parkla tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, bu istirahət mərkəzi zərdablıların ən çox üz tutduqları məkandır. Bunu nəzərə alaraq, parkın müasirləşməsi və daha da gözəlləşməsi üçün son vaxtlar bir sıra yenidənqurma işləri aparılmış, elektrik dirəkləri təzələnmiş, əraziyə 5 min kvadratmetr mərmər piltə döşənmiş, geniş yaşıllaşdırma işləri aparılmışdır.*

*Prezident İlham Əliyev Heydər Əliyev Mərkəzinin tikintisi çərçivəsində hazırlıq işləri ilə də tanış oldu. Dövlətimizin başçısına məlumat verildi ki, ulu öndərin əziz xatirəsini əbədiləşdirmək və onun zəngin irsinin öyrənilməsi məqsədi ilə yaradılacaq Mərkəzin ümumi sahəsi 1000 kvadratmetrdən artıq olan ikimərtəbəli binasında ümummilli liderin titanik ictimai-siyasi fəaliyyətinin müxtəlif məqamlarını əks etdirən fotolar, kitablar və digər eksponatlar nümayiş olunacaqdır. Birinci mərtəbədə gənclərin müxtəlif sənət vərdişlərinə yiyələnməsi üçün rəsm, şahmat, kompyuter, xalçaçılıq və digər otaqlar yerləşəcəkdir. İkinci mərtəbə iclas zalı və kitabxanadan ibarət olacaqdır.*

## ZƏRDAB RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*6 may 2011-ci il*

*Mayın 6-da Azərbaycan prezidenti İlham Əliyev Zərdab rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Zərdablılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

**İ l h a m  Ə l i y e v**: Zərdab rayonunda işlər necə gedir?

**S a k i n:** Əla, yüksək səviyyədə.

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı.

**S a k i n:** Allah Sizə ömür versin! Biz Sizi ürəkdən sevirik. Həsən bəy Zərdabi yurdu həmişə Sizi dəstəkləmişdir. Siz ulu öndərin siyasətini uğurla davam etdirirsiniz. Bu möhtəşəm işlərə görə Sizə çox minnətdarıq. Rayonumuza təyin etdiyiniz başçı da bizə çox yaxşı baxır.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Mən çox şadam ki, burada işlər yaxşı gedir, böyük planlar vardır. Hər bir rayon üzrə konkret proqramlar var, təkliflər vardır. İndi yerlərdən gələn təkliflərə baxırıq. Hər bir rayon üzrə konkret proqram icra olunmalıdır. O cümlədən Zərdab rayonunda bütün işlər yüksək səviyyədə görülməlidir. Rayonların inkişafı, abadlıq, quruculuq işləri, yolların, su, qaz xətlərinin çəkilişi – bütün bu məsələlər çox vacibdir. Hər bir rayon üzrə konkret proqram icra olunur. Bilmək istəyirəm ki, hansı məsələlər öz həllini gözləyir, hansı məsələlərə daha da böyük diqqət göstərilməlidir? Harada biz daha da çevik siyasət aparmalıyıq?! Mənim bölgələrə səfərlərimin səbəbi bundan ibarətdir. Həm vəziyyətlə tanış olmaq, həm də sizdən eşitmək ki, əlavə hansı işlər görülməlidir?

**S a k i n:** Hörmətli cənab Prezident, bu gün rayonumuzun camaatı çox sevinir ki, Siz Zərdaba ikinci dəfə təşrif buyurmusunuz. Sizə «Xoş gəlmisiniz!» – deyirik.

*Rayondakı abadlıq, quruculuq işlərindən danışan müəllimə Vüsalə Kərimova bir çox sosial obyektlərin, xidmət müəssisələrinin, Qarabağ əlilləri üçün mənzillərin inşa edildiyini, yolların abadlaşdırılmasının geniş vüsət aldığını diqqətə çatdırdı. O, son illər rayonda yeni məktəblərin tikilməsinə, onların maddi-texniki bazasının güclənməsinə dövlət dəstəyi ilə yanaşı, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın da xidmətlərini xüsusi qeyd etdi.*

**İ l h a m Ə l i y e v:** Sizin rayonda qazlaşdırma ilə bağlı vəziyyət necədir?

**S a k i n:** Yaxşıdır. Bu işə kəndlərdə də başlayıblar.

**İ l h a m Ə l i y e v:** Bəs rayon mərkəzi necə, qazlaşdırılırmı?

**L ü t v ə l i B a b a y e v** (*Zərdab Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, rayonun mərkəzi tamamilə qazlaşdırılıb. Hazırda Sizin diqqət və qayğınız sayəsində Dövlət Proqramına uyğun olaraq 41 kənddə qazlaşdırma işlərinə başlanılıb və işlər sürətlə gedir. Bayaq qeyd olunduğu kimi, təbii fəlakətin rayonumuza vurduğu ziyanın nəticələri Sizin diqqət və qayğınız sayəsində tez bir zamanda aradan qaldırılıb. 60,6 kilometr uzunluğunda, 8 metr enində bənd işləri görülüb.

**İ l h a m Ə l i y e v:** Tikilib qurtarıb?

**L ü t v ə l i B a b a y e v:** Xeyr, Kürün Zərdab rayonu ərazisindən keçən 87 kilometrlik hissəsində hazırda 233 texnika, 300 canlı qüvvə bəndbərkitmə işləri ilə məşğuldur.

**İ l h a m Ə l i y e v:** İşlər sürətlə gedirmi?

**L ü t v ə l i B a b a y e v**: Bəli, sürətlə gedir. İnsanlarımız çox razıdırlar və bu gün əhval-ruhiyyə çox yüksək səviyyədədir.

**İ l h a m Ə l i y e v:** Bəs evlərin tikintisi necə gedir?

**L ü t v ə l i B a b a y e v:** Cənab Prezident, Sizin tapşırığınıza əsasən yaradılmış komissiya – Fövqəladə Hallar Nazir-

liyinin alt komissiyası üç dəfə bizim rayonumuzda olmuş, dəymiş ziyan yüksək diqqət və qayğınız sayəsində aradan qaldırılmışdır. Hazırda həmin ərazidə məktəb, bağça, tibb məntəqəsi binaları inşa olunur və işlər yüksək səviyyədə gedir. Bu ərazi Zərdabın ən yüksək yeridir. Su nə qədər daşsa da, təhlükə yoxdur.

**İ l h a m Ə l i y e v:** Heç bir təhlükə yoxdur?

**L ü t v ə l i B a b a y e v:** Xeyr, cənab Prezident, yoxdur. 2010-cu ildə Göyçay, Türyançay çayları da təhlükə törədirdi. Sizin tapşırığınıza əsasən görülən işlər sayəsində o təhlükə tamamilə aradan qaldırılmışdır. İndi sürətlə bəndbərkitmə işləri aparılır.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Elektrik enerjisi ilə təchizat sarıdan vəziyyət necədir? Qaydasındadırmı? Rayon üçün əlavə nə işlər görülməlidir? Hansı təklifləriniz, təşəbbüsləriniz var? Hansı məsələlər tezliklə öz həllini tapmalıdır?

**S a k i n:** Sizin tapşırığınıza əsasən hazırda rayonumuzda kanalizasiya və içməli su məsələləri həll olunur.

**İ l h a m Ə l i y e v:** Layihəyə başlayıblar?

**S a k i n:** Nümayəndələr gəliblər.

**İ l h a m Ə l i y e v:** Yaxın zamanlarda başlamalıdırlar.

**L ü t v ə l i B a b a y e v:** Möhtərəm Prezident, Sizin tapşırığınıza əsasən Dövlət Proqramında Zərdab rayonu ilə bağlı nəzərdə tutulmuş 13 maddənin 10-u artıq həyata keçirilmişdir. Biri idman kompleksinin tikintisidir.

**İ l h a m Ə l i y e v:** O layihə vardır.

**L ü t v ə l i B a b a y e v:** Bəli, vardır. Sizin tapşırığınızla Dövlət Proqramına daxil edilmiş bu məsələlər zərdablılar üçün çox vacibdir. Artıq o işlərə başlanılıb.

**İ l h a m Ə l i y e v:** Su və kanalizasiya xətlərinin çəkilişi tezliklə başlanmalıdır. Yəqin ki, ya bu il, ya gələn il başlanar və iki il ərzində bütün bu layihə başa çatmalıdır. Əfsuslar olsun ki, su və kanalizasiya xətlərinin çəkilişi bütün bölgələr üçün ənənəvi problem olaraq qalır. Artıq bu işlərə də təkan verilmişdir. Bəzi rayonlarda işlər başlayıb, bəzi rayonlarda

hazırlıq işləri gedir. Yaxın zamanlarda bu məsələ də öz həllini tapacaq. Qazlaşdırma, elektrik enerjisi ilə təchizat, su, kanalizasiya xətlərinin, kənd yollarının çəkilişi – bunlara da böyük ehtiyac var. Zərdab rayonunda da kənd yollarının əksəriyyəti torpaq yollarıdır. Onlara da asfalt vurulmalıdır. Konkret təkliflər verin. Bəzi rayonlarda müəyyən işlər görülüb, yollar çəkilib, burada da çəkilməlidir. Rayonda neçə kənd var?

**L ü t v ə l i B a b a y e v:** 41 kəndimiz var.

**İ l h a m Ə l i y e v:** Əhali nə qədərdir?

**L ü t v ə l i B a b a y e v:** Hazırda rayonumuzun 54 min əhalisi var. Sizin tapşırığınıza əsasən 41 kənddə 119 kilometr kəndarası yollar çəkilməlidir.

**İ l h a m Ə l i y e v:** Təkliflərinizi vermisiniz?

**L ü t v ə l i B a b a y e v**: Bəli, cənab Prezident, vermişik.

**S a k i n:** Mən idmançı olmuşam, birinci dərəcəli alpinistəm. Veteranlarımız da, gənclərimiz də Sizin siyasətinizi dəstəkləyirlər. Biz hamımız bir nəfər kimi, Sizin ətrafınızda birləşmişik. Sizin sadiq köməkçilərinizik.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən bir qədər əvvəl vəsait ayırdım ki, bayrama qədər hamıya çatsın. Pensiyaların da məsələsinə baxılır, yenə də baxılacaqdır.

Gənclər üçün də şərait yaradılıb, Dövlət Proqramı qəbul olunacaqdır. Hər yerdə gənclər mərkəzləri tikilməlidir. Gənclərimiz ölkəmizin inkişafı yolunda fəal işləməli və çalışmalıdırlar. Bütün insanlar bir məqsəd uğrunda çalışmalıdırlar ki, ölkəmizi daha da gücləndirək, inkişaf etdirək, müasir dövlət yaradaq. Buna nail olmaq üçün bütün rayonlarda işlər yaxşı, yüksək səviyyədə getməlidir.

**S a k i n:** Cənab Prezident, veteranlarımızın, gənclərimizin bir arzusu vardır: ancaq və ancaq Qarabağ məsələsi həll olunsun. Əminik ki, Sizin səyləriniz nəticəsində bu məsələ həllini tapacaqdır. Biz bunu səbirsizliklə gözləyirik.

## BEYNƏLXALQ CÜDO FEDERASİYASININ PREZİDENTİ MARİUS VİZERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə cüdoçuların Bakıda keçirilən Qran-Pri turnirinə ölkəmizin ev sahibliyi etməsindən məmnunluq ifadə olundu, Azərbaycan cüdoçularının bu turnirdə yaxşı nəticələr əldə etdikləri vurğulandı. Görüşdə, həmçinin ölkəmizdə idmana göstərilən yüksək dövlət qayğısından danışıldı, cüdoçuların Bakıda keçirilən Qran-Pri turnirinin önəmi qeyd edilərək, bu tədbirin idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

**İORDANİYA KRALI ƏLAHƏZRƏT**
**II ABDULLAH İBN ƏL-HÜSEYNƏ**

Əlahəzrət!

Əziz qardaşım!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–İordaniya dövlətlərarası münasibətlərinin, xalqlarımız və ölkələrimiz arasındakı dostluq əlaqələrinin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşdirilməsi yolunda səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, səadət, işlərinizdə uğurlar, qardaş İordaniya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 may 2011-ci il*

**ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ**

Hörmətli xanım Prezident!

Argentina Respublikasının milli bayramı – May inqilabının ildönümü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Argentina dövlətlərarası münasibətlərinin inkişafı dostluq və əməkdaşlıq əlaqələrimizin genişlənməsi üçün yeni imkanlar açacaqdır.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Argentina xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 may 2011-ci il*

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ**

Hörmətli cənab Prezident!

Əziz dostum!

Ölkənizin milli bayramı – Dövlət müstəqilliyinin bərpası günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Gürcüstanı dərin tarixi kökləri olan möhkəm dostluq və mehriban qonşuluq ənənələri birləşdirir. Bu gün həmin ənənələr yeni məzmunla zənginləşərək xalqlarımızın iradəsini bariz şəkildə əks etdirməkdədir.

Əminəm ki, dost ölkələrimiz arasında istər ikitərəfli qaydada, istərsə də regional təşkilatlar və layihələr çərçivəsində səmərəli əməkdaşlığın müvəffəqiyyətlə davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 may 2011-ci il*

## QEYDLƏR

**1. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21–22-də ) keçirilir. Qədim zamanlardan başlayaraq İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Respublikamız müstəqillik qazanandan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir.

2009-cu ildən Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT-nin Baş Məclisi martın 21-ni «Beynəlxalq Novruz günü» elan etmişdir. – 5,6–12,76, 113.

**2. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dil-

lərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5–12,40,53,66, 96,98,212,213–215,261–266,274,307,337.

**3. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı,

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 6,53,212,213,274,307,337.

**4. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilat. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 6, 13,76.

**5. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 9,10,52,86,109,110,124,140,161,165,166,194,195,196,204, 216,226,227,233,249,264,272,273,282,337,339.

**6. Əbülfəs Qarayev,** Ə b ü l f ə s  M ü r s ə l  o ğ l u (d.1956) – fəlsəfə doktoru. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmiş, mədəniyyət və turizm sahəsində xeyli təqdirəlayiq işlər görülmüşdür. – 13,262.

**7. Hacıbala Abutalıbov,** H a c ı b a l a  İ b r a h i m  o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktoru. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif edilmişdir. – 14,23,37,87,89,170,238

**8. Qazaxıstan,** Q a z a x ı s t a n  R e s p u b l i k a s ı– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 32,82.

**9. Nursultan Nazarbayev,** N u r s u l t a n  A b i ş  o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 32.

**10. Suriya,** Suriya Ərəb Respublikası – Yaxın Şərqdə dövlət. Sahəsi 185,2 min km$^2$, əhalisi 17,7 milyon nəfərdir. İnzibati ərazisi 10 mühafazaya (qubernatorluğa) və Dəməşq munisipalitetinə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dəməşq şəhəridir. – 33.

**11. Bəşşar əl-Əsəd** (d.1965) – 2000-ci ildən Suriya Ərəb Respublikasının Prezidentidir. – 33.

**12. XVI Benedikt** (d.1927) – 2005–2013-cü illərdə Roma Papası olmuşdur. – 35.

**13. Danimarka,** Danimarka Krallığı – Şimali Avropada dövlət. Sahəsi 43,1 min km$^2$, əhalisi 5,7 milyon nəfərdir. İnzibati ərazisi 14 amta bölünür. Danimarka konstitusiyalı monarxiyadır. Hökumət başçısı kraliça, qanunverici orqanı birpalatalı Folketinqdir. Paytaxtı Kopenhagen şəhəridir. – 36.

**14. II Marqrete** (d.1940) – 1972-ci ildən Danimarka Krallığının Kraliçası. Kral IX Frederikin qızıdır. – 36.

**15. Yunanıstan,** Yunanıstan Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 44–63,266.

**16. Karolos Papulyas** (d.1929) – yunan siyasətçisi, 2005–2015-ci illərdə Yunanıstan Respublikasının Prezidenti olmuşdur. – 44–63.

**17. Rövnəq Abdullayev,** R ö v n ə q İ b r a h i m o ğ-l u (d.1965) – mühəndis. 2003-cü ildən Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru, 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. – 48,143.

**18. Hüseynqulu Bağırov,** H ü s e y n q u l u S e y i d o ğ l u (d.1955) – iqtisadçı. 2000–2001-ci illərdə Azərbaycan Respublikası Ticarət naziri, 2001-ci ilin may ayından Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziridir. H.Bağırov bir sıra beynəlxalq akademiyaların və assosiasiyaların həqiqi üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. –.48.

**19. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 48,157.

**20. Avropa İttifaqı** (Aİ) – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox dövlətlər də daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyuta-

nın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir (Danimarka və Böyük Britaniya istisna olmaqla), vahid pul-kredit siyasəti aparılır. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 50,51,52,55,57,81,119,159,161,164, 177,271,273.

**21. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 52,124, 271,272.

**22. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı

H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 53,91,125,133–134, 143,150,163,164,172,173,212,213,218,220,274,278,287,295, 299,307,308, 322.

**23. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 55,73,109,110, 164,166,249, 269,271,272,273.

**24. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət

Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 55,64,70,73,75,109,164,249.

**25. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 55,164.

**26. Bizans, Şərqi Roma imperiyası, Bizans imperiyası** – Aralıq dənizi sahilyanı ərazilərində IV–XV əsrin ortalarında mövcud olmuş dövlət. Paytaxtı Konstantinopol şəhəri idi. Dünyanın ən böyük sivilizasiyalarından biri olan Bizans antik mədəniyyət ilə xristian dünyası, Şərqlə Qərb arasında əlaqələndirici kimi mühüm tarixi rol oynamışdır. – 56.

**27. Nizami Gəncəvi,** İlyas Yusif oğlu (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 56,125,127,128,232.

**28. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, Ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 57,167, 265,294.

**29. Valter Şvimmer** (d.1942) – Avstriyanın dövlət xadimi. 28 il Avstriya parlamentinin üzvü, 1999–2004-cü illərdə Avropa Şurasının Baş katibi, İctimai Forumunun Beynəlxalq Əlaqələr Komitəsinin sədri olmuşdur. – 64.

**30. Koişiro Matsuura** (d.1937) – 1999–2009-cu illərdə YUNESKO-nun Baş direktoru olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 76.

**31. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridır. – 77–86,124,234–235,294.

**32. Avropa parlamenti,** A v r o p a r l a m e n t – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Deputat mandatlarının ümumi sayı (2007) 785-dir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avroparlamentin bütün çağırışlarında başlıca mövqe Av-

ropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avroparlament məcburi xarakter daşımayan qərar verir. Avroparlament beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir, qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avroparlament Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 73,109,177.

**33. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur, 2012-ci ilin may ayından Rusiyanın Baş naziridir. – 85.

**34. Liviya,** L i v i y a Ə r ə b X a l q S o s i a l i s t C ə m a h i r i y y ə s i – Şimali Afrikada dövlət. Sahəsi 1.759,5 min $km^2$, əhalisi 6,5 milyon nəfərdir. Liviyanın rəhbər orqanı inqilabi rəhbərdir. Qanunverici orqanı Ümumi Xalq Konqresidir. Dövlətin funksiyasını Ali Xalq Komitəsi yerinə yetirir. Paytaxtı Tripoli şəhəridir. – 86,109,194.

**35. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 84,205,322.

**36. Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfi** – 1985-ci ildə İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildir. Qrup xarici ölkələrin

prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. – 99.

**37. Belarus,** Belarus Respublikası – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 101,275.

**38. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. – 101,275.

**39. İordaniya,** İordaniya Haşimilər Krallığı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 102,212,341.

**40. II Abdullah,** Abdullah bin Hüseyn (d.1962) – 1999-cu ildən İordaniya kralıdır. – 102,212, 341.

**41. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər

qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 109,161.

**42. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 109.

**43. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 111.

**44. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 km$^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 111.

**45. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada, Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 123.

**46. II Beatriks** (d.1938) – 1980–2013-cü illərdə Niderland Krallığının Kraliçası olmuşdur. – 123.

**47. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 325,6 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 124,151,216, 242,258.

**48. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min km$^2$, əhalisi 66,7 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 124,150.

**49. Elçin Quliyev,** E l ç i n İ s a ğ a o ğ l u (d.1967) – hüquqşünas, general-polkovnik. Bakı Dövlət Universitetini və Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini bitirmişdir. 2002-ci ildən Azərbaycan Respublikası Sərhəd Qoşunları Komandanıdır. «Azərbaycan bayrağı» ordeni ilə təltif edilmişdir. – 141,213.

**50. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 144.

**51. Düpon Ambruaz** (d.1937) – Fransanın siyasi xadimi, Senatın üzvü. – 150.

**52. Polşa,** P o l ş a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 152,194.

**53. Bronislav Komorovski** (d.1952) – Polşanın siyasi xadimi. 2010–2015-ci illərdə Polşa Respublikasının Prezidenti olmuşdur. – 152.

**54. Latviya,** L a t v i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 153.

**55. Valdis Zatlers** (d.1955) – 2007–2011-ci illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. Peşəsi həkim travmatoloq-ortopeddir. 2011-ci ildən Reforma Partiyasının lideridir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 153.

**56. Rumıniya,** R u m ı n i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 238,4 min km$^2$, əhalisi 19,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 154–166.

**57. Trayan Besesku** (d.1951) – Rumıniyanın siyasi və dövlət xadimi. 2004–2014-cü illərdə Rumıniya Respublikasının Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 154–166.

**58. İsmət Abasov,** İ s m ə t D u r s u n o ğ l u (d.1954) – iqtisadçı, iqtisad elmləri namizədi. 2008–2013-cü illərdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri olmuşdur. Hazırda Baş nazirin müavinidir. – 157,329.

**59. Oqtay Şirəliyev,** O q t a y K a z ı m o ğ l u (d.1950) – tibb elmləri doktoru, professor. 2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. – 157,310.

**60. GUAM –** Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997-ci il). 2005-ci ildə isə Özbəkistan qurumu tərk etdi. – 164.

**61. Corce Enesku** (1881–1955) – rumın bəstəkarı, skripkaçı, pianoçu, dirijor, pedaqoq, musiqi xadimi. Müasir rumın bəstəkarlıq məktəbinin banisi Eneskunun əsərləri rumın müsiqisinin klassik nümunələridir. – 164.

**62. Çexiya,** Ç e x i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. Paytaxtı Praqa şəhəridir. – 168,266.

**63. Mirek Topolanek** (d.1956) – 2006–2009-cu illərdə Çexiyanın Baş naziri olmuşdur. – 168.

**64. Litva,** L i t v a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,3 min km$^2$, əhalisi 2,8 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüs şəhəridir. – 169,268–274.

**65. Hacı Zeynalabdin Tağıyev** (1838–1924) – məşhur messenat, maarifpərvər. Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti»ni, toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı Ticarət Bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün toxuculuq fabriki, Mərdəkanda

sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin Azərbaycan dilinə tərcümələri çap etdirir. 1905–11-ci illərdə İran Məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» kəmərini çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 172,173.

**66. Ukrayna,** Ukrayna Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 175,243–257,333.

**67. Pasxa bayramı** – yəhudi və xristian bayramı. Pasxa əvvəllər yəhudilərin Misirdən «çıxıb getmələri» münasibətilə, sonra isə yəhudi xalqının xilaskarının zühurunu gözləməklə, xristianlıqda isə İsanın iztirabları, din yolunda fəda olunması, onun ölümü və yenidən dirilməsi ilə əlaqələndirilir. Əvvəllər yəhudi və xristian pasxaları eyni vaxta təsadüf edirdi. 325-ci ildə Ümumdünya xristian yığıncağı xristian pasxasını yəhudi pasxası qurtarandan bir həftə sonra qeyd etməyi qərara aldı. Bu tarix aprelin 4-dən mayın 8-dək olan dövrə təsadüf edir. – 176.

**68. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyası (DİA)** – 1999-cu ildə yaradılmışdır. Akademiyanın 3 fakültəsi (rəhbər kadrların

ixtisasartırması, inzibati idarəetmə, siyasi idarəetmə), 2 kafedrası var. Rəhbər kadrların ixtisasartırması fakültəsi 1, siyasi idarəetmə fakültəsi 2 ixtisas üzrə kadr hazırlayır. Tələbələr 5 ixtisas üzrə bakalavr, 2 ixtisas üzrə magistr təhsili alırlar. – 182,193.

**69. Helsinki Yekun Aktı** – 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 194.

**70. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası Hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 186,227.

**71. Mikrosoft** – müxtəlif hesablama texnikası – şəxsi kompyuterlər, oyun konsolları, KPK, mobil telefonlar, dünyada daha çox yayılmış platforma proqramları, Windows əməliyyat sistemləri istehsal edən ən böyük transmilli kompaniya 1975-ci ildə yaradılmışdır. Mikrosoftun texnikası 80-dən çox ölkəyə ixrac, proqramları isə 45 dilə tərcümə edilmişdir. Mənzil-qərargahı Redmond (ABŞ) şəhərindədir. – 201.

**72. Dünya İqtisadi forumu,** D a v o s İ q t i s a d i f o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Ümumdünya İqtisadi forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azər-

baycan nümayəndə heyəti ilk dəfə bu forumda iştirak etmişdir. – 201,209.

**73. Ceyhun Osmanov,** C e y h u n  Y u n i s  o ğ l u (d.1982) – politoloq. 2010-cu ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatı və parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. – 207.

**74. Fuad Muradov,** F u a d  R a u f  o ğ l u (d.1979) – mühəndis. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır.

Milli Məclisin İnsan hüquqları daimi komitəsinin üzvü, Avropa İttifaqı – Azərbaycan parlament əməkdaşlığı komitəsi sədrinin müavinidir. – 209.

**75. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 212,266.

**76. Şeyx Məhəmməd bin Rəşid əl-Məktum** (d.1949) – Birləşmiş Ərəb Əmirliklərinin Baş naziri və vitse-prezidenti, Dubay əmiri. 1971-ci ildən Ərəb Əmirliklərinin Müdafiə naziridir. – 212.

**77. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir.

2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 217–233.

**78. Mahmud Kərimov,** M a h m u d K ə r i m o ğ l u (1948–2013) – fizik, fizika-riyaziyyat elmləri doktoru, professor, akademik. 2001–2013-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 217.

**79. Mikayıl Hüseynov,** M i k a y ı l Ə l ə s g ə r o ğ- l u (1905–1992) – Azərbaycan memarı və memarlıq tarixçisi. Müasir Azərbaycan memarlığının banilərindən biri. Memarlıq doktoru, professor. Azərbaycan və SSRİ EA-nın həqiqi üzvü olmuşdur. M.Hüseynovun layihələri ilə Bakıda və respublikanın digər şəhərlərində, eləcə də Moskvada, Düşənbədə yaşayış, ictimai və mədəni-məişət binaları tikilmişdir. Bakıda M.F.Axundov adına Milli Kitabxana, EA şəhərciyi kompleksi, Bakı metropoliteninin «Nəriman Nərimanov», «Nizami», «Elmlər Akademiyası» stansiyaları M.Hüseynovun ən görkəmli əsərlərindəndir. M.Hüseynov Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı və Sosialist Əməyi Qəhrəmanı idi. – 218.

**80. Şamaxı Astrofizika Rəsədxanası,** N ə s i r ə d d i n T u s i a d ı n a Ş a m a x ı A s t r o f i z i k a R ə s ə d -x a n a s ı – Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunun «Astrofizika» sektoru bazasında 1960-cı ildə yaradılmışdır. Şamaxı Astrofizika Rəsədxanası dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşir. Bu rəsədxana çətin müşahidə edilən cənub göyünün öyrənilməsində dünyanın

bir çox rəsədxanası ilə müqayisədə müəyyən üstünlüklərə malikdir. Burada aydın gecələrin sayı 190–200-ə çatır. – 218.

**81. Azərbaycan Ədəbiyyatı Muzeyi,** Azərbaycan Respublikası MEA Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi – 1945-ci ildə Nizaminin həyat və yaradıcılığını əks etdirən muzey kimi, Bakıda yaradılmışdır. Muzeydə ən qədim zamanlardan müasir dövrədək Azərbaycan əbədiyyatının inkişaf yolu əks etdirilir. Muzeyin ekspozisiyasında 4 mindən çox əlyazması, nadir kitablar, yazıçıların xatirə əşyaları, portret, heykəl, illüstrasiya, miniatür, bədii işləmə və s. eksponatlar nümayiş etdirilir. Nizaminin «İsgəndərnamə» poemasının 1413-cü ildə, Füzulinin «Bəngü-Badə» əsərinin 1569-cu ildə köçürülmüş əlyazması nüsxələri ən qiymətli eksponatlardır. Muzeyin qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, 1919–20-ci illər Azərbaycan ədəbiyyatı ekspozisiyaları və elmi fondları, bədii tərtibat, elmi-kütləvi şöbələri var. Elmi fondlar şöbəsində 70 minə yaxın qiymətli əşya qorunub saxlanılır. – 218.

**82. Milli Azərbaycan Tarixi Muzeyi** – 1920-ci ildə yaradılmışdır. Muzeyin müxtəlif fondlarında Vətən tarixini yaşadan 300 minədək maddi-mədəniyyət nümunəsi qorunur. Muzeyin kitabxanasında 80 mindən artıq XIX–XX əsrlərin əvvəllərində nəşr olunmuş nadir kitab, jurnal və qəzet toplanmışdır. Muzeyin 10 otağında Azərbaycan xalqının görkəmli oğlu Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətinə həsr olunmuş materiallar qorunub saxlanılır. – 218.

**83. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1990-cı ildən erməni separatçıları tərəfindən işğal edilmişdir. – 227.

**84. İrəvan xanlığı** – XVIII əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyliyi ərazisində yaranmış müstəqil Azərbaycan feodal dövləti; Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsini və Araz çayından cənub-qərbə doğru uzanan ərazini əhatə edirdi. Azərbaycanın cənub-qərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla, inzibati cəhətdən 15 mahala bölünürdü, İrəvan xanlığı 1747–97-ci illərdə müstəqil dövlət olmuş, 1797–1828-ci illərdə İranın hakimiyyəti altında olmuşdur. Türkmənçay müqaviləsinə (1828) görə Rusiyanın tərkibinə keçmişdi. Bu zaman İrəvan xanlığı ərazisində 420-dən çox kənd dağıdılmış, 10 minlərlə azərbaycanlı əhali məhv edilmişdi. – 196,227.

**85. Mixail Şmakov** (d.1949) – 1993-cü ildən Rusiya Federasiyası Müstəqil Həmkarlar İttifaqının sədridir. – 234–235.

**86. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 78,4 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 236.

**87. *bp,*** «B r i t i ş h P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən

Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 237.

**88. Robert Dadli** (d.1955) – mühəndis. 2009-cu ildən *bp*-nin icraçı direktoru, 2010-cu ildən isə Baş direktorudur. – 232.

**89. Bill Şuster** (d.1961) – 2001-ci ildən ABŞ Konqresinin və Respublikaçılar Partiyasının üzvü. Konqresdə Azərbaycan üzrə işçi qrupunun həmsədridir. – 242.

**90. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min $km^2$, əhalisi 32,5 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 242.

**91. Çernobıl hadisələri** – 1986-cı ilin aprel ayında Çernobıl AES-in 4-cü enerji blokunda avariya baş verdi. Bunun nəticəsində Ukrayna ərazisinin xeyli hissəsi, həmçinin Belorusiya və Rusiya Federasiyasının Bryansk və Kaluqa əyalətləri də radioaktiv çirklənməyə məruz qaldı və nəticədə AES-in 30 km-lik radiusda yaşayan əhalisi bu zonadan köçürüldü. 1986-cı ilin noyabrında 4-cü blok ləğv edildi. – 253.

**92. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 258.

**93. Mərakeş,** M ə r a k e ş K r a l l ı ğ ı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km$^2$, əhalisi 34 milyon nəfərdir. İnzibati ərazisi 16 əyalətə bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr Palatasıdır. Paytaxtı Rabat şəhəridir. – 259.

**94. VI Məhəmməd,** b i n ə l - H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. VI Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alauitlər sülaləsindən 18-ci kraldır. – 259.

**95. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 64 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 260.

**96. II E l i z a b e t** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georgun ölümündən sonra taxt-taca sahib olmuşdur. – 26.

**97. «Duzdağ» –** fizioterapiya sanatoriyası. Babək rayonunun Böyükduz kəndi yaxınlığında qədim duz mədənləri bazası əsasında yaradılmışdır. 1979-cu ildə təşkil olunmuşdur. Bronxial astma və ağciyər bronx sisteminin digər qeyri-spesifik xəstəlikləri müalicə olunur. – 264.

**98. Küveyt,** Küveyt dövləti – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min km$^2$, əhalisi 3 milyondan çoxdur. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveyt şəhəridir. – 266, 277.

**99. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 266,334,342.

**100. Norveç,** Norveç Krallığı – Şimali Avropada dövlət. Sahəsi 385 min km$^2$, əhalisi 5 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı parlamentdir (Stortinq). Paytaxtı Oslo şəhəridir. – 267.

**101. V Harald** (d.1937) – 1991-ci ildən Norveç kralı. Kral V Ulafin oğlu. – 267.

**102. Dalya Qribauskayte** (d.1956) – Litva siyasətçisi. 2009-cu ildən Litva Respublikasının Prezidentidir. – 268–274.

**103. Bəhreyn,** Bəhreyn dövləti – Cənub-Qərbi Asiyada dövlət (əmirlik). Sahəsi 766 km$^2$, əhalisi 1,5 milyon nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Paytaxtı Manama şəhəridir. – 276.

**104. Şeyx Həməd bin İsa əl-Xəlifə** (d.1950) – 1999-cu ildən Bəhreynin əmiri, 2002-ci ildən isə özünü kral elan etmişdir. Kral Bəhreyndə bir sıra siyasi islahatlar aparmış, eyni zamanda, siyasi amnistiya və qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdir. – 276.

**105. Cabir əs-Sabah** (d.1929) – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 277.

**106. «Aqrolizinq»** – 2004-cü ildə təsis edilmişdir. Şirkət ölkənin Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxildir. Təşkilatın ölkənin 55 rayonunda xidmət məntəqələri vardır. – 293–294.

**107. Üzeyir bəy Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 306.

**108. Argentina,** A r g e n t i n a R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub-şərqində dövlət. Sahəsi 2780 min km$^2$, əhalisi 43,4 milyon nəfərdir. Argentina federasiyası tərkibinə 22 əyalət, 1 milli ərazi (Odlu Torpaq) və 1 Federal (paytaxt) mahal daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Buenos-Ayres şəhəridir. – 342.

**109. Kristina de Kirşner** (d.1953) – 2007–2015-ci illərdə Argentina Respublikasının Prezidenti olmuşdur. – 342.

## Şəxsi adlar göstəricisi

**Abasov İsmət** – 157,329
**Abbasov İlqar** – 21
**II Abdullah** – 102,212,341
**Abdullayev Fərid** – 310
**Abdullayev Rövnəq** – 48,143
**Abdullayev Şirzad** – 323
**Abışov Bəxtiyar** – 285
**Abutalıbov Hacıbala** – 14,23,37,87,69,170,238
**Axundzadə Məhəmməd** – 236
**Ariton İon** – 157
**Aslanova Könül** – 199
**Babayev Lütvəli** – 337
**Bağırov Hüseynqulu** – 48
**Bandurina Alyona** – 185
**Beatriks** – 123
**XVI Benedikt** – 35
**Besesku Trayan** – 154–166
**Bədəlova Aysun** – 309
**Bradtke Robert** – 124
**Ceylanoğlu Erdal** – 167
**Çavuşoğlu Mövlud** – 75
**Dadli Robert** – 237
**Daffi Şon** – 242
**Daşdəmirova Günay** – 193
**Daşdəmirova Əsmər** – 200

**De Kirşner Kristina** – 242
**Diamantidis İoannis** – 48
**Drutsas Dimitris** – 48
**Düpon Ambruaz** – 150
**II Elizabet** – 260
**Enesku Corce** – 164
**Əkbərov Orxan** – 203
**Əl-Əsəd Bəşşar** – 33
**Əl-Hüseyn Haya** – 212,213
**Əl-Xəlifə bint Həməd Muza** – 276
**Əl-Xəlifə Şeyx Həməd bin İsa**– 276
**Əl-Məktum Şeyx Məhəmməd** – 212
**Əl-Mulki Hani** – 102
**Əl-Sabah Şeyx Xalid** – 277
**Əl-Sabah əl-Cabir** – 277
**Əlizadə Solmaz** – 16
**Əzimov Lətifağa** – 16,18
**Əzizov Rüfət** – 188
**Fasye Bernar** – 124
**Fridman George** – 151
**Gəncəliyev Səfixan** – 15
**Gəncəvi Nizami** – 56,125,127,128,232
**Hacıbəyli Üzeyir** – 306
**V Harald** – 267
**Herodot** – 56
**Həsənov Əsmər** – 309
**Hüseynov Mikayıl** – 218
**İsmayılov Şahin** – 201
**İsgəndər (*Makedoniyalı)*** – 56
**Kaydanov Tine** – 216
**Karteron Jan** – 65
**Kərimov Mahir** – 21
**Kərimov Mahmud** – 217
**Kərimova Vüsalə** – 337

**Kərimov Tahir** – 147–149
**Kinzinger Adam** – 242
**Klyuyev Andrey** – 175
**Komorovski Bronislav** – 152
**Kostea Doru** – 157
**Qarayev Əbülfəs** – 13,262
**Qasımov Balakişi** – 192
**Qasibəyazov Gennadi** – 214
**Qribauskayte Dalya** – 268–274
**Quliyev Aydın** – 141
**Quliyev Mahir** – 135
**Quliyev Elçin** – 141,213
**Quliyev Mirzağa** – 20,21
**Lukaşenko Aleksandr** – 101,275
**Mak Petrik** – 214
**Maniatis İoannis** – 48
**II Marqre** – 36
**Matsuura Koişiro** – 76
**Medvedev Dmitri** – 85
**VI Məhəmməd** – 259
**Məmmədov Ziya** – 132,304
**Məmmədyarov Elmar** – 48,157
**Mirniese Linda** – 153
**Morfi Kristofer** – 242
**Muradov Fuad** – 209
**Musayev Hikmət** – 214
**Musayev Seyid** – 214
**Nazarbayev Nursultan** – 32
**Obama Barak** – 258
**Osmanov Ceyhun** – 207
**Palaytis Raymundas** – 169
**Pirverdiyev Etibar** – 144
**Papulyas Karolos** – 44–63
**Peres Şimon** – 34

**Popov İqor** – 124
**Rəhimov Azad** – 298
**Rəhimov Camal** – 214
**Riçmand Sedrik** – 242
**Runian Con** – 242
**Saakaşvili Mixeil** – 343
**Saxinis Harri** – 48
**Seyidzadə Şahin** – 197
**Səfərova Gülsel** – 206
**Şirəliyev Oqtay** – 157,310
**Şmakov Mixail** – 234–235
**Şvimmer Valter** – 64
**Şuster Bill** – 242
**Tağıyev Hacı Zeynalabdin** – 172,173
**Topolanek Mirek** – 168
**Vigenin Kristian** – 177
**Vizer Marius** – 340
**Yanukoviç Viktor** – 243–257
**Zatlers Valdis** – 153
**Zaytsev Vadim** – 275

## Coğrafi adlar göstəricisi


**Abşeron (*yarımada*)** – 265
**Ağcabədi** – 305–316,317–334
**Afina** – 47
**Almaniya** – 266
**Amerika Birləşmiş Ştatları** – 124,151,216,242,258
**Aran** – 314
**Araz çayı** – 304
**Argentina** – 342
**Asiya** – 200
**Astara** – 132,133–146
**Avropa** – 55,56,88,19,159,160,163, 200,201,202,206,221,230, 270, 273,312,321
**Badamdar** – 170–174
**Bala Həşimxanlı** – 284
**Baltik dənizi** – 271
**Bəhreyn** – 276
**Belarus** – 101,275
**Bərdə** – 294
**Biləcəri** – 89,90–95
**Binəqədi** – 87–89,90–98
**Birləşmiş Ərəb Əmirlikləri** – 212,266
**Bizans** – 56
**Böyük Britaniya** – 260
**Buxarest** – 164
**Bülbülə** – 19,87–89,241
**Cənubi Qafqaz** – 52,166,216,317
**Cəlilabad** – 294

**Çexiya** – 168,266
**Çernobıl** – 253
**Dağıstan** – 266
**Danimarka** – 36
**Daşkəsən** – 147,264
**Davos** – 201,209
**Dubay** – 212
**Əfqanıstan** – 242
**Əhmədli** – 23,24
**Ələt** – 37–43
**Əsgərbəyli** – 284,327
**Finlandiya** – 294
**Fransa** – 124,150
**Gəncə** – 264,294
**Göygöl** – 264
**Gürcüstan** – 266,334,342
**Hacıkənd** – 264
**Hindistan** – 266
**Xaçmaz** – 262,294
**Xankəndi** – 277
**Xəzər dənizi** – 81,82,160,221,222,229,236, 256,262,265,271
**Xocahəsən** – 98
**Xocalı** – 109
**İmişli** – 292,295–204,318
**İran** – 236
**İrəvan xanlığı** – 196,227
**İordaniya** – 102,212,341
**İsrail** – 34
**Kamboca** – 266
**Keşlə** – 27–31
**Kəbirli** – 314
**Kəlbəcər** – 111
**Kür çayı** – 94,148,283

**Kürdəmir** – 283
**Küveyt** – 266,277
**Qafqaz** – 52,37,62
**Qax** – 263
**Qara dəniz** – 160,165,271
**Qaradolaq** – 314
**Qasımbəyli** – 279–285,327
**Qazaxıstan** – 32,82
**Qəbələ** – 264
**Qətər** – 266
**Qobustan** – 37–43
**Quba** – 262
**Qusar** – 265
**Laçın** – 111
**Lahıc** – 263
**Laos** – 266
**Latviya** – 153
**Lerik** – 146,263
**Lənkəran** – 146,263
**Litva** – 169,268–274
**Litiya** – 86,109,194
**Macarıstan** – 266
**Maldiv (*adaları*)** – 266
**Masallı** – 125–132,146–263
**Maştaga** – 240
**Mavriki (*adaları)*** – 266
**Meksika** – 266
**Mərakeş** – 259
**Mərkəzi Avropa** – 52,89
**Midiya** – 56
**Minsk** – 101
**Misir** – 266
**Moldova** – 333
**Muradbəyli** – 284

**Musalı** – 291
**Mürsəlli** – 284
**Myanma** – 266
**Naxçıvan** – 264
**Naxçıvan MR** – 144
**Nərimanov** – 291
**Niderland** – 123
**Norveç** – 267
**Polşa** – 152,294
**Praqa** – 168
**Rumıniya** – 154–166
**Rusiya** – 77–86,124,234–235,294
**Saatlı** – 287–294,318
**Sabunçu** – 14–22,238–241
**Sabirabad** – 278–286,318,327
**Salyan** – 147–149
**Seyşel (*adaları*)** – 266
**Sərçuvar** – 132
**Səudiyyə Ərəbistanı** – 266
**Strasburq** – 204
**Sumqayıt** – 232
**Suraxanı** – 14–22,87–89
**Suriya** – 33
**Sulutəpə** – 95–98
**Şamaxı** – 231,232,264
**Şəki** – 264,294
**Şəmkir** – 294
**Şərqi Avropa** – 163,334
**Şimali Afrika** – 84
**Türkiyə** – 57,167,265,294
**Ulacalı** – 284
**Ukrayna** – 175,243–257,333
**Vyetnam** – 266
**Yaxın Şərq** – 84

**Yardımlı** – 146
**Yeni Qaradolaq** – 314
**Yuxarı Axtaçı** – 284,285
**Yuxarı Əmgərbəyli** – 286
**Yunanıstan** – 44–63,266
**Zabrat** – 16
**Zaqatala** – 263
**Zəngəzur** – 196,227
**Zərdab** – 335–339
**Zirə** – 266

# MÜNDƏRİCAT

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ
AZƏRBAYCAN XALQINA TƏBRİK

*18 mart 2011-ci il........................................................................5*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ
ŞƏNLİYİ

*19 mart 2011-ci il........................................................................6*

AZƏRBAYCAN XALÇASI VƏ XALQ TƏTBİQİ
SƏNƏTİ DÖVLƏT MUZEYİ ÜÇÜN İNŞA
EDİLMİŞ YENİ BİNADA TİKİNTİ İŞLƏRİNİN
GEDİŞİ İLƏ TANIŞLIQ

*30 mart 2011-ci il........................................................................13*

BAKININ ŞƏHƏRƏTRAFI QƏSƏBƏLƏRİNİN SOSİAL-
İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI SABUNÇU VƏ
SURAXANI RAYONLARINDA GÖRÜLMÜŞ İŞLƏRLƏ
TANIŞLIQ

*31 mart 2011-ci il........................................................................14*

BAKININ ŞƏHƏRƏTRAFI QƏSƏBƏLƏRİNİN SOSİAL-
İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI

XƏTAİ VƏ NİZAMİ RAYONLARINDA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*1 aprel 2011-ci il*......................................................................*23*

ƏHMƏDLİ QƏSƏBƏ SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*1 aprel 2011-ci il*......................................................................*24*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*4 aprel 2011-ci il*......................................................................*32*

SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BƏŞŞAR ƏL-ƏSƏDƏ

*4 aprel 2011-ci il*......................................................................*33*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞİMON PERESƏ

*4 aprel 2011-ci il*......................................................................*34*

ROMA PAPASI XVI BENEDİKT HƏZRƏTLƏRİNƏ

*4 aprel 2011-ci il*......................................................................*35*

DANİMARKA KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ

*4 aprel 2011-ci il*......................................................................*36*

BAKININ ŞƏHƏRƏTRAFI QƏSƏBƏLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI QARADAĞ RAYONUNUN QOBUSTAN VƏ ƏLƏT QƏSƏBƏLƏRİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*4 aprel 2011-ci il*..........................................................................*37*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ KAROLOS PAPULYASIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*5 aprel 2011-ci il*..........................................................................*44*

YUNANISTAN PREZİDENTİ KAROLOS PAPULYAS İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*5 aprel 2011-ci il*..........................................................................*45*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*5 aprel 2011-ci il*..........................................................................*46*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*5 aprel 2011-ci il*..........................................................................*48*

AZƏRBAYCAN VƏ YUNANISTAN PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*5 aprel 2011-ci il*..........................................................................*49*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*5 aprel 2011-ci il*..........................................................................*53*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*5 aprel 2011-ci il*..........................................................................*54*

IV AZƏRBAYCAN–YUNANISTAN BİZNES-FORUMU

*6 aprel 2011-ci il*..........................................................................*58*

AVROPA ŞURASININ SABİQ BAŞ KATİBİ,
DÜNYA İCTİMAİ FORUMUNUN BEYNƏLXALQ
ƏLAQƏLƏNDİRMƏ KOMİTƏSİNİN
SƏDRİ VALTER ŞVİMMER İLƏ GÖRÜŞ

*6 aprel 2011-ci il*..........................................................................*64*

KRANS MONTANA FORUMUNUN TƏSİSÇİSİ
VƏ PREZİDENTİ JAN POL KARTERON İLƏ GÖRÜŞ

*6 aprel 2011-ci il*..........................................................................*65*

ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ
FORUMUNDA İŞTİRAK EDƏN
XARİCİ ÖLKƏLƏRİN VƏ BEYNƏLXALQ
TƏŞKİLATLARIN YÜKSƏK SƏVİYYƏLİ
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*7 aprel 2011-ci il*..........................................................................*66*
ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ
FORUMUNUN AÇILIŞINDA NİTQ

*7 aprel 2011-ci il*..........................................................................*67*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ
SƏDRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*7 aprel 2011-ci il*..........................................................................*75*

YUNESKO-nun KEÇMİŞ BAŞ DİREKTORU KOİŞİRO
MATSUURA İLƏ GÖRÜŞ

*7 aprel 2011-ci il*..........................................................................*76*

ÜMUMRUSİYA DÖVLƏT TELERADİO VERİLİŞLƏRİ
YAYIM ŞİRKƏTİNİN
«ROSSİYA-24» – RUSİYA İNFORMASİYA
TELEKANALINA MÜSAHİBƏ

*8 aprel 2011-ci il*..........................................................................*77*

SURAXANI RAYONUNUN BÜLBÜLƏ, BİNƏQƏDİ
RAYONUNUN BİLƏCƏRİ QƏSƏBƏLƏRİNDƏ VƏ
SULUTƏPƏ YAŞAYIŞ SAHƏSİNDƏ GÖRÜL-
MÜŞ ABADLIQ VƏ QURUCULUQ İŞLƏRİ
İLƏ TANIŞLIQ

*11 aprel 2011-ci il*........................................................................*87*

BİLƏCƏRİ QƏSƏBƏ SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*11 aprel 2011-ci il*........................................................................*90*
XIV AVRASİYA İQTİSADİ ZİRVƏ TOPLANTISININ
İŞTİRAKÇILARINA

*11 aprel 2011-ci il.........................................................................99*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

*12 aprel 2011-ci il.......................................................................101*

İORDANİYANIN SƏNAYE VƏ TİCARƏT NAZİRİ,
AZƏRBAYCAN–İORDANİYA HÖKUMƏTLƏRARASI
BİRGƏ KOMİSSİYASININ HƏMSƏDRİ HANİ ƏL-
MULKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*12 aprel 2011-ci il.......................................................................102*

NAZİRLƏR KABİNETİNİN 2011-ci İLİN BİRİNCİ
RÜBÜNÜN SOSİAL-İQTİSADİ İNKİŞAFININ
YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA NİTQ

*12 aprel 2011-ci il.......................................................................103*

YEKUN NİTQİ

*12 aprel 2011-ci il.......................................................................112*

NİDERLAND KRALİÇASI ÜLYAHƏZRƏT BEATRİKSƏ

*14 aprel 2011-ci il.......................................................................123*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ
VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ
NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*14 aprel 2011-ci il.......................................................................124*

CƏNUB BÖLGƏSİNƏ SƏFƏR

*14 aprel 2011-ci il*..........................................................................*125*

MASALLI RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*14 aprel 2011-ci il*..........................................................................*128*

ASTARA ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR
ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*15 aprel 2011-ci il*..........................................................................*133*

ASTARA RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*15 aprel 2011-ci il*..........................................................................*136*

SALYAN ŞƏHƏRİNDƏ SAKİNLƏRLƏ
YOLÜSTÜ GÖRÜŞ

*15 aprel 2011-ci il*..........................................................................*147*

FRANSA SENATININ FRANSA–QAFQAZ DOSTLUQ
QRUPUNUN SƏDRİ, SENATOR AMBRUAZ DÜPONUN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 aprel 2011-ci il*..........................................................................*150*

STRATFOR ÖZƏL ELMİ KORPORASİYASININ
YARADICISI, İCRAÇI DİREKTORU VƏ BAŞ
ANALİTİKİ GEORGE FRİDMAN İLƏ GÖRÜŞ

*16 aprel 2011-ci il*........................................................................*151*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BRONİSLAV
KOMOROVSKİYƏ

*18 aprel 2011-ci il*........................................................................*152*

LATVİYA RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ
XANIM LİNDA MURNİESENİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*18 aprel 2011-ci il*........................................................................*153*

RUMINİYA PREZİDENTİ TRAYAN BESESKUNUN
AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*18 aprel 2011-ci il*........................................................................*154*

RUMINİYA PREZİDENTİ TRAYAN BESESKU İLƏ
TƏKBƏTƏK GÖRÜŞ

*18 aprel 2011-ci il*........................................................................*155*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*18 aprel 2011-ci il ........................................................................156*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*18 aprel 2011-ci il ........................................................................157*

AZƏRBAYCAN VƏ RUMINİYA PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*18 aprel 2011-ci il ........................................................................158*

ALİ ORDENLƏRLƏ TƏLTİF OLUNMA MƏRASİMİ

*18 aprel 2011-ci il ........................................................................162*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*18 aprel 2011-ci il ........................................................................163*

TÜRKİYƏNİN QURU QOŞUNLARI KOMANDANI ERDAL CEYLANOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 aprel 2011-ci il ........................................................................167*

ÇEXİYANIN KEÇMİŞ BAŞ NAZİRİ, «VAE CONTROLS» ŞİRKƏTİNİN DİREKTORLAR ŞURASININ SƏDRİ MİREK TOPOLANEK İLƏ GÖRÜŞ

*19 aprel 2011-ci il ........................................................................168*

LİTVANIN DAXİLİ İŞLƏR NAZİRİ RAYMUNDAS PALAYTİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 aprel 2011-ci il..................................................................169*

BAKININ KƏND VƏ QƏSƏBƏLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI SƏBAİL RAYONUNUN BADAMDAR QƏSƏBƏSİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*20 aprel 2011-ci il..................................................................170*

UKRAYNANIN BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ, İQTİSADİ İNKİŞAF VƏ TİCARƏT NAZİRİ ANDREY KLYUYEV İLƏ GÖRÜŞ

*21 aprel 2011-ci il..................................................................175*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*22 aprel 2011-ci il ..................................................................176*

AVRONEST ASSAMBLEYASININ PREZİDENTİ, AVROPA PARLAMENTİNİN ÜZVÜ KRİSTİAN VİGENİN İLƏ GÖRÜŞ

*22 aprel 2011-ci il..................................................................177*

MÜXTƏLİF SAHƏLƏRDƏ UĞURLAR QAZANMIŞ BİR QRUP GƏNC VƏ TƏLƏBƏ GƏNCLƏR

TƏŞKİLATLARININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*22 aprel 2011-ci il*......................................................................*178*

BEYNƏLXALQ ATÇILIQ FEDERASİYASININ PREZİDENTİ ÜLYAHƏZRƏTLƏRİ HAYA BİNT ƏL-HÜSEYN İLƏ GÖRÜŞ

*24 aprel 2011-ci il*......................................................................*212*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ ATÇILIQ TURNİRİNİN FİNAL YARIŞI

*24 aprel 2011-ci il*......................................................................*213*

ABŞ-ın DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ MÜŞAVİRİ TİNA KAYDANOV İLƏ GÖRÜŞ

*25 aprel 2011-ci il*......................................................................*215*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ İLLİK ÜMUMİ YIĞINCAĞI

*26 aprel 2011-ci il*......................................................................*217*

YEKUN NİTQİ

*26 aprel 2011-ci il*......................................................................*228*

RUSİYANIN MÜSTƏQİL HƏMKARLAR İTTİFAQLARI FEDERASİYASININ SƏDRİ, ÜMUMHƏMKARLAR İTTİFAQLARI BEYNƏLXALQ KONFEDERASİYASININ PREZİDENTİ MİXAİL ŞMAKOV İLƏ GÖRÜŞ

*26 aprel 2011-ci il* ....................................................................*234*

İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MƏHƏMMƏD MEHDİ AXUNDZADƏ İLƏ GÖRÜŞ

*26 aprel 2011-ci il* ....................................................................*236*

*bp* ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*27 aprel 2011-ci il* ....................................................................*237*

ŞƏHƏRƏTRAFI QƏSƏBƏLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI SABUNÇU QƏSƏBƏSİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*27 aprel 2011-ci il* ....................................................................*238*

ABŞ KONQRESİNDƏ AZƏRBAYCAN ÜZRƏ İŞÇİ QRUPUNUN HƏMSƏDRİ BİLL ŞUSTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 aprel 2011-ci il* ....................................................................*242*

UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*28 aprel 2011-ci il* ....................................................................*243*

UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*28 aprel 2011-ci il*......................................................................*244*

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏR ŞURASININ ÜÇÜNCÜ İCLASI

*28 aprel 2011-ci il*......................................................................*245*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*28 aprel 2011-ci il*......................................................................*247*

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*28 aprel 2011-ci il*......................................................................*248*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB BARAK OBAMAYA

*29 aprel 2011-ci il* ....................................................................*258*

MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

*29 aprel 2011-ci il*......................................................................*259*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

*29 aprel 2011-ci il*......................................................................*260*

BAKIDA KEÇİRİLƏN X AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR, II ÜMUMRESPUBLİKA DAXİLİ TURİZM SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*29 aprel 2011-ci il.......................................................................261*

NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

*2 may 2011-ci il...........................................................................267*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA QRİBAUSKAYTENİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*2 may 2011-ci il...........................................................................268*

LİTVA PREZİDENTİ DALYA QRİBAUSKAYTE İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*2 may 2011-ci il...........................................................................269*

AZƏRBAYCAN VƏ LİTVA PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*2 may 2011-ci il...........................................................................270*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*2 may 2011-ci il...........................................................................274*

BELARUSUN DÖVLƏT TƏHLÜKƏSİZLİK KOMİTƏSİNİN SƏDRİ VADİM ZAYTSEV

İLƏ GÖRÜŞ

*3 may 2011-ci il..........................................................................275*

BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

*5 may 2011-ci il..........................................................................276*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏL-SABAHA

*5 may 2011-ci il..........................................................................277*

SABİRABAD VƏ SAATLI RAYONLARINA SƏFƏR

*5 may 2011-ci il..........................................................................278*

SAATLI ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*5 may 2011-ci ..............................................................................287*

SAATLI RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*5 may 2011-ci il..........................................................................288*

İMİŞLİDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*5 may 2011-ci il..........................................................................295*

İMİŞLİ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*5 may 2011-ci il.....................................................................300*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞCABƏDİ RAYONUNA SƏFƏRİ

*6 may 2011-ci il.....................................................................305*

QARABAĞ İQTİSADİ ZONASINDA KƏND TƏSƏRRÜFATI SAHƏSİNDƏ SAHİBKARLIĞIN İNKİŞAFI MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*6 may 2011-ci il.....................................................................317*

YEKUN NİTQİ

*6 may 2011-ci il.....................................................................325*

ZƏRDAB RAYONUNDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*6 may 2011-ci il.....................................................................335*

ZƏRDAB RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*6 may 2011-ci il.....................................................................336*

BEYNƏLXALQ CÜDO FEDERASİYASININ PREZİDENTİ MARİUS VİZERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 may 2011-ci il*...........................................................................*340*

İORDANİYA KRALI ƏLAHƏZRƏT
II ABDULLAH İBN ƏL-HÜSEYNƏ

*9 may 2011-ci il*...........................................................................*341*

ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ
XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ

*9 may 2011-ci il*...........................................................................*342*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ

*9 may 2011-ci il* .........................................................................*343*

QEYDLƏR...................................................................................*344*

*Şəxsi adlar göstəricisi* ............................................................ *373*

*Coğrafi adlar göstəricisi* ......................................................... *377*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompyuter tərtibatı** *Məhəbbət* **Orucov**

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1. Şərti çap vərəqi
25,75. Uçot nəşr vərəqi 26,25. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61,
dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.